Ağarəhim Səmədov

# 100 BÖYÜK AZƏRBAYCANLI

- 21498 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – 2010

63.3(5Az)-8+92
Ə 99

***Redaktor:*** **Əsədulla Qurbanov**
*fəlsəfə elmləri doktoru, professor*

**Ağarəhim Səmədov.** 100 Böyük Azərbaycanlı.
– Bakı: Mütərcim, 2010. – 248 səh.

*Bu ensiklopedik nəşrdə Azərbaycanın yüz böyük görkəmli şəxsiyyətinin bioqrafiyası, siyasi və mədəni fəaliyyəti haqqında qısa məlumatlar toplanmışdır. Doğulduğu dövrdən və məkandan asılı olmayaraq, bu şəxsiyyətlərin hamısını bir amal və bir məslək birləşdirir – azərbaycançılığa və bütövlüklə Azərbaycana şərəflə xidmət etmək.*

*Kitabda siyasətçilərə, sərkərdələrə, hökmdarlara, ədiblərə, elm adamlarına, həkimlərə, hərbçilərə və digər peşə sahiblərinə yer ayrılmışdır. Keçmişimizi unutmamağı, babalarımızı və ulularımızı tanımağı, onların vətən və millət üçün etdikləri böyük xidmətlərini öyrənməyi hər birinizə də tövsiyə edirik.*

**ISBN 978-9952-28-047-0**

© A.Səmədov, 2010

## ÖN SÖZ

***Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.***

**Heydər Əliyev**

Azərbaycanın qədim tarixi və zəngin keçmişi vardır. Hazırda respublikamızda yaşı bir neçə min il olan Azıx mağarası, Qobustan, Qəbələ kimi çoxlu tarixi abidə, Naxçıvan, Bərdə, Gəncə kimi qədim şəhərlər vardır. Azərbaycan xalqı bəşər dünyasına Nəsirəddin Tusi, Nizami Gəncəvi, Memar Əcəmi, Füzuli kimi dahilər vermişdir. Onları təkcə ölkəmizdə deyil, bütün dünyada tanıyırlar. Xalqın azadlıq, müstəqillik uğrunda mübarizəsi isə tariximizin ən parlaq səhifələrini təşkil edir.

Əsrlər boyu yağı düşmən doğma yurdumuzun barlı-bəhrəli torpaqlarına, tükənməyən sərvətlərinə göz tikmiş, igid oğullarımız, qeyrətli qızlarımız tikan olub onların gözünə batmışdır. İgidlərimiz sinəsini Vətənə sipər edərək mənfur düşmənə meydan oxumuş, göz dağı çəkdirmişdir. Çox güclü hökmdarlar Azərbaycan iştahına düşərək bu torpağa hücum etmiş, lakin axırda qan içməkdən doymayan başlarını bu torpaqda qoymuşlar. Anamız Tomris bir qılınc zərbəsi ilə Keyxosrovun başını kəsəndə dünya heyran qaldı türk qadınının hünərinə, igidliyinə. Bəli, bu torpaq özünəlayiq oğullar, qızlar yetirib. Elə igidlər ki, əsrlər keçsə də, onların adı xalqımızın qan yaddaşında əbədi iz buraxmış, gələcək nəsillərə örnək kimi xatirələrdə qalmışdır. Bu gün öz keçmişi ilə – Cavanşiri, Tomrisi, Babəki, Xətaisi, Cavad xanı, Xiyabanisi, Heydər Əliyevi ilə və daha neçə-neçə igid oğlu, qızı ilə fəxr edir Azərbaycan.

Sultan Hüseyn Bayqara şöhrət günəşinin üfüqə enən çağında Şah İsmayıl Xətaiyə səmimi bir məktub yazır və könlünü almaq üçün ona rəqqasələr dəstəsi göndərir. Şah İsmayıl isə saray rəqqasələrinə baxıb başını bulayır və deyir: "Mənim eyş-işrətə vaxtım yoxdur. Mən vuruş adamıyam, gərək rahatlanmadan məmləkətim ətrafında at cövlan etdirəm".

Heç də təsadüfi deyil ki, Xətainin müasiri olan ümummilli liderimiz Heydər Əliyev demişdir: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm... Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini də yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm..." (15 iyun, 1993).

Bu sözləri xatırlayanda, insan qəlbindən həzin bir titrəyiş keçir. Belə ruha, belə məsləkə heyran qalmamaq olmur. Kövrəlirsən, qürurlanırsan, fəxr edirsən öz keçmişinlə və bu gününlə.

Ağlı, qələmi, siyasəti və qılıncı ilə yurda xeyirli və yararlı işlər görmüş hələ neçə-neçə "Böyük"lərimiz var. Onların içindən seçim edərkən "ən məşhur"larını kitaba salmaq məqsədini güdmədik. Hətta adı çox az çəkilmiş, ya da heç yada düşməyənləri də bu kitaba daxil etdik. Əsas məqsədimiz odur ki, yurdumuza, dövlətimizə, millətimizə xidmət etmiş bu nəhəng insanları gənclərimizə tanıtdıraq.

Azərbaycan tarixində yüzlərcə parlaq şəxsiyyət olmuşdur. Onların hər birinin həyatı, siyasi fəaliyyəti, yaradıcılıq yolu bugünkü nəslə örnək ola bilər. Elə bu kitabı da ərsə gətirməkdə məqsəd vətənimizin görkəmli şəxsiyyətləri barədə danışmaq, Azərbaycanın keçmişini bu tarixi şəxsiyyətlərin ömür karvanının prizmasından göstərməkdir.

Kitaba Azərbaycanın qədim keçmişindən ən yeni tarixədək keçdiyi uzun və çətin bir yolda izlərini qoymuş şəxsiyyətlər haqqında yığcam məlumatlar daxil edilmişdir. Elə insanlar haqqındaki tarixi hadisələrdə bilavasitə iştirak edib-etməmələrindən asılı olmayaraq əməlləri ilə onların gedişinə təsir göstərmişlər. Sultanlar və şahlar, üsyançılar və inqilabçılar; sərkərdələr və məmurlar; rəssamlar və alimlər; həkimlər və şairlər; bəstəkarlar və xeyriyyəçilər – bu insanların oxucu qarşısında canlandırılan taleləri Azərbaycanın tarixini əyani surətdə təsəvvür etməyə imkan verir.



Görkəmli şəxsiyyətləri bu kitabda ancaq müəyyən ölçüdə tanıtmağa çalışarkən xüsusi bir formanı nəzərə almadıq. Əsasən, ön planda, daha qabarıq şəkildə həyat və yaradıcılıqlarına önəm verdik. Gördükləri işlərin ən əsasına varmaqla kifayətləndik. Sıra düzülüşünə gəldikdə isə, xalqımızın xilaskarı, Müstəqil Azərbaycanımızın qurucusu və Ümummilli liderimiz Heydər Əliyevlə əsəri başlamalı olduq.

Azərbaycanın görkəmli şəxsiyyətləri, təkcə bu kitaba daxil olanlardan ibarət deyildir. Biz onların içərisindən yalnız və yalnız yüz nəfərindən söhbət açа bildik. Lakin yaza bilmədiyimiz yüzlərlə böyüklərimizin ruhları qarşısında baş əyirik və onların sevgilərini qəlbimizdə yaşadırıq.

Bu böyük Azərbaycanlıların içərisində elələri var ki, onların haqqında bir neçə yüz səhifəlik əsərlər yazılmışdır. Minlərcə səhifəyə sığmayan bu şəxsiyyətlərin bir neçə səhifədə az da olsa tanıtmağa nail olduqsa, özümüzü xoşbəxt saya bilərik.

İnanmaq istərdik ki, yazılarımız, azacıq da olsa, gənc nəsildə Azərbaycanın tarixi şəxsiyyətləri haqqında müəyyən təsəvvür yaradacaqdır. Yalnız öz keçmişini bilən, onunla fəxr edən insanlar respublikamızda aparılan quruculuq işlərini milli zəmində müvəffəqiyyətlə başa vurmağa qadirdirlər. Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Tariximizin hər bir səhifəsi bizim üçü əzizdir".

***Ağarəhim Səmədov***



## HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV

**(10.05.1923 –12.12.2003)**

Tarixdə şəxsiyyətlərin rolu və onların dövlətin inkişafına verdiyi əvəzedilməz töhfələr danılmazdır. Bu gün dünyada demokratik nailiyyətlərə sadiqlik baxımından özünü təsdiq etmiş şəxsiyyətlər hörmətlə anılır və onların dövlət quruculuğu işindəki müstəsna xidmətləri hamı tərəfindən birmənalı qəbul olunur. Bu mənada Azərbaycanın otuz ildən artıq bir dövrü və bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatında dirçəliş tarixi şəxsiyyət, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. O, öz siyasi zəkası və uzaqgörənliyi sayəsində Azərbaycanı gələcəyə aparan yolları müəyyən etmiş, məhz bunun nəticəsində müstəqil Azərbaycan dövləti regionun ən güclü dövlətlərindən birinə çevrilmişdir.

Dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi, Ümummilli lider Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. Orta təhsilini doğma şəhərində almış, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirərək Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsilini davam etdirmişdir (1939-1941). Lakin Böyük Vətən müharibəsinin başlanması onun təhsilini yarımçıq qoymasına səbəb olmuşdur.





Heydər Əliyev 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Dövlət Təhlükəsizliyi Komitəsində çalışdığı illərdə DTK-nın Leninqrad ali məktəbində xüsusi təhsil almışdır (1950). 1951-1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsilini davam etdirmişdir. O, dövlət təhlükəsizlik xidməti orqanlarında sıravi işçidən Azərbaycan DTK-nın sədr müavini (1964-1967) və sədri (1967-1969) vəzifələrinə kimi şərəfli bir xidmət yolu keçmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Bu sahədə göstərdiyi peşəkarlığı, prinsipiallığı və yüksək bacarığı onun daha yüksək pilləyə – partiya orqanlarında rəhbər vəzifəyə keçməsinə zəmin yaratmışdır.

Rəhbərliyin qərarı ilə Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul plenumunda Heydər Əliyev AKP MK-nın birinci katibi seçilmişdir. Bu tarixdən etibarən Azərbaycanın taleyində çiçəklənmə dövrü başlayır. Heydər Əliyev respublikada iqtisadiyyat, mədəniyyət, səhiyyə, elm və təhsil və s. sahələrin inkişaf etdirilməsi istiqamətində var gücü ilə çalışır. Onun rəhbərliyi dövründə respublikanın iqtisadiyyatı əsaslı şəkildə dəyişir, neçə-neçə yeni istehsal sahələri, sənaye obyektləri işə salınır. Respublikanın şəhərləri abadlaşdırılır, kənd təsərrüfatı sürətli inkişafa qədəm qoyur. Ölkə əhalisinin sosial, mədəni, elm və təhsil səviyyəsinin qaldırılması, həmçinin respublikanın hüdudlarından kənarda yaşayan həmvətənlərlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində uğurlu addımlar atılır. Yeni ali məktəblər, muzeylər, teatrlar, kitabxanalar açılır. Minlərlə gənc təhsil almaq üçün ölkənin ən nüfuzlu ali məktəblərinə göndərilir.

Həmin illərdə H.Əliyev xalqımızın rifahı və milli dövlətçiliyimizin inkişafı naminə çox işlər görmüşdür. C.Naxçıvanski adına hərbi liseyin yaradılması onun Azərbaycanın hərb tarixində yaratdığı ən monumental abidələrdəndir. Bu məktəbin açılması üçün o, bütün çətinlikləri dəf etdi, öz yolundan dönmədi. Çünki hiss edirdi ki, Azərbaycan nə vaxtsa müstəqil olacaq və onun öz ordusu yaradılacaq. Buna görə də hələ öncədən milli zabit kadrların hazırlanmasına nail oldu. 1971-ci il iyunun 20-də Bakıda milli hərbi kadrlar hazırlayan C.Naxçıvanski adına ixtisaslaşdırılmış ilk hərbi məktəb açıldı.

Heydər Əliyev həmin illərdə milli hərbi kadrların hazırlanması sahəsində o zaman həyata keçirilməsi mümkün olmayan bir çox əhəmiyyətli işlər görmüşdür. Azərbaycan Ali Soveti adına Ümumittifaq Komandirlər Məktəbinin rəhbərliyinə azərbaycanlı general V.Bərşadlını gətirmiş, bununla da həmin məktəbə, Bakı Ali Hərbi Dənizçilik Məktəbinə və SSRİ-nin digər ali hərbi məktəblərinə daxil olan azərbaycanlı gənclərin sayının artırılmasına nail olmuşdur. Məhz həmin dövrdə zabit rütbəsi alan bu gənclər Milli Ordumuzun ilk yüksək rütbəli zabitləri olmuşlar.

Tarix boyu xalqımız müxtəlif – fars, ərəb, rus əsarətlərinə məruz qalmış və həmin işğallar nəticəsində müəyyən dövrlərdə müxtəlif dillər dövlət dilimiz olmuşdur. İlk dəfə Şah İsmayıl Xətainin dövründə ana dilimiz dövlət dili elan olunmuşdur. İkinci dəfə bu böyük addımı məhz dahi rəhbərimiz Heydər Əliyev atmışdır. Məlum olduğu kimi, 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilmişdir. Həmin Konstitusiya bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün nümunə rolunu oynamalı idi. Lakin həmin Konstitusiyada dövlət dili haqqında maddə yox idi. Heydər Əliyev ana dilinin dövlət dili olması üçün fədakar mübarizə apardı. O, bütün xalqı bu işdə ona kömək olmağa cəlb etdi. Nəhayət, 1978-ci ildə Azərbaycan SSR-in dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Sovetlər İttifaqında üç respublikadan biri məhz Azərbaycan idi ki, onun dövlət dili öz ana dili kimi qəbul olunmuşdu.

Heydər Əliyev 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, SSRİ-nin rəhbərlərindən biri kimi fəaliyyət göstərmişdir. Bu, bütövlükdə türk-müsəlman dünyasının tarixində ilk hadisə idi. O, iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Vətəndən uzaqda, Moskvada fəaliyyət göstərdiyi illərdə də Heydər Əliyev həmişə Azərbaycanın taleyini düşünmüş, respublikanın inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Bu dövrdə o, həmçinin Moskvadakı azərbaycanlılarla, tələbələrlə müntəzəm əlaqə saxlayır, onların qayğı və ehtiyaclarını ödəməyə çalışırdı.





Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov.İKP MK Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Azərbaycan xalqına üz vermiş bütün faciələr, itkilər də məhz Heydər Əliyevin istefa verməsindən sonra başlandı. Onun SSRİ-nin dövlət rəhbərlərindən biri olduğu illərdə Azərbaycana qarşı hansısa addımı atmağa cürəti çatmayan qüvvələr, Azərbaycanı gözü götürməyən ermənilər fəallaşdılar.

Heydər Əliyev 1990-cı ilin 20 Yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək bəyanatla çıxış etmiş, bu addımı Azərbaycan xalqına qarşı təcavüz adlandırmış, qanlı faciənin təşkilatçılarının cəzalandırılmasını tələb etmişdir. Öz şəxsi təhlükəsizliyini deyil, xalqın müqəddəratını fikirləşən dahi rəhbər SSRİ rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ikiüzlü siyasətinə kəskin etirazını bildirmiş və 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Nəhayət, 1990-cı ilin iyulunda Heydər Əliyev vətənə dönmüşdür. İlk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə dövlətçilik tariximizin bir sıra şanlı səhifələri yazılmışdır. 1991-ci il sentyabrın 7-də Heydər Əliyevin təklifilə Naxçıvan MR-nin Dövlət Müdafiə Komitəsi yaradılmış, blokada şəraitində yaşayan Naxçıvan ən çətin sınaqlarından üzüağ çıxmışdır. Azərbaycanın dövlət rəmzi olan üçrəngli bayrağımız ilk dəfə burada qaldırılmışdır. Ermənistanın Naxçıvan ərazisinə təcavüzünün qarşısı alınmış, Türkiyə və İran hökumətləri ilə aparılan danışıqlar nəticəsində Naxçıvanın ehtiyacları, qismən də olsa təmin edilmişdir. Naxçıvan ilə Türkiyə arasında Ümid körpüsü tikilib istifadəyə verilmiş, İranla Azərbaycan arasında Şahtaxtı-Poldəşt körpüsü inşa edilmişdir. Naxçıvandakı rus ordusu, bütün hərbi avadanlıq, si-

lah-sursatın Naxçıvanda qalması şərti ilə muxtar respublikadan çıxarılmışdır. Bütün bunlara dahi şəxsiyyət Heydər Əliyev öz uzaqgörən siyasəti, sarsılmaz Vətən sevgisi sayəsində nail olmuşdur.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında Heydər Əliyev partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda Azərbaycan xalqı vətənin sevimli oğlu Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxmışdır. Xalqın ayağa qalxmasını və vəziyyətin getdikcə pisləşdiyini görən o zamankı ölkə rəhbərlyi Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur olmuşlar. Beləliklə, müstəqil Azərbaycan tarixində yeni, parlaq bir səhifə açılır. 15 iyun 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilir. İyun ayının 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayır. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə xalq mövcud təhlükədən qurtulur. Təsadüfi deyil ki, xalqımız 15 iyun tarixini Qurtuluş günü kimi qeyd edir.

1993-cü il oktyabr ayının 3-də Azərbaycan xalqı böyük siyasətçiyə olan ehtiramını, məhəbbətini və ən əsası sarsılmaz inamını bir daha nümayiş etdirir. Heydər Əliyev ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Ölkə Prezidenti seçilən Heydər Əliyevin qarşısında ölkəni parçalanma təhlükəsindən xilas etmək, ölkədə stabillik yaratmaq, ordu quruculuğunu həyata keçirmək, beynəlxalq arenada uğurlu siyasət aparmaq kimi tarixi vəzifələr dururdu. Dahi öndərimiz xalqımız üçün taleyüklü bu vəzifələri öz siyasi səriştəsi, beynəlxalq aləmdəki nüfuzu və xalqın ona göstərdiyi böyük ehtiram hesabına uğurla həyata keçirməyə başladı. Ölkədə separatçı qüvvələrin qarşısı alındı, Vətənimiz parçalanmaq təhlükəsindən xilas oldu.

Ordu quruculuğu sahəsində uğurlu addımlar atıldı. Həmin vaxt davam edən Ermənistan-Azərbaycan müharibəsi, azğınlaşmış erməni işğalçılarının Azərbaycanın yeni-yeni ərazilərini zəbt etmək cəhdləri respublikamızın müstəqilliyinə ən böyük təhlükə idi. Prezident Heydər Əliyevin dünya miqyasında apardığı gərgin iş 1994-cü ilin may ayında Bişkekdə Ermənistanla Azərbaycan arasında cəbhədə atəşkəs rejiminin əldə edilməsi ilə nəticələndi. Atəşin dayandırılması xarici və daxili siyasəti dövrün tələblərinə uyğun aparmaq, ölkə iqtisadiyyatını dirçəltmək, ordu quruculuğunu davam etdirmək və digər məsələlərin həlli üçün zəmin yaratdı.

Heydər Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində ilk növbədə Azərbaycanın şimal və cənub qonşusu olan iri dövlətlərlə əvvəlki ölkə rəhbərliyi tərəfindən pozulmuş qonşuluq və dostluq münasibətlərini yaxşılaşdırılmasına nail olundu. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərə, həmçinin Avropa, Asiya və Afrika qitələrinin müxtəlif dövlətlərinə səfərlər edərək Azərbaycan həqiqətlərini, Ermənistanın tarixi Azərbaycan torpaqlarına təcavüzünü dünya ictimaiyyətinə çatdırdı.

Dağlıq Qarabağ problemi Heydər Əliyevin xarici siyasətində əsas yer tuturdu. Dövlət başçıları və xarici nümayəndə heyətləri ilə görüşlərdə, beynəlxalq forumlarda Qarabağ münaqişəsi danışıqların əsasını təşkil edirdi. ATƏT-in 1994-cü il Budapeşt, 1996-ci il Lissabon və 1999-cu il İstanbul sammitlərində Qarabağ münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə Lissabon Zirvə görüşü zamanı Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi.

Heydər Əliyevin çoxşaxəli gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azəbaycan Respublikası Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşdu və burada öz layiqli yerini tutdu. Heydər Əliyev nəinki Azərbaycan Respublikasının yeni siyasət xəttini müəyyən etdi, həmçinin bu siyasətin həyata keçirilməsinin yollarını, vasitələrini, üsul və metodlarını da dəqiq və böyük məharətlə düşünüb hazırladı.

Qısa bir zamanda ölkə iqtisadiyyatı dirçəliş, inkişaf yoluna

qədəm qoydu. Ümummilli liderimiz bu istiqamətdə olduqca böyük və əhəmiyyətli addımlar atdı. 1994-cü il sentyabrın 20-də dünyanın ən iri neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında "Əsrin müqaviləsi" adlı neft kontraktı imzalandı. Azərbaycan bir sıra beynəlxalq layihələrə qoşuldu. Hazırda respublikamız "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi" (TRASEKA) və "İpək yolu" və s. kimi beynəlxalq layihələrinin əsas iştirakçılarından biridir.

Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin 29 oktyabrında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə bağlı Ankara Bəyannaməsi imzalanmış və 2002-ci il oktyabrın 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi keçirilmişdir. Bu kəmər vasitəsilə 2006-cı il may ayının 28-də Azərbaycan nefti ilk dəfə olaraq Aralıq dənizi vasitəsilə dünya bazarına çıxarılmışdır.

Heydər Əliyev xalqımızın və dövlətimizin ümummilli mənafeyinə uyğun, uğurlu demokratik, hüquqi dövlət quruculuğu siyasəti həyata keçirmişdir. Bu siyasətin əsasında onun müəllifi olduğu və 1995-ci il noyabr ayının 12-də ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dayanır.

Azərbaycanın sevimli oğlu Heydər Əliyev 2003-cü il dekabr ayının 12-də ABŞ-ın Klivlend xəstəxanasında dünyasını dəyişmişdir. Heydər Əliyev yalnız cismən bizdən ayrılmışdır. O, hər zaman bizim qəlbimizdə yaşayacaqdır. Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyevin abidəsi Azərbaycan xalqının ziyarətgahına çevrilmişdir.

Müstəqil Azərbaycanımızın qurucusu, yaradıcısı olan Heydər Əliyevin gördüyü işlər haqqında minlərlə kitab yazılsa belə, onun şəxsiyyətini, Azərbaycan xalqı üçün gördüyü işləri tam əhatə etməkdə aciz qalacaqdır.

Heydər Əliyev xalqın yaddaşında vətənpərvər, millətsevər, mehriban, gözəl qamətli, həssas ürəkli, məğrur duruşlu, iti baxışlı bir insan kimi qalmışdır. O, tariximizin ən böyük Azərbaycanlısı olaraq bütün türk xalqlarının ürəyində özünə əbədi taxt qurmuşdur.







## CAVANŞİR

**(642-681)**

VII əsrin ortalarından başlayan ərəb işğalları Atlantik okeanından Hindistanadək geniş bir ərazidə yaşayan müxtəlif xalqların həyatında köklü dəyişikliklər törətdi. Həmin əsrin 20-ci illərinin sonunda ərəb cəmiyyətində baş verən ictimai-siyasi çevriliş bu işğallar üçün zəmin yaratdı. Qısa müddətdə Sasani imperiyası kimi qüdrətli bir dövlətə son qoymuş ərəblər vaxtilə bir imperiyanın tabeliyində olmuş ölkələri, o cümlədən Azərbaycanda fəth edir, geniş ərazili yeni imperiyanın, ərəb xilafətinin tərkibinə qatdılar.

Azərbaycanlılarla ərəblərin ilk qarşılaşması 637-ci ildə, Sasanilərin paytaxtı Ktesifon yaxınlığındakı döyüşdə baş verdi. Burada Sasani şahənşahı III Yəzdigərdin ərəblərin hücumuna məruz qalmış ordusu sıralarında sərkərdə Rüstəmin başçılığı ilə azərbaycanlı döyüşçülər iştirak edirdi. Öz dəstəsi ilə Sasani ordusu tərkibində vuruşan Albaniya knyazı Varaz Qriqorun oğlu Cavanşir ərəblərin qələbəsi ilə nəticələnən bu döyüşdə igidliyi ilə fərqləndiyi üçün III Yezdigərd tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılmışdı.

VII əsrin ortalarında ölkədə yaranmış ağır vəziyyət ərəblərin məğlub etdiyi Sasani ordusu qalıqlarının Albaniya ərazisində möhkəmlənmək cəhdi ilə daha da gərginləşir. Ərəb işğalının ilk günlərindən ərəblərlə danışıq aparan və öz xoşu ilə onların tabeliyinə keçən alban knyazı Varaz Qriqordan fərqli olaraq ondan sonra hakimiyyət başına gəlmiş oğlu Cavanşir nə indiki, nə də əvvəlki ağalara

boyun əymək istəmirdi. 651-və 652-ci illərdə o, İberiya hökmdarı Atrnersehlə sazişə girib, iranlıları ölkədən qova bildi.

Xilafətin hegemonluğunu təsdiq etmək və ona vergi verməklə öz siyasi hakimiyyətini hələlik qoruyub saxlaya bilmiş Cavanşir Bizansla əlaqəni üzməyə çalışırdı. 654-cü ildə imperator II Konstantla bir neçə mühüm görüşlərində Cavanşir Bizansın Albaniyaya hücumlarını qabaqlamaq üçün albanları öz tabeliyinə qəbul etməyi imperatordan xahiş edir. Lakin obyektiv şərait (xüsusilə qonşu Ermənistanın ərəblər tərəfindən tam işğalı) Cavanşiri siyasi meydanda Bizansdan daha qüdrətli olan xilafətlə münasibətlərə yeni gözlə baxmağa məcbur etdi.

662-ci ildə Bələncər yaxınlığında ərəbləri məğlubiyyətə uğradan xəzərlər Albaniyaya hücuma keçirlər. Lakin Dərbənd yaxınlığında Cavanşir onları geri oturdur. İki il sonra xəzərlər yenidən hücuma keçib, Araz çayınadək ölkəni qarət edirlər. Cavanşir xəzərlərlə sülh bağlamağa və onların da vassallığını qəbul etməyə məcbur olur; münasibəti daha da möhkəmlətmək üçün o, Xəzər xaqanın qızı ilə evlənir.

Əməvilər sülaləsinin hakimiyyət başına gəlməsi ilə Xilafətdə baş verən siyasi çevriliş Cavanşiri öz siyasi xəttini dəyişməyə vadar edir. Azərbaycana yeni yürüşlərin qarşısını almaq məqsədilə ərəblərdən özünü zorla qoruyan. Bizansdan isə əli üzülən Cavanşir ərəblərlə danışığa girir (667-670) və Albaniyanı xilafətə tabe dövlət elan edir. Lakin yürütdüyü çevik siyasət nəticəsində o, Albaniyanın siyasi müstəqilliyini hələ də qoruyub saxlaya bilir. 681-ci ildə Cavanşir onun siyasi xətti ilə razılaşmayan bizanspərəst knyazların qəsdi nəticəsində öldürülür. Xəlifə I Yəzid (680-683) Cavanşirin qardaşı oğlu I Varaz Tiridatı (680-699) "şərq vilayətlərinin canişini, Alban məmləkətinin və Uti nahiyəsinin hökmdarı" təsdiq edir. Azərbaycan tarixində Cavanşir özünəməxsus yer tutur. Məharətli döyüşçü, mərd insan olmaqla bərabər, o, peşəkar sərkərdə, mahir diplomat və ən əsası ölkəsinin maraqlarını hər şeydən üstün tutan görkəmli tarixi şəxsiyyət kimi Azərbaycan xalqının xatirəsində bu gün də yaşayır.







## TOMRİS

**(e.ə. VI əsr)**

E.ə.VII əsrdən etibarən Şimali Qafqaz, Krım yarımadası və Qara dəniz sahillərində yaşayan qədim türkdilli tayfalar – kimmer, skit, saklar cənuba doğru köç etməyə başlayırlar. Onların böyük qismi Qafqaz dağlarını aşaraq Azərbaycan ərazisində məskunlaşır.

Kimmer, sak, skit tayfa birliklərinə onlarca ayrı-ayrı tayfalar daxil idi. Bu tayfalar arasında sak birliyinin tərkibində olan massagetlər seçilirdilər. Onlar, əsasən, Şimali Azərbaycanda Araz çayı sahillində məskunlaşmışdılar.

E.ə. V əsrdə yaşamış qədim yunan tarixçisi Herodot "Tarix" əsərində massagetlərin təsvirinə böyük yer ayırmışdır.

Massagetlər köçəri həyat tərzi sürür, əsasən maldarlıqla məşğul idilər. Massagetlər ölülərini torpaq qəbirlərdə dəfn edir, axirət dünyasına, ölümdən sonrakı həyata inandıqlarına görə mərhumun yanına qab-qacaq, silah, bəzək əşyaları qoyurdular. Ən hörmətli şəxslərin qəbirləri üzərində kurqan ucaldılırdı. Belə kurqan qəbirlərə yüzlərcə müxtəlif bahalı əşyalar – qızıl, gümüş qab-qacaq, daş-qaşlarla bəzədilmiş bilərziklər, boyunbağılar, üzüklər, silahlar qoyulurdu.

Massagetlərdə hər bir həddi-buluğa çatmış kişi döyüşçü hesab olunurdu, həmçinin qadınlar və yeniyetmələr də silah işlətməyi bacarırdılar. Massagetlərin ordusu təkcə süvarilərdən ibarət idi.

E.ə. VI əsrin 40-cı illərində massagetlərin tayfa başçısı vəfat etmiş, onun oğlu kiçik olduğundan müvəqqəti olaraq tayfa başçısı vəzifəsinə onun həyat yoldaşı Tomris seçilmişdir. Massagetlərdə qadınların hüquqları kişilərin hüquqları ilə eyni olmuşdur.

İran Əhəməni dövlətinin banisi II Kir işğalçı siyasət yürüdərək qısa müddət ərzində Aralıq dənizindən başlamış Xəzər dənizinədək əraziləri zəbt etmişdir. Yüz minlərcə döyüşçüsü olan ordusunda süvarilər, piyadalar, dəvə, süvari dəstələri, daşatan qurğular da var idi. Midiya, Lidiya, Babil kimi dövrün möhtəşəm dövlətlərinin mövcudluğuna son qoyan II Kir dünyanın hakimi olmaq fikrinə düşmüşdü. Qərbdə rəqiblərini məğlub etdikdən sonra o, şimala – Araz çayına doğru üz tutur. Onun fikri burada yaşayan massagetləri məğlubiyyətə uğradıb Şimali Azərbaycanı zəbt etmək idi.

II Kir massagetlərin başçısı Tomrisə məktub yollayaraq ondan tabe olmağı tələb edir. Məktubu alan Tomris dərhal tayfanın ən müdrik və təcrübəli şəxslərindən ibarət ağsaqqallar şurası çağırır və məktubu səsləndirir. Massagetlər ya II Kirin tələbini qəbul edib qul olmalı, ya da onun tələbini rədd edib ağır müharibəyə hazırlaşmalı idilər. Azadlıqsevər massagetlər ikinci yolu seçirlər – Tomris II Kirə rədd cavabı verir.

Rədd cavabı alan II Kir bərk qəzəblənir və böyük ordu ilə şimala doğru yürüşə başlayır. Qoşunlarının başında II Kir özü dururdu. O, massagetləri qırmaq, onların qanını şəxsən axıtmaq istəyirdi. II Kirin orduları Arazı keçərək şimala doğru irəliləyirlər.

Massagetlərin qoşunları tədricən geri çəkilirlər. Onlar kəşfiyyatçılarından düşmənin sayca çox üstün olması barədə məlumat almışdılar. Ona görə də massagetlər geri çəkilərək düşməni sərhəddən uzaqlaşdırmaq, sonra kəskin zərbələrlə onun qüvvələrini zəiflətmək və nəhayət, son zərbə ilə düşməni məhv etmək qərarına gəlirlər. Massagetlərin ordusu üç hissəyə bölünür: birinci hissə Əhəməni qoşununun qarşısına çıxır və onu öz ardınca susuz, səhralıq yerlərlə aparır. Bu hissənin başında Tomrisin oğlu dayanırdı və o, vaxtaşırı əhəmənilərə zərbə vuraraq, onları sanki döyüşə səsləyir və yenidən geriyə çəkilərək ölkənin dərinliklərinə aparırdı. Bu hissəni təqib





edən II Kir elə zənn edirdi ki, onun önündə bütün massaget ordusu cəmləşib. Əslində isə massagetlərin əsas qüvvələri Əhəməni ordusunun sağında və solunda cəmləşmişdilər. Əhəməni qoşunu sərhəddən uzaqlaşdıqdan sonra massagetlərin bu qoşunları hücuma keçərək II Kirin ərzaq və su ehtiyatlarını məhv edir, onun öz ölkəsi ilə əlaqələrini tam kəsir.

Təhlükəni başa düşən II Kir müharibəni tezliklə bitirmək qərarına gəlir. Onun qoşunları irəli atılır və massaget ordusunun birinci hissəsinə çatır. Döyüş zamanı massaget döyüşçülərinin əksəriyyəti və onların başçıları – Tomrisin oğlu həlak olur. Lakin onlar vəzifələrini yerinə yetirmişdilər: düşmən ordusu öz ölkəsindən xeyli uzaq düşmüş və mühasirəyə alınmışdı. Oğlunu itirmək Tomris üçün nə qədər ağır olsa da, o, ordusunda ruh düşkünlüyü yaranmaması üçün bunu büruzə verməməyə çalışır.

Massaget qoşunları II Kirin ordusunu sağdan və soldan dövrəyə alır. Geriyə qayıtmağa çalışan II Kirin ordusu ilə massagetlərin arasında ağır döyüş baş verir. Massagetlər torpaqlarını, vətənlərini qoruduqlarını anladıqları üçün böyük rəşadətlə vuruşurlar. Üstəlik, onların həlak olmuş yoldaşlarının qisasını almağa can atırlar. İşğal məqsədi ilə Azərbaycana gəlmiş Əhəməni döyüşçüləri isə canlarını xilas edib Arazı keçməyə çalışırlar. Sayca az, lakin mənəvi baxımdan üstün olan, qələbə ruhu ilə yaşayam massagetlər qalib gəlirlər. Əhəməni qoşunları darmadağın edilir, II Kir öldürülür.

- 21498 -

Döyüşdən sonra Tomris II Kirin cəsədini tapdırır və onun boynunu vurdurur. Tomrisin əmri ilə II Kirin kəsilmiş başı qanla dolu çuvala atılır və bu zaman o, məşhur kəlamını deyir: “Sən qan içməyə gəlirdin. Doyunca iç”.

Tomris və onun döyüşçüləri böyük qurbanlar hesabına olsa da torpaqlarını düşmən tapdağına vermirlər.

Azərbaycan tarixinə Tomris ölkənin azadlığı uğrunda mübarizə aparan sərkərdə – qadın kimi daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



## BABƏK

**(798-14.03.838)**

IX əsrin əvvəllərində Azərbaycanda xürrəmilər hərəkatı yenidən gücləndi və tezliklər Azərbaycan hüdudlarını aşaraq, İsfahan, Rey, Həmədan əyalətlərinə də yayıldı. İdeya kökləri ilə Sasanilər dövrünün Məzdəkilər hərəkatı ilə bağlı olan xürrəmilər islamı rədd edir, öz xürrəm dini görüşlərini yaymağı qarşılarına məqsəd qoymuşdular. Yer üzündə ədalətli cəmiyyət yaratmağın mümkünlüyünü təbliğ edən xürrəmilər ruhun bir bədəndən digərinə keçəcəyinə, şər qüvvələrin xeyirlə mübarizədə məğlub olacağına inanır, torpağın icmaların ixtiyarına verilməsi uğrunda mübarizə aparırdılar. Xürrəmilərin xüsusi nümayəndələri ("mələklər") təbliğat apararaq əhalini mübarizəyə çağırırdılar. Orta əsrdəki bütün çıxışlar kimi dini şüar altında aparılan bu mübarizədə tədricən İslam dini, ərəb əsarəti və feodal istismarına qarşı ümumxalq hərəkatına çevrildi. Onun əsas hərəkətverici qüvvəsi kəndlilərdən ibarət olsa da, şəhər yoxsulları və sənətkarlar, habelə Xilafətdən narazı olan bəzi yerli feodallar da mübarizəyə qoşuldular.

Azərbaycanda başlanan xürrəmilər hərəkatının ilk dövrü Ərdəbil nahiyəsindəki Bəzz qalasının sahibi kiçik feodal Cavidanın adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 808-ci ildə qırmızı bayraq altında xilafətə qarşı başlanan çıxış çox keçmədən xəlifə qoşunları tərəfindən yatırıldı. Xürrəmilərin başçıları arasında hərəkata rəhbərlik üstündə gedən mübarizədə çıxışların zəifləməsinə səbəb oldu. 816-cı ildə xürrəmi başçıları Cavidan və Əbu İmran açıq döyüşdə bir-birlə-





rini öldürdülər. Cavidanın ölümündən sonra xürrəmilər hərəkatına Babək rəhbərlik etdi. Miməz qəzasının Bilalabad kəndində yoxsul ailədə doğulmuş Babək ağır həyatın, istismarın acılarını duymuş, 18 yaşında Cavidanın dəvətilə xürrəmilərə qoşulmuşdu.

Babəkin başçılığı ilə təqribən 21 il davam etmiş bu böyük azadlıq hərəkatı ərəb xilafətinə ağır zərbə vurdu və onun əsaslarını sarsıtdı. Ayrı-ayrı xürrəmi dəstələrinə Babəkin ən yaxın köməkçiləri, xalq içərisindən çıxmış Adin, Abdulla Tərxan, Rüstəm, Müaviyə və başqa görkəmli sərkərdələr başçılıq edirdilər.

Babək hərəkatı Yaxın və Orta Şərqin ən qüdrətli hərəkatı idi. Mübarizə illərində xürrəmilər xilafətin altı nizami ordusunu, təqribən yarım milyon döyüşçüsünü məhv etmişdi. Ərəb mənbələrinin məlumatına görə, Azərbaycanın cənubunda və Deyləmdə xürrəmilərin sayı 300 min nəfərə çatırdı. Babək hərəkatının təsiri ilə Cibəl, Xorasan, Təbəristan, Astrabad, İsfahan və s. yerlərin əhalisi də üsyana qalxmışdı.

*830-cu ildə Babəkin qoşunu Həmədanı tutdu. Bu, Xilafəti* Şərq torpaqları ilə birləşdirən əsas strateji və tranzit yollarından məhrum edirdi. Xilafətə qarşı birgə mübarizə aparmaq məqsədilə Babək Bizans imperatoru ilə də əlaqə yaratdı. Ərəb tarixçisi Əl-Məsudinin fikrincə, Babək hərəkatı az qala Abbasilər hakimiyyətini məhv edəcəkdi. Xilafətin ciddi təhlükə qarşısında qaldığını görən xəlifə Əl-Mütəsim Bizansla sülh bağlayıb, bütün hərbi qüvvələrini Babəkə qarşı göndərdi. Bizansla müharibədə şöhrət qazanmış uspuşanalı türk Afşin Heydər ibn Kavus ərəb qoşunlarına hərbi başçı təyin olundu.

Xürrəmilərlə müharibə çoxlu vəsait və canlı qüvvə tələb edirdi. Təkcə 837-ci ildə ərəb qoşunlarına 1 mln. dirhəm vəsait sərf olunmuşdu. Bu zaman xürrəmilər hərəkatında iştirak edən bəzi yerli feodallar bu hərəkatın onların mənafeyinə zidd olduğunu başa düşüb, xəyanət edərək, xürrəmilərdən uzaqlaşdılar. Nəticədə yaxşı silahlanmış və sayca çox ərəb qoşunları 837-ci il avqustun sonunda uzun mübarizədən sonra Bəzz qalasını ala bildi. Mənbələrin məlumatına görə, Bəzz uğrunda vuruşmada 100 mindən çox ərəb əsgəri,

80 min üsyançı həlak oldu. Kiçik dəstə ilə müharibə meydanından çıxıb Bizansa getmək üçün yolüstü Arana gələn Babək keçmiş müttəfiqi alban knyazı Səhl ibn Sumbatın xəyanəti nəticəsində ələ keçirildi. Babək 838-ci ildə martın 14-də Samirə şəhərində xəlifə Əl-Mütəsimin əmri ilə işgəncə ilə öldürüldü.

Xürrəmilər hərəkatı məğlubiyyətə uğrasa da, Babəkin başçılıq etdiyi xalq-azadlıq müharibəsi Xilafətin süqutunu sürətləndirdi, məzlum xalqların azadlıq mübarizəsini asanlaşdırdı. Babəkin tərəfdarları IX əsrin sonlarınadək Xilafətə qarşı çıxışlarda fəal iştirak edirdilər.

VIII əsrin üçüncü rübində başlamış, IX əsrin əvvəllərində isə Xilafətin şimal vilayətlərini bürümüş xürrəmilər hərəkatı ərəblərin Azərbaycandakı hakimiyyətini də zəiflətdi. 821-ci ildə Albaniyada Mehranilər sülaləsinin son nümayəndəsi Varaz Tridat öldürüldükdən sonra hakimiyyət "Aranşahik" titulunu qəbul etmiş Səhl ibn Sunbatın əlinə keçir. Əvvəllər Babəklə müttəfiq olan Səhl 835-ci ildə xilafətdəki qarmaqarışıqlıqdan istifadə edərək, Arranın çox hissəsini tutur. Çox keçmədən, Babəki ərəblərə təslim etdiyi üçün xəlifə onu Ermənistan, Gürcüstan və Albaniyanın hakimi təyin etsə də işdə yalnız Şəkinin hakimi olaraq qalır. Hərəkat dövründə xilafətdən yarım asılı vəziyyətdə olan Xaçın hakimi Atrnerseh, Ktiş və Beyləqan hakimi Stepannas Əbləsəd, ondan sonra isə onun bacısı oğlu Yəsai Əbu Musa (İsa ibn uxt İstifanus), Sünik hakimi Vasaq, Girdman hakimi Keçritç, Uti hakimi Stepan Klia da Səhl ibn Sumbat kimi öz mövqelərini möhkəmlətmək və Xiafətin tabeliyindən çıxmaq üçün Babəklə müttəfiqlik edir, bu dövrdə Arranda baş qaldırmış pavlikianlara (beyləqanlılara) qarşı mübarizədə onun silahlı qüvvələrindən istifadə edirdilər. Lakin xalq – azadlıq hərəkatının nəticə etibarilə yerli feodalların mənafeyinə xələl gətirə biləcəyi onları tezliklə bu hərəkatdan uzaqlaşdırdı. Bununla belə, Babək hərəkatı yerli feodalların seperatizmə olan meyllərini gücləndirdi.

IX əsrin əvvəllərində Xürrəmilər hərəkatının başlanması, eləcə də Xilafətin parçalanması nəticəsində müstəqil dövlətlərin yaranması ərəblərin Azərbaycana köçürülməsi prosesini dayandırdı. Hazırda





Azərbaycan ərazisindəki ərəb adı daşıyan toponimlər (ərəbkeymuraz, ərəbhacı, ərəbuşağı, ərəbşahverdi və b.) o qəbilələrdən qalan izlərdir.

Ərəb istilası və Xilafətin Azərbaycanda uzun sürən ağalığı ölkənin siyasi, iqtisadi və mədəni həyatında dərin iz qoydu. Bu vəziyyət müvəqqəti olsa da məhsuldar qüvvələrin inkişafını və ölkənin mədəni tərəqqisini ləngitsə də, Azərbaycanın geniş ərazili Xilafət tərkibinə daxil edilməsi obyektiv olaraq onu ümumi müsəlman mədəniyyətinə cəlb etdi, islamın geniş vüsət tapmasına şərait yaratdı.

Yeni dinin yayılmasında ərazimizə köçürülən ərəb qəbilələrinin də rolu böyük oldu. Özlərindən əvvəlki istilaçılar kimi, ərəblər də işğal etdikləri torpaqları məskunlaşdırma yolu ilə öz mövqelərini möhkəmləndirməyə çalışırdılar.

Xürrəmilərin Babəkin başçılığı ilə apardıqları xalq-azadlıq müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindəndir. Bu baxımdan Babəkin adı isə Azərbaycan xalqının istiqlaliyyət uğrunda mübarizə rəmzinə çevrilmişdir.




## UZUN HƏSƏN

### (1424-1478)

Qaraqoyunlu və Ağqoyunlu adı ilə məşhur tayfa birlikləri XIV əsrdə Şərqi Anadoluda köçəri həyat tərzi sürürdülər. Onlar Azərbaycan dilinin cənub dialektində danışan, oğuz mənşəli türk tayfaları idilər. Qaraqoyunlu tayfalarının arasında Baharlı, Sədli, Qaramanlı, Alpout, Duxarlı, Cəgirli, Xacili, Ağaçəri tayfaları da vardı. Baharlı və Sədli tayfaları onların arasında aparıcı idilər.

Azərbaycanda başqa (Kürdən cənubdakı ərazi) Qaraqoyunlu dövlətinin tərkibində Ermənistan, Şərqi Anadolu və Bağdadla birlikdə Ərəb İraqı da daxil idi. Qara Yusif özü bilavasitə Azərbaycanı idarə edirdi. Digər vilayətlər isə onun oğlanları tərəfindən idarə edilirdi. Təbriz şəhəri dövlətin paytaxtı idi. Azərbaycan Qaraqoyunlular dövləti 1410-cu ildən 1467-ci ilədək mövcud olmuşdur.

1467-ci ildə Muş vadisindəki döyüşlər zamanı Cahanşah türkdilli Ağqoyunlu tayfa birləşməsinin başçısı olan Uzun Həsən tərəfindən darmadağın edildi. Qaraqoyunlular dövləti zəminində Ağqoyunlular dövləti yarandı. Bu dövlətin də paytaxtı Təbriz şəhəri oldu. Ağqoyunlular dövlətinə Azərbaycandan başqa Ermənistan, Şərqi Anadolu, Ərəb İraqı və təqribən bütün İran daxil idi.

Ağqoyunlu tayfa ittifaqına Bayandur tayfası başçılıq edirdi. Hakim sülalə də bu tayfaya mənsub idi. Pornak və Mosullu tayfaları dövlət aparatında böyük təsirə malik idilər. Bu ittifaqa qismən Bayat, Qacar, Əfşar qəbilələri də qoşuldular. Qaraqoyunlular dövləti





iflasa uğradıqdan sonra Qaraqoyunlu dövlətinin xeyli hissəsi Ağqoyunlular dövlətinin xidmətinə keçdi. Uzun Həsənin qələbəsindən sonra Baharlı tayfasının bir hissəsi Xorasana Teymurilərin himayəçiliyinə keçdi. Sonralar isə (XVI əsrdə) bu tayfanın başçıları Hindistanda Qütbşahlar dövlətini yaratdılar.

1468-ci ildə Teymurilərin Xorasan hakimi Əbu Səid Uzun Həsənin güclənməsinə yol verməmək üçün 100 minlik ordu ilə cənub-şərq istiqamətindən Azərbaycana soxuldu. Bu təhlükəli məqamda Uzun Həsən Azərbaycanın ümumi mənafeyi naminə Şirvanşah Fərrus Yasarı ittifaqa cəlb edə bildi. Teymurilərin Muğanda qışlayan qoşunu darmadağın olundu və pərən-pərən salındı. Əbu Səid əsir alındı və edam edildi.

Uzun Həsən tanınmış dövlət xadimi və sərkərdə idi. Vaxtilə Diyarbəkrdə kiçik bəyliyin rəhbəri olmuş Uzun Həsən böyük dövlət yaratmışdı və onun mərkəzi vilayəti Azərbaycan idi. Onun hakimiyyəti dövründə Azərbaycan ilk dəfə olaraq Avropa dünya siyasəti sisteminə daxil oldu. Həm Şərqdə, həm də Qərbdə onunla hesablaşırdılar.

Uzun Həsənin ən təhlükəli rəqibi Konstantinapolun fatehi (1453-cü il), Osmanlı sultanı II Mehmed Fateh idi. Türklər Bizans dövlətinin varlığına son qoymuş, Osmanlı imperiyasını yaratmışdılar. Onlar Kiçik Asiyada Uzun Həsənin mülklərinə yaxınlaşmışdılar. Trapezunda yeganə Bizans mülki idi. Burada ağqoyunlular sülaləsilə nikah əlaqəsində olan yunan sülaləsi Komnenlər hakimlik edirdilər. Trapezund imperatoru Kalo İonnanın qızı, şahzadə Feodora ilə evlənmiş Uzun Həsən Trapezundu Osmanlı sultanından müdafiə etməyi öz öhdəsinə götürdü. Lakin Uzun Həsənin diplomatik səyləri heç bir nəticə vermədi və 1461-ci ildə sultan Trapezundu – Avropa və Asiya ticarətinin mühüm məntəqəsini ələ keçirdi. Sultan özünün təcavüzkar siyasəti ilə Avropa ilə Asiya arasındakı dəniz və karvan ticarətinə böyük ziyan vururdu. Osmanlı sultanına qarşı müharibənin labüdlüyünü başa düşmüş Uzun Həsən Avropa ölkələri ilə ittifaqa can atırdı. Avropa hökmdarları da osmanlı hücumundan ehtiyat edir və Asiyada özlərinə müttəfiqlər axtarırdılar.

İtalyan dövlətlərinin, Macarıstanın, Avstriyanın , Polşanın və digər Avropa ölkələrinin hökmdarları Uzun Həsənlə sıx diplomatik münasibətlər yaratmışlar. Onlar Azərbaycan hökmdarının şəxsində Cənub Şərqi Avropada ekspansiya siyasəti yeridən Osmanlı sultanı II Mehmetə qarşı qüdrətli müttəfiqi tapmışdılar. Uzun Həsənin səfirləri (Həsən Əzan, Muradbəy, Hacı Məhəmməd və b.) Venesiya hakiminin sarayında əziz qonaqlar idilər. Venesiya senatı öz diplomatlarını – Lazoro Kaprionu, Katerino Zenonu, Cozef Barbaronu, Ambroco Kontarinini Təbrizə göndərmişdi. Onlar Azərbaycanda səyahətlərinə dair qiymətli əsərlər, qeydlər yazmışlar. Uzun Həsənin anası (Sara Xatun) diplomat, dövlət xadimi kimi Avropa və Şərqdə tanınmışdı.

Müharibəyə başlamış Sultan II Mehmed Cənub-şərqi Avropada hərbi əməliyyatları dayandırdı və bütün qüvvələri Kiçik Asiyanın Şərqinə, Uzun Həsənə qarşı göndərdi. Artilleriyaya və odlu silaha malik olan osmanlı ordusu ilə müqayisədə öz qüvvələrinin zəifliyini anlayan Uzun Həsən hər vasitə ilə Suriya istiqamətindən Aralıq dənizinə çıxmağa cəhd göstərirdi. Lakin o, Məmlük sultanının müqavimətinə rast gəldi. Ağqoyunluların altı dəstəsi Qaraman vasitəsilə Aralıq dənizi sahilinə çıxdı. Burada o, Venesiyanın vəd etdiyi odlu silahı və topu mənasız surətdə gözləyirdi. Avropa "müttəfiqlərindən" hərbi kömək ala bilməmiş Uzun Həsən sultanla mübarizədə yalqız qaldı. 1473-cü ildə, Malatiya yaxınlığındakı döyüş zamanı Uzun Həsən qələbə qazandı. Lakin 10 gündən sonra Tərcan yaxınlığında o, ağır məğlubiyyətə düçar oldu. Burada osmanlı ordusunun nəinki say, eləcə də texniki üstünlüyü aşkara çıxdı. Yüksək hərbi keyfiyyətləri ilə fərqlənən Ağqoyunlu atlı dəstələri topların atəşi və yeniçəri nişançılarının qarşısında aciz qaldılar.

Osmanlı dövləti ilə müharibə Ağqoyunlular dövlətini güclü surətdə zəiflətdi. Uzun Həsən əmirlərin mərkəzi hakimiyyətə qarşı qiyamlarını zorla yatıra bilirdi. Uzun Həsən bir sıra knyazlıqlara parçalanmış Gürcüstanı tabe etmək üçün mənasız səylər göstərdi. O, bu ölkəyə son hərbi yürüş zamanı, 1478-ci ilin 5 yanvarında vəfat etdi.





Uzun Həsən Əbu Səidə qarşı ona kömək göstərmiş Şirvanşah Fərrux Yəssarla dostluq münasibətləri yaratmışdı. Ağqoyunlu hökmdarları və onun varisləri bu ittifaqa sona qədər sadiq qaldılar. Uzun Həsən Ərdəbilin şeyxləri ilə də yaxşı münasibətlər yaratdı. O, öz bacısını Şeyx Cüneydə ərə verdi. Uşaqlıq illərini Uzun Həsənin Diyarbəkrdəki sarayında keçirmiş Şeyx Heydər Uzun Həsənin qızı Marta (Aləmşah Bəyim) ilə evlənmişdi. Gələcək Səfəvi şahı I İsmayıl bu nikahdan anadan oldu. Beləliklə, İsmayıl ana tərəfdən Uzun Həsənin nəvəsi idi.

Uzun Həsən daxili siyasət sahəsində ruhaniliyə, bürokratiyaya arxalanmağa və hərbi əyanları zəiflətməyə can atırdı. O, məmurların özbaşınalığını məhdudlaşdırmaq, iqtisadiyyatı yüksəltmək və xəzinəni doldurmaq, əhalinin rəğbətini qazanmaq məqsədilə hətta vergi islahatı da keçirmişdir.

Belə bir fakt diqqətəlayiqdir ki, "Həsən padşahın qanunları" (Uzun Həsənin) həm XVI əsrdə Səfəvilər dövləti ərazisində, həm də əvvəllər Ağqoyunlular dövlətinin tərkibində olmuş Osmanlı imperiyasının şərq vilayətlərində də qüvvədə idi.

*Müasirləri Uzun Həsəni "Sultani-adil (yəni "ədalətli sultan")* adlandırmış, onu bilikli və müdrik hökmdar kimi səciyyələndirmişlər. O, hər cümə günü müsəlman ilahiyyatçılarını öz yanına toplayır, dini mövzularda müzakirələr təşkil edirdi. Mənbələrdən məlum olur ki, Uzun Həsənin göstərişilə Quran ilk dəfə türk (Azərbaycan) dilinə tərcümə edilmiş və onun hüzurunda oxunmuşdu.

Uzun Həsənin ölümündən sonra varislər arasında hakimiyyət uğrunda amansız mübarizə başlandı. Bu çəkişmələr isə Ağqoyunlular dövlətinin dağılması ilə nəticələndi.



## ƏCƏMİ ƏBUBƏKR OĞLU NAXÇIVANİ

**(XII əsrdə yaşamışdır)**

Azərbaycan memarlığının çoxəsrlik inkişaf yolu orta əsr memarlarımızın yaratdıqları abidələrdə əks olunmuşdur. Orta əsr memarlarımızın inşa etdikləri abidələr sırasında xalq arasında memar Əcəmi kimi tanınan Əcəmi ibn Əbubəkrin abidələrinin xüsusi yeri var. Əcəmi ibn Əbubəkr "Azərbaycan Renessansı" kimi tanınan mədəni oyanış dövrünün nümayəndələrindən biridir.

Əcəmi Əbubəkr oğlu Naxçıvani Azərbaycan tarixinə orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi Naxçıvan memarlıq məktəbinin banisi, orta əsr dünya memarlığının şedevr əsərlərindən hesab olunan Möminə Xatun türbəsinin memarı kimi daxil olmuşdur.

Azərbaycan Atabayləri dövlətinin (Eldənizlər dövləti) ən məşhur memarı Əcəmi Əbubəkr oğlu olmuşdur. Onun uşaqlığı və gəncliyi barəsində məlumat demək olar, yoxdur. İnşa etdirdiyi abidələr üzərində "Əcəmi Əbubəkr oğlu Naxçıvani" yazılması göstərir ki, o, əslən Naxçıvandan imiş. Alimlərin ehtimallarına görə, ilkin təhsilini başa vurduqdan sonra mühəndis təhsili almışdır, çünki o dövrdə mühəndis təhsili olmayan şəxs, nə qədər yaxşı usta olursa-olsun, dövlət və dini binaların inşasına buraxılmırdı.

Əcəminin bizim dövrə qədər gəlib çatmış ilk müstəqil işi Yusif ibn Küseyir türbəsidir. 1162-ci ildə inşa olunmuş bu türbə, adından göründüyü kimi, Yusif ibn Küseyir adlı şərəfinə ucaldılmışdır.





yəni həmin şəxs bu türbədə dəfn olunmuşdur. Xalq arasında türbəyə "Atababa türbəsi" deyilir. Türbə iki hissədən ibarətdir: yeraltı və yerüstü. Yeraltı hissə sərdabə formasında düzəldilib və burada mərhum dəfn olunub. Sərdabənin tavanı tağvarı formadadır. Türbənin yerüstü hissəsi xatirə abidəsi və ibadət yeri hesab edilmiş və olduqca möhtəşəm formada inşa olunmuşdur. Yürüstü hissə səkkiz bucaqlıdır, kərpic və gəclə işlənib. Ornamentlər arasında kitabələr yerləşdirilib ki, onların da üzərində Qurandan ayələr həkk olunub. Korpusun üst xətti boyunca enli zolaq şəklində qurulan kitabələr binanın möhtəşəmliyini sanki bir daha təsdiqləyir.

Alimlərin fikrincə, Yusif ibn Küseyir türbəsi göstərir ki, Əcəmi binaların inşasında arxitektonik sxemə üstünlük vermişdir. Bu sxem əsasında bir prinsip dururdu: inşa edilən binaların korpusu bucaqlar vasitəsilə sanki böyük həndəsi hissələrə bölünürdü. Ömrünün axırınadək Əcəmi bu sxemə sadiq qalmış, abidədən-abidəyə onu daha da kamilləşdirmişdir. Türbənin quruluşu sübut edir ki, Əcəmi riyaziyyatı çox yaxşı bilirmiş və inşa edəcəyi abidənin bütün göstəricilərini əvvəlcədən hesablayırmış. Geniş dünyagörüşü, dərin və zəngin biliyi, gözəl zövqü ona möhtəşəm abidələr inşa etməyə imkan vermişdir.

Naxçıvanda Atabəylərin "Dar-ül-mülk" adlanan sarayını da xalq arasında daha çox "memar Əcəmi" kimi tanınan Əcəmi ibn Əbubəkr inşa etmişdir. Səyyahlar onun ümumi gözəlliyi, günbəzinin möhtəşəmliyi barədə çox yazırlar, lakin bu abidə bizim dövrə qədər gəlib çatmamışdır. Memar Əcəminin digər monumental əsəri Naxçıvan şəhərinin Cümə məscididir. Səyyahların yazdığına görə, qoşa minarələr ilk dəfə məhz bu məsciddə inşa olunmuşdur. Bu abidə də bizim dövrə qədər gəlib çatmamışdır.

Memar Əcəminin inşa etdiyi abidələrinin şöhrəti uzaq Suriyadan başlamış Hindistanadək olan ərazilərə yayıldığından hər yerdən yanına tələbələr gəlir və ondan memarlığın sirlərini öyrənirmişlər. Dövrün mənbələrində Əcəmiyə "Şeyx-ül-mühəndis", yəni "bütün mühəndislərin başçısı" deyilir. O, isə təvazökarcasına özünü "bənna" adlandırırmış.

Onun yaratdığı abidələr memarlıqda tamamilə yeni istiqamət olmuşdur və sonralar alimlər bu istiqamətə "Naxçıvan memarlıq məktəbi" adını vermişlər. Əcəmidən dərs almış şagirdləri də binalarını Naxçıvan memarlıq məktəbinin qanunları əsasında inşa etdirmişlər. Belə abidələr Naxçıvanın Qarabağlar kəndində, Bərdədə, Cənubi Azərbaycanın Marağa, Səlmas şəhərlərində indiyədək qorunur. XVI əsr məşhur osmanlı memarı Sinan xüsusi olaraq Naxçıvana gəlmiş və Əcəminin abidələri ilə tanış olmuşdur.

1186-cı ildə memar Əcəmi sənətinin zirvəsi sayılan Mömünə xatın türbəsinin inşasını başa çatdırır. Bu abidə indiyədək öz gözəlliyi ilə insanları valeh edir.

Mömünə xatın türbəsi Məhəmməd Cahan Pəhləvanın əmri ilə arvadı Mömünə xatının şərəfinə inşa edilmişdir. Türbə iki hissədən ibarətdir: yeraltı və yerüstü. Yerüstü hissənin hündürlüyü 34 metrdir və on bucaqlıdır, kərpic və gəclə işlənib. Türbənin divarları çöl tərəfdən kərpiclər ilə qurulmuş mozaika xarakterli ornamentlərlə bəzədilib. Ornamentlər arasında kitabələr yerləşdirilib ki, onların da üzərində Qurandan ayələr həkk olunub. Kitabələrin ümumi uzunluğu 500 metrə bərabərdir. Ornamentlər firuzəyi rəngli kaşıdan qurulub. Ornamentlərdə həndəsi fiqurlar kufi ərəb xətti ilə böyük ustalıqla birləşdirilib.

Alimlərin fikrincə əvvəl türbənin damı çadırvarı olmuşdur, lakin dövrümüzə qədər gəlib çatmayıb. Yerüstü hissənin iç tərəfdən tavanı günbəz formasındadır. İçəridə ortada böyük sütun qurulub və hər on divardan ona doğru tağlar aşırılıb. Bu üslubda binalar Avropada XIII əsrin sonu – XIV əsrin əvvəllərində inşa edilib və "qotik abidələr" adı ilə tanınır. Tavan üzərində mərkəzdə ornament, yanlarda daxillərində yazılar olan dörd medalyon, tavanla divarlar arasında isə kufi yazılar mövcuddur.

XIX əsr səyyahlarının rəsm və fotoşəkilləri sübut edir ki, türbənin yanında əvvəllər tağvarı keçidlə birləşdirilən qoşa minarə olmuşdur. Həmçinin türbədən bir az aralı böyük məscid və mədrəsə binaları varmış. Lakin onlar dövrümüzə qədər gəlib çatmamışdır.





Abidənin inşası zamanı memar yenə də arxitektonik sxemə vurğunluğunu nümayiş etdirmişdir. Lakin eyni zamanda Yusif ibn Küseyir türbəsinə nisbətən Mömünə xatın türbəsinin kompozisiyası daha təkmil, memarlıq formaları daha incə, ornamentlər isə daha təmtəraqlıdır.

Mömünə xatın türbəsi öz dövrü üçün şedevr əsərlərdən hesab edilirdi. Təsadüfi deyil ki, Mömünə xatından sonra Şərqdə bu üslubda oxşatma binalar inşa edilməyə başlanmışdır. Onların sırasında



Marağada Qunbad-e Kabud və Qunbad-e Surx türbələri, Dəmavənddə Şeyx Şibli türbəsi, Axanqanda (Məşhəd yaxınlığında) türbə, Əlincə çayı üzərində Şeyx Xorasan türbəsi indiyədək qalmaqdadır.

Şərq memarlığı və incəsənəti üzrə məşhur mütəxəssis M.V.Alpatov demişdir: "XII əsr ustalarının Naxçıvanda yaratdıqları Mömünə xatın türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Mömünə xatın türbəsi şərqin ən gözəl klassik əsərləri – Firdovsinin "Şahnamə" və Nizaminin "Leyli və Məcnun" əsərləri kimi əbədidir".

Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Əbubəkr oğlu Naxçıvani memarlıq sənətimizə riyazi təfəkkürlə bərabər, zəriflik, oynaqlıq, bədiilik gətirmişdir.



## NİZAMİ GƏNCƏVİ

**(1141-1209)**

Bədii və fəlsəfi təfəkkürümüzün işıqlı əbədiyyətini yaradan dahi şairimiz Nizami Gəncəvi, eyni zamanda, bütün bəşəriyyətə mənsub sənətkardır. Onun öz əsərlərində tərənnüm etdiyi, poetik zirvələrə ucaltdığı müqəddəs arzu və amallar, insanpərvərlik, əsl humanizm ideyaları hər bir şüurlu bəşər oğluna xas olan nəcib hisslərdir. Ona görə də bəşəriyyət və onun mədəniyyəti yaşadıqca Nizami də yaşayacaqdır. Nizami kimi sənətkarlar yalnız bir xalqa yox, ümumiyyətlə, bəşəriyyətə tarixlər boyu çox nadir hallarda nəsib olur.

Nizami Gəncəvi dünya ədəbiyyatında yeni dövr açmış, Yaxın və Orta Şərq xalqlarının bədii, etik, estetik, fəlsəfi təfəkkür tərzini işıqlandırıb istiqamətləndirmiş, mədəni həyatda güclü axın yaratmış və həmin axının məcrasını müəyyənləşdirmişdir. Ölməz sənətkarımız Nizami səkkiz əsrdən çoxdur ki, həm öz doğma Azərbaycan xalqının, həm də digər Şərq xalqlarının bədii-fəlsəfi yaradıcılığının örnəyi olaraq qalır.

Nizami Gəncə şəhərində doğulub, böyüyüb, yazıb-yaratmış və orada da dünyadan köçmüşdür. Nizaminin əsl adı İlyasdır. Onun atası Yusif, babası və böyük babası o zamankı Gəncənin ən yüksək ziyalı zümrəsindən olmuş, elmə, ürfana və mənəviyyat aləminə qulluq edən məşhur şəxsiyyətlər kimi tanınmışlar.

Nizami Gəncəvi həm ibtidai və orta, həm də ali təhsilini öz doğma, sevimli şəhəri Gəncədə almışdır. Onun Bağdada və ya başqa





elm mərkəzlərinə getməməsinin əsas iki səbəbi olmuşdur. Gənc İlyasın meyli olsaydı, bəlkə də ailəsi onu Bağdaddakı məşhur "Nizamiyyə"yə və ya başqa darülfünunlardan birinə göndərə bilərdi. Lakin şairin hələ cavanlıqdan seyr və səyahətə meyli, həvəsi olmamış, öz doğma şəhərini dəlicəsinə sevdiyi, öz el-obasının vurğunu, məftunu olduğu üçün vətənini tərk etməmiş və heç bir vaxt bu fikrə düşməmişdir.

O, sonralar əsərlərində insanın yalnız öz vətənində, doğma yurdunda xoşbəxt olacağını dəfələrlə qeyd etmişdir. "Sirlər xəzinəsi" poemasının sonunda şair doğma Gəncə şəhərinə olan çılğın məhəbbətini ata bilmədiyi bir boyunbağıya bənzədərək deyir: "Əgər Gəncə boynuma düyün salmış boyunbağı olmasaydı, mən İranın bütün xəzinələrini öz şeirlərimlə fəth edərdim...". Başqa sözlə, əgər şair öz doğma şəhərindən ayrılmaq qüdrətinə malik olsaydı, o, xilafətin mərkəzi Bağdada köçüb öz misilsiz söz-sənətilə böyük xəzinələr yığardı. Bundan əlavə, öz təhsilini davam etdirmək üçün uzaq elm və mədəniyyət mərkəzlərinə getməyə şairin heç ehtiyacı da olmayıb. "Sirlər xəzinəsi" poeması Nizami "Xəmsə"sinin digər poemalarından öz daxili quruluşuna və kompozisiyasına görə xeyli fərqlidir. Bu poemanı şairin o biri əsərləri ilə həmahəng edən vahid ideya və bədii məntiqdir. Həmin ideya, qayə və məqsəd Nizaminin bütün yaradıcılığının ana xətti olan dərin humanizm nəzəriyyəsi, insanpərvərlik təlimidir.

Bununla birlikdə "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" poemalarında şairin etik, estetik və humanizm nəzəriyyəsi dolğun şəkildə öz əksini tapır. Şairin əsas məqsədi oxucuları əxlaqi cəhətdən tərbiyə etmək, onlara həyat kamilliyi, alicənablıq, maddi nemətlər yaradanlara ehtiram, məhəbbət və ədalət hissləri aşılamaqdır. Şairin tərcümeyi-halının və əsərlərinin əhatəli tədqiqi sovet dönəmində bizim ölkədə başlamışdır. Bu sahədə çox işlər görülmüşdür. Lakin görülən işlər də istənilən səviyyədə və miqyasda deyil, həmçinin böyük şairin cahan şümul əhəmiyyətinə uyğun gəlmir. Məhz buna görədir ki, Azərbaycan hökuməti 1979-cu ildə Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşr və təbliği barədə xüsusi qərar qəbul etmişdir. Bu qərarın olduq-

ca böyük tarixi əhəmiyyəti vardır. İndiyə qədər Nizaminin nə dolğun elmi tərcümeyi-halı, nə də əsərləri kamil surətdə bərpa olunmayıb. Onu dünya ədəbiyyatındakı mövqeyi layiqincə açılıb göstərilməyib, əsərlərinin tərcümələri orijinal səviyyəsinə çatdırılmayıb.

Dahi Nizaminin tərcüməsinin öhdəsindən bir-iki nəsil gələ bilməz. Gələcəkdə də, əlbəttə, yeni-yeni tərcümələr ediləcək və bu tərcümələr elmi araşdırmalar baxımından çox faydalı töhfələr verəcəkdir. Ümumiyyətlə, Nizami Gəncəvinin əsərləri həmişə aktual olaraq, gələcək elitanın formalaşmasında böyük bir baza rolunu kəsb edəcəkdir. Bu nöqteyi-nəzərdən Nizami mövzusu nəinki bizim üçün, bütün bəşəriyyət üçün aktualdır. Cəmiyyətimiz Nizami Gəncəvi dühasının işığından daima bəhrələnərək, ardıcıl olaraq şairimizin misilsiz irsinin öyrənilməsi və təbliği ilə durmadan çalışır.

Nizami Gəncəvi Azərbaycan və dünya ədəbiyyatının fəxri və iftixarıdır. O, dünya ədəbiyyatı xəzinəsində özünə əbədi yer qazanan dahi və ölməz sənətkardır.

Nizami Gəncəvinin yaradıcılığı hələ sağlığında Azərbaycan, eləcə də Yaxın Şərq ədəbiyyatı və elmi fikri üçün nümunə olmuş, məhəbbətlə izlənilmişdir. Dahi mütəfəkkirin əsərləri bu gün də maraqla oxunur, insanları düşündürməkdə davam edir.




*Gəncə şəhərində Nizami Gəncəvinin məqbərəsi*







## NƏSİRƏDDİN TUSİ

**(1201-1274)**

Bağdadda İmam Musa İbn Kazimin məzarı ilə yanaşı bir qəbir var. Sinə daşının üstündə yazılıb: "Dinin və xalqın köməyi, elm aləminin şahı. Zamanın anası belə oğul yetirməyib". Burada adı eramızın elm salnaməsinə qızıl hərflərlə həkk edilmiş dahi Azərbaycan alimi və mütəfəkkiri, elmin astronomiya, həndəsə, triqonometriya, tibb və sair sahələrində sanballı əsərlər yaratmış Məhəmməd ibn Həsən Nəsirəddin Tusi uyuyur.

Çox haqlı olaraq "elm aləminin şahı" sayılan Məhəmməd Nəsirəddin Tusi 1201-ci ildə həmədan şəhərində anadan olmuşdur. İlk təhsilini atasından almış, sonra Həmədan və Tus şəhərlərində dövrünün tanınmış alimlərinin – İbn Sina və Bəhmənyarın davamçılarının yanında mükəmməl təhsil görmüşdür. Aldığı dərin biliklər Nəsirəddini az bir vaxtda elm aləmində məşhurlaşdırır. Hələ gənc ikən o, bir sıra hökmdarların diqqətini cəlb edir. Otuz yaşında ikən onu Kuhistan (Qəhistan) ismaililərinin rəhbəri Nəsirəddin möhtəşəm sarayına qonaq dəvət edir və gənc alimdən çox məşhur bir ərəb aliminin əxlaq haqqında yazdığı kitabı ərəb dilindən fars dilinə tərcümə etməsini xahiş edir. Nəsirəddin Tusi isə cavab verir ki, belə bir kitabı o özü yaza bilər. 1235-ci ildə N.Tusi sonralar ona dünya şöhrəti gətirən və bir çox dillərə tərcümə edilən məşhur "Əxlaqi-Nasiri" əsərini tamamlayıb hökmdara təqdim edir. Lakin kitab, nədənsə, hökmdarın xoşuna gəlmir və Tusi həbs olunaraq "Ələmut" ("Qartal yuvası") qalasına aparılır. 20 ildən artıq müddətdə keçirdiyi dözül-

məz sürgün şəraitində bir neçə elmi əsər yaradır. 1242-ci ildə məşhur "Şərhül-İşarət" (əbu əli ibn Sinanın "İşarət" adlı fəlsəfi risaləsinə şərhlər) əsərini tamamlayır. 1253-cü ildə Çingiz xanın nəvəsi Hülakü xanın Yaxın Şərqə yürüşü başlanır. Onun qoşunları fətholunmaz sayılan "Ələmut" qalasını da tutur. Nəsirəddin Tusinin və digər məhbus alimləri azad edirlər.

N.Tusi Hülakü xanın şəxsi məsləhətçisi təyin olunur. Elə ilk günlərdən Tusi Hülakü xanın bir çox vacib siyasi tədbirlərinin həyata keçirilməsində fəal iştirak edir. Məsələn, uzun müddət müsəlman dünyasının müqəddəs şəhəri sayılan Bağdada hücumundan çəkinən Hülakü xan yalnız Nəsirəddinin elmi cəhətdən əsaslandırılmış fikirlərindən sonra bu addımı atmağa cürətlənir. Beləliklə də, Abbasilər sülaləsinin 500 illik hökmdarlığına son qoyulur.

Bağdad ələ keçirildikdən sonra Hülakü xan öz möhtəşəm dövlətinin paytaxtını Azərbaycanda qərarlaşdırır. İlxanilər adlanan yeni dövlətin başçıları "İlxan" (el xanları) idi. Hülakü xan əvvəlcə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Marağanı, sonra isə Təbrizi öz dövlətinin paytaxtı seçir. Elə həmin vaxt N.Tusi Marağa rəsədxanasının tikintisinə başlayır. Rəsədxananın tikintisi 1259-cu ildə Marağa şəhərinin yaxınlığında, təpənin döşündə uzunluğu 350 metr, eni 150 metrədək olan sahədə başlanır. N.Tusi rəsədxananın layihələndirilməsində şəxsən iştirak edir. Görkəmli astronom və konstruktor Müəyyədəddin Ordu ilə birlikdə onlar rəsədxanada beş yeni, bir o qədər də köhnə konstruksiyalı astronomik cihaz quraşdırırlar.

Elm aləminin şahı olan N.Tusi astronomiya, fizika, tibb, tarix, mineralogiya, riyaziyyat, iqtisadiyyat, coğrafiya, musiqi və s. elm sahələrində 100-dən artıq əsərin müəllifidir. Onun əsərləri dünyanın müxtəlif ölkələrinə səpələnmişdir. Bunlara Bakı, Paris, Berlin, Vyana, Oksford, Kembric, Leypsinq, Münhen, Florensiya, Qahirə, İstanbul, Moskva, Kazan, Sankt-Peterburq və b. şəhərlərinin muzey və kitabxanalarında rast gəlmək mümkündür.





Dahi Azərbaycan alimi N.Tusi 1274-cü ildə Bağdadda vəfat etmiş və orada "Came Məscid"ində dəfn olunmuşdur. Onun üç oğlu olub: Əsiləddin Həsən, Fəxrəddin və Sədrəddin Əli.

N.Tusinin vəfatından sonra 3-cü oğlu uzun müddət rəsədxanaya rəhbərlik etmişdir. XIV əsrdə N.Tusinin nəvə-nəticələri Marağadan Ordubada köç etmişlər. Səfəvilər dövründə onlar bir sıra dövlət vəzifələrində çalışmışlar.

Ölkəmizdə N.Tusiyə və onun elmi yaradıcılığına böyük diqqət və məhəbbət vardır. Tusinin elmi məktəbini onun adını daşıyan Azərbaycan EA-nın Şamaxı astrofizika rəsədxanasının istedadlı alimləri davam etdirirlər. Böyük alimin adı respublikamızda əbədiləşdirilib. Dahi alimin anadan olmasının 800 illiyi YUNESKO xətti ilə bütün dünyada, o cümlədən, ölkəmizdə də qeyd edildi.

Dahi Azərbaycan alimi N.Tusinin 800 illik yubileyi ilə əlaqədar olaraq mətbuat səhifələrində, qəzet və jurnallarda çoxlu sayda məqalələr və materiallar dərc olunmuşdur. Bu, çox sevindirici və təqdirəlayiq hadisədir.



*N.Tusi adına Şamaxı rəsədxanası*



# MƏHƏMMƏD FÜZULİ

(1494-1556)

Məhəmməd Süleyman oğlu Füzuli, Azərbaycan-Türk ədəbiyyatı tarixində Divan ədəbiyyatının ən möhtəşəm nümayəndələrindən biridir. Azərbaycan, ərəb və fars dillərində çoxlu sayda epik və lirik, mənzum və mənsur, elmi və bədii əsərlər yaratmışdır.

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatının Nizami Gəncəvidən sonra yetirdiyi ikinci ən böyük söz ustası, dahi sənətkarı və mütəfəkkir şairidir. Ədəbiyyat tariximizdə yaranan ikinci ən böyük ədəbi məktəb də məhz Füzulinin adı ilə bağlıdır. Füzuli ədəbi məktəbi, başlıca olaraq, ana dilimizdə həm lirik şeirlər (əsasən qəzəl), həm epik əsərlər ("Leyli və Məcnun" üslubunda yazılan poemalar) yazılması ilə səciyyələnir. XVI əsrin ikinci yarısından başlayaraq günümüzə qədərki bir zaman çərçivəsində Azərbaycan ədəbiyyatı, əsasən, Füzuli işığında inkişaf etmişdir. Füzulidən sonra yaşanan bir sıra şairlər böyük söz ustadının ənənələrini davam etdirərək, həm incə ruhlu qəzəllər, həm də dərin fəlsəfi məzmunlu poemalar yaratmışlar.

Füzuli türkcə divanının giriş hissəsində qeyd etdiyi kimi, yaradıcılığa çox erkən – hələ mədrəsədə oxuyarkən başlamışdır. Şairin ilk qələm təcrübəsi aşiqanə qəzəllərdən ibarətdir. "Bəngü Badə" (Tirnəy və Şərab) və "Söhbətül-əsmar" (Meyvələrin söhbəti) də ilk əsərlərindən sayılır. Şairin ərəb dilində əsərləri cəmi on iki qəsidədən və "Mətləül-etiqad" (İnamın başlanğıcı) adlı elmi-fəlsəfi əsərindən ibarətdir. Füzuliyə ən çox şöhrət qazandıran əsərləri ana dilində yazdığı qəzəlləri və "Leyli və Məcnun" poeması dır. Şair əsərlərinin





çoxunu nəzmlə yazmışdır: ana dilində divan; farsca divan; türkcə, farsca və ərəbcə qəsidələr divanı; "Leyli və Məcnun", "Bəngü Badə", "Söhbətül Əsmar", "Həft Cam" və ya "Saqinamə".

*Füzulinin lirik şeirləri və poemaları yalnız klassik üslubda* – əruz vəznindədir. Şair klassik şeirin əksər janrlarında qələmini sınamış və ümumi sayı mindən çox olan qəzəl, qəsidə, rübai, qitə, mürəbbe, müxəmməs, müsəddəs və s. yazmışdır.

Füzulinin ana dilində yazdığı "Su", "Gül", "Xəncər", "Eylər", "Qələm" rədifli qəsidələri yüksək peşəkarlıq xüsusiyyətləri ilə seçilir. Şairin ən məşhur qəsidələrindən olan "Su" sonuncu peyğəmbərə – Həzrəti Məhəmmədə (s.ə.v.) həsr olunmuşdur.

Füzulinin lirik şeir yaradıcılığında qəzəl janrı xüsusi yer tutur. Azərbaycan ədəbiyyatında qəzəl janrının ustadı Füzuli sayılır. Şairin qələmindən çıxmış qəzəlləri klassik poeziyanın zirvəsi, ən kamil nümunələridir. Füzulinin lirik şeirdə qəzələ üstünlük verməsi, ilk növbədə, bu janrın şairin təbiətinə və ruhuna daha çox uyğun gəlməsi ilə izah edilir. Onun qəzəllərinin əsas mövzusu məhəbbətdir. Qəzəllərinin lirik qəhrəmanı saf sevgi duyğuları ilə yaşayan vəfalı və sədaqətli aşiqdir. Şair eşqdə, məhəbbətdə Məcnundan da üstün olduğunu *iftixar hissi ilə bildirir:*

Mən də Məcnundan füzun aşiqlik istedadı var,
*Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var...*

Füzuli qəzəllərindəki eşq, məhəbbət geniş məna daşıyır. Bu eşq həm gözələ bəslənilən saf sevgi duyğuları, həm həyata, bəşərə olan vurğunluqdur, həm də İlahi məhəbbətdir. Məhz buna görə də Füzuli qəzəllərindəki bu incəliyə xüsusi diqqət yetirməli və məhəbbət anlayışının daşıdığı rəngarəng məna çalarları nəzərə alınmalıdır. Məsələn, sufi şairlərin yaradıcılığında olduğu kimi, Füzuli qəzəllərində də bir çox hallarda "canan", "yar", "dilbər" sözləri təkcə sevgiyə yox, eyni zamanda, Allaha müraciətlə işlənmişdir.

Füzuli ədəbiyyatımızda həm də alleqorik əsərlərin gözəl nümunələrini yaradan bir sənətkar kimi tanınır. Şairin "Bəngü Badə", "Söhbətül Əsmar", "Yeddi cam" poemaları və "Səhhət və Mərəz" adlı nəsr əsəri alleqorik məzmun daşıyır. Ümumiyyətlə, Füzuli alleqorik əsərlərində müxtəlif cansız əşyaları şəxsləndirməklə lovğa,

dikbaş və təkəbbürlü adamların aqibətini göstərir. Şair bu yolla dövrünün lovğa və dikbaş xasiyyətli hakimlərinə ibrət dərsi vermək istəyir.

"Leyli və Məcnun" poeması Füzuli yaradıcılığının zirvəsi və nadir sənət abidəsi sayılır. Ədəbiyyat tariximizdə Füzulidən qabaq və sonra da bir sıra Azərbaycan şairləri "Leyli və Məcnun" poemasını qələmə almışlar. Lakin Füzulinin Leyli və Məcnun poeması ən dəyərli və ölməz bir sənət əsəridir. Bu əsər 1537-ci ildə Füzuli tərəfindən Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə ithaf olunaraq yazılmışdır. Əsər aşiqanə romantik poemadır və ənənəyə uyğun olaraq, məsnəvi şəklində yazılmışdır. Poemada aşılanan fikri, ideyanı daha da təsirli etmək üçün Füzuli əsərə lirik şeirlər də daxil etmişdir. "Leyli və Məcnun" poeması yüksək bədii xüsusiyyətləri ilə seçilən bənzərsiz sənət əsəridir. Yarandığı dövrdən Azərbaycanda, eləcə də türkdilli xalqlar ədəbiyyatında geniş yayılmış və böyük şöhrət qazanmışdır. Poemadan əsrlər boyu Azərbaycan mədrəsələrində dərs vəsaiti kimi istifadə olunmuşdur, ziyalılar onu əzbər bilmişlər. Dahi bəstəkarımız Üzeyir Hacıbəyov 1908-ci ildə Şərqdə ilk opera olan "Leyli və Məcnun"u Füzulinin bu poeması əsasında yaratmışdır.

Dövrünün nəhəng şairi Füzulinin şöhrəti bütün dünyanı bürümüşdür. Onu "Soltanüşşüara" (şairlərin sultanı) adlandırmışlar. Sadəcə şairlərin deyil, şeirin də sultanıdır.

Füzuli iç dünyasının zəngin qaynaqlarından fışqıraraq hiss və duyğularını lirik bir dillə şeirə almış, sünilikdən uzaq bir şairdir. Bu şeirlər qüvvətindən heç nə itirməyərək əbədi bir an kimi zəmanəmizə qədər gəlib çıxmışdır, özündən sonra gələnlər yüz illər boyu onun təsiri altında olmuşlar.

Divan ədəbiyyatının bu böyük ustadı əsərlərində öz taleyindən bəhs etməmiş, həyatı qaranlıq qalmışdır. Doğulduğu yer belə dəqiq bilinmir. Son araşdırmalar Xilədə deyil, Kərbəlada doğulduğunu sübut edir. Doğulduğu tarix də dəqiq bilinmir. Amma o, bütün bu qaranlıqlar içində günəş kimi parlayır.







## ŞAH İSMAYIL XƏTAİ

(1486.14.07 – 1524.23.05)

Azərbaycan Səfəvilər dövlətinin tarixi ilə bağlı qaynaqlar bu dövlətin türklərə məxsus olduğunu sübuta yetirir. Şübhəsiz ki, Səfəvilər qeyri-türk dövlətləri ola bilməzdilər. Ən azı ona görə ki, dövlət Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin əsasını təşkil edən türk tayfalarını vahid bir mərkəzdə birləşdirən şərəfli missiyanı həyata keçirmişdi. Dövlətin qurucusu hesab edilən I Şah İsmayılın qeyri-türk nümayəndəsi olması barədə ermənilər də ortalığa fikir atırlar. Əcaba, tarixi məmləkəti olmayan ermənilərlə eyni cür düşünən hazırkı "Azərbaycan türklərinə" nə ad vermək olar? Şah İsmayılı gah kürd və ya başqa millətin nümayəndəsi kimi qələmə verən bu insanlar azacıq da olsa tarixi həqiqətləri bilərəkdən və ya bilməyərəkdən təhrif edən, bununla Azərbaycanın çoxsaylı düşmənlərinə qulluq edənlərə çevrilənlərə cavab vermək üçün bu mövzuya toxunmağı lazım bildik.

Azərbaycan Səfəvilər dövləti Şeyx Səfiəddindən (1252-1332) başlanan nəslin nümayəndəsi tərəfindən yaradılmışdır. Bu nəsil Ərdəbildə köklü türk idilər və 1254-cü ildən başlayaraq Ərdəbildə həm dini, həm də mülki hakimiyyətə malik idilər. Onlar İslam dininin şiə məzhəbini təbliğ edirdilər. Şeyx Səfiyəddin nəslindən olanlar 12 İmamın şərəfinə əmmamələrinə 12 qırmızı zolaq bağladıqlarına görə "Qırmızıbaşlılar" adlanırdı. Buna müvafiq olaraq, səfəvilərə hərbi qüvvə ilə kömək edən türk tayfalarına da "Qızılbaşlar" deyilirdi. 13

yaşlı İsmayıl 1499-cu ildə Kiçik Asiyada yaşayan və Türkiyənin sünni təriqətinə mənsub hökmdarlarının hakimiyyətindən narazı olan türk oğuz tayfaları içərisində təbliğat apararaq öz tərəfinə çəkdi və məhz onların köməyi ilə hakimiyyət uğrunda mübarizəyə başladı. Ağqoyunlu dövlətinin dağılması dövrünə təsadüf etmiş bu mübarizə 1501-ci ildə 15 yaşlı İsmayılın hakimiyyətə gəlməsi ilə nəticələndi. Bu dövlət Azərbaycan tarixində Səfəvilər və ya Qızılbaşlar adları ilə tanınır. Səfəvilərə səlcuqlar və monqollarla ön Asiyaya gəlmiş türk tayfaları da kömək edirdilər. İlk əvvəl bu tayfalar Anadoluda yaşayan Bayat, Şamlo, Rumlu, Ustaclı, Təkəli, Zülədər, Əfşar və Qacar tayfalarından ibarət idi.

Azərbaycan xalqının etnik tarixində Səfəvilər dövlətinin rolu böyükdür. Əvvələn, bu dövlətin yaranması ilə Azərbaycanın hər tərəfini əhatə edən qurumu təmin olundu. İkincisi, Azərbaycan dili çox geniş bir ərazidə dövlət dilinə çevrildi. Və bu dildə ədəbiyyat yaranmağa başladı. Dövlətin banisi Şah İsmayıl Xətainin özü də bu dildə əsərlər yazırdı. Səfəvilər dövründə böyük nüfuza malik olmuş Əfşar və Qacar tayfaları sonrakı əsrlərdə də Azərbaycanın cənubunda və İranda hakimiyyət uğrunda mübarizədə başlıca rol oynadılar. Şah İsmayıl Xətai xalqın nəzərində ictimai əsasları yeniləşdirəcək, xalqın mənafeyi uğrunda çarpışacaq mübariz İmam Mehdi simasında idi. Ölkədə Səfəvilərin başçılığı ilə Qızılbaş tayfalarının hərəkatı Azərbaycanın feodal baxımından birləşdirilməsi səciyyəsi daşıyır. Lakin sonralar siyasi şərait səfəvilərin qarşısında daha böyük missiyalar qoydu. Səfəvilər dövlətinin başçısı I Şah İsmayılın daxili və xarici siyasəti hakim feodal sinfin, ilk növbədə isə Azərbaycan Qızılbaş tayfaları əyanlarının mənafeyinə xidmət edirdi.

Səfəvilər dövründə – Azərbaycan ərazisi şah canişinləri – bəylərbəyilər tərəfindən idarə olunan vilayətlərə bölünmüşdü. Bəylərbəyilər yalnız Azərbaycan hərbi əyanları tərəfindən təyin edilmirdilər. Onlar öz məmurları tərəfindən əhalidən yığılan vergiləri xəzinəyə göndərir, müəyyən miqdarda hərbi qüvvə saxlayırdılar.

Bəylərbəyilər şahın əmri ilə hərbi yürüşlərdə iştirak etməyə borclu idilər. Qüdrətli Qızılbaş əyanları, bəylərbəyi, əmir-əl-imarə





və haşim kimi vilayətləri çox vaxt irsi olaraq idarə edirdilər. Misal üçün, Qarabağ və Astrabad Qacar tayfasının, Şirvan və Çuxursədd Ustaclı tayfasının, Təbriz Tənəli və Tükrman tayfalarının, fars vilayəti Zülqədar tayfasının, Kirman Əfşar tayfasının, Həmədan Tənəli tayfasının nümayəndələri tərəfindən idarə olunurdu. Şərh edilənlərdən görünür ki, mərkəzdə və yerlərdə hakimiyyət Azərbaycan hərbi feodallarının əlindədir. Farslar və etnik qruplar isə əsasən maliyyə işlərində, məhkəmədə və dəftərxanada təhkim olunmuşdular. Qulluq adamlarına məvacib daha çox tiyim, bəzi hallarda isə soyulqal verilməsi ilə həyata keçirilirdi. Bəzi vəzifəli şəxslərə rəiyyətdən vergi şəklində alınan daimi rüsum hüququ verilmişdi. Qızılbaş ordusu müharibələr zamanı əyalət hakimlərinin – bəylərbəyilərin yığma qoşunlarından təşkil edilmişdi. Müharibələr zamanı əməliyyatlarda 60-70 minə yaxın Qızılbaş qoşunu iştirak edirdi. Venetsiyalı Minadon hesab edirdi ki, əgər bütün əyalətlərin hakimləri öz qoşunlarını mərkəzi hökumətin çağırışı ilə toplasaydılar, səfəvilər ordusunun sayı 130-140 minə çata bilərdi. Beləliklə, I şah İsmayıl Xətainin yaratdığı Səfəvilər imperiyası Yaxın və Orta şərqdə yeni bir qüdrətli türk dövlətinin varlığını ortaya qoydu. Yuxarıda sadalanan faktlar tarixi qaynaqlara istinadən verilmiş məlumatlardır. Bütövlükdə I Şah İsmayıl və onun şəxsiyyəti barədə kiçik bir məqalə həcmində məlumatın verilməsi mümkün olmasa belə, hər halda onun əslən Azərbaycan türkü olmasını sübuta yetirən faktları göstərməyə çalışdıq. Şah İsmayıl Xətainin yaratdığı dövlətin Azərbaycanın ərazi bütövlüyü baxımından əhəmiyyəti misilsiz dərəcədə böyükdür.



## İMADƏDDİN NƏSİMİ

(1369-1417)

Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi ədəbiyyat tariximizdə anadilli şeirin əsasını qoymuş, məhəbbət və gözəllik nəğməkarı kimi şöhrət tapmışdır. Onun ağıl-fikir nümunəsi olan şeirləri dünyaya və həyata yeni bir münasibət və düşüncənin bədii ifadəsidir, insan və onun mənəvi əzəməti haqqında yazılmış himndir.

Seyid Əli İmadəddin Nəsimi 1369-cu ildə əski şeir sənət beşiyi Şamaxıda gözlərini dünyaya açdı. Böyüdü, boya-başa çatdı, uşaqlıqdan ozan-aşıq sənətinə vuruldu, elmlərdən öz payını götürdü. Ustad alim və loğmanlardan dərs aldı. Balaca Əli ilhama gələrək "Seyid", "Hüseyni" və "Nəsimi" təxəllüsləri ilə incə, zərif nəğmələr qoşmağa başladı. Ancaq məsləkdaşı Fəzlullah Nəiminin (1340-1394) təxəllüsü ilə həmahəng səslənən Nəsimi təxəllüsünə daha çox sadiq qaldı.

İmadəddin (dinin, dirəyi) isə Nəsiminin ləqəbidir, ona hörmət əlaməti olaraq verilmişdir. Qaynaqlarda da şair Nəsimi, seyid Nəsimi, İmadəddin deyə anılır.

Orta yüzilliklərin bəzi qaynaqlarında Nəsiminin Bağdadın Nəsim adlı yerində, Bursada, Təbrizdə anadan olduğu göstərilir. Ancaq onun Şamaxıda dünyaya gəldiyini göstərənlər də vardır. Nəsiminin yaşadığı dövrdə Azərbaycanda Teymurilərə qarşı üsyanların ardı-arası kəsilmirdi. Bu üsyan və mübarizələr nəticəsiz qalmadı. Azərbaycanda müstəqil siyasət yürüdən Qaraqoyunlu dövləti hakimiy-





yəti ələ aldı. 1408-ci ildə Qara Yusif Miranşah və Şahruxun teymuri qoşunlarını məğlubiyyətə uğratdı və bu müharibədə Miranşah da öldürüldü.

Belə ağır dövrdə yaşayan Nəsimi 1394-cü ildə Bakıda Nəimi ilə görüşərək ondan hürufilik təriqətini qəbul edir və bu zamandan da başlayaraq hürufili ruhunda şeirlər yazaraq hər yerdə yayır. Siyasi-fəlsəfi şeirlərində hürufi fikirlərini qələmə alaraq cəsarətli, qabaqcıl ideyalar təbliğ edir, ömrünü yollarda, səfərlərdə keçirir, acı və işgəncəli bir həyat sürür.

Nəsimi ilə görüşən türk şairi Rəfii "Bəşarətnamə" kitabında doğma şairimizə ümumxalq məhəbbətini ifadə edərək ona yüksək qiymət verir. Nəsiminin eşq şəhidi, gizli sirləri qorxmadan yayan bir sənətkar kimi çox sevildiyini ürək dolusu və sevinclə qələmə alır. Eyni zamanda bu böyük ağıl və zəka sahibinin aylar və illərlə zindanda yatdığını ürək ağrısı ilə bildirir.

I Sultan Muradın zamanında Bursa və Anadoluda hürufilik ciddi şəkildə cəzalandırılırdı. Belə bir vaxtda Nəsimi orada çox qala bilməzdi. O, təqibdən yaxasını qurtarmaq üçün həyatının son çağlarında Hələb şəhərinə gedib çıxır.

Beləliklə, 1417-ci ildə Nəsimi Hələbdə faciəli şəkildə öldürüldü. Şairin qəbri bu gün də ziyarətgah sayılır və onun qəbrini ziyarətə gələnlərə hörmət və ehtiram əlaməti olaraq "Nəsimi" adı verilir.

Nəsimidən danışan bütün bu müəlliflər onu eşq fədaisi, qorxmaz və mübariz bir şair-mütəfəkkir kimi səciyyələndirirlər.

Azərbaycan poeziyası tarixində Nəsimi siyasi-fəlsəfi şeirin ilk böyük nümayəndəsidir. Onun əsərlərində poetik fikirlə fəlsəfi fikir birləşir, fikir, mühakimə hissə, duyğuya üstün gəlir. Şair insana yeni münasibət bəsləyir, ictimai ədalət və həqiqət axtarır. Nəsiminin bütün əsərləri insan və onun gözəlliyi, səadəti haqqında yazılmış himnlərdən ibarətdir. Öz yaradıcılığını xalqın taleyi və azadlıq arzuları ilə bağladığına görə onun şeirləri yeni ruhu və nəfəsi ilə seçilirdi.

Bədii söz sənətinin solmaz, gözəl incilərini yaradan Nəsimi Azərbaycan ədəbiyyatı tarixinə yeni bir üslub, deyim tərzi gətirmiş, poeziyamızı yeni surət və lövhələrlə zənginləşdirmişdir. Onun həyat

sevgisi və duyğularını əks etdirən nəğmə və şərqiləri məzmunca da, dil-üslubca da səmimi və aydındır. Şairin şeirlərində işlətdiyi məcaz, bənzətmə və bədii mübaliğələr çox, əlvan və rəngarəngdir. Ana dilindən alınan bu bədii ifadələr canlı dilimizin özü kimi aydın və gözəldir, bulaq suyu kimi saf və şəffafdır, dəniz incisi kimi parlaq və dəyərlidir.

Nəsimi yaradıcılığında insan gözəl, sevimli və ucadır. Onun ağlı və idrakı ilə yanaşı, zahiri aləmi də öz təravəti və gözəlliyi ilə seçilir. Nəsimi bu qənaətə gəlmişdir ki, insan həm incidir, həm sədəfdir, həm yaradıcıdır, həm qızıl güldür, həm yasəməndir. Bütün gözəlliklər, varlıq, yer və göy ona xidmət üçün yaranmışdır. İnsansız bütün aləm mənasız və miskin görünə bilər.

Nəsimi şeirinin ictimai-fəlsəfi cəhətdən zəngin ideya ənənələri xalqların ədəbi inkişafına, insan kamalı, insan gözəlliyi haqqında ahəngdar bədii nümunələr gətirmiş, ədəbi inkişafa yeni istiqamət vermiş, şeirin həyatla əlaqələrini gücləndirmişdir. Nəsimi şeirinin ənənələri yalnız Azərbaycan ədəbiyyatının deyil, bir sıra digər türkdilli xalqların bədii və ictimai fikrinin inkişafı üçün çox əhəmiyyətli olmuşdur. Bir çox görkəmli söz ustaları Nəsiminin insanpərvərlik lirikasında, onun azadlıq meylləri, dünyəvi məhəbbət və gözəllik mövzularındakı şeirlərində öz daxili-mənəvi aləmlərinə doğma fikirlər, ideyalar, duyğular tapmışlar və Nəsimi şeirini məhəbbətlə oxumuşlar.

Nəsimi yaradıcılığı Azərbaycan bədii və fəlsəfi fikri tarixində yeni bir hadisədir. Şairin öz zəmanəsindən başlayaraq, bu günə qədər onun parlaq istedadı, humanist ideyaları haqqında qiymətli mülahizələr irəli sürülmüş, bir sıra dəyərli məqalə və əsərlər yazılmışdır.







## QƏTRAN TƏBRİZİ

**(1012-1088)**

XI əsrdə Azərbaycan ədəbiyyatı, əsasən, saraylarda inkişaf etmişdir. Buna görə də XI əsrin, eləcə də sonrakı yüzilliyin ədəbiyyatı, daha çox saray ədəbiyyat adı ilə tanınır. Saray ədəbiyyatında ölkədə baş vermiş tarixi hadisələrin təsviri və hökmdarların tərifi mövzuları əsas yer tuturdu.

XI əsr saray ədəbiyyatının ilk görkəmli nümayəndəsi Qətran Təbrizidir. O, Təbriz yaxınlığında doğulmuş, gənc yaşlarında Gəncəyə gələrək, bir müddət burada Şəddadilər sarayında yaşamışdır. Şair sonradan Təbrizə qayıdaraq, ömrünün çoxunu Rəvvadilər sarayında keçirmiş və bu şəhərdə vəfat etmişdir. Farsca lirik şeirlər toplusu "Divan"ı və "Ət-təfasir" (İzahlar) adlı farsca izahlı lüğəti vardır. Qətran Təbrizinin şeirlərinin çoxu mədhiyyələrdir. Şairin lirik şeirlərində məhəbbət və vətənpərvərlik mövzuları, eləcə də fəlsəfi fikirlər və təbiət təsvirləri də geniş yer tutur. Lirik şeirləri qəsidə, qəzəl və rübai janrlarındadır.

Şair Şəddadilər sülaləsinin hökmdarı Əbülhəsən Əli Ləşkəriyə (1030-1050), Təbriz zəlzələsinin təsvirinə, Azərbaycan hökmdarlarına şeirlər həsr etmişdir:

***

Şöhrətinlə bir əmir tək vermisən şöhrət bizə,
Bəxş qıldın sən qızıl tək fəxr ilə zinət bizə.

***

Şeirimin bir beytini əzbərlədin, bəsdir mənə,
Bir cahan şadlıq verib göndərdiyin xələt bizə.

***

Könlümüzdən silmisən bu lütf ilə qəm-qüssəni,
Verdin öz yüksək adınla ölkədə izzət bizə.

***

Bir nəzər salmaqla könlüm sığmayır bu köksümə,
Aləmin ağuləri olmuş bütün şərbət bizə.

***

Ləşkərisən dəhrdə, var ol həyat durduqca sən,
Verdin ulduzlar qədər dünyadəki qiymət bizə.







## ƏFZƏLƏDDİN XAQANİ

**(1126-1199)**

Əfzələddin Xaqani XII əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndəsidir. Əsl adı İbrahim, ləqəbi Əfzələddin, təxəllüsü Xaqani, nisbəsi Şirvanidir. Şamaxıda doğulan İbrahim əmisi İbn Osmanın sayəsində oxumuş, gənc ikən Şirvanşahlar sarayına dəvət edilmişdir. Sarayda Xaqani təxəllüsünü alan şair xaqan Mənuçöhrə qəsidələr yazmış və böyük şöhrət qazanmışdır. Lakin şair özü ilə saray arasında ziddiyyət olduğunu görmüş və oradan uzaqlaşmaq istəmişdir. O, Şamaxıda yaşayarkən, iki dəfə həbs olunmuş və şəhərdən sürgün edilmişdir. Xaqani iki dəfə Şərq ölkələrinə səfərə çıxmış və Məkkəni ziyarət etmişdir.

1176-cı ildə Təbrizə köçən şair ömrünün sonunadək orada yaşamışdır.

Xaqaninin 17 min beytlik şeirlər "Divan"ı, "Töhfətül-İraqeyn" (İki İraqın töhfəsi) poeması və nəsrlə yazılmış 60-dan çox bədii məktubu vardır. Lirik şeirləri qəzəl, qəsidə, rübai və qitələrdən ibarətdir. Xaqani yaradıcılığında qəsidə janrı xüsusi yer tutur. Şair bu janrın ustadı sayılır. Ən məşhur qəsidələri "Mədain xərabələri" və "Qəsideyi-şiniyyə"dir ("Şin" hərfi ilə bitən qəsidə). "Mədain xərabələri" adlı qəsidəsi ictimai-fəlsəfi məzmunludur. Vaxtilə əzəmətli paytaxt olmuş Mədain şəhərinin indi xarabaya dönməsini görən şair bunun səbəbini zülmdə görmüşdür. Üzünü dövrün şahlarına tutan Xaqani bu hadisədən ibrət dərsi almağa çağırır:

Biz ədl sarayıykən zülm ilə xarab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək döran.

"Qəsideyi-Şiniyyə" adlı qəsidəsində şairin əxlaqi görüşləri ifadə olunmuşdur. Məhəmməd Füzuli "Ənisül-qəlb" (ürək dostu) adlı qəsidəsini bu əsərə cavab şəklində yazmışdır.

Xaqaninin şeirlərində doğma yurda məhəbbət hissləri güclüdür. Şair bəzən Şirvan sözünü "şərvan" (şər yurd) kimi mənalandırsa da, əsərlərində Şirvanı, Şamaxını "doğma yurd", Təbrizi isə "ümidim", "pənahım" adlandırmışdır.

Xaqaninin "Töhfətül-İraqeyn" məsnəvisi ədəbiyyatımızda ilk poemadır. "Töhfətül-İraqeyn" lirik poemadır. Əsərin lirik qəhrəmanı şairin özüdür. Əsərdə vahid süjet xətti yoxdur. Poemada şairin uşaqlıq və gənclik illəri ilə bağlı xatirələri və səfər təəssüratları öz əksini tapmışdır. Şairin həbsdə olarkən yazdığı "Həbsiyyə" adlı şeirlər silsiləsi də məşhurdur.

Xaqaninin əsərləri dərin humanizmi, zülmə qarşı kəskin qəzəbi və yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Şairin əsərləri, əsasən, fars dilindədir (ərəb dilində yazdığı əsərləri də vardır).

Əfzələddin Xaqani 1199-cu ildə Təbrizdə vəfat etmiş və Sürxab qəbiristanlığında dəfn olunmuşdur.

Qaçmaq fələkdən indi nə mümkün, kaman çəkir,
Dünya xarablaşır, hamı ondan aman çəkir.

Olma fələklə dost, deyil xoş təbiəti,
Tərk et cahanı, burda qalan əlaman çəkir.

Dünya bəzəkli bir ilana oxşayır ki, o,
Üzdən gözəldir, aləm içindən ziyan çəkir.

Əhrimən oldu cümlə mələklər zəmanədə,
Öz dərdinə qal, özgə, ayaqdan yaman çəkir.

Xaqani, ağlama ki, sənin ahü şüvənin,
Dəhrin sazında nəğmə yerinə fəqan çəkir.







## QAZİ BÜRHANƏDDİN

**(1344-1398)**

Klassik Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri Qazi Bürhanəddindir.

Qazi Bürhanəddinin əsl adı Əhməddir, oğuzların Salur boyundandır. 1344-cü ildə Qeysəriyyə şəhərində qazı ailəsində doğulmuşdur. İlk təhsilini doğma şəhərində alan Qazi sonradan Misirdə və Şamda (Dəməşqdə) da oxumuşdur. 1365-ci ildə Qeysəriyyəyə gələn Qazi burada qazilik rütbəsini almışdır. O, 1381-ci ildən ömrünün sonunadək hökmdar olmuşdur. Hakimiyyətdə olduğu illərdə bir sıra yürüşlərdə olmuş, zəfərlər qazanmışdır. Qazi Bürhanəddin 1398-ci ildə Ağqoyunlu hakimlərindən Qara Yülük Osman bəylə döyüşdə öldürülmüşdür. Qazi Bürhanəddin saray tarixçisi Əziz ibn Ərdəşirin "Bəzmü-Rəzm" (Qonaqlıq və döyüş) əsərində hökmdarın həyatı və döyüşləri geniş şəkildə təsvir olunmuşdur.

"Sərdar şair" kimi ad çıxarmış Qazi Bürhanəddin tarixdə həm igid və döyüşkən bir hökmdar, həm də incə qəlbli şair kimi tanınır. Qazinin ana dilində yazdığı mükəmməl divanı günümüzə qədər gəlib çıxmışdır. Bu divan ana dilimizdə yazılan və əldə olunan ilk divan sayılır. Şairin ərəb dilində yazdığı "Səadət iksiri" və "Seçilmiş izahlar" adlı dini-fəlsəfi əsərləri də vardır.

Qazi Bürhanəddin yalnız lirik şeirlər yazmışdır. Şeirləri qəzəl, rübai və tuyuğ janrlarındadır. Şairin şeirlərində lirik qəhrəmanın könül dünyasının bədii təsviri əsas yer tutur. Qazi şeirlərinin əsas

səciyyəvi xüsusiyyətlərindən biri nikbinlik və sevinc hisslərinin qabarıq şəkildə ifadəsidir.

Maraqlıdır ki, şair qəzəllərinin heç birində təxəllüsünü işlətməmişdir.

Qazi Bürhanəddin yaradıcılığında tuyuğları əsas yer tutur. Ədəbiyyatımızda tuyuğ janrının banisi Qazi Bürhanəddindir. Şairin tuyuğlarının çoxunda igidlik və qəhrəmanlıq tərənnüm olunur:

Ərənlər ər yolunda ər tək gərək,
Meydana erkək kişi nər tək gərək.
Yaxşı-yaman, qatı-yumşaq olsa xoş,
Sərvərəm deyən kişi erkək gərək.

Qazinin şeirləri incə və rəngarəng deyim tərzi, yüksək bədii sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Şairin poeziyasında səslərin ahənginə, sözlərin müxtəlif məna çalarlarına və məcazlara geniş yer verilmişdir.

Qazi Bürhanəddin şeirlərinin bir xüsusiyyəti də ana dilinə məxsus sözlərin bol-bol işlənməsidir. Şair ana dilinin zəngin söz ehtiyatından məharətlə istifadə edərək "Dədə Qorqud" dastanında olduğu kimi türk mənşəli əski sözlərə üstünlük vermişdir. Bu sözlərin bir çoxu, təbii ki, zaman keçdikcə unudulmuş və hazırda arxaik sözlər sayılır. Qazi Bürhanəddin yaradıcılığı anadilli poeziyanın güclənməsində, ədəbiyyatda nikbinlik, həyatsevərlik və səmimilik duyğularının geniş şəkildə yayılmasında mühüm rol oynamışdır.

Ol dilbəri-ziba yenə bir nazə düşərsə,
Tən etmə, saçında könülüm azə düşərsə.
Bir az idi ki, düşdü bizə hüsni-xəyalı,
Hala nedəlim dünyadə avazə düşərsə.

Azərbaycan tarixinə şair və dövlət xadimi kimi daxil olmuş Qazi Bürhanəddin, Həsənoğludan sonra ana dilində poeziyanın banilərindəndir. Nəsimi, Xətai, Füzuli kimi şairlərin yaradıcılığına təsir göstərmişdir.







## SAİB TƏBRİZİ

## (1601-1676)

Əsrinin Füzulisi sayılan Saibin əsərləri yüz min beytdən çoxdur. Şairin əsərlərinin çoxu fars dilindədir, ana dilində yazdığı cəmi 17 şeiri məlumdur. Saib Təbrizi daha çox qəzəl ustadı kimi tanınır. Şeirlərində insana məhəbbət, mənəvi gözəllik tərənnüm olunur. Şairin zəmanədən şikayət məzmunlu şeirləri də vardır (məsələn: "könlümü" rədifli qəzəli). "Bilin", "Qardaşlar" rədifli qəzəllərində isə şair insanları xeyirxahlığa, bir-birinə əl tutmağa, qocalara hörmət etməyə çağırır.

Nə səbəbdən mənim qədrimi dövran bilməz,
Gövhərin qiymətini heç zaman ümman bilməz.

***

Üzdə aydın görünür hər nə desən, ayna kimi,
Ürəyin yanmasa bil, dərdini canan bilməz.

***

Harda divanə saçın tacə bərabər bilsə,
Orda şahla gədənin fərqini insan bilməz.

***

***

Pis ilə yaxşını ancaq düşünən baş ayırır,
Qəmənin ağzıdı, ya cam, bunu nadan bilməz.

***

Sədəfin qoynuna düşmüş su dönər gövhər olar.
Məqsədə çatmağı Saib bilər? Hardan, bilməz?!

XVII əsrin ən görkəmli şairidir Saib Təbrizi. Təbrizdə anadan olmuş mükəmməl təhsil görmüş, ərəb və fars dillərini bilirmiş. "Qəndəharnamə" adlı məsnəvinin "səfinəyi-saib" adlı cünkün müəllifidir. Qəzəlləri yaxın Şərqdə geniş yayılmışdır. Kitablarından məktəblərdə dərslik kimi istifadə edilib. Əsərlərinin bir qismi Hindistan, İran, Düşənbə və Bakıda nəşr edilib.





## MƏHƏMMƏD BAĞIR XALXALİ

### (1829-1900)

Cənubi Azərbaycan Xalxal əyalətinin Qarabulaq kəndindən olan Məhəmməd Bağır Xalxali bu dövrün tanınmış şairlərindən biridir. O, ədəbiyyat tariximizdə "Sələbiyyə" (Tülkünamə) məsnəvisi ilə (1893-cü il) məşhurdur. Ana dilimizdə təmsil janrında yazılmış bu əsərin mövzusu nağıl və rəvayətlərdən götürülmüşdür. Şair əsərdəki hadisələri dövrün bir sıra ictimai problemləri ilə uğurla əlaqələndirmişdir.

Əsərin əsas surəti Tülküdür. Xalxali bu surəti mürəkkəb planda təsvir edir. O, əsərin əvvəlində kasıb, lakin qayğıkeş ailə başçısı kimi təqdim olunur. Sonradan onun zalım, ədalətsiz, hiyləgər və ikiüzlü olması göstərilir. Tülkü özündən gücsüzlərə zülm edir. Toyuğun yalvarışına məhəl qoymadan başını üzüb yeyir. Özündən güclülərin qarşısında isə o yaltaqlanır. Qurdla üzləşəndə ona təzim edir, başına dolanır, şirin sözlərlə könlünü alır. Tülkü axırda hiylə işlədərək Qurdu tələyə salır və quyruğa sahib olur.

"Sələbiyyə"dəki ikinci əsas surət Qurddur. O, birxətli təsvir olunur. Qurd acgöz, rəhmsiz və qəddardır. Tülkü ilə rastlaşan qoca Qurd cavanlığında çox qanlar tökübdür. Xalxali onun qəddarlığını öz dili ilə təsvir edir. Məlum olur ki, Qurd çobanların qoyun sürülərinə təpilərək qoyunları boğazlamış, hətta cavan bir oğlanın qanını tökmüşdür. Təmsilin sonunda Qurd tamahkarlığının qurbanı olur və ovçunun tələsinə düşür. Xalxali acgöz insanları Qurda bənzədərək, müasirlərini bu hadisədən ibrət dərsi almağa, ədalətli və gözütox olmağa çağırır.

"Sələbiyyə" məzmunca müxtəlif ictimai problemləri əhatə edən çoxşaxəli əsərdir. Burada əsas hadisə ilə yanaşı bir sıra köməkçi mövzulara da yer verilmişdir. Əsərdə anaya, vətənə məhəbbət hissləri aşılayan epizodlar da vardır. Xalxali vətəni göylərdən də

ucada dayanan gözəl bir şəhərə, qürbətdəki insanı isə qəfəsdəki bülbülə bənzədir. Şair bu bənzətmə ilə qürbətdə yaşayanları doğma yurda qayıtmağa, onu qorumağa və abadlaşdırmağa çağırır:

Vətən bir şəhərdir fövqi-səmavət,
Qanadın bağlayıb leykin qüyudat.

Bu qürbət içrə, canım, olma dilxoş,
Qayıt öz şəhrüvə, orda yerin boş.

Xalxalinin "Sələbiyyə" məsnəvisi xalq danışıq dilinə yaxın bir dillə yazılmışdır. Külliyyatı 1892-ci ildə Təbrizdə nəşr edilib.

Sərvə baxmaz, görsə hər kim yarımın şümşadını,
Sərvə oxşatmaq onu, bədnam edibdir adını.

***

Gözlərin cəllad edib bu Xosrovi-iqlimi-naz,
Görməsin heç dini kafər bu şəhin cəlladını.

***

Ləblərin şəhdini şəkkərdən uman aqil deyil,
Bilməsə hər kim bunu, bilməzdir ağzın dadını.

***

Badzən çaldım üzünə açdı şəhla gözlərin,
Mən, o şeydə bənzədim: bidar edə səyyadını.

***

Eşqinə mən mal-mülkü cani-ömrüm vermişəm,
Bu məsəldir kim: "utanmaz, versə hər kim zadını".







## MOLLA VƏLİ VİDADİ

**(1709-1809)**

Şəmkirdə doğulub. Mükəmməl mollaxana və mədrəsə təhsili görmüşdür. Bir müddət Şıxlı kəndində mirzəlik və məktəbdarlıqla məşğul olmuşdur. Qarabağ xanlığında yaşayıb və yaratmışdır.

XVIII əsrin görkəmli şairlərindən biridir. Şair həm klassik üslubda qəzəl və müxəmməs, həm də aşıq şeiri tərzində qoşma, gəraylı və bayatı yazmışdır. Yaradıcılığında qoşma janrına üstünlük vermişdir. Şairin şeirlərində dövrün ziddiyyətlərindən və bir müddət qürbətdə keçən şəxsi həyatından doğan dərin bir kədər vardır. Vidadinin dostu Vaqiflə deyişməsində bu cür əhvali-ruhiyyə daha qabarıq şəkildə özünü göstərir. Bu baxımdan şairin "Ağlarsan" rədifli şeiri daha səciyyəlidir. "Könlümü" rədifli qoşmasında doğma elindən, obasından ayrı düşən şairin vətən həsrəti ilə bağlı həzin və kövrək hissləri ifadə olunmuşdur:

Ey həmdəmim, səni qana qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü.
Ayrı düşmüş vətənindən, elindən,
Həmdərdindən aralanmış könlümü.

Şairin "Durnalar" rədifli qoşması da məşhurdur. Vidadinin Şəki hakimi Hüseyn xan Müştağın öldürülməsi münasibətilə yazdığı "Müsibətnamə" adlı mənzuməsi də vardır. Müxəmməs şəklində yazılmış əsərdə xanların bir-birilə çəkişmələri və müharibələri ürək ağrısı ilə təsvir olunur.

M.V.Vidadi Tiflisdə İraklinin sarayında xidmət etmiş, həbs olunmuş, azad olunandan sonra ömrünü Şıxlıda başa vurmuşdur.

## MİRZƏ BAXIŞ NADİM

### (1785-1880)

Azərbaycan şeirinin əsas qollarından biri olan satirik poeziyanın inkişafında Mirzə Baxış Nadimin müəyyən xidmətləri olmuşdur. Nəvahidə doğulan Nadim Şamaxıda mədrəsə təhsili almış, bir müddət ruhanilik etmiş, sonra isə kənd mirzəsi olmuşdur. Nadim, əsasən, qoşma və müxəmməs şəklində satirik şeirlər yazmışdır. Satiralarının əsas tənqid hədəfləri kəndlilərə zülm edən bəylər, xanlar, həmçinin rüxvətxor məmurlar və yalançı din xadimləridir. Şairin "Murad xan", "Kərbəlayı" rədifli şeirlərində kəndliləri istismar edən mülkədarlar ifşa olunur. "Murad xan" şeirində Nadim kinayə üsulu ilə satira hədəfinin simasını belə canlandırır:

Ay ağalar, sizə tərif eyləyim,
Nə iş tutub üzü qarə Murad xan.
Tamam kəsib biçinçinin haqqını,
Heç verməyib sikkə, parə Murad xan.

"Mahmud" şeirində isə şair kəndlinin at yerinə kotana qoşulması haqqında söz açmaqla zülmkar bəy və xanlara qarşı nifrət və qəzəbini bildirir. Şairin müasirlərinə yazdığı mənzum məktublarında və həcvlərində isə dövlət idarələrində işləyən məmurların süründürməçiliyi və yerli hakimlərin rüşvətxorluğu ifşa olunur.

S.Ə.Şirvani və M.Ə.Sabirin satirik üslubunun formalaşmasında Nadim yaradıcılığının mühüm rolu olmuşdur.

Mirzə Baxış Nadim 1785-ci ildə Nəvahi kəndində anadan olmuş, yoxsul həyat tərzi keçirmişdir. Zülmkar bəyləri, ədalətsiz çar məmurlarını tənqid və ifşa etdiyi üçün əhali arasında böyük nüfuza malik olub. Klassik şeirimizin müxtəlif janrlarında yazmışdır. Şair 1880-ci ildə Nəvahidə vəfat edib.







## MİRZƏ ŞƏFİ VAZEH

### (1792-1852)

Mirzə Şəfi Usta Sadıq oğlu Vazeh 1792-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Şair təhsilini Gəncə mədrəsələrində almışdır. Fars və ərəb dillərini kifayət qədər yaxşı bilən M.Ş.Vazeh şəxsi mütaliə yolu ilə dini və dünyəvi elmləri dərindən öyrənmiş, şərq klassiklərinə dair zəngin bilik toplamışdır.

O, XIX əsrin 20-ci illərində bədii yaradıcılığa və pedaqoji fəaliyyətə başlamış, Şah Abbas məscidi hücrələrində uşaqlara hüsnxət fənnindən dərs demişdir. Mirzə Fətəli Axundovun M.Ş.Vazehlə tarixi görüşü də nəstəliq xəttinin tədrisi ilə əlaqədar baş vermişdir.

M.Ş.Vazeh 1840-cı ildə Tiflisə köçür. M.F.Axundov Tiflis qəza məktəbində müəllimlik yerini ona verir. O, 1841-ci ilin noyabr ayından orada "Azərbaycan dili" fənninin müəllimi vəzifəsində işləməyə başlayır. Qafqazın inzibati mərkəzində, mədəni mühitdə, ziyalı adamların arasında M.Ş.Vazeh bədii yaradıcılığını müvəffəqiyyətlə davam edir, pedaqoji ustalığını gündən-günə artırır. Şair 1844-cü ildə Tiflisdə "Divani hikmət" adlı bir ədəbi məclis təşkil edir. O, Tiflisin bütün ədəbi qüvvələrini məclisin ətrafında toplayır, onu qısa müddətdə müxtəlif millətlərdən olan alim və şairlərin ürfan məclisinə çevirir. Şairin məşhur plagiat Fridrix Bodenştedtlə yaxınlığı da buradan başlayır.

M.Ş.Vazeh altı il Tiflisdə yaşayıb işlədikdən sonra 1846-cı ildə yenidən doğma şəhərə dönür. O, Gəncə şəhər qəza məktəbində

ana dili müəllimi vəzifəsində çalışır. Dörd il Gəncədə yaşadıqdan sonra 1850-ci ilin yanvarında yenidən Tiflisə dönür, pedaqoji fəaliyyətini şəhər gimnaziyasında davam edir və müvəffəqiyyətlə "Azərbaycan dili" fənnini tədris edir.

O, bu illərdə gimnaziyanın fars dili müəllimi İ.İ.Qriqoryevlə bərabər, "Kitabi-türki" müntəxəbatını tərtib etməyə başlayır. Ciddi pedaqoji məqsəd izləyən "Kitabi-türki" üçün materiallar müxtəlif mənbələrdən diqqətlə seçilmişdir. Burada "Dərbəndnamə", "Qarabağnamə", Füzulinin türkcə "Divan"ı və "Leyli və Məcnun" poeması kimi doğma ədəbiyyat nümunələri ilə yanaşı "Zinətül-məcalis", "Rövzətüs-səfa" kimi fars mənbələrindən əks olunmuş materiallar əsas yer tuturdu.

Qafqazda daş basması ilə kitab nəşri yaxşı vəziyyətdə olmadığına görə, "Kitabi-türki" 1852-ci ildə çap olunmaq üçün Təbriz mətbəələrinə göndərilmişdi. Dərsliyin nəşri üç il davam etdi. Kitabın çapı ancaq 1855-ci ildə başa çatdı.

M.Ş.Vazeh böyük həvəslə, ağır zəhmət hesabına hazırladığı müntəxəbatı kitab halında görə bilmədi.

Şair 1852-ci ilin noyabrında Tiflisdə vəfat etmişdir. Mirzə Şəfi Vazeh ədəbiyyat tariximizdə həm klassik poeziya ənənələrinin istedadlı davamçısı və maarifçi şair, həm də Azərbaycan-Qərb ədəbi əlaqələrinin inkişafında mühüm xidmətləri olan bir sənətkar kimi tanınır. Alman alimi Bodenştet 1850-ci ildə Berlində "Şərqdə min bir gün" adlı kitab çap etdirir. Qafqaza səfər təəssüratından bəhs edən kitabda müəllif yeri gəldikcə Vazehin şeirlərindən nümunələr də verir. Həmin şeirlərin rəğbətlə qarşılandığını görən Bodenştet onları ayrıca "Mirzə Şəfinin nəğmələri" adlı bir kitabda çap etdirir. 1851-ci ildə çapdan çıxan bu kitab böyük şöhrət qazanır və dünyanın bir çox yerlərinə, o cümlədən ruscaya çevrilərək nəşr edilir. Dahi rus yazıçısı Lev Tolstoy Vazehin şeirlərini yüksək qiymətləndirir. Beləliklə, Vazehin şeirləri ilk dəfə öz vətənində deyil, Avropada almancaya tərcümədə çap olunur və geniş yayılır. Bu səbəbə görə də şairin şeirlərinin çoxunun orijinalı – əsli yoxdur. Vazeh daha çox lirik şeirlər yazmışdır. Şeirlərinin əsas mövzusu məhəbbətdir. Şairə görə, saf məhəbbət insan həyatını mənalandırır və ona mənəvi qida verir. Şairin ən məşhur şeirlərindən olan "Nə qədər kim fələyin sabitü-səyyarəsi var" misrası ilə başlanan qəzəli də elə məhəbbət mövzusundadır. Şairin lirik şeirlərində Füzuli yaradıcılığının qabarıq təsiri özünü göstərir. Vazehin əldə olan orijinal əsərləri həm nəsrlə, həm də nəzmlədir. Bunlar "Həsb-hal" adlı nəsr və nəzmlə yazılmış əsərdən "Süsəni" rədifli müxəmməsdən, "Məktubun intizarında" adlı lirik poemadan, bir neçə qəzəldən, eləcə də hikmətlər və nəsihətlərdən ibarətdir. Dövrün poeziyasında lirik şeir əsas yer tuturdu. Lirik şeirin başlıca mövzusu isə əvvəlki kimi yenə də məhəbbət idi. Mirzə Şəfi ilahi, sufi məhəbbəti deyil, real dünyəvi məhəbbəti tərənnüm edir, həyatın mənasını sevib-sevilməkdə görürdülər. Məhəbbət mövzusu Mirzə Şəfi Vazeh poeziyasının ana xətini təşkil edirdi.



# HEYRAN XANIM

(1790-1848)

Dövrün görkəmli şairlərindən biri olan Heyran xanım Naxçıvanda doğulmuş, təhsillini burada almışdır. Rusiya İran müharibələri zamanı Heyran xanım ailəsi ilə birgə Cənubi Azərbaycana köçürülmüş və əvvəlcə Urmiyada, sonra isə ömrünün axırınadək Təbrizdə yaşamışdır. Doğma yurddan ayrı düşməsi və ailədə olan ixtilaflar üzündən Heyran xanımın həyatı kədərli olmuşdur. Bu, şairin yaradıcılığına da öz təsirini göstərmişdir. O, şeirlərində qürbət həyatından, adamların vəfasızlığından gileylənmiş, Təbrizi "guşeyi-zindan" adlandırmışdır.

Heyran xanım yalnız lirik şeirlər yazmışdır. Şeirləri qəzəl, müxəmməs, rübai, müstəzad janrlarında və məsnəvi şəklindədir. Şairin yaradıcılığında klassik şeirlərin, xüsusilə də Füzulinin təsiri özünü göstərir. Heyran xanımın şeirlərinin əsas mövzusu saf məhəbbətin tərənnümü və ayrılıq dərdinin, qürbət sıxıntısının, vüsal həsrətinin bədii ifadəsidir. Şair insan gözəlliyindən söz açarkən mənəvi-əxlaqi təmizliyə üstünlük verir. Şairin fikrincə, gözəlliyin birinci şərti ağıl, kamaldır:

Neçə şərt ilə ölçülərsə camal,
Şərtə əvvəldir hüsnə əqlü kamal.
Hər cavanda ki, var camal, yəqin,
Olmalı onda həm kamal yəqin.





Heyran xanımın ictimai məzmunlu şeirləri də vardır. Bu mövzudakı şeirlərində zəmanədən şikayət, haqsızlıq və ədalətsizliyə, qadın hüquqsuzluğuna qarşı güclü etiraz hissləri ifadə olunmuşdur. Məsnəvi şəklində yazdığı "Təbrizdə zəlzələ haqqında" şeirində şair təbii fəlakəti ürək ağrısı ilə qələmə almışdır. Heyran xanımın şeirləri bədii gözəlliyi və yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Əsərlərinin əlyazmaları Tehran Universitetində, Gürcüstan Əlyazmaları İnstitutunda, Azərbaycan Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılır. Əsərləri Təbriz və Bakı şəhərlərində nəşr edilmişdir. 1848-ci ildə Təbrizdə vəfat etmişdir.

***

Könlüm quşu ol zülfü-pərişan arasında,
Biçarə qalıb cənnətü niran arasında.

***

Gör kim, necə sərkəştə qalıb valehy tənha,
Ol xaki-Xəta ilə Bədəxşan arasında.

***

Tüğyan eyləyib dərdü-qəmim, bu dili-zarım,
Bir kəştiyə bənzər qala tufan arasında.

***

Dil zülf ilə rüxsarına çün qıldı tamaşa,
Avara qalıb küfr ilə iyman arasında.

***

Çün yar qılıb lütfünü kəm, hanı o həmdəm,
Ta sülh qıla, yar ilə Heyran arasında.



## MİRZƏ NƏSRULLAH DİDƏ

**(1797-1875)**

Mirzə Nəsrullah Qurban bəy oğlu Didə 1797-ci ildə Şamaxıda Fit dağında anadan olmuşdur. Şairin atası Qurban bəy zəmanəsinin ziyalı və kamil adamlarından olmuş, Mustafa xanın sarayında münşi vəzifəsində işləmişdir. Bir küçə qalmaqalında təsadüf nəticəsində öldürülən Qurban bəyin xatirəsinə hörmət əlaməti olaraq ailəsini himayə edən Mustafa xan öz xərcilə onun böyük oğlu Nəsrullahı Təbrizə təhsil almağa göndərmişdir. Nəsrullah Didə Təbriz mədrəsələrində dini, şərqə məxsus dünyəvi elmləri və ərəb-fars dillərini mükəmməl öyrənmişdir. Vətənə qayıtdıqdan sonra burada rus dilini öyrənmiş. Seyid Əzimin dediyinə görə, "zəbani-ərəb və fars və rusidə qayətdə mahir" bir adam kimi tanınmışdır. Müxtəlif dillərdə mütaliə etməklə zəngin bilik toplayan Mirzə Nəsrullah Didə rəsmi dairələrin diqqətini cəlb etmiş, "Ümuri-səltənətdə" Şamaxı quberniya idarəsində katiblik vəzifəsinə cəlb edilmiş, "sahibməsəb və sahibnişan kimsənələrdən" (Seyid Əzim) olmuşdur.

Rəsmi qulluqdan çıxdıqdan sonra Şamaxı şəhərinin Şeyx Məzim məhəlləsində məktəb açıb müəllimlik etmişdir.

Lirik şair kimi yaradıcılığa başlayan, dini və dünyəvi mövzuda bir silsilə dəyərli əsərlər yaradan Mirzə Nəsrullah Didənin uşaq ədəbiyyatı sahəsində fəaliyyəti də müdərrislikdən sonra başlanmışdır. Məktəblilərin ana dilində dərsliyə, uşaqların oxu kitablarına ehtiyacını nəzərə alan Mirzə Nəsrullah Didə 1857-ci ilin fevralında





"Kitabül-nəsayeh" məcmuəsini yazıb başa çatdırmışdır. Müəllif dərsliyin yazılma səbəblərini açıqlayaraq yazırdı" "Çün ol mübarək məktəbxanalarda hər cürə basma kitablar oxunur və sahati-əhli-Qafqaziyə müsəlmanları türki zəbandırlar. Və xüsus, sair əhli-millətləri də türki həm danışırlar. Binaən-ileyh bəndeyi-müxlis dərgahi-qubernski sekretar Mirzə Nəsrullah bən Mirzə Qurban Şəmaxi qəfər hüməallah bu tarix sənə məsihiyyə min səkkiz yüz əlli yeddi fevral ayında bu kitabi-təzəni türki ibarət ilə ki, bu ətrafi-Qafqaziyyə vilayətlərində müstəməl və bu şivə əlfaz təhrir və təkəllümdə mütədavüldür. Təlif və övn və fəzli-xudavəndi-biniyaz ilə təsnif etdim. Və çün müştəməl nəsayehdir, bunun adını "Kitabül-nəsayeh" müvəssüm etdim".

"Kitabül-nəsayeh" Azərbaycan ədəbiyyatında nadir hadisə idi. Təkcə ona görə yox ki, o ona qədər yaranmış dərslik və uşaq ədəbiyyat nümunələri arasında zirvə təşkil edirdi. Bir də ona görə ki, o, müəllifin elmi və bədii yaradıcılıq qüdrətini nümayiş etdirirdi.

Təsadüfi deyildir ki, Seyid Əzim Şirvani "Kitabül-nə-sayehi" yüksək qiymətləndirmiş, onun əsas məziyyətini uşaqlar üçün yazılmasına baxmayaraq, böyüklər üçündə faydalı olmasında görürdü.

Mirzə Nəsrullah Didə "Kitabül-nəsayeh"i çap etmək arzusunda olmuş, lakin məqsədinə nail olmamışdır.

Mirzə Nəsrullah Didə 1875-ci ildə Şamaxıda vəfat etmişdir.



## MOLLA PƏNAH VAQİF

## (1717-1797)

Molla Pənah Vaqif Azərbaycan dilinin, ədəbiyyatının inkişaf tarixində mühüm yer tutan sənətkarlardandır. O, dərin biliyi, hərtərəfli istedadı ilə seçilmiş, mürəkkəb siyasi və sosial hadisələrlə zəngin XVIII əsr müsəlman Şərqində müdrik, uzaqgörən, tədbirli dövlət xadimi kimi tanınmışdır. Zaqafqaziyanın ən qüdrətli feodallarından sayılan İbrahim xanın sarayında vəzir vəzifəsi daşıdığı illərdə Molla Pənah xarici işğalçılara qarşı mübarizələrin fəal təşkilatçılarından olmuş, Qarabağın qonşu ölkələrlə, xüsusən, Gürcüstan və Rusiya ilə diplomatik əlaqələrinin yaxşılaşmasına çalışmışdır.

Lakin vətəninin taleyi üçün bütün faydalı ictimai-siyasi xidmətlərinə baxmayaraq, Vaqif adı xalqımızın yaddaşına məhz istedadlı söz ustası kimi əbədiləşmişdir. Özündən əvvəlki zəngin şifahi və yazılı şeir ənənələrinə dərindən yiyələnən şair oynaq ilham rübabı ilə milli mədəniyyətimizə yeni ruh, təravət gətirmiş, həm müasirləri, həm də gələcək nəsillər üçün örnək olmağa qadir ədəbi məktəb açmışdır. Bu məktəbin təməl daşları Odlar diyarının klassik və folklor ədəbiyyatı üzərində qərar qəbul etmiş, onun banisi qoşma janrının poetik imkanlarının, məna-fikir dairəsinin genişlənməsində son dərəcə əhəmiyyətli rol oynamışdır. Maraqlı faktdır ki, şairin əruz vəznində qələmə aldığı qəzəl, müxəmməs, müstəzad və müəşşərlər bədii dəyərini bizim günlərədək qorusalar da, onun sənətkar kimi orijinallığı məhz xalq ruhunu, milli Azərbaycan koloritini daşıyan qoşmalarda özünü daha aydın, daha qabarıq şəkildə göstərmişdir.

Vaqifin ədəbiyyatımız tarixində ən mühüm xidmətlərindən biri də budur ki, o, canlı danışıq, məişət dilinin nə qədər təravətli və





rəngarəng olduğunu əyani göstərmiş, folklor poeziyasının geniş imkanlarını aşkara çıxara bilmiş, heca vəznində yaranan şeirləri klassik poeziya meyarları səviyyəsinə qaldırmışdır.

Vaqif poeziyası həm də öz realizmi ilə diqqətəlayiqdir. Ədəbiyyatda mücərrəd romantik pafosun güclü olduğu bir dövrdə şairin yaradıcılığındakı bu meyl əsl novatorluq idi.

Orta əsr şairlərinin çoxundan fərqli olaraq Vaqifin divanı, yaxud küll halında şeir toplusu qalmamışdır. Şairin əsərlərinin toplanılmasında, oxuculara bəlli olmayan şeirlərinin aşkara çıxarılmasında müfti Hüseyn Əfəndi Qayıbovun da rolu təqdirəlayiqdir. Təəssüf ki, onun 4 cildlik "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə"si uzun müddət əlyazması halında qalmış, yalnız 1986-cı ildə I cildi çapdan çıxmışdır (Vaqifin şeirləri də buraya daxildir).

1908-ci ildə jurnalist Haşım bəy Vəzirov Vaqifin o vaxtadək çap olunmuş şeirlərini ayrıca bir kitabça şəklində nəşr etdirmişdir.

Görkəmli ədəbiyyatşünas F.Köçərli də Vaqif poeziyası ilə yaxından maraqlanmış "Azərbaycan ədəbiyyatı tarixi materialları" adı altında buraxılmış kitabının "Vaqif" bölməsində şairin əsərlərindən xeyli nümunə vermişdir.

Son dövrlərdə Vaqifin nəşri ilə tanınmış alimimiz Həmid Araslı müntəzəm maraqlanmış, 1945-ci ildə ilk dəfə olaraq onun əsərlərinin akademik nəşrini çap etdirmişdir. Görkəmli mütəxəssis sonralar da ciddi axtarışlar aparmış 1952, 1957, 1960 və 1968-ci illərdə hazırladığı nəşrləri şairin yeni aşkara çıxarılmış əsərləri ilə zənginləşdirmişdir.

Vaqif yaradıcılığı ilə ədəbiyyat tariximizdə yeni bir ənənənin əsası qoyulur. Bu ənənə poeziyada realizmin və xəlqiliyin güclü inkişafı ilə səciyyələnir. Şair ilk dəfə olaraq həyati və gözəlliyi, məhəbbəti və sevgi duyğularını olduqca real və təbii şəkildə təsvir edərək yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Vaqif XVIII əsrdən başlanan xəlqiliyi-xalq şeirinin yazılı ədəbiyyata gəlişini yeni bir zirvəyə qaldıran sənətkardır. Vaqifin sadə və təbii deyimi ilə seçilən qoşmaları ilə xalq şeiri yazılı ədəbiyyatda öz mövqeyini daha da gücləndirir. Vaqif ədəbiyyatımızda novator, yenilikçi şair kimi tanınır. Vaqifin faciəli ölümü zamanı şairin əsərləri itib-batmışdır. Şairin əldə olunan əsərləri şeir həvəskarlarının yaddaşlarında və şeir dəftərlərində qorunub saxlanılmışdır.



## QASIM BƏY ZAKİR

**(1784-1857)**

Qasım bəy Əli bəy oğlu Cavanşir 1784-cü ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. Məşhur Cavanşir nəslinə mənsub olan Qasım bəy Qarabağ xanı Pənah xanın qardaşı Hüseynəli ağanın nəticəsidir.

Qasım bəy Zakir ilk təhsilini molla məktəbində almış, ərəb-fars dillərini, İslam tarixi və şəriət qaydalarını, şərqin Firdovsi, Nizami, Xaqani, Şeyx sədi, Xacə Hafiz, Mollayi-Rumi, Məhəmməd Füzuli kimi şairlərinin əsərlərini dərindən öyrənmişdir.

Qasım bəy Zakirin uşaqlıq və gənclik illəri Qafqazda siyasi hegemonluq uğrunda Rusiya ilə İran və Osmanlı dövlətləri arasında qanlı müharibələrin baş verdiyi dövrə təsadüf edir. Ağa Məhəmməd şah Qacarın Şuşa qalasını mühasirə etməsinin, ona qarşı Qarabağlıların qəhrəmanlıqla mübarizə aparmasının şahidi olan Zakir, XIX əsrin başlanğıcında Rusiya ilə İran və Türkiyə arasında başlanan hərbi yürüşlərin iştirakçısı olmuşdur. Şair "Car müqəddiməsi" şeirində Car-Balakən üsyanının yatırılmasında göstərdiyi şücaətdən söhbət açırdı.

Qasım bəy Zakir Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində yaşamışdır. O, kənddə təsərrüfat işlərini yerinə yetirmiş, boş vaxtlarını oxumaq və yazmaqla keçirmişdir. Müasiri olan digər bəylərdən fərqli olaraq o, rəiyyətlə mehriban rəftar etmiş, kəndliləri hakim dairələrin özbaşınalığından müdafiə etmişdir. Bütün bunlara görə Zakirlə onun mühiti arasında ziddiyyətlər yaranmış, şair təzyiq və təqiblərə məruz qalmışdır. Müasiri Cəfərqulu xanın fitnə və danosları, Qarabağın baş hakimi Tarxan-Mauravovun qanunsuz hərəkətləri şairin Bakıya, oğlu Nəcəfqulu bəy və qardaşı oğlu İskəndər





bəyin Rusiyanın içərilərinə sürgün olunması ilə nəticələnmişdir. Şair dostları M.F.Axundov, İ.Qutqaşınlı, Qriqol Orbiliani və Kolubyakinin köməkliyi ilə sürgün həyatından qurtarıb, ailəsinin yanına qayıdır.

Gənc yaşlarından şeir yaradıcılığına başlayan şair lirik poeziyanın müxtəlif janrlarında qələm işlətmiş, insanın təbii hisslərini tərənnüm edən qoşmalar, gəraylılar, qəzəllər, müxəmməslər yazmışdır. Zakirin lirikası M.F.Axundov tərəfindən bəyənilmiş, milli realist şeirin ilk dəyərli nümunələri kimi qiymətləndirilmişdir.

Qasım bəy Zakirin satiraları ilə Azərbaycan ədəbiyyatında yeni mərhələ başlanır. Şairin "Mirzə Fətəli Axundova Vilayətin məxşuşluğu haqqında", "Şuşa mollaları haqqında", "Divanbəyilər", "Həcv" və b.satiraları ictimai eyibləri görüb göstərmək və ifşa etmək baxımından diqqətə layiqdir.

Qasım bəy Zakir yaradıcılığında bütün maarifçi realistlərə məxsus tənqid və təqdir etmək keyfiyyəti qüvvətlidir. O, yaşadığı cəmiyyətin qüsurlarını tənqid etməklə yanaşı onların islah olunması yollarını da nişan verir. Bu baxımdan mənzum hekayələri və təmsilləri dərin idrakı əhəmiyyətə malikdir. Bu keyfiyyətdən irəli gələrək şairin "Tərlan və elçi", "Məlikzadə və Şahsənəm", "Dəvəsi itən kəs" mənzum hekayələri, "Sədaqətli dostlar haqqında", "Xain yoldaşlar haqqında", "Dəvə və eşşək", "Tülkü və qurd" və s. təmsilləri uşaq mütaliəsində yer tutmuşdur.

Qasım bəy Zakir 1857-ci ildə Şuşa şəhərində vəfat etmişdir. XIX əsr Azərbaycan poeziyasının ən qüdrətli nümayəndələrindən biridir. O, ədəbiyyat tariximizdə həm gözəl lirik şeirlər və kəskin satiralar, həm də ibrətli mənzum hekayə və təmsillər yazan görkəmli bir şair kimi tanınır. Şair lirik şeirlərinin bir hissəsini Füzulinin təsiri ilə klassik üslubda, qəzəl, müxəmməs, müstəzad və s. janrlarda yazmışdır. Zakir lirikasının mühüm bir hissəsi isə aşıq şeiri tərzində yazdığı qoşma, gəraylı və təcnislərdən ibarətdir. Şairin lirikasının bir hissəsi də ictimai məzmun daşıyır. Ayrı-ayrı lirik şeirlərində zəmanədən şikayət, haqsızlığa qarşı etiraz hissləri güclüdür. Ədəbiyyatımızda yeni satirik üslubun formalaşması Zakirin adı ilə bağlıdır. Zakirin yaradıcılığında tənqid və ifşa ayrıca üslub kimi formalaşır və geniş ictimai məzmun daşıyır. Qasım bəy Zakir ədəbiyyat tariximizdə həm incə ruhlu lirik şeirlər müəllifi, həm də satirik üslubun əsasını qoyan qüdrətli bir sənətkar kimi özünəməxsus yer tutur.



## SEYİD ƏZİM ŞİRVANİ

**(1835-1888)**

Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə 1835-ci ilin iyul ayının 10-da Şamaxı şəhərində dindar ailədə anadan olmuşdur. O, yeddi yaşında olarkən atası vəfat etmiş, anası Gülsüm xanımla ata-baba ocağında sıxıntılı bir həyat keçirməli olmuşdur. Bu vəziyyətdən narahat olan şairin Dağıstanda rus dövlətinin rəsmi qulluğunda çalışan ana-babası Molla Hüseyn onları hakimi olduğu Yaqsay kəndinə apararaq himayə etmişdir. O, Dağıstanda yaşadığı on bir il ərzində Azərbaycan, fars, ərəb dillərini və yerli ləhcələrin bir neçəsini nəzəri və əməli surətdə öyrənmişdir.

Seyid Əzim 1853-cü ildə Dağıstandan doğma Şamaxıya qayıdır. 1855-ci ildə 20 yaşlı cavan şair Dağıstanda oxuduqlarını təkmilləşdirmək və dərinləşdirmək, nəticədə yüksək ruhani rütbəsinə nail olmaq məqsədilə İraqa yola düşür. Bir müddət Bağdadda, bir qədər Şamda nümunəvi mədrəsələrdə müxtəlif dini elmləri, şərq fəlsəfəsini, ərəb ədəbiyyatını, islam tarixini başa çatdırdıqdan sonra dini və dünyəvi məsələlərə yiyələnən bir alim kimi vətənə qayıdır. Lakin çox çəkmir, o, onu şəriət qaydalarını təbliğ edən axund və ya müctəhid görmək istəyən dindar həmvətənlərinin ümidlərini doğrultmur. Bir müddət Şamaxıda yaşadıqdan sonra bəzi məqsədlərdən dolayı Seyid Əzim yenidən ərəb ölkələrinə getmək və ümumiyyətlə, Şərqi səyahət etmək fikrinə düşür. O, bu dəfə Misirin mərkəzi Qahirədə və Səudiyyə Ərəbistanının Məkkə və Mədinə şəhərlərini gəzib





dolaşır. Türkiyə və İranda olur, səfər zamanı çoxlu şair, alim, ümumiyyətlə, arif və gözüaçıq adamlarla görüşüb həmsöhbət olur. Təhsil, səfər və səyahətini başa çatdırıb Vətənə qayıdanda seyid Əzim Şirvani müsəlman Şərqində, o cümlədən Qafqazda baş verən mütərəqqi hadisələrin təsiri altında həyat yolunu dəyişir, özünün dediyi kimi, "məscid yolun tərk" edib, məktəbə üz tutur.

1874-cü ildə Şamaxıda Hacı Səid Əfəndi Ünsizadə ziyalıların təşəbbüsü və səyi ilə "Məclis" adlı müasir mündəricəli bir məktəb yaradarkən Cəlal Ünsizadə ilə bərabər Seyid Əzim Şirvani də orada müəllim işləməyə dəvət olunur. Bu vaxtdan etibarən şair taleyini azərbaycanlı uşaqların təlim-tərbiyəsi kimi şərəfli bir işlə bağlayır. İl yarım işlədikdən sonra Hacı Səid Əfəndi və Cəlal Ünsizadə Tiflisə köçür. "Məclis" məktəbi və onun 70 nəfər şagirdi Seyid Əzim Şirvaninin himayəsində qalır. Belə ağır bir şəraitdə "tamamilə yoxsul olmasına baxmayaraq, heç bir rəsmi idarədən maddi yardım və maaş almayan şair məktəbi, demək olar, pulsuz-parasız idarə edir.

S.Ə.Şirvani "Məclis" məktəbində pedaqoji fəaliyyətini davam etməklə yanaşı 1877-ci ilin sentyabrında Şamaxı şəhər məktəbinə müəllim təyin olunur. Az da olsa, məişət qayğılarından azad olan şair bədii və elmi yaradıcılıqla məşğul olmağa vaxt və imkan tapır. Azərbaycanda məktəbə və məktəblilərə aid ədəbiyyatın yoxluğunu nəzərə alan Seyid Əzim Nizaminin "Sirlər xəzinəsi", C.Ruminin "Məsnəvi", Sədinin "Bustan" və "Gülüstan", Ə.Caminin "Baharıstan" və s. şərq klassiklərinin əsərlərindən, Azərbaycan, ərəb, fars və s. xalqların folklorundan zəngin material toplayır. O, bunların əsasında dərs dediyi uşaqların mütaliəsindən ötrü dərslik və oxu kitabları yaratmaq məsələləri ilə məşğul olmağa qərara alır. "Rəbiül-ətfal" və "Tacül-kütub" adı altında uşaqlardan ötrü iki kitab yazıb hazırlamağa başlayır. O, məşhur fars-tacik şairi Ü.Zəkaninin "siçan-pişik" dastanını və şərqdə geniş yayılmış "Bəxtiyarnamə" süjetlərindən birini tərcümə edir. O, 70-ci illərdə yazıb başa çatdırdığı "Rəbiül-ətfal" məcmuəsini təkmilləşdirib yeni variantını yaratdı. 1883-cü ildə "Tacül-kütub" dərsliyini və Azərbaycanda, İranda, Türkiyədə yaşamış 270 nəfər şairin bioqrafiyası haqqında məlumatı

və əsərlərindən nümunələri əhatə edən "Təzkirə"ni bitirdi. O, "Tarixi-Şirvannamə" əsəri üzərində işini davam etdi. Bu illərdə o, "Rəbiül-ətfal" və "Tacül-kütub" dərsliklərini "Müntəxabat" ümumi başlıq altında xalq maarifi orqanlarına təqdim edib, onun nəşri uğrunda ardıcıl surətdə mübarizə aparır.

1886-cı ilin ortalarında Qafqaz canişinin mülk işlər üzrə dəftərxanası fədakar müəllimin xalq maarifi sahəsində xidmətlərini nəzərə alıb, onu sinədə daşımaq üçün Stanislav lenti üzərində "Səyinə görə" sözləri yazılmış gümüş metalla təltif olunmaq haqqında məsələ qaldırır. Bu barədə rəsmi idarələr arasında iki il yazışma və məsləhətləşmə davam edir. Seyid Əzim gümüş medalı yalnız 1888-ci ilin 10 mayında ala bildi. Şair bu "fərəhli" hadisədən on gün sonra, 1888-ci ilin 20 mayında qəflətən vəfat etdi. O, Şamaxıda Şəhxəndan qəbiristanlığında dəfn olunmuşdur.





## ƏBDÜRRƏHİM BƏY TALIBOV

## (1834-1911)

Bu dövrün bədii nəsri Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Mirzə Əbdürrəhim bəy Talıbov və Zeynalabdin Marağayi kimi sənətkarlar təmsil edirlər. C.Məmmədquluzadə, N.Nərimanov və S.M.Qənizadənin nəsr əsərləri bədii üslubda yazılmışdır. Ə.Talıbov və Z.Marağayinin nəsr əsərləri isə fəlsəfi-publisist üslubdadır.

Əslən təbrizli olan Əbdürrəhim bəy Talıbov gənc ikən Teymurxanşuraya köçmüş və burada yaşamışdır. Yazıçının "Kitabi-Əhməd", "Xeyirxahların yolu", "Kitab yüklü eşşək" və "Səfineyi-Talibi" kimi nəsrlə yazdığı bədii əsərləri vardır.

"Kitab yüklü eşşək" alleqorik üslubda yazılmış əxlaqi-tərbiyəvi məzmunlu romandır. Əsərin əsas surəti insanların danışığını başa düşən, onlar kimi düşünən Çoşşadır. O, insanların hərəkətlərini təhlil edir və həyatda gördüklərini sahibi Mirzə Cəfərə danışır. Çoşşa başına gələnləri sahibinə söylədikdən sonra öz sərgüzəştlərini "böyük mütəfəkkirin icmalı və ruzigarın bir nümunəsi" adlandırır. Uzunqulağın danışdıqları Mirzə Cəfəri təsirləndirir və o, Çoşşanın söhbətini "həyat dərsi" adlandırır. Müəllif cəmiyyətdəki eyibləri Çoşşanın dili ilə tənqid edərək, müasirlərini xeyirxahlığa, mehribanlığa, qayğıkeşliyə və ədalətə səsləyir. Əsərdən çıxan əxlaqi nəticə budur ki, insanları pislikdən, şərdən yalnız xeyirxahlıq yolu ilə çəkindirmək olar. Romanda nadanlığın, ağılsızlığın tənqidi ideyası da əsas yer tutur. Ciddi ictimai-əxlaqi problemlərə toxunan yazıçı zülmə qarşı çıxaraq, maarifçilik və mənəvi azadlıq ideyalarını təbliğ edir. Fars dilində yazılmış romanda M.F.Axundzadə yaradıcılığının təsiri özünü göstərir.



## CAVAD XAN ZİYADOĞLU QACAR

## (1748-1804)

Gəncə xanlığının son hökmdarı, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın ən görkəmli siyasi xadimlərindən biri olmuş Cavad xan xalqımızın tarixi şəxsiyyətləri arasında xüsusi yeri var. Olduqca çətin hərbi-siyasi şəraitdə xanlığının müstəqilliyini təmin edən, onu qüvvətləndirən Cavad xanın bir dövlət xadimi kimi, sərkərdə və lider kimi xüsusiyyətləri Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizə zamanı özünü daha qabarıq göstərdi. Azərbaycan tarixinə Cavad xan qəhrəmanlıq rəmzi kimi daxil olmuşdur. Onun adı haqlı olaraq vətəninin müstəqilliyini, xalqının azadlığını öz həyatı bahasına qoruyanların rəmzi kimi qəbul edilir.

Cavad xan Ziyadoğlu Qacar 1748-ci ildə Azərbaycanın Gəncə şəhərində zadəgan ailəsində anadan olmuşdur. Onun atası Şahverdi xan 1756-1761-ci illərdə Gəncə xanı olmuş, oğullarına yaxşı tərbiyə və təhsil vermişdi. Ümumiyyətlə, Ziyadoğulları nəsli Azərbaycanın ən tanınan, sayılıb-seçilən nəsillərindədir. Cavad xanın uşaqlıq və gənclik illəri çətin və məşəqqətli keçmişdir.

Şahverdi xan vəfat etdikdən sonra xanlığı onun oğlu Məhəmməd Həsən xan idarə edirdi. O, Gəncə xanlığının inkişafı üçün bir sıra tədbirlər həyata keçirib, lakin çox az yaşayıb. Məhəmməd Həsən xandan sonra hakimiyyətə gəlmiş qardaşı, qəddar və zəif iradəli





Məhəmməd xan xanlığın işləri ilə məşğul olmur, dövləti zəiflədirdi. Həm əyanlar, həm də əhali ondan üz döndərmişdi. Qarabağ və Gürcüstan qoşunları xanlıq üzərinə yürüş edərək onu əsir alır və gözlərini çıxarırlar. Gəncə xanlığını Qarabağ xanı İbrahimxəlil xanın nümayəndəsi Həzrətqulu idarə etməyə başlayır.

Gəncədə baş vermiş üsyan nəticəsində Qarabağ qoşunları buradan çıxarılır, hakimiyyətə qısa müddətə Rəhim xan, sonra isə onun qardaşı Cavad xan gəlir.

Cavad xanın hakimiyyəti illərində Gəncə inkişaf edir, burada bir çox yeni binalar tikilir. onun sarayında bir çox alim, şair, din xadimləri fəaliyyət göstərir. Onların arasında məşhur Azərbaycan şairi Mirzə Şəfinin atası Kərbəlayi Sadiq da vardı. Həmçinin tanınmış Azərbaycan yazıçısı Möhsün Nəsiri xanın əmri ilə qədim hind və ərəb nağılları motivləri əsasında "Tutinamə" əsərini yazmışdır. Onun hakimiyyəti illərində Cavad xanın xarici siyasətində əsas məsələ gürcü çarları və onları dəstəkləyən Rusiyanı işğalçı planlarına qarşı mübarizə olub. Nadir şah Əfşarın Gürcüstana bağışladığı Borçalı və Şəmşəddili qaytarmaq üçün Cavad xan II İrakli ilə müharibə aparır və Şəmşəddili azad edir. Buranı onun oğlu Uğurlu xan idarə etməyə başlayır. Tarixən Azərbaycanın olan, lakin tez-tez basqınlara məruz qalan Qazax, Borçalı, Şəmşəddil, Şəmkir Azərbaycan torpaqları kimi təsdiqlənir.

1795-ci ildə Cavad xan Cənubi Azərbaycan və İranda hakimiyyətdə olan Ağa Məhəmməd xan Qacarın qoşunlarıyla birlikdə Tiflisə yürüşdə iştirak edir. Bu onun Qacarlar sülaləsinin nümayəndəsi kimi xana qohum olması, həm də siyasi məqsəd güdməsi ilə bağlıydı. Ağa Məhəmməd xan ərazini tərk etdikdən sonra gürcü çarı II İrakli, Qarabağ xanı İbrahimxəlil xan və onun müttəfiqi Ümmə xan Avarlı Gəncə üzərinə hücum edir, lakin onların yürüşü uğursuz alınır. Bununla belə, xanlığında müdafiə qüdrəti zəifləmiş, iqtisadiyyatı tənəzzülə uğramışdır. Sülh əldə etmək üçün Cavad xan Tiflisdə tutduğu 400 əsiri qaytarır, İbrahimxəlil xana 10 min manat məbləğində pul müavinəti ödəyir.

1796-cı ildə general V.Zubovun qoşunları Azərbaycana şimaldan hücum edəndə Gəncə istiqamətinə Rimski-Korsakovun qoşunları yönəlmiş və Cavad xan onları yaxşı qarşılamışdı. Ruslara olan müsbət münasibət ilk növbədə onların verdikləri vədlər, yerli xalqların müstəqil həyatlarına toxunmamaq kimi sözləri ilə bağlı idi. Lakin elə ilk addımlardan bunların yalan olduğu bəlli oldu. Belə ki, Rusiya Azərbaycanın bir hissəsini Gürcüstana bağışlamaq , digər ərazilərini, ilk növbədə isə İrəvan və Qarabağı ermənilərə vermək, burada İran və Türkiyədən köçürüləcək erməniləri yerləşdirmək, Qafqazın mərkəzində Rusiya himayəsi altında xristian dövləti yaratmaq fikirlərini gizlətmirdi. Rus qoşunu ilə birgə Azərbaycana gəlmiş erməni müraciəti rusların dəstəklənməsindən sonra azərbaycanlıların ruslara olan münasibəti dəyişir. Böyük üsyan hazırlanırdı, lakin bu arada imperiya Zubovu qoşunla birgə geriyə çağırır. Zubovun qoşunu Azərbaycanı tərk edən kimi cənubdan Ağa Məhəmməd şah Qacarın yürüşü başlayır. Çox qəddar və amansız olan şah nəinki ona müxalif xanları, həmçinin müttəfiqi Cavad xanı da həbs edir. Onun məqsədi bütün yerli hakimləri öz hakimiyyətinə tabe etmək, xanlıqları ləğv etmək idi. Həbsin səhərisi günü şahın öz mühafizəçiləri tərəfindən öldürülməsi digər xanlar kimi, Cavad xanın da azad edilməsi ilə nəticələnir.

1799-cu ildə rus qoşunları yenidən Gürcüstana qayıdır və bundan istifadə edən gürcü çarı XII Georgi Şəmşəddilin Gürcüstana verilməsini ruslara təklif edir. 1801-ci il Georgiyevsk traktatı ilə ruslar Gürcüstanda möhkəmləndikdə və Şəmşəddilin 29 kəndini zəbt etdikdə xanın göndərdiyi qoşun onları vurub çıxarır, bütün kəndləri azad edir. General Lazarev danışıqlara göndərilir. Xan danışıqlarda bildirir ki, o, Rusiya və Gürcüstanın işlərinə qarışmaq fikrindən uzaqdır və eyni zamanda, tələb edir ki, onun da hüquqlarına hörmətlə yanaşılsın. Gürcüstanda rus qoşunlarının komandanı, Azərbaycan xalqının qəddar düşməni, elə Gürcüstanın özündə də qanlı əməlləri ilə fərqlənmiş general Sisianov Cavad xana məktub yazır, tabe olmasını, həmçinin oğlu Uğurlu xanın onun hüzuruna göndərilməsini və girov kimi saxlanılmasını tələb edir. Təbii ki, Cavad xan rədd cavabı yazır. Qeyd etmək lazımdır ki, Cavad xanın məktubları nə qədər səviyyəli, hörmətlə yazılmışdısa, Sisianovun məktubları bir o qədər çirkin və nalayiq sözlərlə dolu olmuşdur.





1803-cü il noyabrın 22-də rus qoşunları Gəncə üzərinə yürüşə başlayır. Xanlığın sərhədlərini keçdikdə Sisianov yeni bir məktub yazır və yenə də tabe olmağı tələb edir. Məşhur Nizami məqbərəsindən bir az aralı "Quru qobu" adlı yerdə döyüş baş verir. Qüvvələrin qeyri-bərabərliyi nəticəsində döyüş Gəncə qoşunlarının məğlubiyyəti ilə nəticələnir. Gəncəlilər şəhər qalasına çəkilirlər. Rus qoşunları şəhəri mühasirəyə alırlar. Bir ay ərzində mühasirə və atəşin davam etməsinə baxmayaraq, Cavad xan müdafiə olunur.

1804-cü il yanvarın 2-dən 3-nə keçən rus qoşunları yeni hücuma başlayırlar. Bir istiqamətdən olan hücum dəf olunur, lakin digər tərəfdən ruslar qala bürclərindən birini tuta bilirlər. Sisianov şəhərin adını dəyişdirmək barədə əmr verir. Şəhərin alınmasına verilən önəmi Rusiyada buraxılan medallar təsdiqləyir. Belə ki, "Gəncənin alınmasına görə" və "Gəncənin alınmasında igidliyə görə" medalları təsis edilmişdir.

Cavad xan və onun oğlu Hüseynqulu xan döyüşərək qala divarlarında həlak olurlar. Xanın digər oğlu Uğurlu xan Arazı keçməyə, Cənubi Azərbaycanda məskunlaşmağa müvəffəq olur. Sonralar o, iki dəfə güclü həmlə ilə Gəncəni azad etməyə çalışmışdır. 1826-cı ildə o, şahzadə Abbas Mirzə Qacarla əlbir olaraq Şimali Azərbaycana qayıtmış və atasının yurdunu qısa müddətə azad etmişdir.

Cavad xan Gəncədə Cümə məscidinin önündə dəfn edilmişdir. 1962-ci ildə abadlıq işləri adı ilə onun məzarı dağıdılmış, lakin qəbir saxlanılmışdır. Yalnız 1990-cı il martın 27-də qəbir üzərində abidə ucaldılmış, bundan sonra xalq öz qəhrəmanının ziyarətinə sərbəst gəlməyə başlamışdır.



## İSMAYIL BƏY QUTQAŞINLI

## (1809-1861)

Azərbaycan ədəbiyyatında maarifçiliyin inkişafında böyük xidmətləri olan sənətkarlardan biri də İsmayıl bəy Qutqaşınlıdır. O, 1809-cu ildə Qutqaşın (Qəbələ) mahalında anadan olmuşdur. İsmayıl səkkiz yaşında girov kimi Peterburqa aparılmış və kadet məktəbində oxumuşdur. Daha sonra hərbi xidmətdə olan İsmayıl bəy sıravi əsgərlikdən general-mayor rütbəsinə yüksəlmişdir. 25 illik hərbi xidmətdən sonra, o, Şamaxıda işləmişdir. İ.Qutqaşınlı iki dəfə Məkkəni ziyarət etmişdir (1852 və 1861-ci illərdə).

İ.Qutqaşınlı "Rəşid bəy və Səadət xanım" hekayəsinin və avtobioqrafik məzmunlu "Səfərnamə" əsərinin müəllifidir. "Rəşid bəy və Səadət xanım" hekayəsi ilk dəfə 1835-ci ildə Varşavada fransız dilində nəşr olunmuşdur. Ədəbiyyat tariximizdə hekayə janrının ilk nümunələrindən olan bu əsərdə yazıçının maarifçi ideyaları öz əksini tapmışdır. Müəllif hekayədə məişət və mənəviyyatdakı geriliyə, köhnə adət-ənənələrə qarşı çıxır və Rəşid bəylə Səadət xanım surətlərinin simasında yeni insan, yeni ailə və yeni ictimai münasibətlərlə bağlı arzularını ifadə edir.

Yüksək əxlaqi-tərbiyəvi fikirlər aşılayan "Rəşid bəy və Səadət xanım" hekayəsini M.F.Axundov yüksək qiymətləndirmişdir.

İsmayıl bəy Qutqaşınlının "Səfərnamə" əsəri yazıçının Məkkəyə ilk ziyarəti zamanı səfər təəssüratını əks etdirən yol qeydləri şəklindədir. Əsərdə müxtəlif şərq xalqlarının məişəti, adət-ənənələri haqqında qısa məlumat verilir. Yazıçının avtobioqrafik səciyyəli bu əsəri tam şəkildə əldə yoxdur.

İsmayıl bəy Qutqaşınlı Azərbaycan tarixinə ilk realist əsərlərdən birinin müəllifi, yazıçı, görkəmli ictimai və hərbi xadim kimi daxil olmuşdur.







## SƏFƏRƏLİ BƏY VƏLİBƏYOV

## (1861-1902)

Səfərəli bəy Şeyx Həsən bəy oğlu Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. O, ilk təhsilini məhəllə məktəbində (1868-1875), orta təhsilini şəhər məktəbində (1875-1879) almışdır. S.Vəlibəyov 1879-cu ilin sentyabrında Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası yanında yenicə açılmış "Tatar (Azərbaycan) şöbəsi"nə daxil olmuşdur. S.Vəlibəyov seminariyanı bitirib professional pedaqoji ixtisas alan üç azərbaycanlıdan biridir (onlardan biri naxçıvanlı Əliməmməd Xəlilov, digəri Lənkəranlı Teymur və Bayraməlibəyov idi). 1881-ci ildə iki il müddətində təhsilini "əla" qiymət və nümunəvi əxlaqla başa vuran S.Vəlibəyov Qafqaz Təhsil dairəsi popeçitelinin 15 iyun tarixli 3140 nömrəli sərəncamı ilə "Tatar (Azərbaycan) şöbəsi"nin nəzdində yeni açılmış ibtidai məktəbə müəllim təyin olunur. O, 1881-1896-cı illər arasında tam 15 il burada işləyir və seminariyaya daxil olmaq istəyən azərbaycanlı şagirdlərin müəllimi və kənd ibtidai məktəblərində pedaqoji fəaliyyətə hazırlaşan seminaristlərin təcrübə dərslərinin rəhbəri olmuşdur. Cəlil Məmmədquluzadə, F.Köçərli, N.Nərimanov, S.S.Axundov kimi onlarla seminariya məzunu, gələcəyin maarif, mətbuat və ədəbiyyat xadimləri A.O.Çernyayevski ilə bərabər həm də Səfərəli bəy Vəlibəyovun yetirmələridir.

Seminariyada işə başladığı ilk gündən Azərbaycan xalq maarifinin aktual problemləri həmişə S.Vəlibəyovun diqqət mərkəzində

olmuş, bütün səylərini onların həlli uğrunda mübarizəyə, mütərəqqi maarif sisteminin təbliğinə, təhsilin müasir istiqamətdə inkişafına, səmərəliliyinin təmin olunması işinə sərf etmişdir. Əsası seminariyadakı ibtidai məktəbdə A.O.Çernyayevski tərəfindən qoyulan səsli metoda xüsusi əhəmiyyət verən Vəlibəyov 1883-cü ildə yay tətili günlərində Şuşada Xurşud banu Natəvanın xahişi ilə qısa müddətli pedaqoji kurs təşkil etmiş, əski məktəbdarlara səsli metodun üsullarını öyrətmiş və yeni maarif hərəkatının əsasını qoymağa nail olmuşdu. Vəlibəyovun bu fədakar addımı rəsmi maarif orqanları tərəfindən yüksək qiymətləndirilmişdi. Azərbaycan maarifinin milli zəmində inkişafına və onun mütərəqqi nailiyyətlərinin xalq məktəblərində tətbiqi işinə xüsusi əhəmiyyət verən S.Vəlibəyov 1884-cü ildə "Tatar (Azərbaycan) şöbəsi"nin Azərbaycan şəhərlərindən birinə köçürülməsi ideyasını irəli sürmüşdür. O, rəsmi dairələrə müraciətində bir çox tutarlı dəlillər gətirərək, şöbənin Tiflisdən 65 kilometr aralıda yerləşən bir xristian şəhərində saxlanmasını milli və dini baxımdan məqsədəuyğun hesab etməmişdi.

S.Vəlibəyov XIX əsrin 80-ci illərində yenicə dirçəliş yoluna düşən üsuli-cədid hərəkatının inkişafını təmin etmək üçün onun nəzəri və əməli problemlərinin həlli ilə ardıcıl surətdə məşğul olmuş, zəruri ehtiyaclarının təmin olunması işinə böyük qüvvə sərf etmişdir. Onun "Ziya" qəzetində dərc olunmuş "Türk dili barəsində", "Müsəlman uşaqlarının şəriəti bilməməyinin səbəbi", "Qoridən məktub", "İslahati-məmləkət", "Kavkaz" qəzetində çıxan "Biblioqrafiya", "Tərcüman"da çıxan "Şuşadan məktub", "Bakıdan məktub" və s. məqalələrində Azərbaycan maarifi, ana dili və ədəbiyyatının bir sıra zəruri aktual problemləri müzakirəyə qoyulmuş, məsələlərə dərindən bələd olan adam kimi onların həlli yolları haqqında faydalı əməli təkliflər irəli sürmüşdür.

XIX əsrin 80-90-cı illərində S.Vəlibəyov milli məktəblərin dərslik və uşaq mütaliəsi üçün kitablarla təmin olunması işi ilə ciddi surətdə məşğul olur. A.O.Çernyayevskinin "Vətən dili" (I h.) dərsliyinin tərtibində iştirak edən S.Vəlibəyov onun ikinci hissəsinin hazırlanmasına böyük zəhmət sərf edir və ikinci müəllifi olur. O,





bir-birinin ardınca "Vətən dili" (II h. 1888) dərsliyini, "Qüdrəti-xuda" (1889) tərcüməsini nəşr etdirmişdi. Bunlardan başqa o, "Ləhceyi-Azərbaycan", ruslar üçün "Fars dili"dərsliklərini yazmışdır.

S.Vəlibəyov 1896-cı ilin 15 oktyabrında Qafqaz Təhsil dairəsi popeçitelinin təklifi ilə Zaqafqaziya Müəllimlər Seminariyasından Bakı real məktəbinə sinif mürəbbilərinin köməkçisi vəzifəsinə dəyişilir. Bakıda o, S.M.Qənizadə, N.Nərimanov, S.S.Axundov, H.Mahmudbəyovun hazırladığı mədəni tədbirlərdə yaxından iştirak edir. 1896-cı ildə "Üsuli-cədidi-lisani-farsi" dərsliyini nəşr etdirir. Dərslik İran dövləti tərəfindən yüksək qiymətləndirilir. S.Vəlibəyov 4-cü dərəcəli "Şiri-Xurşid" nişanı ilə təltif olunur.

1898-ci ildə S.Vəlibəyov məşhur Kazımbəyin "Dərbəndnamə" əsərinin rus dilinə tərcüməsini başa çatdırır. S.Vəlibəyov 1902-ci ilin 31 avqustunda Bakıda vəfat etmişdir.



## MİRZƏ FƏTƏLİ AXUNDOV

**(1812-1878)**

Mirzə Fətəli Mirzə Məhəmməd Tağı oğlu Axundov 1812-ci ilin 30 iyununda Şəki şəhərində anadan olmuşdur. Yazıçının babası Cənubi Azərbaycanın Rəşt vilayətindən, atası Xamnə qəsəbəsindən, anası Marağa mahalındandır. Atası kəndxudalıq vəzifəsindən çıxarıldıqdan sonra ticarət etmək məqsədilə İrandan Qafqaza mühacirət edib, Şəkidə yaşayan Axund Hacı Ələsgərin yanına, burada ikinci dəfə onun qardaşı qızı Nanə xanımla evlənmişdir. İki ildən sonra Mirzə Məhəmməd Tağı siyasi hadisələrdən dolayı digər "iranlı qəriblər"lə vətənə dönür. O, arvadı Nanə xanımı və oğlunu da özü ilə aparır. Fətəlinin uşaqlıq illəri Xamnə qəsəbəsində keçir. Mirzə Məhəmməd Tağının birinci arvadı ilə yola getməyən Nanə xanım dörd il sonra ərindən ayrılır və Ərdəbil vilayətinin Meşkin mahalında Şəkinin keçmiş hakimi Səlim xanın himayəsində yaşayan əmisi Axund Hacı Ələsgərin yanına gəlir. Fətəli yeddi yaşından on üç yaşına qədər Meşkində, Qaradağda, Savalan dağının ətəklərində – Əli pəncəsi yaylağında, Vəlibəyli obasında, Horand kəndində yaşamışdır.

Nadir bir alim olan Axund Hacı Ələsgər Fətəlinin təlim-tərbiyəsi ilə məşğul olur. Bütün İslam elmlərindən mükəmməl məlumatı olan axund, eyni zamanda, mahir müəllim idi. Onun təşviqi ilə Fətəli qısa müddətdə Quranı bitirir və ərəb-fars dillərində kitablar oxumağa başlayır.





1825-ci ildə Axund Hacı Ələsgər yenidən Şəkiyə köçür. Fətəli təhsilini burada davam etdirir. 1832-ci ildə Məkkəyə gedən Axund Hacı Ələsgər Fətəlini Gəncəyə aparıb, Molla Hüseyn Pişnamazzadənin yanında qoyur. O, burada fiqh və məntiq elmlərini öyrənir. Onun Mirzə Şəfi Vazehlə görüşü də bu vaxta təsadüf edir. Məşhur şair ona nəstəliq xəttini öyrətməklə bərabər, onu ruhanilərin siması ilə tanış edir və həyat yolunu dəyişməyə nail olur. Gənc Fətəli 1833-cü ildə Şəkidə açılan rəsmi qəza məktəbinə daxil olur. Yaşı çox olduğuna görə o, burada rus dilində ancaq bir il oxuya bilir.

1834-cü ilin payızında Axund Hacı Ələsgər gənc Fətəlini Tiflisə aparıb, Qafqaz sərdarı olan baron Rozenə təqdim edir, canişin dəftərxanasında Şərq dilləri mütərciminin şagirdi vəzifəsinə təyin etdirməyə nail olur. İstedadlı gənc altı aydan sonra sərbəst surətdə vəzifəsini icra etməyə başlayır. Gənc məmur vəzifə kürsüsündə irəliləyərək 1852-ci ildə Qafqaz canişinin baş mütərcimi, 1858-ci ildə canişinliyin baş siyasi idarəsinin mütərcimi vəzifəsinə təyin olunur. Rəsmi dövlət qulluğu mütərcimliklə yanaşı ədib 1836-1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan və fars dilləri müəllimi işləyir. O, beş ildən sonra yerini Gəncədən Tiflisə köçən müəllimi Mirzə Şəfiyə verib, pedaqoji işdən uzaqlaşır.

Tiflis M.F.Axundovun hərtərəfli inkişafı üçün geniş imkan yaradır. O, vəzifə və rütbə kürsüsündə irəliləyərək gündən-günə təkmilləşib inkişaf edir. Müasir şəraitdə rus dilinin əhəmiyyətini başa düşüb, onu dərindən öyrənən M.F.Axundov mütaliə ilə müntəzəm məşğul olur. Rus və Avropa yazıçı və filosoflarının müxtəlif tipli əsərlərini oxuyub öyrənir. Şərq və Qərb elmi və bədii fikrinin sintezində yeni tipli bir yazıçı, alim və ictimai xadim formalaşıb yetişir. Tiflis siyasi, inzibati və ədəbi mühiti, xüsusilə dekabrist şair və ədiblərlə əlaqədar yazıçının inkişafında faydalı rol oynayır.

Şəkidə ilk şeirlərini yazan M.F.Axundov bədii yaradıcılığını həvəslə davam etdirir. O, 1837-ci ildə böyük rus şairi A.S.Puşkinin qətli münasibətilə "A.S.Puşkinin ölümünə Şərq poeması" əsərini yazır. Mərsiyə şairə böyük şöhrət gətirir. Əllinci illərdə dram yaradıcılığı aləminə gəlir, bir-birinin ardınca "Hekayəti-Molla İb-

rahimxəlil Kimyagər" (1850), "Hekayəti-müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah cadukuni-məşhur" (1850), "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (1850), "Hekayəti-xırs quldurbasan" (1852), "Sərgüzəşti-mərdi-xəsis" (1852), "Mürafiə vəkillərinin hekayəti" (1855) komediyalarını yazır. 1857-ci ildə "Aldanmış kəvakib" povestini qələmə almaqla milli realist bədii nəsrinin əsasını qoyur. 1859-cu ildə M.F.Axundovun əsərləri Tiflisdə "Təmsilat" adı altında kitab halında nəşr olunur.

1854-cü ildən başlayaraq M.F.Axundov ərəb əlifbasını dəyişmək uğrunda mübarizə aparır və ömrünün iyirmi ilini bu işə sərf edir.

1865-ci ildə M.F.Axundov "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab" əsərini tamamlayır.

Bədii və elmi yaradıcılıq fəaliyyəti ilə yanaşı Axundov realist ədəbiyyatın nəzəri-estetik prinsiplərini işləyib yaymaq uğrunda mübarizə aparır, "Fehristi-kitab", "Nəzm və nəsr haqqında", "Mollayi-Ruminin və onun təsnifinin babında", "Kritika", "Mirzə Ağanın pyesləri haqqında kritika", "Tənqid risaləsi" məqalələrini və çoxlu məktublarını yazmaqla milli ədəbi tənqidin əsasını qoyur.

M.F.Axundov 1878-ci ilin martında Tiflis şəhərində vəfat etmişdir.

Azərbaycan dramaturgiyası, bədii nəsri, ədəbi tənqidi və publisistikasının banisi, Şərqdə milli-azadlıq ideyalarının ilk təbliğatçısı, ictimai xadim, yazıçı, mütəfəkkir Mirzə Fətəli Axundovun adı xalqımızın qəlbində həmişə yaşayıb və yaşayacaqdır.







## ABBAS AĞA NAZİR QAYIBOV

**(1849-1919)**

Abbas ağa Mirzə Nəbi əfəndi oğlu Qayıbov 1849-cu ildə Qazax mahalının Salahlı kəndində ruhani – şair ailəsində anadan olmuşdur. Nazirin atası Mirzə Nəbi Əfəndi F.Köçərlinin dediyi kimi, "elm və fəzilətilə beynəlnas zəmanəsində şöhrət kəsb etmiş bir vücud", anası Fəxrənisə Molla Vəli Vidadinin nəvəsi idi.

Abbas ağa Qayıbzadə Nazir ilk təhsilini şair-alim atasından evdə və onun əmisi oğlu Molla Hüseyn Qaybovun Kür qırağında açdığı məktəbdə almışdır. Salahlıda məktəbi bitirdikdən sonra Abbas ağa təhsilini Tiflisdə Zaqafqaziya Sünni Ruhani İdarəsinin nəzdindəki "Ömər" məktəbində davam etmişdir. Şair 1869-cu ildə məktəbi bitirmişdir.

Abbas ağa 1873-cü ildə müfti Əbdül Həmid Şirvani tərəfindən Tiflisə dəvət olunur. Ona Zaqafqaziya Sünni Ruhani idarəsində kargüzar və katib köməkçisi vəzifəsi tapşırılır. O, 1876-cı ildə müvəqqəti katib, 1880-ci ildə katib vəzifəsinə təyin olunmuşdur.

Şairin sünni Ruhani idarəsində fəaliyyəti 1911-ci ilin 4 martına qədər davam etdiyinə görə Abbas ağa müxtəlif vaxtlarda qeyri-xristianlar üçün nəzərdə tutulmuş "Üçüncü dərəcəli müqəddəs Anna", "Müqəddəs Stanislav" ordenləri ilə təltif olunmuş, "Kollejski sekretar", "Titulyarnı sovetnik", "Kollejski reqistrator" kimi məmur dərəcələrinə layiq görülmüşdür.

Abbas ağa Nazir bədii yaradıcılığa erkən yaşlarından başlamışdır. Şair lirik, lirik epik, didaktik şeirlər yazmış, rus və fars dillərindən bir sıra dəyərli əsərlər tərcümə etmişdir. Şairin "Bəyani-hal", "Molla və şeytan", "İki qardaş", "Rüstəm və Söhrab" (Firdovsidən tərcümə) və s. əsərləri milli ədəbiyyatımızın dəyərli nümunələridir. "Təraneyi-milliyyə" şeiri XX əsrin əvvəlində ən populyar poetik nümunələrdən olmuş, dildən-dilə düşmüş, müəllifinə böyük şöhrət gətirmişdir.

Abbas ağa Nazir 1919-cu ildə Qazaxın Salahlı kəndində vəfat etmişdir.





## MİRZƏ NƏSRULLAH BAHAR ŞİRVANİ

**(1835-1883)**

Dövrün lirik şeirinin ən qüdərtli nümayəndələrindən biri Bahar Şirvanidir. O, Şamaxıda doğulmuş, burada mədrəsə təhsili almışdır. Bir müddət Hindistanda yaşadıqdan sonra İrana gəlmiş və Nəsrəddin şahın sarayında "Məliküş-şüara" olmuşdur. B.Şirvaninin şeirlərinin çoxu Füzulinin ədəbi təsiri ilə yazdığı qəzəllərdən ibarətdir. Qəzəlləri nikbin ruhdadır. Şeirlərinin lirik qəhrəmanı azadfikirli bir insandır. Bahar da Füzuli kimi bir sıra şeirlərində sufi baxışlarını açıqlayır. Məsələn, aşağıdakı nümunədə o, meyxanə əhli olan Rindi (sufini) Zahidə qarşı qoyur.

Zahid bilirmi heç miyanın hekayətin?
Nazik gözü nə bilsin o kəs kim, əvamdır?!
Zahid, təvafi-kəbəni qoy, bir güzar qıl
Meyxanə içrə, gör nə səfalı məqamdır.

Şairin "Töhfətül-əhibba" (Dostlara töhfə) və abtobioqrafik məzmunlu "Nərgiz və Gül" adlı məsnəviləri də vardır. B.Şirvani ana dilindən başqa, fars, ərəb, fransız və urdu dillərində də şeirlər yazmışdır. O, həyati mövzuların tərənnümçüsü və nikbin ruhlu şair idi.

Ölməkdən özgə yox mənə eşqində bir vüsal,
Pərvanə yanmağın sevər ancaq çıraqdan.
Bir lalə üzlü yar çəkib dağ sinəmə,
Ya rəb, sən etmə sinəmi xali bu dağdan.
Sənsiz əgər bahar açıla, istəməz Bahar;
Nə qönçə bağdan açıla, lalə dağdən.

Mirzə Nəsrullah Bahar Şirvani 1883-cü ildə Təbrizdə vəfat edib, Surxab qəbiristanlığında, Xaqaninin qəbri yaxınlığında dəfn edilmişdir.



## NƏCƏF BƏY VƏZİROV

**(1854-1926)**

Nəcəf bəy Fətəli oğlu Vəzirov 1854-cü ilin baharında Şuşa şəhərində kasıb bəy ailəsində anadan olmuşdur. O, 1866-cı ildə on iki yaşında mollaxanaya girmiş, Quran oxumağı, yazı yazmağı öyrənmişdir. Bir ildən sonra təhsilini Şuşa şəhər mülki məktəbində davam edən Nəcəf bəy iri karton üzərində yazılmış rus əlifbasını öyrədən erməni müəlliminin işgəncələrinə tab gətirməyib dərsdən qaçır. O, 1868-ci ildə anasının göz yaşlarına baxmayıb dərs oxumaq üçün Bakıya gəlir və real gimnaziyaya daxil olur. "Əla" qiymətlə oxuyan Nəcəf bəy Vəzirov evlərdə xüsusi dərslər deməklə maddi ehtiyaclarını təmin edir. 1873-cü ildə 6-cı sinifdə oxuyarkən ilk dəfə rus teatrına gedən gimnazist səhnə ədəbiyyatı ilə maraqlanır və M.F.Axundovun "Təmsilat"ını oxuyur. O, gimnaziyada təbiyyat tarixindən dərs deyən müəllimi Həsən bəy Zərdabinin məsləhəti ilə "Hacı Qara" komediyasını tələbə yoldaşlarının köməyilə tamaşaya qoyur. Onun bədii yaradıcılığa başlaması da bu illərə təsadüf edir. 1873-1874-cü illərdə "Əti sənin, sümüyü mənim", "Qara günlü" komediyalarını yazır.

N.Vəzirov 1874-cü ildə Bakı real gimnaziyasını müvəffəqiyyətlə bitirib, ali təhsil almaq üçün Peterburqa gedir. İmtahan verib müvəffəqiyyətlə universitetə daxil olur. Lakin şəhərin havası ona düşmür, battaq xəstəliyinə tutulur. Həkimlərin məsləhətilə Moskvaya gəlib, Petrovski-Razumovski Kənd Təsərrüfatı və Meşəçilik akademiyasına daxil olur. Təhsil illərində o bədii yaradıcılığını davam edir. 1875-ci ildə Bakıda "Əkinçi" qəzeti nəşrə başlayanda gənc dramaturq redaksiya ilə əlaqə yaradır. H.Zərdabi ilə müntəzəm





məktublaşır, müxtəlif mövzularda yazdığı məqalələri qəzetdə dərc etdirir. Tələbə-dramaturq Moskvada "İmdadiyyə" adlı azərbaycanlı tələbələrin ilk siyasi dərnəyini təşkil edir. Qarşısına pisliklərin kökünü kəsən əllər hazırlamaq vəzifəsi qoyan dərnək jandarm idarəsinin diqqətini cəlb edir. Onun banisi Nəcəf bəy Vəzirov xüsusi nəzarət altında saxlanılır. N.Vəzirov 1878-ci ildə akademiyada təhsilini başa çatdırır. Ali təhsilli dermatoloq Tərtərdə, Dilicanda meşəbəyi vəzifəsində işləyir. On iki il davam edən meşəbəyilik fəaliyyəti yazıçı ömrünün fərəhli illəri idi. Lakin xoşbəxt günlər uzun sürmür. III Aleksandrın hakimiyyətə gəlişi ilə Pobedonostsevin tövsiyəsilə imperiya ərazisində irtica şiddətlənərkən radikal baxışlı akademiya məzunları qulluqdan xaric edilməyə başlanırlar. "İmdadiyyə" dərnəyinin rəhbəri də meşəbəyi vəzifəsindən çıxarılır. İşsiz qalan petrovist 1895-ci ildə Bakıya köçür. O, ekstern yolu ilə imtahan verib, hüquqşünas diplomu alır və məhkəmələrdə vəkil işləyir. Nəcəf bəy Vəzirov uzun ayrılıqdan sonra yenidən bədii yaradıcılıq aləminə qayıdır, bir-birinin ardınca "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonrakı peşmançılıq fayda verməz" (1890), "Adı var, özü yox" (1891), "Yağışdan çıxdıq, yağmura düşdük" (1895), "Pəhləvanani-zəmanə" (1898) komediyalarını, "Müsibəti-Fəxrəddin" (1896) faciəsini yazır. Dramaturq 1901-ci ildə əsərlərini "Təsnifat" adı altında kitab halında nəşr etdirir. Birinci rus inqilabından sonra N.Vəzirovun yaradıcılığında bədii publisistika ön plana keçir. Yazıçı dövri mətbuatda "Dərviş" imzası ilə "Balaca mütəfərriqələr" (1905-1918) başlığı altında felyetonlar dərc etdirir. Ədib XX əsrin əvvəlində publisistika ilə yanaşı dramaturji fəaliyyətini də davam etdirir. "Vay şələküm məələküm" (1909), "Nə əkərsən, onu biçərsən" (1911), "Keçmişdə qaçaqlar" (1912) orijinal əsərlərini yazır. A.K.Tolstoyun "İvan Qrozninin ölümü" (1907) faciəsini Azərbaycan dilinə tərcümə edir.

Sovet hakimiyyəti illərində Kənd Təsərrüfatı-Suvarma texnikumunda müəllim işləyən N.Vəzirov "Təzə əsrin ibtidası" (1922), "Pul düşkünü Hacı Fərəc" (1924) pyeslərini "Azərbaycan meşələri" adlı əsərini yazır.

Nəcəf bəy Vəzirov 1926-cı ildə vəfat etmişdir.



## MİRZƏ ƏLİ MÖCÜZ

(1873-1934)

Cənubi Azərbaycanda, daha dəqiq desək Təbrizdə "Molla Nəsrəddin" jurnalı nəşr edilərkən onun ən fəal əməkdaşlarından biri Mirzə Əli Möcüz olmuşdur. "Cənubi Azərbaycanın Sabiri" adlandırılan Möcüz uzun illər İstanbulda yaşamış, yoxsul həyat sürmüşdür. Sabir ədəbi məktəbinin görkəmli davamçısı olan Mirzə Əli Möcüz yazırdı: "Mən də xalqımı Sabir kimi oyadacağam". Möcüzün yaradıcılığında Sabirin təsiri ilə yazdığı satiraları əsas yer tutur. Şairin "Əmmə", "Millət", "Sizə mən neyləmişəm?", "Əmioğlu", "Vətən" kimi şeirlərində xalqın ağır vəziyyəti, varlıların qudurğanlığı, cəhalət və mədəni gerilik təsvir olunur. Möcüzün "Mən neyləyim?" satirası məzmunca Sabirin "Nə işim var?", "Bizə nə?" satiralarını xatırladır. Möcüz də sələfi Sabir kimi yalnız özünü düşünən pullu ağaları, onların öz dili ilə ifşa edir. Möcüz Qərb imperialistlərinin müstəmləkə siyasətinin tənqidi, eləcə də azadlıq ideyalarını və respublika quruluşunun təbliği mövzusunda da şeirlər yazmışdır. Şairin bir sıra şeirlərində azadlıq uğrunda mübarizəyə çağırış ruhu güclüdür.

Saqiya, bir badə ver əbnayi-cümhuriyyətə,
Təşnədir əhli-vətən səhbayi-cümhuriyyətə.





***

Sakit ol, ahəstə gəl, tünd əsmə ey badi-səba,
Qorxuram toz əyləşə simayi-cümhuriyyətə.

***

Qurda verdi kəlləni çün kəlləsiz çobanımız,
Ol cəhətdən düşmüşük sevdayi-cümhuriyyətə.

Mirzə Əli Möcüzün şeirlərinin çoxu satiralardan ibarətdir. Məsnəvi şəklində yazılmış satiraları birinci şəxsin dilindən söylənilir. Şeirlərinin bir hissəsində "Saqiya", "İlahi", "Bülbül", "Yaran" (dostlar) kimi müraciət formalarından istifadə etmişdir.

Mirzə Əli Möcüz Təbrizin Şəbüstər mahalında tacir ailəsində anadan olmuşdur. Şəxsi istedadı sayəsində klassik şərq şeirinin sirlərini mükəmməl öyrənib. Əsasən satirik şair kimi məşhurdur. Fars dilində də şeirlər yazmışdır. 1932-ci ildə Şəbüstərdə qız məktəbi açmışdır. İranın Şahrud şəhərində vəfat etmişdir.



# AŞIQ ƏLƏSGƏR

(1821-1926)

Aşıq şeirinin ustad yaradıcılarından olan, böyük el sənətkarı Aşıq Ələsgər Azərbaycanın qədim bölgələrindən Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. 14 yaşında ikən Kərbəlayi Qurban adlı varlı bir kəndlinin evində nökərçilik edən Ələsgər ağasının qızı Səhnəbanuya vurulur. Lakin Səhnəbanunu əmisi oğluna ərə verir və Ələsgəri evdən qovurlar. Ələsgər hələ yeniyetmə ikən aşıqların təsiri ilə söz demiş, şeirlər qoşmuşdur. Sevdiyi qızdan ayrıldıqdan sonra Ələsgərin şeir deməyə həvəsinin daha da artdığını görən atası onu Aşıq Alının yanına şəyirdlik etməyə aparır. Ələsgər ustadından həm aşıqlıq sənətinin sirlərini, həm də ədəb və mərifət qaydalarını öyrənir və Göyçədə aşıqlıq edir. Toy məclislərini aparan Ələsgər tezliklə Göyçədə və ətraf bölgələrdə ustad sənətkar kimi şöhrət tapır. Aşıq Ələsgər bu zaman özü ustadlıq edərək cavanlara saz tutub, söz qoşmağın sirlərini öyrədir.

Ömrünün çoxunu toyda, məclisdə keçirən aşıq Ələsgər qonşu ölkələrdə – Türkiyə, İran və Dağıstanda da ustad bir sənətkar kimi tanınmışdır.

İnsanların saf, doğruçu, ədalətli, nəcib, mərhəmətli görmək istəyən aşıq ana vətənin gözəlliklərini yorulmadan tərif etmiş, əsərlərində namərdlərə, ikiüzlülərə, şər işləri özlərinə peşə edənlərə nifrətini açıq bildirmişdir.

O, aşıq şeirinin ən yaxşı yaradıcılarından biri kimi ədəbiyyat tariximizdə, xalqımızın yaddaşında silinməz iz qoymuşdur.





1918-1919-cu illərdə Aşıq Ələsgər ermənilərin türklərə qarşı törətdiyi qırğın nəticəsində doğma yurdundan didərgin düşərək bir müddət Kəlbəcərdə (Yanşaqda) yaşayır. 1921-ci ildə Göyçəyə qayıdan Aşıq Ələsgər 1926-cı ildə burada vəfat etmişdir. Aşığın əsərləri ölümündən sonra toplanaraq nəşr edilmişdir. 1972-ci ildə Azərbaycanda Aşıq Ələsgərin anadan olmasının 150 illiyi qeyd edilmişdir.

Aşıq Ələsgərin ədəbi irsi qoşma, gəraylı, təcnis və müxəmməs janrlarında olan lirik şeirlərdən ibarətdir. Məhəbbət lirikası aşığın yaradıcılığında əsas yer tutur. Məhəbbətə aid şeirlərinin lirik qəhrəmanı sevgilisindən ayrı düşən, günü ah-vayla, dərd-qəmlə keçən Aşiqdir. Aşıq Ələsgərin qoşmalarının böyük bir hissəsi də el gözəllərinin tərifi haqqındadır.

Aşıq Alının, şagirdi Ələsgərə xeyirxah təsiri az olmamışdır. Ələsgər ustadının yanında sənətin sirlərini dərindən öyrənir, gündən-günə inkişaf edir, püxtələşir, məşhurlaşdı. Nəhayət, yeri gəldikcə, öz dövründə tayı-bərabəri olmayan ustadı Aşıq Alı ilə qabaqlaşır, döş-döşə gəlir, deyişirdi.

Söyləyirlər ki, bir gün Aşıq Alı şagirdi Ələsgərlə deyişir. Məclis əhlinə bildirmək üçün ki, Ələsgər çox böyük istedad sahibidir, həm də o, daha tamam-kamal aşıqdır, məclisi müstəqil idarə etməyə layiq və qadirdir, Aşıq Ələsgərlə deyişdiyi zaman qəsdən özünü məğlub göstərir, öz sazını ona təqdim edir. Lakin böyük sənətkardan dərs almış Ələsgər sazı qəbul etmir:

> Bir şagird ki, ustadına kəm baxa,
> Onun gözlərinə ağ damar, damar.

deyə, məşhur şeirini söyləyir.

Xeyirxah, həssas bir insan olan Aşıq Ələsgər firavan ömür yaşamamış, bir çox faciələrlə üzləşmişdir; onun uzun müddət sürgündə qalmış xalası oğlu Molla Rəhim təxminən 1910-1912-ci illərdə Ağkilsəyə qayıdır. Günlərin bir günündə Aşıq Ələsgərin oğlu Bəşirin gülləsi təsadüfən Molla Rəhimə dəyib onu öldürür.

Sonralar (1915-ci ildə) Aşıq Ələsgərin ailəsinə başqa ağır hadisələr də üz verir; xətrini çox istədiyi qardaşı oğlu (həm də qızının əri) Qurban vəfat edir. Deyilənə görə, Qurbanın vatsız ölümü aşığı o qədər sarsıdır ki, bu ağır itkidən sonra aşıq bir daha sazını köynəkdən çıxarıb əlinə götürmür.

1916-cı ildə, kənd koxası Məşədi Qasım Ağa onun bir buyruğuna əməl etmədiyi üstündə Ələsgərin oğlu Əbdüləzimi qamçı ilə döyür. Bəşir bu hadisədən çox qəzəblənir, koxanı güllə ilə vurub qaçaq düşür. Bu səbəbdən Əbdüləzimi və aşığın qardaşı Xəlili tuturlar. Bir-birinin ardınca gələn bu bədbəxt hadisələr, Aşıq Ələsgəri uzun müddət kədərləndirmiş, qəmli şeirlər söyləməsinə səbəb olmuşdur.

Şəxsi həyatında baş verən bədbəxtliklərə baxmayaraq Aşıq Ələsgər həmişə el içində olmuş, müdrik ağsaqqal kimi tanınmış və sevilmişdir. Onun bədii yaradıcılığı aşıq şeirinin inkişafına qüvvətli təsir göstərmiş, bütün Cənubi Qafqazda, Dağıstanda və bir sıra türkdilli xalqlar arasında geniş şöhrət qazanmışdır. Aşıq Ələsgərin ədəbi irsi, digər Azərbaycan aşıqlarının ədəbi irsi kimi toplanıb dəfələrlə nəşr edilmişdir.







## XURŞİDBANU NATƏVAN

**(1832-1897)**

Bu dövrdə Füzuli ənənələrini davam etdirən görkəmli şairlərindən biri də Xurşidbanu Natəvandır. Məşhur nəsildən olduğu üçün "Xan qızı" ləqəbi ilə tanınan Natəvan Şuşada doğulmuş, təhsilini xüsusi müəllimlərdən almışdır. Natəvan yalnız lirik şeirlər yazmışdır. Şeirlərinin çoxu qəzəl janrındadır. Qəzəllərinin əsas mövzusu insanın könül dünyasının, insanpərvərliyin, səmimi dostluq hisslərinin təsviri və tərənnümüdür. "Ey dost", "Xudahafiz" rədifli qəzəllərində xain, yaramaz adamların pis niyyətləri pislənilir. Şair eyni zamanda dostları belə adamların fitnəsindən qorunmağa səsləyir.

Natəvanın təbiət gözəlliklərinə həsr etdiyi qəzəlləri də vardır. "Gülün", "Bülbül", "Bənövşə", "Qərənfil" və s. şeirlərində şair təbiət gözəlliklərini insanın könül dünyası ilə əlaqədə təsvir edir.

Natəvanın şeirlərinin böyük bir hissəsinin lirik qəhrəmanı sinəsinə oğul dağı çəkilmiş dərdli anadır. Şairin "Yanar canım, oğul...", "Sənsiz", "Əfsus", "Getmə" qəzəlləri həyatdan nakam köçmüş oğlu Mirabbasın, "Ölürəm" qəzəli isə böyük oğlu Mehdiqulu xanın ölümü münasibətilə yazılmışdır. Böyük ürək yanğısı ilə qələmə alınan bu şeirlər yüksək bədii sənətkarlığı ilə seçilir. "Əfsus" rədifli qəzəlində Natəvan oğlunu gülə, növbara, özünü isə ağlar bülbülə bənzədir.

Keçibdi mövsimi-gül, getdi növbahar, əfsus,
Qalıbdı bülbüli-biçarə xarü zar, əfsus.

Riyazi-izzü şərafətdə bir gül açmışdı,
Qopardı o gülü gülçini-ruzigar, əfsus.

Xan ailəsindən olmağına baxmayaraq, zəmanəsinin ən mütərəqqi ziyalılarındandır. Zəhmətkeşlərin qayğısına qalmış, kəndlilərin hüququnu müdafiə etmişdir. İsa bulağından Şuşaya çəkdirdiyi su kəməri indi də Xan qızı bulağı adlanır. Oğlu Mehdiqulu xanın farsca, qızı Xanbikənin isə azərbaycanca çoxlu şeiri vardır. Mir təxəllüsü ilə şeirlər yazan Mirhəsən də Natəvanın oğludur. Xurşidbanu Natəvan 1897-ci ildə Şuşada vəfat etmişdir.

Özün eşq atəşinə vurmağa dilşad pərvanə,
Bəli, bir dəfə yanmaqdan olur azad pərvanə.

***

Görür məclislər içrə şəmi hər şəb yar əğyarə,
Onunçün yanmağın tərkin qılır bünyad pərvanə.

***

Sənə, ey şəm, töhmətlər qılır məşuqələr içrə,
Əgərçi, xirməni-ömrün qılır bərbad pərvanə.

***

Cəfayi hicrdən canə yetib şövqi visalinlə,
Yanıb şəmin oduna, etmədi fəryad pərvanə.

***

Yanar çün Natəvan xəstə müdam ol atəşi-qəmdən,
Səbur ol, eylə adət şiveyi-ustad, pərvanə.







## FİRİDUN BƏY KÖÇƏRLİ

## (1863-1920)

Firidun bəy Əhməd ağa oğlu Köçərli 1863-cü ildə Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur.

O, 1872-ci ildə Mirzə Kərim Münşizadənin məhəllə məktəbinə daxil olmuş, əlifbanı, dini elmləri və şəriət qaydalarını öyrənmiş, "Quran"ı, Şərq klassiklərindən Sədinin "Bustan", "Gülüstan", Füzulinin "Leyli və Məcnun", Mollayi Ruminin "Məsnəvi" əsərlərini, Hafizin "Divan"ını oxuyub mənimsəmişdir.

F.Köçərli 1875-ci ildə atasının arzusu ilə Şuşa şəhər məktəbinə daxil olmuş, təhsilini rus dilində davam etdirmişdir. O, 1879-cu ildə Qoridə Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində yenicə açılmış, "Azərbaycan şöbəsi"nə daxil olmuşdur. Altı il davam edən təhsil müddətində F.Köçərli böyük istedad nümayiş etdirmiş, tədris kursunu "Əla" qiymət və nümunəvi əxlaqla başa çatdırmışdır. Ona görə də 1885-ci ildə seminariyanı bitirərkən qüvvədə olan təlimatın əksinə olaraq, o, kənd ibtidai məktəbinə deyil, İrəvan seminariyasında yenicə vəfat etmiş Mirzə Ələkbər Elxanovun yerinə Azərbaycan dilli və İslam şəriəti fənlərinin müəllimi təyin olunmuşdur.

On bir il (1885-1896) gimnaziyada çalışan F.Köçərli İrəvanda geniş maarifçilik fəaliyyəti göstərir. O, vaxtaşırı yerli məktəbdarlarla görüşür, onlara əski tədris üsullarını islah edib, məktəblərini əsrin tələblərinə uyğun səsli metod üzrə qurmaq barədə faydalı məsləhətlər verir və əməli kömək edir. Gənc pedaqoq ilk dəfə İrə-

vanda Azərbaycan məktəblərinin dərsliyə və şagirdlərin müxtəlif tipli oxu kitablarına ehtiyacları ilə qarşılaşır, bunları təmin etmək üçün ardıcıl surətdə çalışır. O, Puşkinin "Balıqçı və qızıl nağılı"nı, Lermontovun "Üç xurma", Koltsovun "A kişi, niyə yatıbsan?", naməlum müəllifdən "Çiçək", "Bənövşə", "Dilənçi" şeirlərini, məşhur yunan filosofu Sokratın həyatı və görüşləri haqqında "Təlimati-Sokrat" əsərini tərcümə edir və "Anama məktub", "Yer ilə göy" və s. orijinal mənsumələrini yazır. Ədib böyük çətinliklərlə Tiflisdə "Torçu və balıq" (1892), Bağçasarayda "Təlimati-Sokrat" (1892), Şuşada "Üç xurma" və "A kişi, niyə yatıbsan?" (1895) kitablarını nəşr etdirir.

Ədibin mətbuatda ilk çıxışları da bu illərə təsadüf edir. O, "Tərcüman" (Bağçasaray), "Kəşkül" (Tiflis) qəzetlərinə İrəvan mühitinin müxtəlif sosial-mədəni problemlərinə dair məqalələr göndərir.

F.Köçərli 1896-cı ildə Qoriyə, Zaqafqaziya Müəllimlər Seminariyasına dəyişilir, "Azərbaycan şöbəsi"ndə Azərbaycan dili və şəriət fənlərinin müəllimi işləyir.

90-cı illərdən etibarən F.Köçərlinin yaradıcılığında məhsuldar mərhələ başlanır. Bir-birinin ardınca ədəbiyyat, dil, əlifba ("Evlənmək su içmək deyil", "Ərəb əlifbası və onun qüsurları", "Müsəlman şairi Vaqifin həyatından", "M.S.Şahtaxtinskinin fonetik şərq əlifbası haqqında", "Azərbaycan komediyaları") təlim-tərbiyə məsələlərinə dair məqalələr yazır, rus, tatar dilli dövri mətbuatda dərc etdirir. 1899-cu ildə Mahmud Əfəndizadə ilə yazdığı "Tarixi-müqəddəs" dərsliyini, 1903-cü ildə "Azərbaycan türklərinin ədəbiyyatı" əsərini nəşr etdirir.

Birinci rus inqilabından sonra F.Köçərli fəaliyyətində yeni, daha məhsuldar dövr başlanır. O, 1905-ci ildə "Azərbaycan şöbəsi"nin müfəttişi vəzifəsini tutmaq üçün ərizə ilə rəsmi dairələrə müraciət edir. Lakin alim-pedaqoqun ali təhsilinin olmaması onun bu vəzifəni tutmasına mane olur. O, şöbənin müfəttişi vəzifəsinə təyin olunmuş S.M.Qənizadə ilə əl-ələ verib təlim-tərbiyə işlərinin dövrün tələbləri ruhunda yenidən qurulmasında yaxından iştirak edir. Onlar "övrəti-tərbiyə" adlı jurnal nəşr etməyə təşəbbüs qaldırırlar.





Lakin xahişləri canişin dəftərxanası tərəfindən rədd edilir. Birinci rus inqilabı illərində və ondan sonra F.Köçərli yaradıcılığı kəmiyyət və keyfiyyətcə daha da yüksəlir. O, "Həyat", "İrşad", "Dəbistan", "Rəhbər", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Molla Nəsrəddin", "Haqq yolu", "Zakafkazie", "Zakavkazski reç" kimi dövri mətbuat orqanlarında müxtəlif mövzularda məqalələr dərc etdirir. Xüsusilə, müəllifin "Məişətimizə dair" ümumi başlıq altında yazdığı silsilə məqalələri siyasi aktuallığı ilə geniş oxucu kütləsinin diqqətini cəlb edir.

F.Köçərli 1910-cu ildə "Qafqaz şüərasının tərcümeyi-halı", "Ədəbiyyata bir nəzər" və "Balalara hədiyyə" əsərləri üzərində işini başa çatdırır, onların nəşri uğrunda mübarizə aparır. Lakin ədibin səyləri heç bir nəticə vermir. Uzun-uzadı danışıqlardan sonra 1912-ci ildə ancaq "Balalara hədiyyə" toplusunu Bakıda İ.Aşurbəyovun "Kaspi" mətbəəsində nəşr etdirməyə nail olur. Məcmuənin nəşri dövri mətbuatda böyük ədəbi hadisə kimi qeyd olunur.

1908-ci ildə S.M.Qənizadə seminariyada tutduğu vəzifədən azad edilərkən F.Köçərli yenidən müfəttiş vəzifəsini tutmaq üçün təşəbbüs göstərir. Bu dəfə həmin vəzifəyə Peterburq Texnologiya İnstitutunun məzunu Əli Dibir Maqomayev təyin olunur. "Azərbaycan şöbəsi"nin inspektoru vəzifəsi F.Köçərliyə 1911-ci ilin əvvəlində müvəqqəti həvalə olunur. 1912-ci ildə Stavropol seminariyasının müəllimi V.Andronikovun təyinatı ilə əlaqədar F.Köçərli müvəqqəti icra etdiyi vəzifəni təhvil verir. O, yalnız 1917-ci ilin sentyabrında "Azərbaycan şöbəsi"nin müfəttişi vəzifəsinə təyin olunur.

Pedaqoq 1918-ci ildə "Azərbaycan şöbəsi"ni Qoridən Qazaxa köçürür və yenidən təşkil edilmiş seminariyaya rəhbərlik edir.

F.Köçərli 1920-ci ildə siyasi mülahizələrdən dolayı Qazaxda həbs olunur və Gəncə həbsxanasında qətl edilir.

## SEYİD ƏBÜLQASİM NƏBATİ

**(1812-1873)**

XIX əsr Azərbaycan lirikasının inkişafında mühüm xidmətləri olan sənətkarlardan biri də Seyid Əbülqasim Nəbatidir. O, 1812-ci ildə Cənubi Azərbaycanın Qaracadağ mahalının Üştibin qəsəbəsində doğulmuşdur. Şairin əsli məşhur nəbati tayfasındandır, seyid nəslindəndir. Nəbatinin atası Möhtərəm dərvişlik etmiş və təsəvvüf (sufi) ideyalarını yaymışdır. Nəbati "Gözlərim" rədifli şeirində türk olduğunu və Xançobani təxəllüsü ilə şeirlər yazdığını göstərir.

Nəbati təhsilini atasından almış və sufi-təsəvvüf ideyalarını dərindən öyrənmişdir. Bir müddət dərvişlik edərək Azərbaycanın bir çox yerlərini gəzib dolaşan Nəbati sonradan Üştibində mürşid (təriqət başçısı) olmuşdur.

Nəbatinin dünyagörüşü, həyata baxışları ziddiyyətli olmuşdur. Şair əsərlərində gah dini ehkamları, xurafatı pisləyir və insanları maddi həyatdan zövq almağa çağırır, gah da xalis dindar kimi çıxış edir. Bundan əlavə, Nəbati gah İslamı, gah da atəşpərəstliyi təbliğ edir, gah da xristian olduğunu söyləyir. Şair farsca yazdığı bir şeirində daxili aləminin ziddiyyətli olduğunu etiraf edir. Ana dilində yazdığı "Nədir" rədifli şeirində də şair dünyanın gizli sirlərindən xəbərsiz qaldığını bildirir.

Nəbati 1873-cü ildə doğma yurdunda – Üştibində vəfat etmişdir.

Nəbati əsərlərini iki dildə: həm ana dilində, həm də farsca yazmışdır. Əsərləri yalnız lirik şeirlərdən ibarətdir. Nəbatinin şeirləri həm heca vəznində – qoşma, gəraylı və təcnis janrlarında, həm də əruz vəznində – qəzəl, qəsidə, rübai, müxəmməs və s. janrlardadır. Nəbatinin yaradıcılığında mövzu baxımından iki cəhət özünü göstərir: birincisi, dünyəvi məhəbbətin və real gözəlin tərənnümü, ikincisi, sufi-fəlsəfi fikirlərin və ilahi məhəbbətin təbliği. Şair əsərlərini Nəbati, Xançobani təxəllüsləri ilə yazmışdır. Sovet dövründə Bakıda əsərləri bir neçə dəfə nəşr edilib.







## AŞIQ ALI

**(1801-1911)**

XIX əsr Azərbaycan ədəbiyyatının əsas qollarından biri də aşıq şeiridir. Dövrün aşıq şeirinin əsas mövzuları zəmanədən şikayət, ictimai haqsızlıqlara qarşı etiraz, əxlaqi-tərbiyəvi fikirlərin təbliği və təbiət gözəlliklərinin tərənnümü idi.

XVIII əsrin sonu, XIX əsrin birinci yarısında yaşamış Ağ Aşıq "Sərdarın", "Əlindən", "Çəkirlər" rədifli şeirlərində bəy və xanların, pristav, qazı və darğaların yoxsul camaatın başına gətirdiyi bəlalardan söz açır. Aşıq Hüseyn Bozalqanlı (1860-1941) "Gördüm" qoşmasında varlıların yoxsullara etdiyi zülmü təsvir edir. Aşıq Hüseyn Şəmkirlinin "Mollalar" rədifli gəraylısında isə avam camaatı aldadan ikiüzlü ruhanilərin mənfur siması canlandırılır.

XIX əsr aşıq şeirinin ən görkəmli nümayəndələrindən biri də Aşıq Alıdır. Göyçə mahalının Qızılvəng kəndində dünyaya gələn və ömrünün çoxunu burada keçirən Aşıq alı xalq arasında böyük şöhrət qazanmış və "Təcnis Alı", "Şıx Alı", "Loğman Alı" adları ilə tanınmışdır. Şeirləri qoşma, gəraylı və təcnislərdən ibarətdir və məhəbbət, təbiət gözəllikləri, tərbiyəvi-əxlaqi və ictimai mövzulardadır. Aşığın məhəbbətə həsr etdiyi şeirlərində mənəvi saflıq və əxlaqi təmizlik hisslərinin tərənnümü əsas yer tutur. "Oldu" rədifli gəraylısında isə Aşıq dövrün ictimai haqsızlıqlarına kəskin etirazını bildirir:

Şah başında tac yaşadı,
Rəncbər əkdi ac yaşadı.
Xalq sözə möhtac yaşadı,
Nə insaf, nə iman oldu.

Aşıq alı "Dəlidağ", "Bu yerə", "Ağrı dağ", "Yaylaq", "Dağlar", "Bənzərsən" rədifli qoşmalarında təbiət gözəlliklərini tərənnüm edir. Aşığın ustadnamələrində isə gözəl əxlaqi sifətlər tariflənir və tərbiyəvi fikirlər ifadə olunur.

Aşıq Alı, sözün yara bağlayar,
Kamil təbib gərək yara bağlaya.
Ya ki, meylin başqa yara bağlaya,
Həftəyə yetişib aya qalmasın.

Aşıq Alının yaratdığı iki dastan da məlumdur. Bunlar "Aşıq Alının Türkiyəyə səfəri" və "Aşıq Alı və Əsmər" dastanlarıdır.







## ABBASQULU AĞA BAKIXANOV

**(1794-1847)**

Abbasqulu ağa II Mirzə Məhəmməd oğlu Bakıxanov 1794-cü il iyul ayının 3-də Bakının Əmirhacıyan kəndində xan ailəsində anadan olmuşdur. Abbasqulu ağanın uşaqlıq illəri Bakı xanlığına məxsus Əmirhacıyan, Ramana, Balaxana, Maştağa kəndlərində keçmişdir. O, məktəbə də Maştağada getmişdir. Xanlıqda baş verən siyasi hadisələrlə əlaqədar olaraq 1803-cü ildə ailəsilə birlikdə Qubaya köçən A.Bakıxanov təhsilini burada davam etdirmişdir. Quba üləmalarından dərs alan Abbasqulu ağa ərəb-fars dillərini dərindən öyrənir, onun vasitəsilə şərq fəlsəfəsinə, şərq ədəbiyyatına bələdlik hasil edir. Onun ilk qələm təcrübələri də bu illərə aiddir. Şairin Hüseyn Əl Vaiz Əl Kaşifinin "Rövzətüş-şühədə", Məhəmməd Füzulinin "Həqiqətüs-şüədə", Məhəmməd Bağır Məclisinin "Cilayül-üyün" əsərlərinin təsiri altında, onların məzmunundan bəhs edilməklə yaradılan "Riyazül-qüds" və "Kitabi-Əsgəriyyə" hekayəsi bu illərin məhsuludur.

1819-cu ilin dekabrında 25 yaşlı A.Bakıxanov Qafqazın Baş hakimi A.P.Yermolov tərəfindən rəsmi qulluğa təyin olunmaqdan ötrü Tiflisə dəvət olunur və onun hərbi hissə üzrə tapşırıqlarını yerinə yetirir. Bir il sonra Baş idarənin dəftərxanasında Şərq dilləri üzrə mütərcim vəzifəsinə təyin olunur. A.P.Yermolov 1823-cü ildən etibarən A.Bakıxanovdan diplomatik tədbirlərdə istifadə edir. 1828-ci ildə A.Bakıxanov Gülüstan sülh müqaviləsinə əsasən İranla Rusiya arasında sərhədlərin çəkilməsində və məhz nişanlarının qoyulmasında iştirak edir. Onun diplomatik fəaliyyəti 1826-1828-ci illərdə geniş miqyas alır.

Tiflis mühiti, hərbi yürüşlər, müxtəlif xalqların həyatı, məişəti, xüsusilə, tarixi abidələrlə tanışlıq A.Bakıxanov elmi maraqlarını qüvvətləndirir. O, hərbi qulluqdan uzaqlaşıb ömrünü bütövlükdə elmi və bədii yaradıcılığa həsr etmək qərarına gəlir.

A.Bakıxanov 1835-ci ildə maaşı saxlamaqla uzun müddətli məzuniyyətə çıxır və Qubanın Əmsar kəndində şəxsi malikanəsində yaşayır.

Abbasqulu ağa Bakıxanov elmi və ədəbi irsi zəngin və rəngarəngdir. "Riyazül-qüds", "Kitabi-Əsgəriyyə", "Mişkətül-ənvar", "Miratül-cəmal", "Təbriz əhlinə xitab", "Eşşək və bülbül (İ.A.Krılovdan tərcümə) kimi bədii, "Qanuni-Qüdsi", "Gülüstani-irəm", "Kəşfül-Qəraib", "Əsrürül-mələkküt" kimi elmi-fəlsəfi, tarixi və filoloji, "Nəsayeh" və "Təhzibi-əxlaq" adlı didaktik əsərləri yaratmış, demək olar, o zamanənin əsas elm sahələrini əhatə etmişdir.

Yüksək poetik istedada malik yazıçı-nasir, şair, tərcüməçi, mahir filoloq, tarixçi, astronom, coğrafiyaşünas alim və əxlaq nəzəriyyəçisi alim olduğunu nümayiş etdirmişdir.

Abbasqulu ağa Bakıxanov 1846-cı ilin martında Məkkə ziyarətinə getmişdir. O, Təbriz, Tehran, İstanbul, Misir marşrutu ilə arzusunda olduğu müqəddəs məkana yetişir. 1847-ci ilin əvvəlində Məkkə ziyarətindən qayıdarkən 52 yaşında Vadiyi-Fatimə deyilən yerdə Vəba xəstəliyindən vəfat etmişdir.

A.Bakıxanov əsərlərinin çoxunu Qüdsi təxəllüsü ilə yazmışdır. Onun lirik şeirlərinin çoxu məhəbbət mövzusundadır. Bu şeirlərdə insanın könül dünyasından, ayrılıq dərdi və vüsal həsrətindən danışılır. Lirik qəhrəman zəmanə zülmündən də acı-acı şikayətlənir. Şairin ana dilində yazdığı "Göstərir", "Arasında", "Gəlmədi", "Olur" rədifli qəzəllərində də insanın mənəvi aləmindən, sevinc və kədərindən danışılır. A.Bakıxanovun "Dönübdür", "Bismillah", "Özgələrə" və s. kimi müxəmməsləri də vardır.

"Nəsihətlər" əsərində yazıçının əxlaqi-tərbiyəvi fikirləri ifadə olunmuşdur. Əsl adı "Nəsihətnamə" olan farsca bu əsərdə 103 nəsihət vardır. Əsərdəki nəsihətlərin çoxu bu gün də böyük tərbiyəvi əhəmiyyət daşıyır.

A.Bakıxanovun "Miratül –cəmal" poeması avtobioqrafik məzmunludur. Əsərdə şairin Polşaya səfər təəssüratından danışılır. Poemada vətənpərvərlik, doğma yurda, o cümlədən, Əmsar kəndinə məhəbbət hisslərinin tərənnümü əsas yer tutur.







## ƏSGƏR AĞA GORANİ

**(1857-1910)**

Əsgər ağa Haqverdi bəy oğlu Adıgözəlov Gorani 1857-ci il may ayının 3-də İrəvan quberniyası Gəncə qəzasının Goran kəndində mülkədar ailəsində anadan olmuşdur. O, ilk təhsilini mollaxanada və Gəncə qəza məktəbində almışdır. Gorani 1869-cu ildə Bakıya gəlmiş, təhsilini şəhər real gimnaziyasında davam etdirmişdir.

XIX əsrin 70-ci illərində neft sənayesinin inkişafı ilə coşqun tərəqqi yoluna düşən Bakı Əsgər ağanın taleyində müsbət rol oynayır. O, burada təbiyyət tarixi fənnindən dərs deyən məktəbin yeganə azərbaycanlı müəllimi Həsən bəy Məlikov Zərdabi ilə tanış olur.

Əsgər ağa 1874-cü ilin iyun ayında real gimnaziyanı qızıl medalla bitirib, ali təhsil almaq üçün Sankt-Peterburq şəhərinə gedir. Lakin naməlum səbəblərdən dolayı Əsgər ağa orada təhsilini davam etmir. O, 1875-ci ildə Moskvada Petrovski-Razumovski Kənd Təsərrüfatı və Meşəçilik akademiyasına daxil olur. Əsgər ağa Məhəmməd Tağı Əlizadə və digər azərbaycanlı tələbələrlə bərabər Nəcəf bəy Vəzirovun rəhbərliyi altında fəaliyyət göstərən "İmdadiyyə" təşkilatının fəaliyyətində yaxından iştirak edir, "Kasıb müsəlman tələbələrinə yardım cəmiyyəti" yaratmağa təşəbbüs qaldırır. 1875-ci ildə Bakıda Həsən bəy Zərdabini redaktorluğu ilə "Əkinçi" qəzeti nəşrə başlayarkən Əsgər ağa Gorani onun fəaliyyətində yaxından iştirak edir. Petrovist tələbə redaksiyaya müxtəlif mövzuda məqalələr göndərir, qəzetin işini daha faydalı etmək üçün məktub vasitəsilə fikir mübadiləsi aparırdı.

Əsgər ağa 1878-ci ilin may ayında akademiyanı bitirir. O, Ədliyyə idarələrində işə girir və məhkəmə müstəntiqi kimi fəaliyyətə başlayır. Əvvəl Kutaisidə, sonra Tiflisdə dairə məhkəməsinə prokuror təyin olunur. Bir müddətdən sonra Tiflis məhkəmə palatasında prokuror vəzifəsində işləyir. Vəzifəsinin sanbalına, işinin çoxluğuna baxmayaraq, onu yaradıcılıq qayğıları tərk etmir. O, 1889-cu ildə M.Y.Lermontovun "Yel gəmisi" şeirini tərcümə edib, Tiflisdə "Kəşkül" mətbəəsində kitab halında buraxdırır. 1891-ci ildə Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza hücumlarından bəhs edən "Qara gün" tarixi romanını yazır. 1892-ci ildə ailə-məişət mövzusunda qələmə aldığı "Qocalıqda yorğalıq" musiqili komediyasını nəşr etdirir.

Məşhur tənqidçi və ədəbiyyatşünas Abdulla Sur Əsgər ağa Goraninin ədəbi fəaliyyətindən bəhs edərək yazırdı: "Bütün qafqazlı türklər qalın qatı bir qaranlıq və korluq içində sürünüb gedirdilər. Gözlər üfüqə... ruhlar damdan yuxarı çıxa bilməzdi. Mirzə Fətəli və Zakirin açıb qapanmış olduqları məclisi-ədəbi ikincisi təqib etdi. Bunun müəssisələri mərhum Əsgər ağa ilə Həsən bəy Zərdabi, bir də Ünsizadə Səid Əfəndi idi. "Əkinçi" və "Kəşkül" bunların cövlangahı idi. Bunlar əhaliyə torpağı sevdirmək, hüquqlarını anlatmaq, maarifə meyl etdirmək istəyirdilər. Bunun yeganə çarəsini də ana dilimizi düzəltməkdə və milli ədəbiyyatımıza rəvac verməkdə görürdülər. Bunun üçün yazdılar, yazırdılar, yazdırtdılar. Zakir ilə Vaqifin əsərlərindən ruscaya tərcümə ilə milli ədəbiyyatımızın varlığını bildirdi. Rus şairi Lermontovdan "Hava gəmisindən" başqa bir şey daha tərcümə elədi. "Dövlət əhəmiyyətli iri rütbəli vəzifələrdə çalışmasına baxmayaraq, Əsgər ağa daim ictimai fəaliyyət meydanına can atırdı. Ardıcıl səylərdən sonra o, belə bir imkanı birinci rus inqilabı günlərində əldə etdi. Yazıçı məhkəmə palatası prokuroru vəzifəsindən imtina edərək Gəncədə bələdiyyə idarəsinin rəisi vəzifəsinə seçildi. Ədib bununla da xalq həyatı sahəsində işləmək və arzularını həyata keçirmək imkanı tapdı.

Doktor Həsən bəy Ağayev Əsgər ağa Goraninin doğma şəhərində gördüyü işlərdən söhbət açaraq yazırdı: "Məhrum beş il ərzində şəhərdə iki ibtidai məktəb.., sarı xəstəliklər üçün bir xəstəxana, yeni bir ünas məktəbi və yeni bir mərizxana, Ozan küçəsində düzəltdi. Şəhərin təmiri üçün otuzdan ziyada lüks fanarları gətirtdi".







## MOLLA CÜMƏ

**(1854-1920)**

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində yaşayıb-yaratmış məşhur aşıqlardan biri də Molla Cümədir. Şəki qəzasının Köynük mahalında doğulan Cümə savadlı olduğu üçün el arasında "Molla" ləqəbini qazanmış və "Molla Cümə" adı ilə şöhrət tapmışdır. Molla Cümə, əsasən, qoşma, gəraylı və müxəmməs yazmışdır. Şeirlərinin çoxu məhəbbət mövzusundadır və İsmi Pünhan adlı bir gözələ müraciət şəklində qələmə alınmışdır. Şeirlərindən məlum olur ki, İsmi Pünhan real surətdir – bənzərsiz bir gözəldir. Aşığın "Neylədin, dünya", "Hayıf oldu", "Axtarın", "Ağlar bəzənir", "Ey dost" rədifli şeirlərində İsmi Pünhanın dünyasını dəyişməsi və bununla bağlı bir qəhrəmanın sonsuz kədəri ifadə olunur:

İsmi Pünhan köçdü fani dünyadan,
Qovuşdu torpağa, göz hayıf oldu.
Belə imiş təqdir hökmü əzəldən,
Soldu yanaqları, üz hayıf oldu.

Molla Cümənin ictimai məzmunlu şeirləri də vardır. Belə şeirlərində aşıq zəmanəsində ağıla, kamala qiymət verilməməsindən və cəmiyyətdəki əxlaqi qüsurlardan şikayətlənir. "Oldum" rədifli qoşmasında isə aşıq ehtiyac içərisində yaşadığından gileylənir.

***

Nə səbəbdən yanaqları al olur,
Sevən sevdiyini görən zamanda?
Ağız mumlanıban dilim lal olur,
Yar mənim halımı soran zamanda.

***

Canım daşdı, bu dərdlərdən ölmürəm,
Könlüm qüssəsindən əsla gülmürəm.
Özüm danışdığımı özüm bilmirəm,
İsmi Pünhan öndə duran zamanda.

***

Elin arasında adam yoxlanır,
Ah çəkdikcə qara bağrım oxlanır.
Artır dərdim üst-üstdən çoxlanır,
Bu Cümə məclisə girən zamanda.

"Ya bir olar, ya iki" adlı məşhur mahnının sözləri də Molla Cümənindir.







## SULTAN MƏCİD QƏNİZADƏ

**(1866-1937)**

Sultan Məcid Hacı Murtuzəli oğlu Qənizadə 1866-cı ildə Şamaxı şəhərində ziyalı tacir ailəsində anadan olmuşdur. Yazıçı ilk təhsilini məhəllə məktəbində almış, 1874-cü ildə Hacı Səid Əfəndi Ünsüzadə tərəfindən təşkil edilmiş məliküşşüəra Seyid Əzim Şirvani və Cəlal Ünsizadənin müəllim işlədiyi "Məclis" məktəbinə daxil olmuşdur. O, 1879-cu ildə təhsilini Şamaxı şəhər məktəbində rus dilində davam etmişdir.

1882-1883-cü dərs ilində şəhər məktəbinin nəzdində bir illik pedaqoji kursu bitirən S.M.Qənizadə məhəllə məktəbi müəllimi adını alır. Lakin istedadlı gənc orta savadla müəllim işləmək istəmir. Ədib, 1883-cü ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutuna daxil olur və 1887-ci ildə məktəbi müvəffəqiyyətlə bitirib, ali tipli xalq məktəblərində işləmək hüququ qazanır. Lakin maarif naziri qraf Delyanovun müsəlmanları dövlət məktəblərinə buraxmamaq haqqında sərəncamı ilə o, və onun digər azərbaycanlı yoldaşları Həbib bəy Mahmudbəyov və Süleyman bəy Əbdürrəhmanbəyov təyinatdan kənarda qalırlar.

1887-ci ilin oktyabrında S.M.Qənizadə tələbə yoldaşı Həbib bəy Mahmudbəyovla Bakıya gəlib, xüsusi "Rus-müsəlman" məktəbi yaradır. Dörd il şagirdlərdən toplanan vəsait hesabına fəaliyyət göstərən bu məktəb böyük şöhrət qazanır. 1891-ci ildə o, əhalinin xahişilə şəhər idarəsinin himayəsinə keçir. Bu məktəbin tipində Ba-

kının iki məhəlləsində iki yeni "Rus-müsəlman" məktəbi açılır. Onların birincisinə H.Mahmudbəyov, ikincisinə S.M.Qənizadə müdir təyin olunur.

"Rus-müsəlman" məktəbinin yaranması Azərbaycan xalq maarifi tarixində əlamətdar hadisə idi. Lakin o zaman onun məqsəd və məramına uyğun müasir mündəricəli dərslikləri və mütaliə kitabları yox idi. Məktəbin ehtiyaclarını təmin etmək üçün S.M.Qənizadə ciddi fəaliyyət göstərir. Cavan pedaqoq "Polneyşiy samouçitel tatarskovo yazıka" ümumi başlıq altında dörd hissədən ibarət "İstilahi-Azərbaycan " (I, II h; 1889) "Lüğəti-rusi və türki" (III h; 1890), "Rusi və türki dilmanc" (IV h. 1894) və "Rus dilinin müəllimi " (1898), "Kilidi-ədəbiyyat" (1900), "Lüğəti-türki və rusi" (1904) dərslik və lüğətlərini, "Əlifbayi-mütəhərriki" əyani vəsaitini yazıb nəşr etdirir. Beləliklə, məktəblərin dərs kitablarına olan ehtiyacını təmin edir. "Rus-müsəlman" nümunələrinin üstünlük təşkil etdiyini nəzərə alan S.M.Qənizadə milli uşaq ədəbiyyatı yaratmaq məsələsini irəli sürür.

S.M.Qənizadə 90-cı illərin sonunda orijinal nəsr yaradıcılığına başlayır. 1898-ci ildə "Məktubati-Şeyda bəy Şirvani" altında yazdığı dilogiyanın birinci hissəsi "Müəllimlər iftixarı" hekayəsini, 1900-cü ildə ikinci hissəsi "Gəlinlər həmayili" romanını nəşr etdirir.

S.M.Qənizadə 1905-ci ilin avqustunda Qafqaz canişini Varantsov Daşkovun əmrilə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında "Azərbaycan şöbəsi"nin müfəttişi vəzifəsinə təyin olunur.

Birinci rus inqilabının gərgin günlərində seminariyada işə başlayan S.M.Qənizadə şöbənin fəaliyyətini yenidən, xalq mənafeyinə, dövrün tələblərinə müvafiq qurmaq üçün mübarizəyə başlayır. Böyük maarif xadiminin tədbirləri seminariyanın direktoru, qatı millətçi Miropyevin müqavimətilə qarşılaşır. Üç il davam edən gərgin mübarizədən sonra o, 1908-ci ildə vəzifədən azad edilir və daha böyük mənsəbə, Bakı quberniyası – Dağıstan vilayəti xalq məktəblərinin ikinci rayonu üzrə müfəttiş vəzifəsinə təyin olunur.

S.M.Qənizadə 1917-ci ilin aprelində müəllimlər qurultayında Bakı quberniyası – Dağıstan vilayəti xalq məktəblərinin naziri vəzifəsinə seçilir. O, 1918-ci ilin sentyabrımda "İttihad" partiyasının rəhbəri kimi Azərbaycan Cümhuriyyəti parlamentinin üzvü olur.





1920-ci ildə S.M.Qənizadə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə cəlb edilir. Məktəbdə və sinifdənxaric oxu kitabları tərtib edən şöbənin müdiri vəzifəsinə təyin olunur. Qocaman maarif xadimi 1922-ci ildə Mahmudbəyov Mahmud və Ə.İ.Cəfərzadə ilə uşaqlar üçün "Maarif" adlı jurnal nəşr və redaktə edir. "XX əsrin axır illərində maarif və ədəbiyyata dair xatiratım", "N.Nərimanov haqqında xatiratım", "Sabir haqqında kiçik bir xatirə", "Böyük aktyor haqqında xatiratım" və s. memuarlarını yazır, "Lüğəti-rusi və türki" əsərini təkmilləşdirib yenidən çap etdirir.

Ədib XX əsrin 20-ci illərinin sonu, 30-cu illərinin başlanğıcında Bakının pedaqoji texnikumlarında pedaqogika və psixologiya fənlərindən dərs deyir və pedaqoji təcrübə məşğələlərinə rəhbərlik edir.

S.M.Qənizadə 1937-ci ildə repressiyaya məruz qalmış və güllələnmişdir.

## ABDULLA SUR

**(1882-1912)**

XX əsrin əvvəlləri ədəbi tənqidin də inkişafı ilə əlamətdardır. Ədəbi tənqid yeni yaranan əsərləri təhlil edir, müasirlik baxımından qiymətləndirir və onların nöqsanlarını göstərirdi. Dövrün ən görkəmli ədəbi tənqidçilərindən biri də Abdulla Sur idi.

Abdulla Sur ilk təhsilini doğma Gəncədə almış və 16 yaşından müəllim işləmişdir. 1903-cü ildən "Şərqi-Rus" qəzetində çalışan Abdulla Sur "Ay müsəlman qardaşlar" adlı məqaləsində həmvətənlərini milli oyanışa və mədəni tərəqqiyə çağırmışdır. Qəzetin redaktoru Məhəmməd ağa Şahtaxtinski bu məqaləni çox bəyənərək yazmışdır ki, belə oğullar doğan millətin gələcəyindən narahatçılığa dəyməz. Abdulla Sur 1905-1906-cı illərdə "Həyat" və "İrşad" qəzetlərində məqalələr nəşr etdirir. "Xoruzun quyruğu görsənir" məqaləsində o, erməni-müsəlman ziddiyyətlərinin köklərini göstərmiş və daşnakları ittiham etmişdir.

Abdulla Sur İstanbulda ali təhsil almış və Gəncə ruhani seminariyasında dərs demişdir. Abdulla Şaiqə yazdığı məktubunda o, tələbələrindən Əhməd Cavadın qələminə böyük ümid bəslədiyini bildirirdi. Abdulla Surun məqalələrində ana dili və ədəbiyyat məsələləri əsas yer tutur. Müəllifin bir sıra məqalələri ədəbiyyatımızda romantizm üslubunun nümayəndələri haqqındadır. Onun 1907-ci ildə "Füyuzat" jurnalında çap olunmuş "Füzuliyə bir nəzər" məqaləsi xüsusilə əhəmiyyətlidir.

Abdulla Surun "Türk ədəbiyyatına bir nəzər" əsərində isə Nəfi, Şünasi kimi klassik türk şairlərinin yaradıcılığı təhlil edilir. Müəllifin "Qafqaziyada qonşularımızdan gürcülərin maarif və ədəbiyyatına bir nəzər" adlı silsilə məqalələri də vardır.







## HACI ZEYNALABDİN TAĞIYEV

**(1838-1924)**

Həyatda çox adamlar var ki, bütün ömrü boyu var-dövlət qazanmağa çalışır, özünü oda-közə vurub xəzinə toplayır, son qisməti isə beş-on metr ağ parça olur. Öləndən sonra da tezliklə unudulur, heç kimin yadında qalmır. Var-dövlətini isə öz tərbiyə verdiyi uşaqlar dağıdır. Elə insanlar da var ki, nəinki var-dövlətini lazım gələndə, hətta son qəpiyini də millət, xalq yolunda sərf etməkdən usanmır. Belələri əbədi xatirə kimi, gözəl insan kimi yaddaşlarda qalır, xatırlanırlar. Belə şəxslərin adları xalqın dilində həmişə hörmətlə çəkilir, onların qeyrəti gələcək nəsli qeyrətləndirir, onlar üçün tərbiyə məktəbi olur. Əslində nə mal, nə dövlət, nə şan, nə şövkət insan nəfsini doydurub onu xoşbəxt edə bilməz. İnsanın xoşbəxtliyi onun həyatından sonra adının dillərdə hörmət və izzətlə çəkilməsindədir.

Azərbaycan xalqının da xalqını canından artıq sevən, onun üçün varından, dövlətindən keçən qeyrətli oğulları çoxdur. Belə işıqlı şəxsiyyətlərdən biri xeyriyyəçi, "millət atası", xalqının qeyrətli və təəssübkeş bir oğludur.

Hacı Zeynalabdin Tağıyev 1838-ci ildə Bakıda anadan olmuşdur. Atası Tağı başmaqçılıq edib öz zəhməti ilə dolanır, oğluna da belə nəsihət edirdi: "Oğlum, zəhmətdən qorxma, çalış ki, axırda özgəyə möhtac olmayasan". Uşaqlıqdan zəhmətə alışan, həqiqi əməyin nə olduğunu bilən Hacı Zeynalabdin sonralar var-dövlət sahibi

olub milyonlara malik olsa da, heç vaxt özünün ilk dövrünü yaddan çıxarmamış, özünü xalqdan ayırmamışdır. Hacı Zeynalabdin xüsusən, yetim və kimsəsizləri heç zaman yaddan çıxarmır, onlara bacardığı köməyi edirdi. O, xalqının savad və mədəniyyətdə geri qalmasının əsas səbəbini maarif və təhsilin olmamasında görür, elmə qadir olan kimsəsiz uşaqları öz xərcinə oxutdururdu. O, dörd məktəbi də öz himayəsinə götürmüşdü və oradakı təhsil xərcini özü ödəyirdi. Hacı Zeynalabdin 1895-ci ildə Mərdəkanda yeni üsulda sənət məktəbi təşkil etmişdi ki, bu da xalqa qiymətli bir bəxşiş idi. Onun sonralar açdığı məktəblərdən biri qızlar seminariyası olmuşdur ki, burada da müsəlman qızları oxuyub tərbiyə alırdılar.

Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi gözəl arxitekturalı binalar indi də Bakının yaraşığıdır.

1883-cü ildə dram teatrı üçün bina tikdirir. 1893-cü ildə təzədən böyük xərc qoyaraq teatr binasını genişləndirir. 1909-cu ildə teatr binasını yandırırlar, təzədən bərpa etdirir. 1910-cu ildə Bakıda teatr tamaşası verilməsinin 30 illiyi bayram edilir, bu münasibətlə Üzeyir Hacıbəyov xüsusi marş bəstələyir. Hacı təntənəli mərasimə gələndə artistlər və həvəskarlar ehtiramla kənara çəkilib ona yol verirlər, orkestr marşı ifa edir, Hacı ortadan keçir.

Əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabriki işə düşür. Burada fəhlələr üçün məscid və onların uşaqları üçün xüsusi məktəb tikdirir və iki növbədə dərs deməyə öz xərcinə müxtəlif yerlərdən müəllimlər dəvət edir, eyni vaxtda fəhlələrin savadlanması üçün axşam kursları, dərmanxana və tibb məntəqəsi açır. Dəyirman tikdirir.

Bakı əhalisini içməli suyla təmin etmək Hacının ən böyük amalı idi. Bakı əhalisi su sarıdan çox əziyyət çəkirdi. Bu barədə Hacı Zeynalabdin ürəkdən çalışır və pul əsirgəmirdi.

1899-cu ildə şəhərdə vəziyyətin həddindən artıq ağır olduğunu görən Hacı Zeynalabdin Tağıyev xarici şirkətlə 25.000 manata müqavilə bağlayır. Avropanın bir neçə şəhərinə su kəməri çəkmiş mühəndis Vilyam Lindleyi Frankfurt-Mayndan gətizdirir və ona





çeşmə axtarmağı tapşırır. Lindley Qubanın yaxınlığında, Bakıdan 190 kilometr uzaqda quyu qazdırıb şollar suyunun mənbəyini kəşf edir.

Nəhayət, 1916-cı ilin axırlarında Bakı-Şollar su kəməri hazır oldu və 1917-ci ilin yanvarında bu iş sona çatdı.

Əldə edilən tam olmayan məlumata görə, 1825-ci ildə Abşeron yarımadasında boş yerdə – Balaxanı, Sabunçu, Binəqədi, Bibiheybət və Şubanıda əl quyularından neft çıxarılırdı. Az miqdarda Pirallahı adasında əl ilə işləyən dayaz neft quyuları qazmağa başladılar.

1848-ci ildə Mühəndis Semyonov Azərbaycan torpağında dünyada texniki üsulla ilk neft quyusu qazmışdı (ABŞ-dan 11 il əvvəl), 1863-cü ildə isə Pirallahı adasında mexaniki üsulla quyu qazmağa cəhd edirlərsə də, nəticəsiz qalır.

H.Z.Tağıyüv Bakı neft sənayesini hərəkətə gətirən, ona təkan verən əsas şəxslərdən biridir. Bakıda, Bibiheybətdə dəniz qırağında torpaq ələ keçirib əqlə gəlməyən qüvvə ilə inadla quyu qazmağa başlayır və qazdığı çoxlu quyuların hamısı güclü fontan vurur, neft hasil edilən yerin lap yaxınlığında böyük zavod tikir, Rusiya şəhərləri ilə ticarətə başlayır və işlərini çox ehtiyatla və bacarıqla elə idarə edir ki, Bakıda hər gün baş verən çoxlu böhrandan salamat çıxır. 1883-cü ildə Tağıyev mədənlərində 13 milyon pud neft fontan vurmuşdu.

Təkcə Bakı və Abşeron yarımadasında yox, bütün Azərbaycanda Hacı Zeynalabdin Tağıyev qədər maarif-mədəniyyət sahəsində və xüsusən məktəblər açmaqda heç kəs və hamı bir yerdə iş görməyib.

Milyonçu Hacı Zeynalabdin Tağıyevin Bakıdakı müsəlman, rus, erməni və yəhudi xeyriyyə cəmiyyətlərinin hamısı özlərinə fəxri sədr seçmişdilər. O, Rusiyada və bütün müsəlman aləmində tanınmış sərmayədar idi.

Hacı Zeynalabdin Tağıyev xalqımızın fəxri, örnəyidir. Xalqımız heç vaxt onu və onun xidmətlərini unutmayacaq, əbədi xatirə kimi yaşadacaqdır.

Çox istərdik ki, indi də Azərbaycanın imkanlı şəxsləri Hacı Zeynalabdin Tağıyevdən ibrət götürərək xalqa xidmət etsinlər, onu çətinliklərdən qurtarsınlar. Xalqımız qədirbilən xalqdır və onların yaxşılığını heç vaxt əvəzsiz qoymaz.

## HACI SƏİD ƏFƏNDİ ÜNSİZADƏ

## (1839-1905)

Hacı Səid Əfəndi Əbdürrəhman Əfəndi oğlu Ünsizadə 1839-cu ildə Şamaxı şəhərində ruhani ailəsində anadan olmuşdur.

H.S.Ünsüzadə ibtidai təhsilini ailədə "Ünsi" təxəllüsü ilə şeirlər yazan şair və ilahiyyətçi alim atasından, ali təhsilini Şamaxı mədrəsələrində əsrin məşhur müdərrislərindən almışdır.

O, 1867-ci ilin 1 martında Bakı quberniyası Şamaxı Sünni Ruhani idarəsinin, 1873-cü ilin 2 yanvarında Bakı quberniyası Sünni Ruhani məclisinin üzvi seçilmişdir. O, 1874-cü ildə Şamaxıda "Məclis" adlı yeni tipli məktəb yaratmışdır. O, Seyid Əzim Şirvani və Cəlal Ünsizadəni məktəbə müəllim vəzifəsinə dəvət etmişdir.

H.S.Ünsizadə 1877-ci ilin 23 aprelində Qafqaz Canişinin Baş idarəsinin göstərişi ilə dörd ay müddətinə Tiflisə, Qafqaz Sünni Ruhani idarəsinə ezam olunmuş, idarə üzvlərinin etiraz və müqavimətinə baxmayaraq, D.Staroselski tərəfindən müdafiə olunmuş, ezamiyyət müddəti bir neçə dəfə uzadılmışdır. 1879-cu ilin 6 iyununda Qafqaz Sünni Ruhani idarəsinin üzvü vəzifəsinə təyin olunmuşdur.

Şamaxıda olarkən Azərbaycan dilində dövri mətbuat yaratmaq haqqında arzular bəsləyən H.S.Ünsizadə 1878-ci ilin 4 dekabrında Qafqaz Canişini Baş idarəsinin rəisinə "Ziya" adlı qəzetin nəşrinə icazə almaq üçün ərizə təqdim edir. O, iki gündən sonra 1878-ci ilin 6 dekabrında "Ziya"nın nəşrinə icazə alır. Ruhani ata böyük çətinliklə Tiflisdə mətbəə yaradır, ailə üzvlərini redaksiya və mətbəə işinə cəlb edir. Ruhani xadim 1879-cu ilin 4 yanvarında Azərbaycan dilində say etibarı ilə ikinci qəzet sayılan "Ziya"nın birinci nömrəsini nəşr etməyə nail olur.

1880-ci ilin 26 iyununa qədər litoqrafiya üsulu ilə "Ziya" adı altında nəşr olunan qəzet beş aylıq fasilədən sonra 1880-ci ilin 9 dekabrında yenidən işə başlayarkən "Ziyayi-Qafqaziyyə" başlığı altında mətbəə üsulu ilə nəşr olunur. Bununla bərabər Tiflisdə "Ziya" adı





altında azərbaycanlılara məxsus ilk mətbəə yaranır və Azərbaycan dilində dövri mətbuat və kitab nəşri dirçəliş yoluna qədəm qoyur.

Dini mövqedən əsrin mühüm sosial problemlərini qəzeti səhifələrinə çıxaran H.S.Ünsizadə uşaq təlim-tərbiyəsi məsələlərinə xüsusi əhəmiyyət yetirir. Bu məqsədlə, o, "Ziya" səhifələrində məktəblərin islah olunması, dərslik və uşaq mütaliə kitablarının yaradılması məsələlərinə dair müzakirələr təşkil edir. Uşaq ədəbiyyatının inkişafına təkan vermək məqsədilə o özü də bu sahədə müntəzəm çalışır.

Ruhani naşir 1882-ci ildə "Təlimat-ətfal, təhzibi-əxlaq" və tatar dilindən tərcümə etdiyi "Məktəb uşaqlarımız oxumaqdan ötrü türki dilində tərtib olunmuş əqaid və nəsayeh risaleyi-mənzuməsidir" kitablarını nəşr etdirir.

Hacı Səid Əfəndi bunlardan başqa "qız uşaqlarının oxumağına lazım olan məsələlərə dair", "Töhfətül-müəllimin təlimi-ətfal" adlı ayrıca bir əsərdə yazmışdır. Lakin naməlum səbəblərdən əsər nəşr olmamışdır.

H.S.Ünsizadə 1883-cü ilin 13 dekabrında Bakı quberniyası Sünni Ruhani İdarəsinin sədri vəzifəsinə təyin olunur. Yeni vəzifə ilə əlaqədar Şamaxı şəhərinə köçən H.S.Ünsizadə "Ziya" mətbəəsini Tiflisdə yaşayan oğlu Ağa Əfəndi və yeznəsi İsmayıl bəy Şilyanskiyə tapşırıb, "Ziyayi-Qafqaziyyə" qəzetinin redaksiyasını Şamaxıya köçürür. 1884-cü ilin yanvar-iyun aylarında qəzetin materialları naşir-redaktor tərəfindən Şamaxıda yazılıb yığılmaq və nəşr olunmaq üçün Tiflisə göndərilir. Bu vəziyyətdə "Ziyayi Qafqaziyyə" qəzetinin on bir nömrəsi nəşr olunur. Qəzet 1884-cü ilin 26 iyununda fəaliyyətini dayandırır.

H.S.Ünsizadə 1889-cu ilin 15 fevralında Bakı quberniyası Sünni Ruhani idarəsinin sədri vəzifəsindən azad edilir. O, 1890-cı ilin 31 yanvarında "Ziyayi-Qafqaziyyə" qəzetinin nəşrini Bakıda dərc etməyə təşəbbüs qaldırır. Lakin hakim dairələr bir sıra bəhanələr gətirib arzusunu yerinə yetirmirlər.

Görkəmli maarif və mətbuat xadimi XIX əsrin 90-cı illərində İstanbula köçür. Ömrünün 15 ilini qürbətdə yaşayıb.

Hacı Səid Əfəndi Ünsizadə 1905-ci ildə İstanbul şəhərində vəfat etmişdir.



# MİRZƏ ƏLƏKBƏR SABİR

(1862-1911)

Mirzə Ələkbər Sabir ədəbiyyatımızda yeni tipli satiranın əsasını qoyan, tənqidi realizmin inkişafında misilsiz xidmətləri olan böyük sənətkardır.

Mirzə Ələkbər Sabir 1862-ci ildə Şamaxıda anadan olmuşdur. O, səkkiz yaşında mollaxanaya oxumağa getmiş və o vaxtlar üç misralıq ilk şeirini yazmışdır. Sonra o, şəhərdə açılmış "Məclis" adlı yeni üsullu məktəbdə təhsil almışdır. Bu məktəbdə oxuduğu iki il Ələkbərin fikri inkişafına çox kömək etmişdir. Məktəbin baş müəllimi olan Seyid Əzim Şirvani qabiliyyətli şagirdinin şeirə, ədəbiyyata olan rəğbətini daha da artırmış, onu bədii yaradıcılığa həvəsləndirmişdir.

Xırda ticarətlə məşğul olan atası Zeynalabdin 14 yaşlı Ələkbəri məktəbdən ayıraraq dükanına işləməyə aparmışdır. Ələkbərin fikri isə məktəbdə və çoxdan yazıb-pozduğu şeir dəftərçəsinin yanında idi.

O, atasının sağlığında səyahətə çıxmış, Şərqin bir çox ölkələrini və şəhərlərini gəzmişdir. 1887-ci ildə Şamaxıya qayıdan Ələkbər evlənir və ailəsini dolandırmaq üçün sabun bişirib satır.

1902-ci ildə Şamaxıda baş vermiş zəlzələ nəticəsində Sabirin də evi uçub dağılır və o, böyük maddi ehtiyac içərisində yaşayır. Bütün bunlara baxmayaraq, Sabir bədbinləşmir, bədii fəaliyyətini davam etdirirdi.

Böyük sənətkar köhnəfikirli, ikiüzlü, yalançı, vətən qeyrəti çəkməyən adamlara, öz cibini güdənlərə nifrətini gizlətməmiş, elmə, savada laqeyd olanları, övladlarının tərbiyəsi qayğısına qalmayan valideynləri ayıltmağa çalışmışdır.





1906-cı ildə "Molla Nəsrəddin" jurnalı nəşrə başlayarkən Sabir onun ən fəal müəlliflərindən biri olur. Şairin C.Məmmədquluzadə ilə dostluğu da bu zamandan başlanır. 1907-ci ildə Sabir Bakıya gələrək, bir müddət "İrşad" qəzetində çalışır. Sonrakı il o, Şamaxıya qayıdaraq, "Ümid" məktəbini açır.

1910-cu ildə Sabir yenidən Bakıya gəlir. O, əvvəlcə "Zənbur" jurnalında çalışır, sonra isə Balaxanıdakı məktəbdə dərs deyir. Bu zaman Sabir "Günəş" və "Həqiqət" qəzetləri ilə əməkdaşlıq edir və şeirlərini "Nizadar", "Çuvalduz" imzaları ilə çap etdirir. O, "Molla Nəsrəddin" jurnalına da tez-tez şeirlər göndərirdi.

1910-cu ilin sonlarında Sabir xəstələnir və Şamaxıya qayıdır. Həmin ilin may ayında o, müalicə olunmaq üçün Tiflisə gələrək, Cəlil Məmmədquluzadənin evində qalır. Lakin şairin səhhəti yaxşılaşmır və o, Şamaxıya qayıdır.

Sabir 1911-ci ilin iyul ayında doğma şəhərində vəfat etmişdir.

Sabirin şeirləri ilk dəfə kitab şəklində 1912-ci ildə "Hophopnamə" adı ilə çap olunmuşdur. Şairin həyat yoldaşı Büllurnisə xanımın və dostları A.Səhhətlə M.Mahmudbəyovun köməyi ilə çap olunan bu kitab sonralar da dəfələrlə çap olunmuşdur.

Sabir, qeyd olunduğu kimi, yeni tipli, kəskin və ifşaedici satiraları ilə ədəbiyyatımızda yeni bir ədəbi məktəbin əsasını qoymuşdur. Sabirin hələ sağlığında bir sıra istedadlı davamçıları yetişmişdir. Sabirin şeirləri "Molla Nəsrəddin" jurnalı vasitəsilə Orta Asiyada, İranda və Türkiyədə də geniş yayılmışdır. Məşhur türk şairi Nazim Hikmət Sabir şeirlərinin Türkiyədə də sevildiyini qeyd etmişdir. Görkəmli İran şairi Lahuti də Sabir sənətinin İranda satirik şeirin inkişafında böyük rol oynadığını göstərmişdir. Böyük xalq şairi Sabirin bir sıra satiraları bu gün də böyük tərbiyəvi əhəmiyyət daşıyaraq, dövrün ən mühüm sosial-siyasi münasibətlərini, müxtəlif ictimai baxışları olduqca canlı bir şəkildə əks etdirir. Onların mərkəzində xalq mövzusu, xalq həyatı, xalq məişəti dayanır. Sabir xalqın həyatını onun anlayacağı bir dillə təsvir edir. Buna görə də Sabir satiraları yüksək xəlqiliyi ilə seçilir.



## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

(1870-1933)

Azərbaycanın məşhur Şuşa şəhərində bəy ailəsində dünyaya göz açan Əbdürrəhim çox kiçik yaşında atasını itirmişdir. Atalığı H.Sadıqbəyov onun təhsil almasına xüsusi qayğı göstərmişdir. Əbdürrəhim orta təhsilini Şuşada və Tiflis şəhərində almış, ali məktəbi isə Rusiyanın Peterburq şəhərində bitirmişdir. Təhsil illərində teatr sənətinə xüsusi maraq göstərən Əbdürrəhim bəy 1892-ci ildə – 22 yaşında "Yeyərsən qaz ətini, görərsən ləzzətini" adlı ilk qüvvətli komediyasını yazır.

1899-cu ildə Peterburqdan Azərbaycana qayıdan Əbdürrəhim bəy Haqverdiyev müəllimliklə yanaşı, teatr tamaşalarına rejissorluq edir, bədii yaradıcılıqla daha ciddi məşğul olur. O, əsərlərinin bir qismini "Molla Nəsrəddin" jurnalında çap etdirir. "Marallarım", "Cəhənnəm məktubları", "Şeyx Şəban", eləcə də, əvvəllər yazdığı "Dağılan tifaq", "Bəxtsiz cavan" əsərləri ədibə böyük şöhrət gətirir.

Sonralar Qarabağda, Gürcüstanda yaşayan, müxtəlif vəzifələrdə çalışan Ə.Haqverdiyev 1921-1930-cu illərdə Azərbaycan Dövlət Universitetində ədəbiyyat müəllimi işləyir.

Ə.Haqverdiyev "şair" (Mirzə Səfər) hekayəsində mərdlik və mənəvi saflıq kimi insani keyfiyyətlər təbliğ olunur. Hekayənin qəhrəmanı qəza dəftərxanasında katib işləyən, vicdanlı və namuslu bir insan olan Mirzə Səfərdir. O, Həsən ağa kimi lovğa və eqoist varlıların qarşısında əyilmir və mənliyini qoruyur. Hekayədəki Usta Zeynal surəti də müsbət əxlaqi keyfiyyətləri ilə seçilir.

Ə.Haqverdiyev 20-30-cu illərdə "Ağac kölgəsində", "Baba yurdu", "Köhnə dudman", "Yoldaş Koroğlu" pyeslərini yazmışdır. O, həmçinin "Odabaşının hekayəsi" povestini yazır. Əsərdə ədalətsiz cəmiyyətdə həqiqi insan xoşbəxtliyinin mümkün olmadığı göstərilir.







## ZEYNALABDİN MARAĞAYİ

(1837-1910)

Dövrün görkəmli yazıçılarından biri olan Zeynalabdin Marağayi 1837-ci ildə Cənubi Azərbaycanın Marağa şəhərində anadan olmuş və cavan yaşlarından Qafqaza köçərək, ticarətlə məşğul olmuşdur. O, ömrünün son illərini İstanbulda yaşamış və burada vəfat etmişdir.

Z.Marağayi ədəbiyyat tariximizdə "İbrahim bəyin səyahətnaməsi", yaxud "Təəssübkeşliyin bəlası" romanı ilə məşhurdur. Roman üç cilddən ibarətdir: onun birinci cildi 1897-ci ildə, sonrakı iki cildi isə 1906-1909-cu illərdə nəşr edilmişdir.

Mövzusu İran həyatından alınmış romanın ideyası vətənpərvərlikdir. Əsərin qəhrəmanı İbrahim bəydir. O, Cənubi Azərbaycanın varlı tacirlərindən birinin oğludur. İbrahim bəy Misirdə doğulmuş, yaxşı təhsil almış, bir neçə dil öyrənmişdir. Ağıllı, kamallı bir gənc olan İbrahim bəyin əsas xüsusiyyəti vətəni ürəkdən sevməsidir. Misirdə boya-başa çatsa da, o, həmişə İran haqqında düşünür, vətəninin abadlığını və tərəqqisini istəyir. İbrahim bəy İranı görmək üçün müəllimi Yusif əmi ilə birlikdə səyahətə çıxır.

Romanın üçüncü cildində sevgililərin ölümündən sonrakı vəziyyəti təsvir olunur. Yuxuda cənnəti və cəhənnəmi gəzən Yusif əmi İbrahim bəylə Məhbubə xanımın behiştdə əbədi səadətə qovuşduqlarını, vətənə xəyanət edənlərin isə cəhənnəm odunda yandıqlarını görür.

Romanın bu cür nikbin sonluqla bitməsi Z.Marağayinin əsərdə aşıladığı yüksək ideya ilə bağlıdır: Vətən uğrunda çəkilən hər bir zəhmətin bəhrəsi gözəl olacaq. Vətən yolunda ölmək əbədi səadətdir.

Z.Marağayi Azərbaycan ədəbiyyatı tarixində M.F.Axundzadə ideyalarının görkəmli davamçısı kimi tanınır. Z.Marağayinin əsərləri fəlsəfi-publisist üslubda yazılmışdır.



## CƏLİL MƏMMƏDQULUZADƏ

## (1869-1932)

Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Naxçıvan şəhərində Məmmədqulu Məşədi Hüseynqulu oğlunun ailəsində dünyaya gəlmişdir.

XIX əsrin ikinci yarısının sadə, adi, ortabab yaşayış tərzinə malik olan şəhərli ailələrinin səciyyəvi cəhətlərini özündə cəmləşdirən bu ailə mühiti C.Məmmədquluzadənin ilk həyat məktəbi hesab oluna bilər. Həmin mikromühit və onu əhatə edən adamlar – kiçik müasirləri Cəlilin həyata baxışlarının əxlaqi-mənəvi keyfiyyətlərinin, müşahidə qabiliyyətinin formalaşdırılması və istiqamətləndirilməsində ilkin təməl rolunu oynamışdır.

Əslində, göstərilən dövrdə digər əyalət mərkəzləri, qəza şəhərləri olan Gəncə, Şamaxı və başqa şəhərlərlə eyni səviyyədə Naxçıvanda da həqiqətən müəyyən ictimai siyasi ziddiyyətlər mövcud idi.

Vaxtilə böyük ədibimiz Mirzə Cəlil deyirdi ki, Axundov haqqında ya yaxşı yazmaq lazımdır, ya da heç yazmamaq. Bu fikri istisnasız olaraq Mirzə Cəlilin öz yaradıcılığı barədə də söyləmək olar. Çox təəssüf ki, həm Axundov, həm də Cəlil Məmmədquluzadə haqqında onların öz bədi irsindən fəlsəfi-publisistik yaradıcılığından çox-çox sayda monoqrafiyalar, məqalələr yazılıb və indi bunları yeni meyarlarla qiymətləndirəndə ortada nə qalır?

Mirzə Cəlil bir də onu deyib ki, dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur: zira ki, mal, mülk tələf olub gedir, amma söz qalır. Şübhəsiz, dahi sənətkarın yaratdığı nə varsa, yaşayır və yaşayacaq! Çünki Mirzə Cəlil sözü bu millətin, xalqın özünü dərk etməsinə, mənəvi oyanışına təkan verib və indi də bizi huşyar olmamağa səsləyir. Ancaq Mirzə Cəlil fenomeni tam münasib öyrənilib-





mi, biz onu, heç olmasa, ədəbiyyatşünaslıq elminin fundamental predmetinə çevirə bilmişikmi? Bu suala da cavab vermək çətindir.

C.Məmmədquluzadə 1905-ci ildə dostu Ö.F.Nemanzadə ilə birlikdə "Şərqi-Rus" qəzetinin mətbəəsini alaraq onu "Qeyrət" adlandırır. 1906-cı il aprelin 7-də isə onlar "Molla Nəsrəddin" jurnalının ilk nömrəsini nəşr edirlər. Bu zamandan başlayaraq Mirzə Cəlil bədii və publisistik yaradıcılıq sahəsində daha səmərəli çalışır. 1920-1921-ci illərdə Mirzə Cəlil Təbrizdə yaşamış və "Molla Nəsrəddin" jurnalının səkkiz nömrəsini burda nəşr etdirmişdir. 1921-ci ilin iyun ayından Bakıya qayıdan Mirzə Cəlil bir il sonra "Molla Nəsrəddin" jurnalının nəşrini yenidən davam etdirir. Mirzə Cəlil 25 il bu jurnala redaktorluq etməklə yanaşı bədii yaradıcılığını da davam etdirmişdir. Onun "Danabaş kəndinin əhvalatları", "Usta Zeynal", "Qurbanəli bəy" kimi nəsr əsərləri, "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" və digər pyesləri ədəbiyyatımızın dəyərli nümunələridir.

Azərbaycan kəndinin yoxsul həyatı, gerilik, fanatizm, avamlıq Cəlil Məmmədquluzadənin bədii əsərlərində ən çox diqqət yetirilən məsələlərdir.

"Molla Nəsrəddin" jurnalı bir çox Şərq ölkələrində – Hindistanda, İranda, Türkiyədə, Orta Asiyada böyük bir nüfuza malik olmaqla, eyni zamanda geniş kütlənin hüsn-rəğbətini qazanmış yeganə jurnal idi. Belə bir jurnalın nəşr edilib meydana çıxmasında məsuliyyət daşıyan Mirzə Cəlil, başda sevimli Sabirimiz olmaqla M.S.Ordubadi, Ə.Əzimzadə, Ə.Haqverdiyev, N.Vəzirov, S.S.Axundov və Əli Nəzmi kimi Azərbaycanın qabaqcıl və tərəqqipərvər şair və yazıçılarını ətrafında toplamışdı. Bütün bu faktlar Mirzə Cəlilin böyük təşkilatçılıq qabiliyyətini, həm də xalqın ağır vəziyyətinə ürəkdən yandığını, onu gerilikdən qurtarmaq üçün əsl vətəndaş – yazıçı kimi çalışdığını göstərirdi.

C.Məmmədquluzadə 1932-ci il yanvar ayının 4-də Bakıda vəfat etmişdir.

Cəlil Məmmədquluzadənin adı Azərbaycan tarixinə yazıçı, dramaturq, jurnalist, ictimai xadim, Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında satirik jurnalistikanın əsasını qoymuş bir şəxs kimi yazılmışdır.



## NƏRİMAN NƏRİMANOV

## (1870-1925)

Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov 1870-ci il aprel ayının 14-də Qafqaz canişinin inzibati mərkəzi Tiflis şəhərinin Şeytanbazar məhəlləsində – baqqal ailəsində anadan olmuşdur. O, ilk təhsilini Qafqaz şiəməzhəb Ruhani İdarəsinin nəzdindəki xüsusi məktəbdə almışdır. N.Nərimanov 1882-ci ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin yanındakı ibtidai məktəbə daxil olmuşdur. Ədib 1885-1890-cı illərdə seminariyanın hazırlıq və əsas siniflərində oxumuşdur. Tədris fənlərini səylə öyrənən, rus və avropa klassiklərinin əsərlərini müntəzəm mütaliə edən N.Nərimanov həvəslə xalqa xidmət etməyin ən yaxşı vasitəsi saydığı pedaqoji işə hazırlaşır. O, 1890-cı ilin iyun ayında təhsilini başa çatdırıb, kənd ibtidai məktəb müəllimi hüququnu qazanır və Tiflis quberniyasının Qızılhacılı kənd məktəbinə təyinat alır.

N.Nərimanov XIX əsrin 90-cı illərində Bakıda pedaqoji işlə bərabər geniş dairədə ictimai fəaliyyət göstərir. Yazıçı-pedaqoqun yaxından iştirakı ilə yaradılan və tərkibində ictimai fəaliyyət meydanına gələn azərbaycanlı ziyalıları birləşdirən, "Bakı müsəlman ziyalılarının özəyi" təşkil olunur. O, əsası bir qədər əvvəl S.M.Qənizadə və H.Mahmudbəyov tərəfindən qoyulan Bakı-teatr truppasının səhnəyə qoyduğu əsrlərdə baş rollarda oynayır. Cavan müəllim teatrın repertuarını yeniləşdirmək, əhalinin fikri inkişafına nail olmaq üçün bədii yaradıcılığa başlayır. Yazıçı N.V.Qoqolun "Müfəttiş" komediyasını (1892) tərcümə edir, "Nadanlıq" (1893), "Dilin bəlası" (1895) komediyalarını, "Nadir şah" (1898) tarixi faciəsini yazır və tamaşaya qoydurur. Ədib 1895-ci ildə "Bahadır və Sona" romanı üzərində işləməyə başlayır və 1896-1899-cu illərdə onun ilk hissələrini nəşr etdirir. Ana dilinə məhəbbət və ictimai funksiyasını genişləndirmək arzusu N.Nərimanovu qrammatika yazmağa sövq edir. O, bir-birinin ardınca "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" (1899), "Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabçadır" (1899), "Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabçadır" (1900) dərslik və vəsaitlərini nəşr etdirir. Bu illərdə ədibin "Gəncədə teatr barəsində deyilmiş N.Nərimanovun sözü" (1899), "Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və camaata xidmətləri" (1900) əsərləri çap olunur.





Görkəmli ictimai xadim 1902-ci ildə Odessa şəhərinə gedib, Bakı şəhər idarəsinin təqaüdü ilə Novorossiysk universitetinin tibb fakültəsinə daxil olur. Yazıçı burada tələbələrin gizli siyasi dərnəklərində iştirak edir. 1905-ci il inqilabi günlərində o, artıq tələbə mitinqlərinə, küçə nümayişlərinə rəhbərlik edirdi. Novorissiysk universiteti müvəqqəti bağlanarkən N.Nərimanov Bakıya qayıdır.

1906-cı ilin axırında N.Nərimanov təhsilini davam etmək üçün Odessa şəhərinə qayıdır. İnqilabçı tələbə 1908-ci ilin noyabr ayında Novorissiysk universitetini bitirib, həkim terapevt diplomu alır. Bakıya dönən N.Nərimanov Qara şəhər xəstəxanasında həkim işləyir. Bir neçə ay sonra Səttar xanın məsləhəti ilə İranda milli azadlıq hərəkatına kömək etmək üçün Tiflisə göndərilir. Onun siyasi fəaliyyəti hökumət məmurlarının diqqətini cəlb edir. Siyasi xadim, ədib-həkim 1909-cu ilin 1 martında həbs olunur. O, Metex qalasında altı ay davam edən tədqiqatdan sonra Həştərxana sürgün edilir.

1913-cü ilin iyun ayında Bakıya dönən N.Nərimanovun həkimliklə yanaşı, yazıçılıq fəaliyyəti davam edir. "İqbal", "Bəsirət", "Yeni iqbal", "Açıq söz" qəzetlərində məqalə və felyetonlar dərc etdirir. "Bir kəndin sərgüzəşti" (1915) hekayəsini və "Pir" (1917) povestini yazıb nəşr etdirir. Yazıçı ədəbi prosesə düzgün istiqamət

vermək üçün "Tənqid gecələri" adlı dərnək təşkil edir və 1916-cı ildə "Fikir" adlı jurnal çıxarmağa təşəbbüs göstərir.

1917-ci il fevral burjua-demokratik inqilabından sonra N.Nərimanov "Hümmət" təşkilatına rəhbərlik edir və "Hümmət" qəzetinin baş redaktoru olur. Siyasi hadisələrin axarı N.Nərimanovu 1918-ci ilin aprel ayında Bakı Xalq Komissarları Sovetində şəhər təsərrüfatı komissarı mənsəbinə gətirir. Bolşevik libasına bürünmüş daşnaklarla qarşıdurmalar, dağılmış şəhər təsərrüfatını bərpa etmək uğrunda rahatlıq bilmədən çalışmaq Nəriman Nərimanovun sağlamlığını pozur. O, müalicə üçün Həştərxana göndərilir. Əsrin görkəmli siyasət adamı 1919-cu ildə Moskvaya dəvət olunur. Bakı komissarı RSFSR Xalq Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin müdiri və Xalq Millətlər Komissarlığında müavin vəzifələrini icra edir.

1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra N.Nərimanov İnqilab Komitəsinin və Xalq Komissarlar Sovetinin sədri vəzifələrində işləyir. O, 1922-ci ildə Zaqafqaziya İttifaq Sovetinin sədri seçilmişdir. 1922-ci ilin dekabrında SSRİ yarandıqdan sonra N.Nərimanov Moskvaya dəvət olunmuş, MİK-nin dörd sədrindən biri olmuşdur.

N.Nərimanov 1925-ci ilin 19 martında qəflətən vəfat etmişdir.

Nərimanov millətin tərəqqi və inkişafı üçün onun özünüdərki məsələsini də vacib sayırdı. Ədibin fikrincə, əgər millət özünü tanımasa, böyük ideallar dalınca qaça bilməz. Bunun üçün isə ilk növbədə "Milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır".







## ƏHMƏD BƏY AĞAOĞLU
**(1869-1939)**

Bu dövrdə, yəni XX əsrin əvvəllərində Şimali Azərbaycanda publisistikanın inkişafında böyük xidmətləri olan görkəmli jurnalistlərdən biri Əhməd bəy Ağaoğlu idi. O, Şuşada anadan olmuş, ilk təhsilini əvvəlcə doğma şəhərində, sonra isə Tiflisdə almışdır. Əhməd Ağaoğlu 1894-cü ildə Parisdə hüquq məktəbini və Sorbonna Universitetini bitirmişdir. Gənc Əhməd Ağaoğlunun 1892-ci ildə Londonda Beynəlxalq şərqşünaslıq konqresində etdiyi məruzəsini alimlər yüksək qiymətləndirmişlər. Bir müddət Şuşada müəllim işlədikdən sonra Əhməd bəy Ağaoğlu 1900-cu ildə Bakıya köçür və "Kaspi" qəzetində çalışır. 1905-ci ildə o, Əli bəy Hüseynzadə ilə birlikdə "Həyat" qəzetini nəşr etdirir. Həmin ilin sonunda Əhməd bəy Ağaoğlu "İrşad" qəzetinə redaktorluq edir. Bu qəzetdə çap etdirdiyi məqalələrində o, İslam Şərqinin əsas bəlalarından söz açır və müsəlmanları birliyə, ittifaqa çağırır. Erməni daşnakları azərbaycanlılara qarşı fitnəkar əməllər törədərkən Əhməd bəy Ağaoğlunun və başqa Azərbaycan xadimlərinin təşəbbüsü ilə ermənilərə qarşı "Difai" adlı döyüş dəstələri yaradılır. Bu zaman Ə.Ağaoğluya qarşı hücumlar və təqiblər başlanır və o, 1908-ci ildə Türkiyəyə mühacirət edir. Əhməd bəy Ağaoğlu Türkiyədə Böyük Millət Məclisinə deputat seçilir. İstanbul Universitetinin professoru olur. O, eyni zamanda, "Xalqa doğru", "Türk yurdu" jurnalları ilə fəal əməkdaşlıq edir və "Hakimiyyəti-milliyyə" jurnalının redaktoru olur. Əhməd bəy Ağaoğlunun Türkiyədə yazdığı ən məşhur əsərləri bunlardır: "Sərbəst insanlar ölkəsində", "Mən nəyəm?", "Könülsüz olmaz", "Dövlət və fərd", "Türk hüquq tarixi".

Azərbaycan tarixinə Əhməd bəy Ağaoğlunun adı türkçülük hərəkatının ideoloqlarından biri, görkəmli ictimai-siyasi xadim, publisist, yazıçı, hüquqşünas, islamşünas kimi yazılmışdır. Azərbaycan ictimai mühitinə "İslamçılıq, qərbçilik və türkçülük" şüarı ilə ifadə olunan dünyagörüşünü Əhməd bəy Ağaoğlu gətirmişdir.



## ƏLİ BƏY HÜSEYNZADƏ

**(1864-1940)**

Romantik ədəbiyyatın əsas mətbuat orqanı həftəlik "Füyuzat" (Faydalar) jurnalı idi. 1906-1907-ci illərdə Bakıda nəşr olunan jurnalın redaktoru Əli bəy Hüseynzadə, himayəçisi isə Hacı Zeynalabdin Tağıyev idi. Füyuzatçılar sosializm ideyalarına mənfi münasibət bəsləyirdilər. Onlar İslama və sinfi sülhə əsaslanan ədalətli bir quruluş tərəfdarı idilər. Bu fikir Həsən Səbri Ayvazovun "Nədən bu hala qaldıq" və Əli bəy Hüseynzadənin "Vəlvələ və zümzümə", "Nicat məhəbbətdədir" məqalələrində öz əksini tapmışdır. Jurnaldakı yazılar dilinin qəlizliyi və ərəb-fars sözlərinin çoxluğu ilə seçilirdi. Məhz buna görə də "Füyuzat" jurnalı bir sıra qabaqcıl Azərbaycan yazıçıları tərəfindən tənqid edildi. Bundan əlavə, jurnal Osmanlı hökmdarı Sultan Əbdülhəmidi tənqid etdiyi üçün onun narazılığına səbəb oldu. Bütün bunlar jurnalın nəşrindən düz bir il sonra (01.11.1906 – 01.11.1907) bağlanmasına gətirib çıxartdı. Jurnalın cəmi 32 sayı nəşr olunmuşdur.

İlk təhsilini Tiflisdə alan Əli bəy Hüseynzadə Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsində oxumuş, sonra isə İstanbulda ali hərbi tibb məktəbini bitirmişdir. Ə.Hüseynzadə bir müddət Türkiyədə yaşamış və "İttihad", "Tərəqqi" firqələrini yaradanlardan biri olmuşdur. O, Qərb ədəbiyyatına və din tarixinə yaxşı bələd olmuş və Şərq, Qərb ədəbiyyatından bir sıra tərcümələr nəşr etmişdir (Ömər Xəyyam, Höte və s.). 1903-cü ildə Bakıya qayıdan Ə.Hüseynzadə 1905-ci ildə Ə.Ağaoğlu ilə birgə "Həyat" qəzetini nəşr etdirmiş, sonra isə "Füyuzat" jurnalını yaratmış və ona başçılıq etmişdir. O, 1908-1909-cu illərdə "Səadət" adlı yeni tipli bir məktəb açmışdır. 1910-cu ildən





Ə.Hüseynzadə Türkiyədə yaşamış və İstanbulda vəfat etmişdir.

Ə.Hüseynzadə bir sıra şeir və publisist məqalələrin, bədii-fəlsəfi məzmunlu nəsr əsərlərinin müəllifidir. O, rəssamlıqla da məşğul olmuş və bir sıra portretlər yaratmışdır.

Ə.Hüseynzadə jurnalistika ilə daha çox məşğul olmuşdur. Onun yazılarının əsas mövzuları türk xalqlarının taleyi və tərəqqisi idi. Müəllif 1904-cü ildə "Kaspi" qəzetində yazırdı ki, türklər tarixdə birinci dəfə qılıncın gücü ilə, ikinci dəfə etiqadın gücü ilə parlamışdır. Müəllifin qənaətinə görə, türklər üçüncü dəfə elm və biliklə parlamalıdır. Əli bəy Hüseynzadə bütün türk xalqlarının taleyi haqqında düşünür və onları birliyə çağırırdı. Müəllif türk xalqlarının gələcəyini sinfi sülhdə, sosial ahəngdarlıqda, bərabərlik və ədalətdə görürdü.

Ə.Hüseynzadə həcmcə ən böyük əsəri dərin məzmunlu bədii-fəlsəfi əsəri olan "Siyasət və fürusət" (1908-1909) traktatıdır. Müəllif tarixə və Zərdüşt, Dante, Rumi, Teymur və s. kimi tarixi şəxsiyyətlərə üz tutaraq, din, əxlaq və siyasətlə bağlı fikirlərini açıqlamışdır. Əsərdə çar Rusiyasının müstəmləkəçilik siyasətinin tənqidi əsas yer tutur. Ə.Hüseynzadə əsərdəki Pruşkeviç surətinin dili ilə çarizmin Qafqazda və Şərqdə məzlum xalqları bir-birinə vuruşdurmaq siyasətini ifşa edir. Ə.Hüseynzadənin rus yazıçısı A.P.Çexovun təsiri ilə yazdığı "Əbdiqilaf və məhfəzə qulu" hekayəsi və "Qərbin iki dastanında türk" adlı əsəri də vardır. Onun "Turan", "Əski tibbiyyə", "Aslan ağzı", "Hali-vətən", "Səmada müqəddimə", "Kələbək", "Afət qarşısında şair", "Alim və gənclik" kimi şeirləri vardır. Onun məşhur şeirlərindən biri bu misralarla başlanır.

Ucundadır dilimin həqiqətin böyüyü,
Nə qoydular deyəyim, nə kəsdilər dilimi.
Bilirsiniz cühəla nə etdilər Vətənə?
Nə qoydular uyuya, nə qoydular yürüyə...

Ə.Hüseynzadə 1926-cı ildə Bakıda Türkoloji qurultayda iştirak etmiş və Türkiyəyə dönərkən "Azərbaycanda düşündüklərim" adlı məqalə yazmışdır. Məqalədə sosializmin Azərbaycanı bir cəhənnəmə döndərdiyini ürək ağrısı ilə yazan müəllif gec-tez Vətəninin bu bəladan qurtaracağına və qardaş Türkiyə kimi müstəqil olacağına ümid hisslərini ifadə edirdi. Tarix bu böyük mütəfəkkirin haqlı olduğunu sübut etdi.



## MƏHƏMMƏD HADİ

**(1879-1920)**

Məhəmməd Hadi XX əsr Azərbaycan ədəbiyyatında romantizmin ən görkəmli nümayəndələrindən biridir.

Məhəmməd Hadi 1879-cu ildə Şamaxıda anadan olmuşdur. O, Şamaxıda mədrəsədə oxumuş, ərəb və fars dillərindən başqa, din tarixini, ilahiyyatı yaxşı öyrənmişdir. M.Hadi təhsilini davam etdirmək istəsə də, maddi vəziyyəti buna imkan verməmişdir. O, sonralar yazdığı bir məqaləsində dövrün dini təhsil sistemindən və bəzi müəllimlərindən şikayətlənmişdir. Hadi şeirlərinin birində bu vəziyyəti ilə bağlı yazmışdır:

Oxumaqçın nə qədər dadü fəğan etdim isə,
Olmadı zərrə əsərbəxş şu istimdadım.
Dağa dersən eşidər, sonra verər əksi-səda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım.

1902-ci il Şamaxı zəlzələsindən sonra Hadi Kürdəmirə gələrək bir müddət burada müəllimlik edir. Hadi 1906-cı ildə qohumu və müəllimi Mustafa Lütfinin dəvəti ilə Həştərxana köçərək onun məktəbində dərs deyir. O, Lütfinin redaktorluq etdiyi "Bürhani-tərəqqi" qəzetində çalışır. M.Hadi Bakı ilə də əlaqə saxlayır və "Həyat" qəzetinə məqalələr göndərir. 1906-cı ilin axırlarında isə Ə.Hüseynzadə onu "Füyuzat" jurnalında işləməyə dəvət edir. 1907-ci ildə





"Füyuzat" jurnalı bağlandıqdan sonra Hadi "İrşad", "Tazə həyat" və "Tərəqqi" qəzetlərində çalışır.

Məhəmməd Hadi 1910-cu ildə İstanbula gedir və "Tənin" qəzetində işləyir. İrtica əleyhinə çıxışlarına görə o, Solonikə sürgün edilir. M.Hadi 1915-ci ildə Bakıya qayıdaraq "İqbal" qəzetində işləyir. Birinci dünya müharibəsi zamanı Bakı milyonerləri və müsəlman ruhaniləri bir ordu təşkil edərək cəbhəyə göndərirlər. Hadi də ruhani vəzifəsində həmin orduya qoşularaq cəbhəyə gedir.

1918-ci ildə Bakıya qayıdan Hadi yeni yaranmış Azərbaycan Milli Dövlətini, azadlığı alqışlayan lirik şeirlər yazır.

Məhəmməd Hadi 1920-ci ilin may ayında Gəncədə vəfat etmişdir.



## HƏSƏN BƏY ZƏRDABİ

**(1837-1907)**

Həsən bəy Səlim bəy oğlu Məlikov Zərdabi 1837-ci ilin 12 noyabrında keçmiş Şamaxı quberniyası Göyçay qəzasının Zərdabi kəndində mülkədar ailəsində anadan olmuşdur. Onun babası Rəhim bəy, atası Səlim bəy, ölkənin siyasi həyatında mühüm rol oynayan, əsrinə görə kamil, savadlı, el arasında böyük nüfuzu olan xadimlər idi.

Həsən bəy ilk təhsilini əski qayda üzrə kənddə mollaxanada almışdır. O, 1852-ci ildə Şamaxı şəhər məktəbinə daxil olmuşdur. Növbəti imtahanların birində iştirak edən Qafqaz Təhsil Dairəsinin popeçitelli baron A.P.Nikolay Həsən bəyin qeyri-adi istedadının şahidi olmuş, onun Tiflis birinci gimnaziyasına köçməsi və xəzinə vəsaiti hesabına təhsil alması barədə sərəncam vermişdir. 1861-ci ildə gimnaziyanı "əla" qiymətlə bitirən Həsən bəy Moskva Universitetinin "Fizika-riyaziyyat" fakültəsinin "Təbiyyət" şöbəsinə daxil olmuşdur. O, 1865-ci ildə universiteti namizəd diplomu ilə bitirib Qafqaza qayıdır. Tiflisdə kəndlilərin torpaqlarını bölmək miqdarını təyin etmək və aralarındakı mübahisələri həll etməklə məşğul olan "Mejevaya palata" deyilən dövlət qurumunda işləməyə başlayır. Həsən bəy kəndlilərin suyu, əkinə yarayan torpaqlarını ələ keçirmək üçün hökumət məmurları və bəylərin fitnə-fasadlarının şahidi olur. Onun kəndli hüquqlarını müdafiə edə bilmək ümidilə Bakıda islah edilib yenidən qurulmuş "Quberniya idarə"lərində işə düzəlir. Lakin o, burada da istədiyinə nail ola bilmir. Qubernator Kolubyakinlə





aralarında yaranan ziddiyyət onu iş yerini dəyişməyə məcbur edir. O, bir müddət Qubada məhkəmədə katib vəzifəsini icra edir. Onun məzlum, geridə qalan kütlənin hüquqlarını müdafiə etmək cəhdləri "gizli vəkillərin, vicdansız polisin" müqaviməti ilə qarşılaşır. Böyük millət xadiminin həyatına sui-qəsd edilir.

Həsən bəy 1869-cu ildə qulluqdan istefa verib Bakıya köçür və realni gimnaziyada "Təbiyyat tarixi" fənninin müəllimi təyin olunur. Bununla da Həsən bəy Məlikovun geniş dairədə ictimai fəaliyyət göstərməsi üçün imkan yaranır. O, azərbaycanlı uşaqları təhsilə cəlb etmək məqsədilə əhali arasında müntəzəm təbliğat aparır.

Zərdabi 1872-ci ildə Bakıda birinci dəfə müsəlmanlara məxsus "Cəmiyyəti-xeyriyyə" yaradır. 1873-cü ildə onun rəhbərliyi altında Nəcəf bəy Vəzirovun təşəbbüsü, Əsgər Ağa Adıgözəlov Gorani və digər gimnazistlərin iştirakı ilə ilk dəfə M.F.Axundovun "Hacı Qara" komediyası oynanılır. Müəllim və tələbələrin birgə səyi nəticəsində Azərbaycan milli teatrının təməli qoyulur.

1875-ci ilin iyulunda yeddi il davam edən bürokratik maneələri dəf edən Həsən bəy Məlikov "Əkinçi" qəzetini nəşr etməyə nail olur.

Naşir M.F.Axundov başda olmaqla əsrin Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Məhəmməd Tağı Əlizadə, Əhsanül Qəvaid, Əsgər ağa Gorani, Axund Əhməd Hüseynzadə, Seyid Rza Əmirzadə, Məhbus Dərbəndi kimi Qafqazın müxtəlif məntəqələrində yaşayan ədəbi qüvvələri redaksiya ətrafında birləşdirməyə və ölkədə ədəbi hərəkatı canlandırmağa nail olur.

Redaktor bütün bu tədbirləri ilə Azərbaycanın müasir istiqamətdə inkişafı üçün zəmin yaradır. Bununla da H.Zərdabinin vətəndaşlıq səyləri sayəsində Azərbaycan mədəniyyəti tarixində yeni dövr başlanır. Lakin həmişə olduğu kimi Həsən bəyin xalq işi uğrunda mübarizələri hakim dairələri və tərəqqi düşmənlərini narahat edir. Ona qarşı saysız-hesabsız fitnələr təşkil olunur. 1877-ci ildə "Əkinçi" bağlanır. O, 1879-cu ildə gimnaziyada pedaqoji işdən azad olunmağı haqqında ərizə verməyə məcbur edilir. İctimai və pedaqoji fəaliyyətini dayandırmasına baxmayaraq, Həsən bəy hökumət tə-

qiblərindən və xəfiyyələrin nəzarətindən qurtara bilmir. O, 1880-ci ildə ailəsilə doğma Zərdab kəndinə köçür, tam on altı il hüquqları uğrunda mübarizəni həyatının idealına çevirdiyi kəndlilər arasında yaşayır.

Həsən bəy Zərdabi 1896-cı ildə könüllü sürgündən Bakıya qayıdır. Ötən on altı il ərzində Bakının siması xeyli dəyişmişdir. O, artıq Şərqin qapısında "işıqlı mərkəzə" çevrilmişdi. S.M.Qənizadə və N.Nərimanovun rəhbərlik etdiyi Bakı ziyalı özəyinin üzvləri onu məhəbbətlə qarşıladılar. Böyük millət xadimi Bakı şəhər dumasına üzv seçildi. Qızı Pəri xanımın həyat yoldaşı Ə.M.Topçubaşovun redaktoru olduğu "Kaspi" qəzetində əməkdaş oldu. Dövrünün zəruri məsələləri haqqında müxtəlif mövzularda yazılar dərc etdirdi.

O, XX əsrin əvvəlində ana dilində nəşrə başlayan dövri mətbuatın işində yaxından iştirak edir. Müxtəlif elmi-sosial problemlərə dair məqalələr "Torpaq, su, hava", "Bədəni salamat saxlamağın düsturüləməlidir" əsərlərini yazır.

Gənc maarifpərvərlərin qüvvəsinə istinad edən Həsən bəy Zərdabi on-iyirmi il əvvəl arzuladığı, lakin təklik üzündən həyata keçirə bilmədiyi bir sıra niyyətləri həyata keçirməyə imkan tapır. O, "Əkinçi"də və "Ziya"da irəli sürdüyü nəğmə janrını inkişaf etdirmək, uşaq nəğmələri yaratmaq ideyasını reallaşdırmaq üçün əməli fəaliyyətə başlayır. Ədib S.M.Qənizadənin vasitəsilə nəğmə dərslərini "Rus-müsəlman" məktəblərinin tədris planına daxil etdirməyə, nəğmələrdə ifadə edib yaymaq istədiyi fikirləri Hacı Mirağa Mir Möhsünzadəyə nəzmə çəkdirməyə nail olur. Beləliklə, 1901-ci ildə "Türk nəğmələrinin məcmuəsi"ni nəşr etdirdi. Uşaqları onları əhatə edən mühitlə tanış etmək, onlarda təbiətin sirli-sehirli hadisələri haqqında obyektiv elmi təsəvvür hasil etmək məqsədilə "Dəbistan" jurnalında, "Qarınca", "Bal arısı", "Pişik", "Qaramal", "Kəsəyən", "Su iti" başlığı altında bir silsilə məqalə yazmışdır. Bununla da o, Azərbaycanda uşaqlar üçün elmi-kütləvi ədəbiyyat yaratmaq işinin əsasını qoymuşdur.

Həsən bəy Zərdabi Məlikov 1907-ci ilin 28 noyabrında Bakıda iflic xəstəliyindən vəfat etmişdir.







## ƏZİM ƏZİMZADƏ

**(1880-1943)**

Əzim Aslan oğlu Əzimzadə 1880-cı ildə Bakının Novxanı kəndində anadan olub. Uşaqlıqdan rəsm çəkməyə maraq göstərən balaca Əzimin bu həvəsinə ötəri əyləncə kimi baxmışlar. İlk təhsilini o, 1888-1891-ci illərdə mollaxanada almış, 1891-1894-cü illərdə isə rus-müsəlman məktəbinə daxil olaraq təhsilini davam etdirmişdir. Artıq burada müəllimləri onun rəsmə marağını görmüş, böyük fitri istedada malik olmasının şahidi olmuşdular. Ona bu sahədə təhsilini davam etdirmək məsləhət görülmüşdü.

Kiyev şəhərinə göndərilən Əzim Əzimzadə burada rəssamlıq məktəbində oxumuşdur. Onun ilk karikaturası "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdur. Satirik qrafika sahəsində rəssamlıq fəaliyyətinə başlayan Əzim Əzimzadə bunun üçün lazım olan keyfiyyətlərə malik idi. O, hər hansısa bir hadisə və eybəcərliyin mahiyyətini dərhal anlayır və onun satirik, hamıya aydın olan ümumiləşdirilmiş obrazını tapırdı. Çox vaxt onun çəkdiyi karikaturalara şəkilaltı yazılar da tələb olunmurdu.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalında satirik rəsmləri və karikatura ilə çıxış etməyə başlayan Əzim Əzimzadə qısa müddət ərzində populyarlıq qazanır.

1909-cu ildə nəşrə başlayan "Zənbur" jurnalında redaktor vəzifəsində çalışarkən Ə.Əzimzadə imkan olan kimi məqalə mətnlərini satirik rəsmlərlə tamamlayırdı.

1910-cu illərdə Əzim Əzimzadə Rusiya və Şərq ölkələrinə səyahətlər etmişdir. Bu səyahətlər onu yeni-yeni təəssüratlarla zənginləşdirmiş, həyat təcrübəsini və dünyagörüşünü artırmışdı. Vətənə qayıtdıqdan sonra Əzim Əzimzadə bir müddət müəllimlik etmiş, məktəblərdə rəsm müəllimi işləmişdir. Bununla bərabər, .o Bakıda çıxan satirik jurnallar üçün karikatura və yumoristik rəsmlər də çəkmişdir. Rəssam bu dövrdə ən çox "Zənbur", "Bic", "Kəlniyyət", "Baraban", "Məzəli", "Tuti", "Babayi-Əmir" kimi satirik jurnallarla əməkdaşlıq etmişdir. "Avropa diplomatiyasının qələbəsi", "Balkan məsələlərində biz bitərəfik" kimi karikaturaları böyük siyasətdə Avropa ölkələrinin ikiüzlülüyünü tam şəkildə göstərirdi.

Ə.Əzimzadə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını ürəkdən alqışlamışdır. Şərqdə yaradılan ilk respublikanın fəaliyyəti dövründə "türk məktəbi" adını almış köhnə "rus-müsəlman" məktəblərində Əzim Əzimzadə rəsm müəllimi işləmişdir. Bununla yanaşı, o, satirik qrafika və illüstrasiya janrlarında əməkdaşlığa başlamış və orada siyasi-ictimai mövzularda 100-dən artıq karikatura dərc etdirmişdir.

Bu dövrdə Əzim Əzimzadənin yaradıcılığında milli istiqlal mövzusu mühüm yer tutmuşdur. Rəssamın dövrü mətbuat səhifələrində zamanın ictimai-siyasi problemləri ilə səsləşən çoxlu sayda karikaturaları çap olunmuşdur. Dövlət quruculuğu sahəsində bəzi mənfur insanlar tərəfindən yaradılan süni maneələri öz rəsmlərində kəskin tənqid edən rəssam belə maneələrin son nəticədə Azərbaycanın müstəqilliyinə xələl gətirəcəyini, onu təhlükə altında qoyacağını bildirirdi.

Əzim Əzimzadənin yaradıcılığı orijinal və çoxcəhətlidir. O, satirik qrafika, illüstrasiya, siyasi plakat, tarixi və məişət janrlarında, teatr-dekorasiya sənəti sahəsində fəaliyyət göstərmişdir. Onun təsvir üslubunda xalq yaradıclığına xas yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstündür. O, öz rəsmlərində tənqid hədəflərini gah öldürücü satira, gah kəsərli yumor, gah yumşaq kinayə atəşinə tuturdu. Rəssam Mirzə Ələkbər Sabirin "Hophopnamə"sinə son dərəcə gözəl illüstrasiyalar çəkmiş, bir çox teatr tamaşalarına tərtibat və





geyim eskizləri vermişdir. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarının, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarının, Z.Hacıbəylinin "Aşıq Qərib" operasının və bir çox digər tamaşaların bədii tərtibatını Əzim Əzimzadə vermişdir.

1920-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti devrilib, əvəzində sovet hakimiyyəti qurulduqdan sonra rəssam Azərbaycan Xalq Maarif Komissarlığının incəsənət şöbəsinə rəhbər təyin edilmişdir. Onun fəaliyyəti nəticəsində 1920-ci ildə vətənimizin incəsənət tarixində mühüm hadisə baş vermişdir: Bakıda rəssamlıq məktəbi fəaliyyətə başlamışdır.

Əzim Əzimzadə Azərbaycanda teatr və rəssamlıq emalatxanalarının təşkilində səmərəli işlər görməklə bərabər, bir çox əsərlərə özü tərtibat vermişdir. Mirzə Ələkbər Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, C.Məmmədquluzadə, A.Şaiq, Y.V.Çəmənzəminli və başqalarının əsərlərinə illüstrasiyalar, tamaşalarına dekorasiya və geyim eskizləri çəkmişdir. Axundovun "Hacı Qara", "Müsyo Jordan və dərviş Məstəli şah", "Mürafiə vəkillərinin hekayəti", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" pyesləri əsasında hazırlanan tamaşaların da geyim eskizləri onundur.

Əzim Əzimzadənin yaratdığı əsərlər içərisində "Köhnə Bakı tipləri" adlı satirik portretlər silsiləsi dərinliyi və səlis işlənməsi ilə seçilir. "Hacı" karikatura portreti janrın klassik əsərlərindən biri hesab edilir. Bədii əsərlərə illüstrasiyalar çəkən rəssam Nizami Gəncəvinin "Yeddi gözəl", "Xosrov və Şirin" poemaları mövzusunda yüksək səviyyəli bədii əsərlər yaratmışdır.

1940-cı ildə Bakıda Əzim Əzimzadənin fərdi sərgisi açılmış, burada rəssamın 1200-dən artıq əsəri nümayiş olunmuşdur. Rəssam 1943-cü ildə Bakıda vəfat etmişdir.

Azərbaycan tarixinə Əzim Əzimzadə xalq rəssamı, realist qrafika sənətinin banisi, satirik qrafika, illüstrasiya, siyasi plakat, tarixi və məişət janrlarında, teatr-dekorasiya sənəti sahəsində fəaliyyət göstərmiş rəssam, ilk rəssamlıq məktəbinin yaradıcısı, pedaqoq, teatr və rəssamlıq emalatxanalarının təşkilində yaxından iştirak etmiş təşkilatçı kimi daxil olmuşdur.



## ÖMƏR FAİQ NEMANZADƏ

**(1872-1941)**

Dövrün ədəbiyyatı ideya-məzmun baxımından, əsasən, iki istiqamətdə inkişaf edirdi: tənqidi realizm və romantizm.

Təndiqi realizmin əsas xüsusiyyətləri, dövrün həqiqətlərinə çox yaxın olması, milli varlığın səciyyəvi cəhətlərinin düzgün və tənqidi şəkildə təsviri və xalq həyatına, xalq dilinə yaxınlıq, vətənpərvərlik ilə humanizmdən ibarət idi.

Realist sənətkarlar yeniliyə can atır, cəmiyyətdəki ictimai eyiblərin kəskin və ifşaedici tənqidinə xüsusi diqqət yetirirdilər. Realistlərin əsas mətbuat orqanı "Molla Nəsrəddin" jurnalı idi.

"Molla Nəsrəddin" jurnalının yaradıcılardan biri görkəmli pedaqoq və publisist Ömər Faiq Nemanzadə idi. İstanbulda təhsil alan və bir müddət müəllimlik edən Ömər Faiq Nemanzadə 1905-ci ildə Cəlil Məmmədquluzadə ilə birgə Tiflisdə "Qeyrət" mətbəəsini alır. Onlar bir il sonra burada "Molla Nəsrəddin" jurnalının nəşrinə başlayırlar. Ömər Faiq "Ümidvar", "Lağlağı", "Mozalan" imzaları ilə nəşr etdirdiyi məqalələrində xalqın ictimai və milli oyanışı, yeni dövrün vəzifələri, maarif, ana dili və ədəbiyyat məsələlərindən yazmışdır. Ömər Faiq Nemanzadənin əsas məqalələri bunlardır: "Dərdimiz və dərmanımız", "Dilimiz və imlamız", "Nə üçün haqqımızı istəmirik?", "Məzlum ən böyük zalımdır". O, "İrşad", "Tərəqqi", "Açıq söz" və "İqbal" qəzetlərində də məqalələr nəşr etdirmişdir. Ömər Faiq Nemanzadə dövrünün ən böyük əsil ziyalılarından idi. Sözün əsl mənasında böyük millət təəssübkeşi və aydını olmuşdur.

Ömər Faiq Nemanzadə 1941-ci ildə günahsız olaraq öldürülmüş və sonradan bəraət almışdır.







## ƏLİ AĞA ŞIXLİNSKİ

**(1865-1943)**

Əli ağa Şıxlinski 1865-ci il aprelin 23-də Qazaxda zadəgan ailəsində anadan olub. 1883-cü ildə Tiflisdə Mixaylov artilleriya məktəbinə qəbul edilən Şıxlinski oranı fərqlənmə diplomu ilə bitirib. Təhsilini başa vurduqdan sonra Əli ağa Şıxlinski Qafqaz hərbi dairəsinin topçu hissələrində xidmət edib.

Ə.Şıxlinski müharibə abı-havası gələn Uzaq Şərqə təyinat alır. O, 1900-cü ildə Zabaykal topçu divizionunda çalışmağa başlayır. Rus qoşunlarının Çin yürüşündə iştirak edən Şıxlinski döyüşlərdə fərqlənir. 1904-cü ildə topçu batareyasının komandiri vəzifəsində Port-Artura göndərilir. 1904-1905-ci illər rus-yapon müharibəsi ona şöhrət gətirir. Son döyüşlərin birində ayağından yaralanan podpolkovnik Şıxlinskini yaponlar əlil hesab edir əsir götürmürlər. Lakin Peterburqda müalicə alan Şıxlinski çox keçmir ki, yenidən ordu sıralarına qayıdır. Artilleriya hissələrində xidmətini davam etdirən Şıxlinski 1907-ci ildə Ali Zabit Artilleriya Məktəbinə daxil olur. Məktəb Rusiya ordusu artilleriya hissələri üçün dərin biliklərə malik zabit kadrları yetişdirir və faktiki olaraq artilleriya üzrə akademiya hesab edilirdi.

1910-cu ildə məktəbi bitirən Şıxlinski yenidən Qafqaz hərbi dairəsində divizion komandiri vəzifəsində xidmətini davam etdirir. 1912-ci ildə onun təklif etdiyi yeni atəş üsulu "Şıxlinski üçbucağı"

adı altında hərb elminə daxil olmuşdur. "Səhra toplarının cəbhədə işlədilməsi" kitabı isə artilleriya zabitlərinin stolüstü kitabına çevrilmişdir.

1912-ci ildə Ali Zabit Artilleriya məktəbinə rəis müavini, 1913-cü ildə isə məktəbin rəisi təyin edilən Şıxllinskiyə həmin ildə general-mayor rütbəsi verilir.

1916-cı ildə bütün Qərb cəbhəsinin artilleriya inspektoru təyin edilən Şıxlinskiyə xidmətlərinə görə 1917-ci ilin əvvəlində general-leytenant rütbəsi verilir. Əli ağa Şıxlinski 10-cu ordunun komandanı təyin edilir. Lakin bu zaman Rusiya imperiyası artıq dağılmağa başlayır. Belə vəziyyətdə Şıxlinski vətəninə – Azərbaycana qayıdır.

Bakıda möhkəmlənən erməni-bolşevik qüvvələri əhaliyə divan tutur, xalqımıza qarşı genosid törədirdilər. Belə bir vaxtda Müsəlman Korpusu yaradılmağa başlandı və Şıxlinski onun komandanı təyin edildi. Belə şəraitdə müstəqilliyini elan etmiş Azərbaycan qardaş Türkiyə dövlətinə müraciət etməli oldu. Göyçay döyüşlərində darmadağın edilən erməni-bolşevik qüvvələri tutduqları ərazilərdən qovuldu və nəhayət, sentyabrın 15-də Bakı şəhəri düşməndən azad edildi. 1918-ci ilin noyabr ayında türk qoşunları Azərbaycandan çıxarıldı. Azərbaycan isə öz hərbi hissələrini tərtib etməkdə davam edirdi. Azərbaycan ordusunda Şıxlinski hərbi nazir Mehmandarovun müavini təyin edildi. Müstəqil Azərbaycan ordusunun yaradılmasında onun böyük əməyi olmuşdur. 1919-cu ildə ona tam artilleriya generalı rütbəsi verilmişdir.

1920-ci ildə müstəqil dövlətimiz sükuta uğrayanda Şıxlinski vətəndə qalmaq qərarına gəldi. Sovetlər tərəfindən həbs edilən general iki aydan sonra N.Nərimanovun səyləri ilə azad edildi və Mehmandarovla bərabər Moskvaya göndərildi.

Daimi Artilleriya Komissiyasının üzvü seçilən Şıxlinski həmçinin Ali Artilleriya Məktəbində sovet artilleriya zabitlərinə dərs demiş, artilleriya nizamnaməsi hazırlayan komissiyanın işində iştirak etmişdir.

1921-ci ildə N.Nərimanovun və Ə.Qarayevin xahişi ilə Bakıya qaytarılan Şıxlinski Bakı Qarnizonu Hərbi-Elmi Cəmiyyətinin





sədr müavini olmuş, Sovet Azərbaycanı Ordusunun Qərargahında işləmiş, Azərbaycan Komandirlər Məktəbində dərs demişdir. 1928-1929-cu illərdə o, Azərbaycanda ilk hərbi jurnal olan "Hərbi bilik" jurnalını nəşr etdirmişdir. Tərcümə fəaliyyəti ilə məşğul olan Şıxlinski ilk hərbi lüğətimizi tərtib etmişdir ki, burada rus, türk və fars dillərində olan hərbi terminlər Azərbaycan dilində verilmişdir.

Lakin müstəqilliyini itirən Azərbaycanda məşhur generala yer tapılmır. O, bütün vəzifələrdən azad edilir. Buna baxmayaraq, o, respublikanın ictimai həyatında yaxından iştirak edir və Azərbaycanda Qızıl Aypara Cəmiyyətinin açılmasına nail olur.

İki dünya müharibəsi arasında hərbi yeniliklərlə maraqlanan Şıxlinski hərbi aviasiyanın gələcəkdə oynayacağı roldan böyük həvəslə danışır, mühazirələri elmi jurnallarda çap edilirdi. Onun ehtimalları II Dünya müharibəsi cəbhələrində təsdiqini tapırdı. Ömrünün son illərində öz xatirələrini qələmə alan Şıxlinski Azərbaycanda ilk hərbi memuar kitabı sayılan "Mənim xatirələrim" kitabını yazmışdır. Bu kitab müəllifin vəfatından sonra – 1944-cü ildə işıq üzü görmüşdür.

Əli ağa Şıxlinski 1943-cü ildə Bakı şəhərində vəfat edib və II Fəxri xiyabanda dəfn olunub. Həyat yoldaşı məşhur Qayıbovlar nəslinin nümayəndəsi, Azərbaycanın ilk şəfqət bacısı Nigar xanım Şıxlinskayanın məzarı da onun məzarının yanındadır.

Əli ağa Şıxlinski Azərbaycan tarixinə görkəmli sərkərdə, hərb nəzəriyyəçisi, ilk hərbi lüğətin müəllifi, ilk memuarların müəllifi, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradıcısı və ilk hərbi jurnalımız olan "Hərbi bilik" dərgisinin yaradıcısı kimi daxil olmuşdur.



## MƏHƏMMƏD TAĞI SİDQİ SƏFƏROV

**(1854-1903)**

Məhəmməd Tağı Sidqi Kərbəlayi Səfər oğlu Səfərov 1854-cü ildə Ordubad şəhərinin Meyrəmçə məhəlləsində anadan olmuşdur.

M.T.Sidqi təhsilini Ordubadda Şah Sultan Hüseyn mədrəsəsində Molla Tağı adlı bir müəllimdən almışdır. Şair gənclik çağlarında İrana səyahət etmiş, Xorasan, Səbzivar və s. şəhərlərdə ordubadlı tacirlərin yanında ticarətlə məşğul olmuş, ərəb-fars dillərini, şərq ədəbiyyatını dərindən öyrənmişdir.

1885-ci ildə Bakı yolu ilə vətənə dönən M.T.Sidqi Ordubadda "Əncüməni-şüəra" ədəbi məclisinin fəal iştirakçılarından olur. Məişətini təmin etmək üçün bir müddət fəhləlik edəndən sonra şair Ordubadda bir çayxana açır. Qafqazda və bütün müsəlman Şərqində mədəni hərəkatla yaxından maraqlanan M.T.Sidqi İrandan "Nasiri", Türkiyədən "Əxtər", Hindistandan "Həblülmətin", Misirdən "Sürəyya", Krımdan "Tərcüman" və s. qəzetləri alıb oxuyur, xalq arasında qabaqcıl fikirləri təbliğ edir. Çox çəkmir ki, çayxana mədəni mərkəzə çevrilir. Çünki C.Məmmədquluzadənin yazdığı kimi, "çayxanada özgə bir söhbət yox idi savayı millət, mərifət, elm, şəriət, təməddün və bu qisim işlər. Çay satmaq müvəqqəti və arizi məşğələ idi mərhum üçün. Onun təbii sənəti vaizlik və müdərrislik idi.

Mütaliə etdiyi kitablar və dövri mətbuat orqanları, xüsusilə, Rusiya müsəlmanları arasında milli dirçəliş ideyalarını ardıcıl surətdə təbliğ edən Bağçasaray şəhərində çıxan "Tərcüman" qəzeti M.T.Sidqinin "Üsuli-cədid" adlı yeni maarif hərəkatına qoşulmasına qüvvətli təsir göstərir. O, 1892-ci ildə "Çayçılığı başlayıb" Ordubad varlılarından və ziyalılarından Hüseyn Sultan Kəngərlinskinin maddi və mənəvi yardımı ilə şəhərdə Zahirüddövlə İbrahim xan tərəfindən tikdirilmiş əski mədrəsənin binasında "Əxtər" adlı yeni məktəb açır. "Əxtər" iki il fəaliyyət göstərir. Müdərris 1894-cü ildə Naxçıvan camaatı tərəfindən şəhərə dəvət olunur. O, burada "Tərbiyə" adlı yeni bir məktəb açır. "Məktəbi-Tərbiyə" adlı məşhur bu maarif ocağı əhalinin müasir mədəni yüksəlişində təhsil və tərbiyəsində müstəsna rol oynayır. Burada əhalinin müasir mənəvi ehtiyaclarını təmin edən Azərbaycan, fars, rus dilləri, ərəb dilinin sərf-nəhvi, tarix, coğrafiya, hesab, şəriət fənləri tədris olunur. Bununla da Naxçıvanın mədəni həyatında yeni dövr başlanır.





M.T.Sidqi ömrünün son on ili Naxçıvanda keçmişdir. Gənclik çağlarında ədəbi fəaliyyətə başlayan və xeyli müddət klassik üslubda əsərlər yazan M.T.Sidqi XIX əsrin 90-cı illərindən etibarən yeni yaradıcılıq yoluna qədəm qoyur. Şair istedadını xalqın maariflənməsi, ictimai şüurunun oyanması işinin xidmətinə verir, fəaliyyətinin dairəsini qeyri-adi dərəcədə genişləndirir. Bağçasarayda İsmayıl bəy Qasprinski, Bakıda N.Nərimanov, S.M.Qənizadə və Ə.İ.Cəfərzadə, Qoridə F.Köçərli və R.Əfəndiyev, Tiflisdə M.Şahtaxtinski və Ə.Axundzadə ilə müntəzəm surətdə məktublaşır, maarif və ədəbiyyat məsələlərinə dair fikir mübadiləsi edir. "Tərcüman" (Bağçasaray), "Əxtər" (İstanbul), "Həblül-mətin" (Kəlküttə), "Şərqi-rus" (Tiflis) qəzetlərinin redaksiyaları ilə əlaqə saxlayır, əsrin zəruri problemləri və yenilikləri haqqında məqalələr dərc etdirir. Lirik yaradıcılığını davam etməklə yanaşı, şair "Məsnəviyyati-mədəniyyə" başlığı altında siyasi publisist şeirlər silsiləsini yaradır. Yazıçı-pedaqoq "Məktəbi-Tərbiyə" şagirdlərinin və ümumiyyətlə, həmvətənlərinin dərslik və oxu kitablarına ehtiyacını təmin etmək üçün yorulmadan çalışır. O, qısa müddətdə müxtəlif məzmunda elmi-kütləvi (Heykəli-insana bir nəzər"), pedaqoji və elmi-metodiki ("Nümuneyi-əxlaq", Tənviri-əfkar", "Töhfeyi-benat", "Müxtəsər coğrafiya risaləsi", "Qiraəti-fənniyyə", "Nəsihətnamə", "Hifzi-səhhət", "Həkimanə sözlər"), ədəbi-tənqidi ("Puşkin"), bədii ("Kəblə Nəsir") əsərlərini, İran, Qafqaz və Krımın görkəmli adamlarına ünvanlanmış və ictimai mədəni-maarif və ədəbi problemlərə həsr olunmuş çoxsaylı məktublarını yazır.

M.T.Sidqi 1903-cü ilin 9 dekabrında Orucluq bayramı gecəsi indiki Şərur rayonunun Qarabağlar kəndində qəflətən vəfat etmişdir.



## MİRZƏ ƏLİƏSGƏR NÖVRƏS
## (1836-1912)

Mirzə Əliəsgər Növrəs 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Şair Şuşadakı əski üsul üzrə molla və məhəllə məktəblərində təhsil almış, ərəb-fars və türk dillərini, Şərq ədəbiyyatı klassiklərini dərin öyrənmişdir. M.Ə.Növrəs erkən yaşlarında bədii yaradıcılığa başlamış, uzun müddət ancaq klassik üslubda qəzəl, qəsidə, müxəmməs və s. janrlarda əsərlər yazmışdır. Şair Şuşada "Məclisi-üns" və "Məclisi-fəramuşan" adı altında təşkil olunmuş ədəbi məclislərin fəal üzvlərindən olmuşdur.

XIX əsrin 70-ci illərində Azərbaycanda geniş vüsət alan həcvguluq M.Ə.Növrəs yaradıcılığından da yan keçməmişdir. Gəncəli Mirzə Mehdi Naci ilə M.Ə.Növrəsin bir-birini həcv etmələri 1876-cı ildə "Əkinçi" qəzetində N.Vəzirov tərəfindən kəskin şəkildə tənqid olunmuşdur. Bir şair kimi M.M.Naci və M.Ə.Növrəsin həcvguluğa meyl göstərmələrini zərərli hadisə hesab edən gənc dramaturq onlara qələmlərini xalqın mənəvi tərəqqisi yolunda işlətməyi məsləhət görərək yazırdı: "Bu həcvlərin barəsində artıq danışmağı özümüzə eyib hesab edib, zikr olan cənablara ərz edirik ki, siz çəkən zəhmət nahaq zəhmətdir. Ondan nə bizə, nə bizim övladımıza bir nəf yoxdur. Belə zəhməti öz millətimizin yolunda çəkin ki, malı yoxdur, elmi yoxdur, elm tapmaq ona müşküldür".

M.Ə.Növrəs yaradıcılığında əsrin müasir mütərəqqi məsələlərinə doğru dönüş onun keçən əsrin sonunda, Bakıda S.M.Qənizadə ilə görüşündən sonra başlanmışdır. Onun özünün yazdığından məlum olur ki, Bakıya gələn şair burada S.M.Qənizadə ilə görüşmüş, aralarında realist ədəbi formalarda, müasir mövzularda əsər yazmağın əhəmiyyəti haqqında söhbət olmuşdur. Gənc maarif xadiminin fikirlərini faydalı hesab edən yaradıcılığında zəruri mətləblərin təbliğinə yer ayırmış, o cümlədən uşaqlar üçün bir sıra nəsihətamiz əsərlər yazmışdır. Onun uşaqlar üçün "Pəndi-ətfal" adı altında yazdığı kitab 1900-cü ildə bakılı Hacı Məhəmməd Hüseyn oğlu Aşurbəyovun vəsaitilə Tiflisdə Kamal Ünsizadənin mətbəəsində nəşr olunmuşdur. Krılovdan Azərbaycan dilinə tərcümələr etmişdir.







## SƏTTARXAN
## (1867-1914)

Azərbaycan xalqının qəhrəman oğlu, 1905-1911-ci illər İran inqilabının lideri sayılır Səttarxan. Bütün ömrünü xalqın əsarətindən qurtulmasına sərf etmiş Səttarxanın fəaliyyəti Azərbaycan xalqının gələcək ictimai-siyasi və milli şüurunun inkişafına güclü təkan vermişdir. İnqilab yatırılsa da o, bir daha sübut etdi ki, mütləqiyyətə, ictimai və milli zülmə qarşı mübarizədə Azərbaycan xalqı yekdil hərəkət etməyə qadirdir. Azərbaycanın şanlı səhifəsinə Səttarxan 1905-1911-ci illər İran inqilabının liderlərindən biri, görkəmli sərkərdə və xalq qəhrəmanı kimi daxil olmuşdur.

Səttar Hacı Həsən oğlu (Səttərxan) 1867-ci ildə Cənubi Azərbaycanın Qaradağ vilayətinin Məmmədxanlı mahalında anadan olub. Xırda ticarətçi olan atası Hacı Həsən hökumətə qarşı tədbirlərdə həmişə iştirak edib. Böyük qardaşı İsmayıl inqilabi hərəkatda iştirak etmiş və mürtəce qüvvələr tərəfindən öldürülmüşdür.

Haqsızlıqları görən Səttar gənc yaşlarından ayrı-ayrı nümayişlərdə iştirak edir və bu səbəbdən hətta 1882-1883-cü illərdə həbsxanada cəza da çəkməli olur. Gənc Səttar zəhmətkeş kütlələri daim müdafiə etdiyinə görə xalq onu hörmətlə "Səttarxan" adlandırırdı. O dövrdə şah zülmünə qarşı xalq müxtəlif mübarizə üsulları tətbiq edirdi. Onlardan biri də qaçaqçılıq hərəkatı idi. Belə ki, bəzi narazı adamlar dağlara qaçır, silah əldə edir, mürtəce qüvvələrə, zalımlara hücumlar edirdilər. Qaçaq kimi fəaliyyətə başlayan Səttarxan da tədricən tərəfdaşlarının sayını artırmış və silahlı partizan dəstəsi yaratmışdı.

1905-ci ildə Səttarxan ümumən İranda, o cümlədən də Cənubi Azərbaycanda genişlənən inqilabi hərəkata qoşulur. İlk əvvəl inqilabçılar konstitusiya tələb edir, nümayişlər, müqəddəs yerlərdə etiraz aksiyaları keçirirlər. Yerlərdə demokratik idarəetmə orqanları seçilir. Azərbaycan şəhərlərinin idarəetmə orqanları (əncümənlər) birləşərək "Azərbaycan Əyalət Şurası" təşkil edirlər. "İctimaiyyuneamiyyun" sosial-demokrat qrupunun üzvlərindən seçilən "Gizli mərkəz" adlı qurum onun idarəetmə orqanı olur. Xalq arasında böyük nüfuza malik olan Səttarxan 1906-cı ildə Təbrizin Əmirəxız məhəlləsi mücahidlərinin başçısı və "Həqiqət" əncumənінin üzvü olmuşdur. Səttarxan fədai dəstələrinin sayını artırmağa çağırır və onlara daim hərbi təlimlər keçir. 1906-cı ildə Müzəffərəddin şahın konstitusiya haqqında qəbul etdiyi qanun xalqı sakitləşdirsə də, onun vəfatından sonra Məhəmmədəli şahın bu qərarı ləğv etməsi xalqı yenidən mübarizəyə qaldırır.

1907-ci il fevralın 8-də Təbrizdə ilk silahlı üsyan baş verir. Şəhərdə real hakimiyyət Azərbaycan Əyalət Şurasının əlinə keçir. İranda parlament yaradılanda Azərbaycandan seçilmiş nümayəndələr onun işində fəal iştirak edirlər. Təbriz şəhəri İran inqilabının mərkəzinə çevrilir. Azərbaycan şurası sosial-iqtisadi tədbirlər həyata keçirir, insanların vəziyyəti nisbətən yaxşılaşır. İri şəhərlərdə dünyəvi elmləri tədris edən yeni məktəblər açılır. 1907-ci ilin sonunda şah konstitusiyanı imzalamaq məcburiyyətində qalır. Lakin o, gizli şəkildə Rusiya və İngiltərədən köməklik alaraq əksinqilabi çevrilişə hazırlaşır.

1908-ci il iyunun 23-də şah qoşunları İran məclisinə hücum edir, inqilabçılara divan tutulur. Onlar İran vilayətlərində inqilabı boğduqdan sonra Azərbaycana üz tuturlar. Onların əsas hədəfi Təbriz şəhəri idi. Şəhərdə inqilabı boğmağa cəhd göstərən 40 minlik şah qoşunu və irticaçı qüvvələrlə inqilabçılar arasında ağır döyüşlər başlayır. Artıq iyulun 1-də şəhər mühasirəyə alınır, şəhərdə aclıq başlayır, müxtəlif üsullarla mühasirədən keçib Səttarxanla birləşirlər. Qüvvələri bir mərkəzdən idarə etmək məqsədilə Səttarxan, Bağırxan, Əli Müsyö, Hacı Əli Davafuruş və Mir Haşım xandan ibarət "Hərbi şura" yaradılır.





Təbrizin Əmirəxız məhəlləsində küçə vuruşmaları zamanı Səttarxanın rəhbərliyi altında fədai dəstələri əksinqilabi qüvvələrə ağır zərbələr endirir, onları geri çəkilməyə məcbur edirlər. Avqustda şah qoşunları geri çəkilir və İranın mərkəzi əyalətlərindən köməyə yeni qüvvələrin gəlməsini gözləməyə başlayır. Öz qüvvələrini səfərbər edən Səttarxan 20 min döyüşçü toplayaraq geniş əks-hücuma başlayır. Oktyabrın 12-dək döyüşlər davam edir. Oktyabrın ortalarında Təbriz azad olunur.

Xalq və vətən qarşısında xidmətlərinə görə Azərbaycan Əyalət Şurası Səttarxana "Sərdari-milli" adı verilir, döyüşdə fərqlənənləri təltif etmək üçün Səttarxan medalı təsis etdirir. Dünya mətbuatında həmin illərdə Səttarxan "İnqilabçı İran qoşununun başçısı", "İranın Hannibalı" adlandırılır.

1908-ci ilin noyabrından 1909-cu ilin yanvarına qədər gedən döyüşlərdə Səttarxanın dəstələri tədricən bütün Cənubi Azərbaycanı şah qoşunları və mürtəce qüvvələrdən təmizləyir. Şimali Azərbaycandan, Volqaboyu ərazilərdən, Orta Asiyadan, Türkiyədən inqilabçılara kömək göstərirdilər.

Səttarxanın qələbələri İran inqilabını yenidən canlandırır, lakin Rusiya və İngiltərənin böyük narahatlığına səbəb olur. Onlar şah rejiminə güclü kömək göstərirlər. 1909-cu ilin aprelində Rusiya qoşunları Təbrizə girir. Azərbaycan Əyalət Şurası fədailərə vuruşu dayandırmaq və silahları gizlətmək əmri verir. Buna baxmayaraq 1909-cu ilin iyulunda şah devrilir. Tehranda mülkədar-burjuaziya dairələri öz hökumətlərini yaradırlar. 1910-cu ilin aprelində yeni liberal mülkədar-burjua hökumətinin dəvəti ilə başda Səttarxan və Bağırxan olmaqla 100 nəfərlik fədai dəstəsi Tehrana gedir. Tehran əhalisi Səttarxanı böyük təntənə ilə qarşılayır. Lakin irtica qüvvələri Təbriz üsyanının qəhrəmanlarına qəsd hazırlayıbmışlar. 1910-cu il avqustun 7-də yeni hökumətin qoşunları, Tehran polisi və İran ermənilərindən təşkil edilmiş dəstələr Səttarxanın fədai dəstəsinə qəfil hücum edir. Fədailər 6 min nəfərlik düşmənlə döyüşdə məğlub olur, atışma zamanı Səttarxan ağır yaralanır və uzun sürən xəstəlikdən sonra vəfat edir.



## HƏSƏNƏLİ AĞA XAN QARADAĞİ

**(1850-1929)**

Həsənəli ağa Qaradaği 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Atasının vəfatından sonra dünyaya gəldiyinə görə ona atasının adı verilmişdir. Anası Qubadlının Hal kəndində ikinci dəfə ərə getdikdən sonra Həsənəli ağa qohumlarının himayəsində qalmış və əzablı bir həyat yaşamışdır.

H.X.Qaradaği Şuşa şəhər qəza məktəbini bitirmişdir. O, 1866-cı ildə təhsilini başa vurarkən Şərq dillərinə dair biliyinin zəif olduğunu hiss edir. Ona görə bu istiqamətdə savadını təkmilləşdirmək qərarına gəlir və Yusifzadə adlı bir müəllimin yanında ərəb, fars və türk dillərini öyrənir, Firdovsi, Nizami, Sədi, Xaqani, Füzuli kimi şairləri mütaliə edir. Qaradaği bu illərdə şeir yazmağa başlayır. Az müddət ərzində xalq arasında şair və savadlı adam kimi tanınır. Şair şəhərin təzə məhəlləsində kirayə etdiyi mənzildə xüsusi məktəb açır, 20 nəfər uşağa dərs deməklə məişətini təmin edir.

H.X.Qaradaği 1873-cü ildə canişin dəftərxanasında M.F.Axundovla bir yerdə işləyən əmisi Məhəmmədhüseyn ağa Qaradağinin dəvəti ilə Tiflisə gedir. Tiflis mühiti H.X.Qaradağinin dünyagörüşünün inkişafına müsbət təsir göstərir. O, günlərini əmisinin zəngin kitabxanasında keçirir. Şərq, Qərb və rus ədəbiyyatı klassiklərinin əsərlərini mütaliə edir. Gənc şair burada əmisinin dostluq etdiyi M.F.Axundovla görüşür, onun realist ədəbiyyat və əlifba islahatı haqqında söhbətlərini dinləyir və yaradıcılığı ilə tanış olur.





H.X.Qaradaği 1878-ci ildə yenidən Şuşaya qayıdır, məktəbdarlıqla məşğul olur və ədəbi məclislərdə fəal iştirak edir.

Artıq o, şair ərəb, fars, türk və rus dillərini, Şərq və Qərb ədəbiyyatını, müxtəlif elm sahələrini dərindən bilən ziyalı və müəllim kimi məşhur idi. O, epiqonçuluq girdabına düşən poeziyanı islah etmək haqqında düşünür. "Təzə əfkat üzrə" şeirlər yazmaq, "üsuli-şeirdə" "təzə zaman" başlamaq haqqında düşünürdü. Buna görədir ki, Qoridə Zaqafqaziya Müəllimlər seminariyası nəzdində azərbaycanlılara məxsus ibtidai məktəb üçün ana dilində dərslik yaratmaq zərurəti meydana çıxanda A.O.Çernyayevski və S.Vəlibəyov bədii materialları hazırlamağı ona tapşırırlar. İctimai sifarişi həvəslə qəbul edən H.X.Qaradaği "Vətən dili" dərsliyindən ötrü bir sıra orijinal şeirlər yazır, Krılovdan bir silsilə tərcümə edir. Onun tərcümələri "Vətən dili"nin 1881-ci ildə çıxan birinci hissəsində, 1888-ci ildə nəşr olunan ikinci hissəsində dərc olunmuşdur.

Dərsliyin müəllifləri H.X.Qaradağinin milli uşaq ədəbiyyatının yaranması sahəsində xidmətlərini minnətdarlıqla yad etmişdilər.

H.X.Qaradağinin "Vətən dili" dərsliyinin hər iki hissəsində dərc edilmiş tərcümə və orijinal əsərlərinin ümumi sayı 40-a yaxındır. Bunlar təkcə milli uşaq ədəbiyyatının yaranmasında deyil, eyni zamanda bədii tərcümənin təşəkkülü və inkişafı tarixində əlamətdar hadisədir.

H.X.Qaradaği lirik şair idi. O, rus dilində bir roman, "Körpə uşağı saxlamaq", "Göz ağrısına müalicə" başlığı altında iki elmi-kütləvi əsər də yazmışdır. Bunlardan əlavə onun Qarabağ tarixinə dair orijinal bir əsəri və "Təzkirə"si də vardır.

H.X.Qaradaği 1929-cu il dekabrın 2-də Şuşa şəhərində vəfat etmişdir.



## ŞEYX MƏHƏMMƏD XİYABANİ

## (1880-1920)

Cənubi Azərbaycanda yaşayan azərbaycanlılarda milli özünüdərkin inkişafında Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi azadlıq hərəkatının əvəzsiz rolu olmuşdur. Hələ 1905-1911-ci illərdə Səttarxanla çiyin-çiyinə vuruşmuş Xiyabani həyatının mənasını Azərbaycanın şah rejimindən azad edilməsində, demokratik yolla inkişafında görürdü. Azərbaycanda demokratik fikirlərin gec yayılmasına gileylənən inqilabçılara o deyirdi: "Azərbaycan baş qazana bənzəyir: o gec qızır, lakin gec də soyuyur".

1920-ci ilin aprel-sentyabr aylarında onun başçılıq etdiyi milli-azadlıq hərəkatı son nəticədən məğlub olsa da, Azərbaycan xalqının imperialist ağalığına, şah rejiminə qarşı milli istiqlaliyyət uğrunda mübarizə tarixində vacib yer tutur. Xiyabaninin təklifi ilə yaradılan silahlı dəstələr Şərəfxan, Salmas, Urmiya istiqamətlərində erməni və aysorların azərbaycanlılara qarşı törətdikləri soyqırım siyasətinin qarşısını almışdılar.

Məhəmməd Xiyabani 1880-ci ildə Cənubi Azərbaycanın mərkəzi şəhəri Təbrizdə anadan olmuşdur. Atası Hacı Əbdülhəmid tacirliklə məşğul olduğundan şəhərdən-şəhərə köçürdü. Məhəmməd ilk təhsilini Xamnə şəhərində məktəbdə almışdır. Tacir Hacı Əbdülhəmid Şimali Azərbaycandan keçərək Rusiyanın Port-Petrovsk (Mahaçqala) şəhərinə gəlmiş və burada ticarət məntəqəsi açmışdı. Oğlu Məhəmməd atasına bu işlərdə kömək edirdi. O, hələ yeniyetməlik çağlarından belə nəticəyə gəlmişdir ki, Rusiya və onun tərkibində olan Şimali Azərbaycanda çap olunan ədəbiyyatı oxumaq





üçün rus, Avropada çap olunan ədəbiyyatı oxumaq üçünsə fransız dilini öyrənmək vacibdir.

Təbrizə qayıtdıqdan sonra Məhəmməd mədrəsədə ruhani təhsili almışdır. Bu sahədə fəaliyyətini davam etdirərək o, müctəhid dərəcəsinə çatmışdır. Bununla bərabər, Şeyx Məhəmməd rus və fransız dillərini də öyrənmişdir. Dərin bilikləri sayəsində Təbrizin Talibiyyə mədrəsəsinə işə qəbul edilən Şeyx Məhəmməd burada nücum elmindən (astronomiya) dərs deyir. Vətənin ağrı-acılarına şərik olan gənc, şah rejiminin özbaşınalığına, ölkənin səfalət içində olmasına qarşı çıxış edir.

Şeyx Məhəmməd İran İnqilabı dövründə siyasi həyata qədəm qoymuş, inqilabın fəal iştirakçılarından olmuşdur. 1908-1909-cu illərdə Təbrizdə baş verən döyüşlərdə o, Səttarxanın başçılığı altında iştirak etmiş, Təbrizin Xiyaban məhəlləsinin müdafiəsini təşkil edib qalib gəldiyinə görə Xiyabani adını qazanmışdır. Xalq arasında böyük nüfuza malik olan Şeyx Məhəmməd Xiyabani 1909-cu ildə Azərbaycan milli əncüməninin üzvü seçilmişdir. Bu sahədəki fəaliyyət onun hörmətini artırmış və o, 2-ci çağırış İran məclisinə deputat seçilmişdir. Bu dövrdə Şeyx Məhəmməd demokratik islahatlar keçirilməsi məqsədi ilə yaradılan İran Demokratik Firqəsinə üzv (İDF) yazılmışdır. Lakin məlumdur ki, Rusiya və İngiltərə dövlətlərindən kömək alan mürtəce şah rejimi əksinqilabi çevriliş etmiş, inqilabı silah gücünə boğmuşdur. Şeyx Məhəmməd Xiyabani Cənubi Azərbaycanı tərk etmək məcburiyyətində qalmışdır.

1911-ci ildə mühacir kimi Rusiya ərazisinə keçən Ş.M.Xiyabani Bakı, Mahaçqala, Tiflis şəhərlərində yaşamışdır. Burada o, inqilabi fikirlərin necə yayılmasının, gizli siyasi təşkilatların fəaliyyət göstərməsinin, Azərbaycan ziyalıları arasında milli-azadlıq ideyalarının yaranmasının şahidi olmuşdur.

1914-cü ildə Şeyx Məhəmməd Xiyabani Təbrizə qayıdaraq ədəbi-fəlsəfi dərnək yaratmışdır. Əslində, bu dərnəyin üzvləri şah rejiminə qarşı mübarizə yolları barəsində düşünür, gizli siyasi fəaliyyətlə məşğul olurdular. Tərəfdaşlarının sayını artıran Xiyabani getdikcə fəaliyyət sahəsini genişləndirir. O, İran Demokratik Firqəsinin Azərbaycan əyalət komitəsinin sədri seçilir.

1917-ci ildə Rusiyada fevral inqilabının baş verməsi və çar hakimiyyətinin devrilməsi Şeyx Məhəmməd Xiyabani tərəfindən

rəğbətlə qarşılanmış və alqışlanmışdır. Onun başçılıq etdiyi komitə açıq fəaliyyətə başlamışdır. İlk növbədə inqilabi ideyaların xalq arasında yayılmasına önəm verən Xiyabani bu sahədə fəaliyyətini genişləndirir. 1917-ci il aprelin 9-da İDF-nin Azərbaycan əyalət komitəsinin rəsmi nəşr orqanı olan "Təcəddüd" ("Yeniləşmə") qəzeti çap olunmağa başlayır. Qəzetdə Xiyabaninin və komitənin digər üzvlərinin məqalələri çap olunur, şah rejiminin iç üzü açılır, şah məmurlarının xarici şirkətlərlə sövdələşmələri pislənilir. Lakin komitənin fəaliyyəti çox vaxt İDF-nin Tehranda oturan liderləri tərəfindən məhdudlaşdırılırdı. Cənubi Azərbaycanda baş verən hadisələrdən bixəbər olan, onlara gec reaksiya verən və öz proqramlarında azərbaycanlıların maraqları ilə az hesablaşan bu liderlər, Xiyabaninin fikrincə, komitənin fəaliyyətinə əngəl törədirdilər.

Şimali Azərbaycanda yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin başının üstünü almış qara buludların mövcudluğu göstərirdi ki, mürtəce qüvvələr öz məqsədlərinə nail olmaq üçün heç nə ilə hesablaşmırlar. Belə şəraitdə ADF silahlı üsyana hazırlaşmağa başlayır.

Üsyana başçılıq etmək üçün ilk növbədə ictimai idarə heyəti təşkil olunur. 1920-ci il aprelin 7-də Təbrizdə başlayan üsyan sürətlə bütün Cənubi Azərbaycana yayılır. Hər yerdə şah tərəfdaşları tutduqları vəzifələrdən qovulurlar. İctimai idarə heyəti faktiki olaraq müvəqqəti hökumət kimi fəaliyyət göstərməyə başlayır. İyunun 23-də onun əsasında Milli Hökumət təşkil edilir. Xiyabani Milli Hökumətin sədri seçilir. Cənubi Azərbaycan "Azadistan", yəni azadlıq ölkəsi adlanmağa başlayır. Yeni iş yerlərinin açılması, pul islahatının keçirilməsi, bank-maliyyə sisteminin yaradılması, bələdiyyə seçkilərinin keçirilməsi istiqamətində işlər aparılır, torpaq islahatı başlanır. Həmçinin səhiyyə, təhsil və ədliyyə sahələrində tədbirlər həyata keçirilir.

1920-ci il sentyabrın 12-də Cənubi Azərbaycana hücum başlanır. Azsaylı fədai dəstələri müqavimət göstərsələr də qüvvələr nisbəti qeyri-bərabər olduğundan Təbriz şəhəri tutulur, axıra qədər müqavimət göstərən Xiyabani həlak olur.

Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi hərəkat məğlub olsa da, o, Azərbaycan xalqının imperialist ağalığına, şahlıq rejiminə qarşı, milli istiqlaliyyət uğrunda mübarizə tarixində mühüm yer tutur. İran ərazisində yaşayan azərbaycanlıların milli özünüdərk prosesinin inkişafında Xiyabaninin əvəzsiz xidmətləri olmuşdur.







## SƏMƏD BƏY MEHMANDAROV

**(1856-1931)**

Səməd bəy Mehmandarov 1856-cı il oktyabrın 16-da Lənkəranda əslən şuşalı zadəgan Mehmandarovların ailəsində anadan olub. Atası Sadıq bəy hüquqşünas idi və təyinatla Lənkəranda işləyirdi. O, 1871-ci ildə tərəddüd etmədən oğlunu Peterburq yunkerlər məktəbinə göndərir. Məktəbi bitirdikdən sonra Səməd bəy Varşava hərbi dairəsində topçu hissələrində xidmət edir. Hədsiz ədalət hissi və təmiz qəlbi ilə fərqlənən Səməd bəy burada şəhər hərbi məhkəməsinin üzvü seçilir.

1900-cü ildə o, Uzaq Şərqə təyinat alaraq Zabaykal topçu divizionunda batareya komandiri vəzifəsində çalışmağa başlayır. Rus qoşunlarının Çin yürüşündə iştirak edən Mehmandarov Sisikar silahsız çinlilərə atəş açmaqdan imtina edir; o, qoşun komandanı general Rennenkampfla münaqişəyə girməkdən belə çəkinmir. Mancuriyanın ucqar bölgəsinə təyinat alan Mehmandarov özünü yaxşı cəhətdən göstərə bilir: 1902-ci ildə general Çempeynin dəstəsini məhv edir.

1903-cü ildə Peterburqda topçu zabitləri məktəbində kurs bitirib Zabaykalyeyə qayıdan Mehmandarov 1904-cü ildə 7-ci Şərqi Sibir divizionunun komandiri vəzifəsində Port-Artura göndərilir. 1904-1905-ci illər rus-yapon müharibəsi ona şöhrət gətirir. Mehmandarovun istedadını və işgüzarlığını görən Port-Arturun komendantı R.Kondratenko onu Port-Arturun sağ cinahının artilleriya rəi-

si, sonra isə Şərq cəbhəsinin artilleriya rəisi vəzifələrinə təyin edir. Mehmandarov öz işini səlis bilən, əsgərlərlə xoş rəftar edən, işinə can yandıran və son dərəcə təmiz adam kimi tanınırdı.

1904-cü ilin oktyabr ayında general-mayor rütbəsi alan Səməd bəy Mehmandarov Port-Arturun artilleriya rəisi vəzifəsini icra edirdi. Port-arturun təslim olması məsələsi müzakirə olunanda Mehmandarov qəti bunun əleyhinə çıxış etmişdir. Lakin 1905-ci ildə Kondratenkonun ölümündən sonra generallar Stessel və Fok qalanı təslim etmiş, Mehmandarov da yüzlərcə başqa zabitlərlə bərabər əsir kimi Yaponiyaya aparılmışdır. Maraqlıdır ki, həbs zamanı yapon ordusunun artilleriya rəisi onunla şəxsən tanış olmaq istəmiş və yaponların Mehmandarovun toplarından böyük itkilər verməsini təsdiqləmişdir.

Rusiyaya qayıtdıqdan sonra Mehmandarov Şərqi Sibir artilleriya briqadasına komandir təyin olunur. 1908-ci ildə ona general-leytenant rütbəsi verilir və o, 3-cü Sibir ordusunda korpus artilleriyasının rəisi vəzifəsinə təyin edilir. Hərbi akademiya bitirməmiş bir zabit yalnız böyük bacarığı, fitri istedadı, hərbi xidmətə sevgisi, qoçaqlığı və hərbi məharətinə görə bu qədər yüksək vəzifəyə təyin oluna bilərdi.

1910-cu ildə Mehmandarov I Qafqaz ordusunda korpus artilleriyasının rəisi təyin edilir. 1915-ci ildə ona tam artilleriya generalı rütbəsi verildi və o, 2-ci Qafqaz korpusunun komandanı təyin olundu. "General Mehmandarovun qrupu" adlandırılan bu hərbi birləşmə Vilno döyüşlərində fərqlənmişdir.

1918-ci ildə ingilislər Bakıya daxil olanda Mehmandarov ingilis ordenlərini onlara qaytararaq demişdir: "İkiüzlü bir ölkənin ordeni mənə lazım deyil. Xalqıma silah qaldıran bir ordunun ordenini gəzdirmək mənim üçün ən böyük təhqirdir".

1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti təhlükələrə sinə gərmək üçün ordu yaratmalı idi. 1918-ci ilin dekabrında Səməd bəy Mehmandarov Azərbaycanın hərbi naziri təyin edildi və mövcud çətinliklərə baxmayaraq qısa müddət ərzində güclü ordu yaradıldı.





1920-ci ildə müstəqil dövlətimiz süquta uğrayanda Mehmandarov "Vətəndən ayrılmağa heç bir əsasım yoxdur" deyərək vətəndə qalmaq qərarına gəlir. Sovetlər tərəfindən həbs edilən general iki aydan sonra N.Nərimanovun səyi ilə azad olunur və Moskvaya göndərilir. "Mehmandarov nadir artilleriyaçıdır" deyən Sovet Rusiya Ordusunun komandanı İ.Yakir onun təcrübə və biliyindən bəhrələnməyi tövsiyə edir. Beləliklə, daimi Artilleriya Komissiyasının üzvü seçilən Mehmandarov Ali Artilleriya məktəbində sovet artilleriya zabitlərinə dərs demiş, "Artilleriya nizamnaməsi" hazırlayan komissiyanın işində iştirak etmişdir. O, eyni zamanda Hərbi Akademiyada zabitlərə taktikanın sirlərini də öyrətmişdir.

1921-ci ildə N.Nərimanov və Ə.Qarayevin xahişi ilə Bakıya qaytarılan Mehmandarov Bakı qarnizonu Hərbi-Elmi Cəmiyyətinin üzvü olmuş, Sovet Azərbaycanı Ordusunun qərargahında işləmiş, Azərbaycan Komandirlər Məktəbində dərs demişdir. Mehmandarov ədalətli və namuslu şəxsiyyət kimi tanındığından maliyyə və pul işlərinə baxan müxtəlif komissiyaların üzvü seçilmişdir. Lakin müstəqilliyinin son atributlarını itirən Azərbaycanda məşhur generala yer tapılmır, o, bütün vəzifələrdən uzaqlaşdırılır. Sovet repressiv aparatının nəzarəti altında olan Səməd bəy Mehmandarov 1931-ci ilin fevralında Bakıda vəfat edib və Çəmbərəkənd qəbiristanlığında (Şəhidlər xiyabanı) dəfn olunub. 1939-cu ildə Sovet imperiyasının Azərbaycana göndərdiyi canişini S.Kirovun burada heykəli qoyulanda qəbiristanlıq və o cümlədən Mehmandarovun qəbri dağıdılıb. Mehmandarovu xalqın yaddaşından silməyə çalışan sovet hakimiyyəti 1937-ci ildə generalı yenidən yada salır. Onun həyat yoldaşı və oğlu Pir həbs edilərək Saratova sürgün edilir; özü də sənədlərdə oğlunun adı İqor yazılır. 1941-ci ildə Mehmandarovun ailəsi Sibirə göndərilərkən yolda alman aviasiyasının bombardmanına düşür və onun həyat yoldaşı həlak olur. Oğlu isə sürgün dövrü qurtarandan sonra bir müddət Kalininqradda yaşayır və nəhayət, 1977-ci ildə anası və özünün heç bir günah işlətməməsi, sadəcə, çar və Müsavat generalının ailə üzvləri olduqları üçün həbs edilmələri haqqında sənəd alaraq Azərbaycana qayıdır.



# ƏHMƏD BƏY CAVANŞİR

(1828-1903)

Əhməd bəy Cəfərqulu bəy oğlu Cavanşir 1828-ci ildə martın 2-də Qarabağın Kəhrizli kəndində anadan olmuşdur. Xanlıq ailəsinə mənsub olan Əhməd bəy İbrahimxəlil xanın qardaşı Mehrəli bəyin oğlu Məhəmməd bəyin nəvəsidir. Əhməd bəy Cavanşir ilk təhsilini evdə xüsusi molla-müəllimdən almışdır. O, on beş yaşına qədər Qarabağda yaşamış, ana dilinin qanun və qaydalarını və zəngin el ədəbiyyatını dərindən öyrənmişdir. 1843-cü ildə siyasi mülahizələrdən dolayı çar I Nikolayın "fərmayişinə görə" (F.Köçərli) Mehdiqulu xan Əhməd bəyi Peterburqa göndərmiş, təhsilini Pavlovski korpusda davam etmiş və hərbi biliklərə yiyələnmişdir. 1848-ci ildə hərbi məktəbi qurtaran Əhməd bəy Konstantin Nikolayeviç adına Axtır qusar polkunda xidmətə başlamışdır. O, 1849-cu ildə macar yürüşündə, 1853 və 1854-cü illərdə Türkiyə ilə müharibələrdə iştirak etmişdir.

1850-ci ildə Əli bəy Sultanovla qadağan olunmuş duelə çıxmış və buna görə üç ay həbs olunmuşdur. Əhməd bəy Cavanşir xəstələndiyinə görə öz xahişi ilə ştab rotmistr rütbəsində hərbi qulluqdan azad olunur və Qarabağa, doğma Kəhrizli kəndinə gəlir. Aldığı təhsilə uyğun vətəndə heç bir qulluq yeri tapa bilməyən Əhməd bəy kənd təsərrüfatı işləri ilə məşğul olur, kəndlilərlə bərabər yer şumlayır, taxıl əkib becərir və maddi cəhətdən sıxıntı çəkir. O, 1862-ci ildə Qarabağ xanları və bəylərinin Tiflisdə canişin sarayında görüşündə xoş bir təsadüf nəticəsində rəsmi dövlət qulluğuna təyin olunmuşdu. Üç il Tirin qəzasında distansiya keşikçi dəstəsinin rəisi vəzifəsində çalışmışdır. Əhməd bəy Cavanşir 1865-ci ildə Vərəndə mahalında murov vəzifəsini icra edir. O, bu illərdə əhalinin təsərrüfatının dirçəlişinə nail olmaq məqsədilə Araz çayından səkkiz verst uzunluğunda arx çəkdirir və onu mil düzündə məşhur Gavur arxına birləşdirir. Əhali onun bu təşəbbüsündən böyük fayda götürür. Lakin arxı öz adına çıxmaq istəyən Şuşa qəza rəisi ilə Əhməd bəy arasında narazılıq yaranır. O, 1867-ci ildə qulluqdan istefa verir. Əhməd bəy Cavanşir Kəhrizliyə dönüb öz mülkünü idarə etməklə məşğul olur. O, şəxsi təşəbbüsü və qüvvəsilə bir neçə səliqəli kəhriz çəkdirib hamının diqqətini cəlb edir.

Əhməd bəy Cavanşir XIX əsrin 70-ci illərində tərtib olunan bəylik komissiyasına üzv seçilmişdir. O, burada əsl-nəsəbləri bəlli olmayan, lakin min cür kələklə adlarını bəylik dəftərinə saldırmaq istəyən adamlara müqavimət göstərir. Bu isə Əhməd bəy üçün ağır başa gəlir. Yalançı bəylərin düşmənçiliyi Əhməd bəyin həbs olunması ilə nəticələnir.

Ə.Cavanşir müxtəlif rəsmi vəzifələri və təsərrüfat işlərini yetirməklə yanaşı elmi, ədəbi və publisist yaradıcılıqla da məşğul olmuşdur. O, Tiflisdə çıxan "Kavkaz" və "Novoe obozreniya" qəzetlərində müxtəlif mövzularda məqalələr dərc etdirir. "Qarabağ xanlığının siyasi tarixinə dair" məşhur əsərini yazır. Əhməd bəy Cavanşirin bədii yaradıcılıqla məşğul olması, dünya ədəbiyyatı klassiklərinin əsərlərini uşaqlar üçün tərcümə etməsi də bu illərə təsadüf edir.

Əhməd bəyin ədəbi irsi mövzusu xalq ədəbiyyatından almış on iki mənzum hekayədən və Andersen, Puşkin və Lermontovdan tərcümə edilən əsərlərdən ibarətdir. O, 1887-ci ildə tamamladığı uşaq mənzumələrindən ibarət məcmuəni pulsuzluq üzündən nəşr etdirə bilmir. Yarandığından 9 il sonra şairin qızı məşhur ictimai xadim Həmidə xanım Cavanşir onları Tiflisdə C.Məmmədquluzadə və Ö.F.Nemanzadənin "Qeyrət" mətbəəsində F.Köçərlinin "Mərhum Əhməd Cavanşirin tərcümeyi-halı" adlı müqəddiməsi ilə "Asari-Əhməd bəy" adı altında kitab halında nəşr etdirmişdir.



## FƏTƏLİ XAN XOYSKİ

## (1875-1920)

Azərbaycanın XX əsr dövlət xadimləri arasında Fətəli xan Xoyskinin xüsusi yeri vardır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, müstəqilliyimizin qazanılması daxili və xarici siyasətindəki uğurlar, həmçinin Azərbaycanın müstəqilliyinin aparıcı dünya dövlətləri tərəfindən tanınması ilk növbədə onun adı ilə bağlıdır.

Fətəli xan Xoyski 1875-ci ildə Şəki şəhərində anadan olmuşdur. Söykökü Xoy şəhərindən olduğundan Xoyski soyadı ilə tanınmışdır. Atası İskəndər xan Xoyski Rusiya ordusunda xidmət etmiş, peşəkar zabit olmuş, general-leytenant rütbəsində istefaya çıxmışdır. Oğluna dünyəvi təhsil vermək məqsədilə general onu Yelizavotpol (Gəncə) şəhərinə göndərmiş və Fətəli burada klassik (humanitar) gimnaziyada oxumuşdur. Məktəbi bitirdikdən sonra Fətəli xan Rusiya imperiyası üçün hüquqşünaslar hazırlayan ən mötəbər bir elm ocağı – Moskva Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. Bütün çətinliklərə mərdliklə sinə gələn Fətəli xan 1897-ci ildə universiteti birinci dərəcəli diplomla bitirmişdir. O, təyinatını Azərbaycana almış, Gəncə dairə məhkəməsində əmək fəaliyyətinə başlamışdır. Sonralar o, Kutaisi dairə və qəza məhkəmələrində işləmiş, Zuqdidi barışıq məhkəməsində çalışmışdır. 1904-cü ildə kollec assersoru rütbəsinə layiq görülən Fətəli xan Krasnodar dairəsinə prokuror müavini təyin edilir və 1907-ci ilədək bu vəzifədə işləyir.

1907-ci ildə Azərbaycana qayıdan Xoyski Gəncə quberniyasından Rusiya imperiyasının II Dövlət Dumasına deputat seçilmişdir. Böyük





nüfuzu sayəsində o, Dövlət Dumasının Müsəlman fraksiyasında aparıcı rol oynamağa başlamış, fraksiyanın bürosuna seçilmişdir.

Onun mütəmadi çıxışları deputatların diqqətini bu problemə cəlb etmiş və başda Xoyski olmaqla Dövlət Dümasının 173 deputatı xüsusi qanun layihəsi tərtib edib altından imza atmışdır. Qanun layihəsi Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran bütün köhnə qanunları ləğv etməli idi. Cəmi 103 gün mövcud olmuş II Dövlət Düması Rusiya hakim dairələrinin mürtəce fəaliyyətinə maneəçilik törətdiyinə görə imperatorun fərmanı ilə buraxılmışdır.

Vətənə qayıdan Xoyski bir müddət Gəncə şəhərində, sonra isə Tiflisdə hüquqşünas kimi fəaliyyət göstərmişdir. 1913-cü ildə Fətəli xan Bakıya köçmüş və Şəhər Dairə Məhkəməsində işləməyə başlamışdır. Bu zaman o, Bakının ictimai-mədəni həyatında əhəmiyyətli rol oynamışdır. Fətəli xan xeyriyyəçi kimi də tanınmışdır. 1917-ci ilin fevralında imperator hakimiyyəti devriləndə Bakıda Müsəlman Milli Şurası yaradılmış, Fətəli xan onun Müvəqqəti İcraiyyə Komitəsinin üzvi seçilmişdir. Onun təşəbbüsü ilə Bakıda Qafqaz Müsəlmanlarının qurultayı keçirilmişdir.

1917-ci ilin oktyabrında Bakı şəhər Dumasına seçkilər keçirilir və şəhər müsəlman əhalisi dumaya öz deputatlarını seçir. Fətəli xan Bakı Dumasının sədri olur və onun rəhbərliyi ilə duma Bakıda qeyri-qanuni fəaliyyət göstərən bolşevik Bakı Sovetinin yeganə və güclü rəqibinə çevrilir. Məhz onun səyləri nəticəsində Bakıda bolşeviklər və ermənilər özbaşınalıqlar edə bilmirlər.

Qafqazda Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçiriləndə 44 müsəlman deputat arasında Fətəli xan Xoyski də məclisə seçilir. Bu məclis Peterburqda işə başlamalı idi, lakin Leninin başçılığı ilə bolşeviklər buna imkan vermirlər. Deputatlar Tiflis şəhərində Zaqafqaziya Seymini yaratdılar və onu Cənubi Qafqazın qanunvericilik orqanı elan etdilər. 1918-ci ilin aprelində Zaqafqaziya Federativ Respublikası yaradıldı. Onun nazirləri arasında Xoyski də var idi. O, xalq maarif naziri seçilmişdi. Bu vəzifədə olarkən Xoyski Tiflisdə yaradılması nəzərdə tutulan universitetin Bakıda açılması tələbini irəli sürdü və bu işlə bağlı hazırlıq tədbirləri görməyə başladı. 1918-ci ilin mayında Zaqafqaziya Federativ Respublikası dağıldı və

seymin azərbaycanlı deputatları mayın 27-də Azərbaycan Milli Şurası təşkil edərək mayın 28-də Azərbaycanın müstəqilliyini elan etdilər.

Qafqaz Canişinin iqamətgahında keçirilən iclasda İstiqlal bəyannaməsi qəbul edildi və Azərbaycan Xalq Cümhuriyyəti adlı dövlət təşkil olundu. Fətəli xan Xoyski yekdilliklə Cümhuriyyətin ilk hökumətinin sədri seçildi. Bu hökumətdə Xoyski baş nazir vəzifəsi ilə bərabər, daxili işlər naziri vəzifəsini də tutdu. Xoyskinin ilk tədbiri Azərbaycanın müstəqilliyini bütün dünyaya bəyan etməkdən ibarət oldu. İyunun 16-da Bakıya köçən hökumət və Milli Şura burada çətin hərbi-siyasi vəziyyətlə üzləşdi. Birinci hökumət buraxıldı və onun əvəzinə təşkil olunan ikinci hökumətə Xoyski yenidən baş nazir seçildi; Ədliyyə naziri vəzifəsini də o icra edirdi.

Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumətin ilk addımları sırasında hərbi mükəlləfiyyət haqqında qanunun qəbul edilməsi, Azərbaycan türk dilinin dövlət dili elan edilməsi, ermənilərin törətdikləri vəhşilikləri dünyaya çatdırmaq məqsədilə Fövqəladə Tədqiqat Komissiyasının təşkil edilməsi, Gəncə və Cəbrayıla tarixi adlarının qaytarılması xüsusi qeyd olunmalıdır.

Qətiyyətli və səriştəli dövlət xadimi Fətəli xan Xoyskinin baş nazir vəzifəsindən getməsi dövlətin müqəddəratına mənfi təsir göstərdi. Ölkəsinə əlindən gələn köməyi göstərməyə çalışan Xoyski 1919-cu ilin dekabrında Xarici İşlər naziri təyin edildi. Onun səyləri nəticəsində 1920-ci ilin yanvarında aparıcı dünya dövlətləri Azərbaycanın müstəqilliyini tanıdı. Həmçinin Gürcüstan və İranla əlaqələr normallaşdırıldı, Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri açılmağa başladı. Sovet Rusiyasının bütün təzyiqlərinə sinə gərən Fətəli xan Xoyski eyni zamanda ona Azərbaycana hücum etmək üçün heç bir əsas verməmişdir. Belə şəraitdə Sovet Rusiyasının XI Qızıl Ordusu bütün beynəlxalq normaları pozaraq Azərbaycana əsassız hücum etdi.

Azərbaycanın işğalından sonra Tiflisə mühacirət etməyə məcbur olan Xoyski burada da düşmənləri üçün qorxulu idi. Ona görə də sovetlər onu öldürmək üçün Tiflisə muzdlu erməni qatili göndərirlər. 1920-ci ildə iyunun 19-da Fətəli xan Xoyski Tiflisdə öldürülür.





## CƏLAL ÜNSİZADƏ

### (1854-1932)

Cəlal (Cəlaləddin) Əbdürrəhman Əfəndi oğlu Ünsizadə 1854-cü ildə Şamaxı şəhərində ruhani ailəsində anadan olmuşdur. O, ilk təhsilini varlı və ziyalı müsəlman ailələrinin ənənələrinə uyğun olaraq evdə "Ünsi" təxəllüsü ilə şeirlər yazan şair, alim və müdərris atasından almışdır. Evdə "Çərəkə", "Cuz", "Nisab", "Tərəssül", "Camei-Abbas" kimi dərslik və dini kitabları öyrəndikdən sonra təhsilini Şamaxıda mədrəsədə davam etmişdir. O, burada Şərq dillərini, şərq ədəbiyyatı klassiklərinin əsərlərini, Şərq və İslam tarixinə dair inşaları və dini elmləri, şəriət qaydalarını öyrənmişdir.

Cəlal Ünsizadə yaşadığı əsrdə və mühitdə rus dili və Avropa elmlərinin kəsb etdiyi siyasi, mədəni və əməli əhəmiyyəti başa düşüb, təhsilini əsrin 20-ci illərində Şamaxıda açılmış qəza məktəbində davam etmiş, rus dilini, rus və Qərb ölkələrinin ədəbiyyatını və tarixini dərindən mənimsəmişdir.

Cəlal Ünsizadə 1873-cü ilin 5 yanvarında Şamaxı şəhər qəza məktəbinə Azərbaycan dili və şəriət fənlərinin müəllimi təyin olunmuşdur. 1874-cü ildə Şamaxı ruhani idarəsinin üzvü Hacı Səid Əfəndi Ünsizadə onun açılışında yaxından iştirak etmiş və onun müəllimlərindən biri olmuşdur. Gənc müəllim "Məclis"də il yarım işlədikdən sonra Tiflisə köçür, kadet məktəbində pedaqoji fəaliyyətini davam etdirir.

1879-cu ildə Hacı Səid əfəndi Ünsizadə Tiflisdə "Ziya" qəzetini nəşr etməyə başlayır. Redaksiya və mətbəə işləri ailə üzvləri arasında bölünərkən qəzetin redaktorluq vəzifəsi Cəlal Ünsizadəyə tapşırılır.

O, 1879-1882-ci illər arasında "Ziya" (Ziyayi-Qafqaziyyə) qəzetinin ağır redaktorluq vəzifəsini ifa edir. Üç il mətbuat dünyasında zəngin təcrübə qazanan Cəlal Ünsizadə özünün müstəqil dövri mətbuat orqanını yaratmaq fikrinə düşür. O, 1882-ci ilin 12 mayın-

da aylıq "Kəşkül" jurnalının nəşrinə icazə almaq üçün Qafqaz canişini Baş idarəsinin mülki işlər üzrə baş rəisinə ərizə ilə müraciət edir.

1882-ci ilin 23 oktyabrında Cəlal Ünsizadəyə "Kəşkül" adlı aylıq jurnal nəşr etməyə icazə verilir. İki ay davam edən hazırlıq işləri başa çatdıqdan sonra 1883-cü ilin yanvarında "Kəşkül"ün birinci nömrəsi çıxır. Bu, Azərbaycan dilində birinci jurnal idi. "Kəşkül" jurnal kimi altı nömrə nəşr olunduqdan sonra fəaliyyətini dayandırır. 1883-cü ilin 23 dekabrından etibarən: "Kəşkül" qəzet qəlibində çıxmağa başlayır. "Ziya" redaksiyasında fəaliyyəti müxtəlif tipli rəsmi materialları tərcümə etməklə məhdudlaşan Cəlal Ünsizadə müstəqil orqanında geniş dairədə yaradıcılıq işlərini yerinə yetirir. Baş redaktor kimi günün aktual məsələlərinə dair publisist məqalələr ("Bilməmək nə böyük bəladır?", "Bir sual-cavab", "Tiflisdə tərəqqilərimiz", "Faydalı bir tədbir", ""Gürcülərdən olsun ibrət alalım", "Mədrəsələrimizin islahı zəruridirmi?" və s.) yazır, "Məkr və məhəbbət" (Şiller), "Boris Qodunov" (Puşkin), "Bahar" (Çavçavadze), "Əmsali-loğman"(ərəb dilindən), "Şeybaninamə" (özbək dilindən) və s. tərcümə edir. O, bu illərdə Pomortsevlə "Müəllimi-lisani-rusi" adlı dərslik yazıb nəşr etdirir.

"Kəşkül"də yeni çap olunmuş uşaq ədəbiyyatı nümunələrinin təbliğinə yer ayıran redaktor rus, ərəb, gürcü dillərindən tərcümə etməklə onu zənginləşdirmək işinə diqqət yetirirdi. Bu baxımdan "Əmsali-loğman", "Bahar", "Quzu", "Tifil ilə bir quş", "Gün", "Günəş", "Xoruz və mirvari dənəsi" və s. tərcümələr maraqlıdır.

1891-ci ilin 18 oktyabrında "Kəşkül" qəzeti nəşrini dayandırır. Cəlal Ünsizadə yenidən kiçik qardaşı Kamal Əfəndi ilə bərabər "Azərbaycan" adlı qəzet nəşr etmək üçün təşəbbüs göstərir. Lakin həmin dairələr redaktorluğunu öhdəsinə götürdüyü və "Azərbaycan" adlandırdığı qəzetin nəşrinə razılıq vermirlər.

Cəlal Ünsizadə 1891-ci ildə İstanbula mühacirət edir və orada jurnalistlik fəaliyyətini davam etdirir.

Fədakar maarif və mətbuat xadimi 1932-ci ildə İstanbulda vəfat etmişdir.







## RƏŞİD BƏY ƏFƏNDİZADƏ

**(1863-1942)**

Rəşid bəy İsmayıl əfəndi oğlu Əfəndizadə 1863-cü ildə Şəki şəhərində anadan olmuşdur. O, ilk təhsilini Cümə məscidində Əbdürəzzaq Tahirzadə adlı bir müəllimdən almışdır. Ədib gündüz məktəbdə molladan, axşam evdə ruhani atasından şəriət elmlərini, şərq dillərini, Şeyx Sədinin "Bustan" və "Gülüstan", Mollayi-Ruminin "Məsnəvi", Füzulinin "Leyli və Məcnun", Mirzə Mehdi xanın "Tarixi-Nadir", "İnşa" əsərlərini, Xacə Hafizin "Divan"ını oxuyub öyrənmişdir.

Rəşid bəy Əfəndizadə 1873-cü ildə məscid məktəbini bitirib, təhsilini rus dilində əvvəl qəza məktəbində, sonra şəhər məktəbində davam edir. O, bu məktəblərdə hesab, coğrafiya, tarix, fizika, kimya elmlərini öyrənir və rus yazıçılarının yaradıcılığı ilə tanış olur.

1879-cu ildə Rəşid bəy Əfəndizadə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası nəzdində yenicə açılmış "Azərbaycan şöbəsi"nə daxil olur. Rus və Şərq dillərini yaxşı bilən, dini və dünyəvi elmlər haqqında kifayət qədər məlumatı olan R.Əfəndizadə şöbənin müfəttişi A.O.Çernyayevskinin diqqətini cəlb edir. Pedaqoq "Vətən dili" (I h.) adlı əlifba dərsliyini hazırlarkən tələbəsinin qüvvəsindən istifadə edir. Müfəttiş dərsliyin mətnini ona yazdırıb, 1881-ci ildə Tiflisdə Ünsizadə mətbəəsində litoqrafiya üsulu ilə nəşr etdirir. Tələbə müəlliminin sifarişi ilə ilk dəfə "Qan ocağı" komediyasının məscid məktəbini təsvir edən səhnəsini yazır və seminaristlərin qüvvəsi ilə pansionda tamaşaya qoyur. R.Əfəndizadə tələbə ikən "Şəkinin vəzi-halı" adlı şeirini yazıb, "Ziyayi-Qafqaziyyə" qəzetinin redaksiyasına göndərir və rus şairlərindən tərcümələr edir. Onun rus dilindən Azər-

baycan dilinə çevirdiyi "Həndəsə" dərsliyi gələcəyin məşhur gürcü şairi Razikaşvili Vaja Pşavelanın rus dilinə tərcümə etdiyi Ş.Rustavelinin "Pələnəg dərisi geymiş pəhləvan" poeması ilə bərabər 1882-ci ildə Moskvada açılmış kənd təsərrüfatı sərgisində nümayiş etdirilmişdir.

R.Əfəndizadə 1882-ci ildə seminariyanı bitirib, Qəbələ kənd ibtidai məktəbinə təyinat alır. O, burada səkkiz il işləyir. 1890-cı ildə bölgənin Xaçmaz kənd məktəbinə dəyişilir və orada iki il çalışır. Kənd məktəbləri R.Əfəndizadəni dərslik yazmaq, uşaq mütaliəsi üçün xüsusi ədəbiyyat yaratmaq zərurəti ilə qarşılaşdırır.

On il kənd məktəbində işlədikdən sonra R.Əfəndizadə 1892-ci ildə Tiflisə köçür. O, Qafqaz Ruhani İdarəsində katib müavini və müftinin himayəsi altında fəaliyyət göstərən "Ömər məktəbi"ndə müəllim işləyir. Ədib Tiflisdə yaşayarkən Aleksandrovski Müəllimlər İnstitutuna daxil olub, "şəhər məktəblərində dərs vermək hüququna malik olur".

O, 1898-ci ildə İstanbulda "Uşaq baxçası", 1902-ci ildə Bakıda "Bəsirətül-ətfal" dərsliyini nəşr etdirir. Hər iki dərslik böyük şöhrət qazanır, dəfələrlə nəşr olunur və azərbaycanlılarla yanaşı digər türk xalqlarının məktəblərində istifadə edilir.

1902-ci ildə R.Əfəndizadə Qori Müəllimlər Seminariyasının "Azərbaycan şöbəsi"nə ana dili və şəriət fənlərinin müəllimi vəzifəsinə təyin olunur. XX əsrin əvvəlində yazıçı dövri mətbuatda müxtəlif mövzularda məqalələr dərc etdirməklə yanaşı, "Qan ocağı" (1904), "Rüstəm və Söhrab" (Firdovsidən tərcümə: 1906), "Saqqalın kəraməti" (1909), "Müxtəsər şəriət" (1910), "Arvad məsələsi" (1912), "Qonşu qonşu olsa, kor qız ərə gedər" (1913), "Pul dəlisi" və s. müxtəlif janrda yazdığı əsərlərini kitab halında nəşr etdirir.

R.Əfəndizadə 1916-cı ildə İrəvan quberniyası xalq məktəblərinin inspektoru vəzifəsinə təyin olunur. Pedaqoq burada təlim-tərbiyə işlərinin səmərəli təşkilinə böyük əmək sərf edir. O, İrəvan, Naxçıvan və Ordubad şəhərlərində müəllimlər üçün qısamüddətli kurslar yaradır. 1917-ci ilin əvvəlində çar hökuməti yıxıldıqdan sonra quberniyada məktəblərin milliləşməsi işinə rəhbərlik edir.

R.Əfəndizadə 1918-ci ildə Bakıya dönür. O, bir müddət darülmüəllimdə müəllim işlədikdən sonra Şəkiyə köçür, pedaqoji texnikumda çalışır və ədəbi-elmi fəaliyyətini davam etdirir.

Rəşid bəy Əfəndizadə 1942-ci ildə Şəkidə vəfat etmişdir.







## ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

**(1863-1934)**

Əlimərdan bəy Ələkbər oğlu Toçubaşov 1863-cü ildə Tiflisdə anadan olmuşdur. O, ilk təhsilini Tiflisdə almış, 1884-cü ildə 1-ci Tiflis gimnaziyasını bitirmişdir.

Peterburq Universitetinin hüquq fakültəsini 1888-ci ildə fərqlənmə diplomu ilə başa vurduqdan sonra Əlimərdan bəy bir neçə il Rusiyanın müxtəlif şəhərlənrində işləmişdir. 1894-cü ildə o, Bakıya təyinat alaraq şəhərin hüquq-mühafizə orqanlarında çalışmışdır. Çox keçməmişdir ki, Əlimərdan bəy dövlət qulluğundan imtina etmiş və vəkil kimi işləməyə başlamışdır. Dərin biliyi, peşəkarlığı, insani keyfiyyətləri sayəsində o, şəhər ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanırdı. Azərbaycan rus, fars, fransız, ingilis və gürcü dillərini mükəmməl bilən Topçubaşov tanınmış iş adamı və görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin diqqətini cəlb etmiş və o, 1897-ci ildə "Kaspi" qəzetinin redaktorluğunu Əlimərdan bəyə tapşırmışdır. Bu vəzifə Əlimərdan bəyə Bakının ictimai-siyasi həyatı ilə yaxından tanış olmağa imkan vermişdir. Şəhərin bütün işlərində fəal iştirak edən Topçubaşov Bakı şəhər Dumasının üzvü seçilmiş, bir müddət onun sədri olmuşdur.

1905-1907-ci illərdə müsəlman xalqlarının azadlıq mübarizəsinin təşkilində Əlimərdan bəy Topçubaşovun əvəzsiz xidmətləri olmuşdur. Hökumət adına yazılan bütün xahişlər, müraciətlər bilavasitə onun iştirakı ilə tərtib və təqdim edilirdi.

1905-ci ildə Rusiyanın Nijni-Novqorod şəhərində keçirilən Ümumrusiya müsəlmanlarının I qurultayında Ə.Topçubaşov sədrlik etmişdir. O, 1906-cı ildə Peterburqda keçirilən 2-ci qurultayda "Ümumrusiya Müsəlmanları İttifaqı" partiyasının nizamnamə və proqramını tərtib etmiş, 3-cü qurultayda həmin partiyanın sədri seçilmişdir. Bu siyasi partiyanın yaradılması ilə müsəlmanların ölkənin siyasi həyatında vahid, mütəşəkkil formada iştirak edəcəyinə ümid bəsləyən Tobçubaşov əlindən gələni əsirgəməmişdir.

Azərbaycanda böyük nüfuz sahibi olan Əlimərdan bəy 1-ci Dövlət Dumasına Bakı quberniyasından deputat seçilmişdir. Dövlət Dumasında müsəlman deputatlara qarşı olan əsasən mənfi münasibəti görən Əlimərdan bəy müsəlman fraksiyasının yaradılması təşəbbüsü ilə çıxış etmiş və bu təşəbbüs bütün müsəlman deputatlar tərəfindən dəstəklənmişdir. Topçubaşov fraksiyanın sədri seçilmişdir. Onun rəhbərliyi ilə deputatlar çarizmin imperiyanın ucqarlarında apardığı siyasəti tənqid edir və bir çox mühüm tələblər irəli sürürdü.

Dumanın fəaliyyətindən narazı olan mürtəce qüvvələrin təzyiqi ilə onun fəaliyyəti dayandırıldıqda bir sıra deputatlar imperatorun hərəkətlərinə belə etiraz etməkdən çəkinməmişlər. Bu deputatlar sırasında Topçubaşov da olmuşdur. O, Vıborq etiraz müraciətnaməsini imzalamış və buna görə 3 ay həbsdə saxlanılmışdır. O həmçinin Dövlət Dumasına seçilmək hüququndan da məhrum edilmişdir. Ona hətta qəzet və jurnal redaktoru olmaq da qadağan olunmuşdur. Bu səbəbdən də o, Bakı şəhər Dumasından çıxarılmışdır.

Bununla belə, Əlimərdan bəy Topçubaşov 2-ci Dövlət Dumasının müsəlman fraksiyasının işində yaxından iştirak etmiş, layihələr hazırlanmışdır. Onun üçün Moskvada hətta müsəlman fraksiyasının "Daimi təmsilçilik" bürosu açılmışdır. Lakin onun bu fəaliyyətinin də qarşısı alındı və o, 1910-cu ildə Bakıya qaytarıldı.

Topçubaşov I Dünya müharibəsi ərəfəsində müsəlmanların "Tələblər paketi"ni hazırlamışdır. O, 1916-cı ildə Tiflisdə Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmişdir. İmperiyanın dağıldığı bir dövrdə Toçubaşov Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir.





Qısa müddət Azərbaycanın 2-ci nazirlər kabinetində Xarici İşlər naziri işləyən Topçubaşov daha sonra Azərbaycanın fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdir. Burada bir çox osmanlı vəzifəli şəxsləri ilə fəal görüşlər keçirən Topçubaşov sultanla görüşmüş, Azərbaycanın dəstəklənəcəyi barəsində real vədlər almışdır. İstanbulda həmçinin digər ölkələrin nümayəndələri ilə də görüşlər keçirmiş və Azərbaycan həqiqətləri barədə onlara məlumat vermişdir. Topçubaşovun ilk və önəmli addımlarından biri İstanbulda Azərbaycan mətbuat bürosunun yaradılması olmuşdur. Erməni təbliğat maşınına qarşı uğurlu mübarizə aparan büro bütün vasitələrlə Azərbaycanın üzləşdiyi problemlər barəsində məlumat verirdi. Topçubaşov yazırdı: "Ermənilərin iştahası çox böyükdür və həm də bu iştahaların özgələrinin, ilk növbədə isə bizim hesabımıza doydurmaq istəyirlər. Az qala bütün paytaxtlarda bizim mənafeyimizə qarşı təbliğat aparır, bizi dövlət həyatı qurmağa qabil olmayan və başqa millətlərlə barışmaz millət kimi qələmə verirlər".

Azərbaycan parlamenti işə başlayanda məhz Topçubaşovun sədr seçilməsi təklif olunmuşdur. İstanbulda olması nəzərə alınaraq o, qiyabi olaraq sədr seçilmişdir. Azərbaycan nümayəndə heyətinin sədri kimi Paris Sülh konfransına göndərilən Topçubaşov burada gərgin danışıqlar aparmışdır. O demişdir: "Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv və həqiqətə uyğun olmayan məlumatlar verilməsinin şahidi oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz indi birinci dəfədir Avropadayıq, lakin əmin edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq". O, dediklərinə nail oldu: 1920-ci il yanvarın 11-də Paris Sülh konfransının Ali Şurası Qafqaz məsələsini çox gərgin şəraitdə müzakirə etdi və Britaniyanın Xarici İşlər naziri C.Kerzonun təklifi ilə Azərbaycanın müstəqilliyi de-fakto tanındı. Hazırlanan sənəd yanvarın 12-də Ali Şura üzvləri tərəfindən imzalandı. Bu, Topçubaşovun rəhbərliyi ilə çox gərgin fəaliyyət göstərmiş Azərbaycan nümayəndə heyətinin böyük qələbəsi idi.

1920-ci il aprel işğalından sonra Ə.Topçubaşov Parisdə mühacir həyatı yaşamağa məcbur olmuş və 1934-cü ildə buradaca vəfat edərək Parisin Sen-Deni qəbiristanlığında dəfn olunmuşdur.



## ƏHMƏD CAVAD

**(1892-1937)**

XX əsr ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Əhməd Cavad himnimizin müəllifi kimi tanınır.

Şəmkir rayonunun Seyfəli kəndində anadan olan Əhməd Cavad on yaşında Gəncə şəhərindəki ruhani məktəbinə daxil olmuşdur. O, həmin məktəbdə yeddi il (1902-1909) oxumuş, sonralar Gəncədə, Qubada müəllimlik etmişdir. Dolanışığının ağırlığına baxmayaraq, o, şərəfli peşəsindən əl çəkməmiş, vətən övladlarının savadlanması üçün əlindən gələni etmiş, bu yolda hər cür çətinliyə sinə gərmişdir.

Əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət bir türk oğlu kimi Əhməd Cavadı ciddi narahat etmişdir. O, könüllü əsgər kimi köməyə getmiş, Türkiyənin müstəqilliyi uğrunda türk qardaşları ilə çiyin-çiyinə vuruşmuşdur.

Birinci dünya müharibəsi 1915-ci ildə Türkiyədə rus və erməni istilasına, özbaşınalığına meydan verdiyi vaxt "Azərbaycan xeyriyyə cəmiyyəti" türk xalqına kömək göstərmişdir. Əhməd Cavad da Qarsa köməyə gedir. Ermənilərin burada törətdiyi vəhşiliklər həssas şairi sarsıdır.

Azərbaycan Cümhuriyyətinin qurulmasını (28 May 1918-ci il) sevinclə qarşılayan Əhməd Cavad gecə-gündüz çalışır, əməli işi, bədii yaradıcılığı ilə xalqının xoşbəxtliyi, azadlığı üçün əlindən gələni əsirgəmir.

Yaradıcılığa lirik şeirlə başlayan şairin 1916-cı ildə "Qoşma" adlı ilk kitabı çapdan çıxır. 1919-cu ildə isə "Dalğa" adlı kitabını





nəşr etdirir. Onun "İstiqlal uğrunda şeirlər" kitabı isə 1928-ci ildə İstanbulda buraxılmışdır.

Ə.Cavad 1923-1925-ci illərdə həbs olunmuş, sonra azad edilmişdir. 1930-cu ildən o, Gəncə Kənd Təsərrüfatı İnstitutunda dosent, kafedra müdiri, professor vəzifələrində çalışmışdır. 1937-ci ilin mart ayında Ə.Cavad "əksinqilabçı" adı ilə həbs olunmuş və güllələnmişdir.

Əhməd Cavad Azərbaycan folkloruna, klassik ədəbi irsə bağlı olan bir sənətkardır. Onun şeirləri özünün yazdığı kimi, iki mənbədən qidalanmışdır: birincisi, İslam mədəniyyəti və müqəddəs "Qurani Kərim"dən, ikincisi isə xalq ədəbiyyatından. Şairin yaradıcılığında siyasi lirika xüsusi yer tutur.

Sovet hakimiyyəti illərində Əhməd Cavadın yazdığı məşhur şeirlərindən bir "Göy göl" şeiridir. Şeir gözəl təbiət təsvirləri və dərin mətnaltı mənaları ilə seçilir. Şair bu şeirə görə həbs edilmiş, sonra buraxılmışdır.

Ə.Cavadın bədii tərcüməçilik sahəsindəki fəaliyyəti də diqqətəlayiqdir. O, Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" və A.S.Puşkinin "Tunc atlı" poemalarını, Şekspirin "Otello" faciəsini dilimizə çevirmişdir.

Əhməd Cavadın yaradıcılığında poemaları da xüsusi yer tutur. Şairin "Pambıq dastanı" və "Kür" adlı iki lirik poeması və bir epik poeması – "Səsli qız" əsəri vardır.

"Pambıq dastanı"nda şair pambığın ilkin vətənindən, onun yayılmasından və Azərbaycana gətirilməsindən danışılır.

"Kür" lirik poemasında isə Kürün mənbəyindən başlamış Xəzərə qovuşana qədər keçdiyi yola nəzər salınır. Şair Kürün timsalında Azərbaycanın tarixi inkişaf yolunu vermişdir.

"Səsli qız" poemasının mövzusu tarixdən götürülmüşdür. Əsərin ideyası azadlıq uğrunda mübarizənin tərənnümüdür. Poema epik planda yazılmışdır, hadisələr bir xətt üzrə inkişaf edir. Burada Sara adlı bir qızın gözəl səsindən danışılır.



# HÜSEYN XAN NAXÇIVANSKİ

## (1863-1919)

Hüseyn xan Naxçıvanski 1863-cü il iyunun 28-də zadəgan ailəsində anadan olub. Atası Kəlbalı xan oğlunu hərbiçi görmək istədiyindən Hüseyn xanı 1876-cı ildə imperatorun himayəsində olan və Rusiyanın ən mötəbər zadəgan nəsillərinin oğullarının təhsil aldığı Peterburqdakı Paj korpusuna oxumağa göndərir. İmperator II Aleksandr Hüseynin atasını rus ordusunun genaralı "Müqəddəs Qeorgi" ordeninin kavaleri olmasını nəzərə alaraq oğlanın bu məktəbdə oxumağına etiraz etmir.

Hüseyn xan Paj korpusunun 1883-cü ildə əla qiymətlərlə bitirir və Peterburqda yerləşən 1-ci qvardiya süvari diviziyasının leyb-qvardiya süvari alayına təyinat alır. 1898-ci ilə qədər alayda xidmət edən rotmistr Hüseyn xan eskadron komandiri vəzifəsində Qafqaz hərbi dairəsinə göndərilir. Şimali Qafqazda süvari hissələrdə xidmətdə olan Naxçıvanskiyə 1903-cü ildə polkovnik rütbəsi verilir.

1904-cü ildə rus-yapon müharibəsinə Naxçıvanski 2-ci Dağıstan süvari alayının komandiri vəzifəsində yollanmışdı. Alayda bir çox azərbaycanlı xidmət edirdi: podyasavul şahzadə Feyzulla Mirzə Qacar, ştabs-kapitan Gəray bəy Vəkilov, Xorunji Əbdürrəhman Qurbanov, Xorunji Cəmaləddin Musayev və b. Çox keçmir ki, alayın sürətli süvari reydləri haqqında bütün cəbhələrdə danışmağa başlayırlar. Hüseyn xan isə bacarıqlı süvari komandiri kimi tanınır.





Landun-qou döyüşü onu daha da məşhurlaşdırır. Həmin döyüş səhnəsi rəssam V.Mazurovskinin rəsmində öz əksini tapmışdı.

Rusiya ordusunda Hüseyn xan daha çox "Xan Naxiçevanski" kimi tanınmışdır. Rus-yapon müharibəsi qurtardıqdan sonra polkovnik Hegeyn xan leyb-qvardiya süvari hissələrinə təyinat alır, 1906-cı ilin əvvəlində isə Tiflisdə yerləşən 17-ci Nijeqorod-draqun alayının komandiri təyin olunur. İmperator öz oğlunu da bu alayın döyüşçüsü sıralarına göndərmişdir. Alayın döyüş hazırlığını yüksək səviyyədə olmasına görə Hüseyn xana fliqel-adyütant vəzifəsi verilir. Bu vəzifə imperatorun şəxsi yavərlərinə verilirdi. Daha sonra fliqel-adyütant polkovnik Hüseynxan Naxçıvanski leyb-qvardiya süvari alayının komandiri təyin edilir.

1907-ci ildə Hüseyn xanın rütbəsi artırılır: o, general-mayor olur. I Dünya müharibəsi ərəfəsində Hüseyn xan 2-ci süvari diviziyasının komandiri təyin edilmiş, ona general-leytenant rütbəsi verilmişdi.

Müharibə başlananda o, üç qvardiya süvari diviziyadan ibarət süvari birləşmənin komandanı təyin olunur. Qafqaz müsəlmanlarından təşkil edilmiş və "Vəhşi diviziya" kimi tanınan diviziya və polyaklardan təşkil olunmuş süvari diviziya da ona tabe edilir. Hüseyn xanın rəhbərliyi altında alay komandiri Karl Qustov Mannerheym (gələcəkdə məşhur Fin marşalı), polyak diviziyasının komandiri Andres və başqaları vuruşurdu. O, 1914-cü ilin avqustunda Şərqi Prussiyaya yürüşdə iştirak etmişdir. Məşhur Qumbinen döyüşləri, Kraupişken şəhərinin ətrafında gedən döyüşlərdə, Samsonov və Rennekampfın korpuslarının mühasirədən çıxarılmasında Hüseyn xanın süvarilərinin çox böyük rolu olmuşdur. Şöhrəti bütün Rusiyanı dolaşan A.Brusilov, Y.Barsukov, M.Draqomirov, Y.Alekseyev kimi generallar onun müharibədəki döyüş xidmətlərini yüksək qiymətləndirmişlər.

I Dünya müharibəsi cəbhələrində göstərdiyi sərkərdəlik məharətinə görə Hüseyn xan Naxçıvanskiyə 1916-cı ildə tam süvari qoşun generalı rütbəsi və general-adyütant adı verilir.

Hüseyn xan Rusiyanın ən yüksək orden və medalları ilə təltif edilib: "Müqəddəs Aleksandr", "Müqəddəs Qeorqi" ordeninin 3-cü və 4-cü dərəcələri, "Ağ qartal", "Müqəddəs Bladimir", "Müqəddəs Anna", "Müqəddəs Stanislav" ordenlərinin bütün dərəcələri, üzərində "igidliyə görə" yazılmış qızıl silah, Bolqarıstanın "Döyüş xidmətlərinə görə", zabitlərə məxsus "Rumn Ulduzu" ilə, İranın "Şire-Xurşid" ordeninin 2-ci və 4-cü dərəcələri ilə.

Dövrün şahidləri yazırlar ki, inqilab baş verəndə sədaqət andına sadiq qalan generalımız son günlərədək çar ailəsi ilə olmuşdur. Müasir rus tədqiqatçısı F.Nesterov "İllərin əlaqəsi" (1984) tarixi-publisistik əsərində əlahəzrətin sadiq generalları sırasında artilleriya generalı N.İ.İvanovun, general qraf Kellerin və general Xan Naxçıvanskinin adlarını fəxrlə çəkir. O, yazır ki, "çar hakimiyyətindən imtina edəndə belə, bu əsilzadə generallar əlahəzrətə teleqramla müraciət edərək bildirdilər ki, biz andımıza sadiq qalacağıq. İmperator uzun illər boyu bu əsilzadə generallara inanmaqda zərrəcə səhv etməmişdi".

Hüseyn Xan Kəlbalı xan oğlu Naxçıvanski 1919-cu ildə Petroqradda bolşeviklər tərəfindən güllələnib və Aleksandr Nevski monastırının qəbiristanlığında dəfn olunub. Hüseyn xanın həyat yoldaşı Knyaginya Sofiya Nikolayevna Taube Danimarka kralı və eyni zamanda III Aleksandrın arvadının qohumu idi. Atalarının ölümündən sonra iki oğlu Avropaya mühacirətə getmişdir. Nəvəsi Corc Naxçıvanski ABŞ-da, digər nəvəsi Mariya Naxçıvanskaya Misirdə yaşayır.







## HÜSEYN CAVİD

**(1882-1941)**

Hüseyn Cavid Azərbaycan romantik ədəbiyyatının ən görkəmli nümayəndəsidir. O, ədəbiyyatımızda mənzum faciə janrının əsasını qoyan, parlaq surətlər yaradan böyük humanist sənətkar kimi məşhurdur.

Hüseyn Cavid 1882-ci ildə oktyabr ayının 24-də Naxçıvanda ruhani ailəsində anadan olmuşdur.

Balaca Hüseyn ilk təhsilini mollaxanada almış, Sədi və Hafizin əsərlərini oxumuş, şeirə, sənətə böyük maraq göstərmişdir. 1896-cı ildə o, tanınmış şair və pedaqoq Məhəmməd Tağı Sidqinin açdığı "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbə daxil olmuşdur. Sonra isə o, Təbriz şəhərindəki "Talibiyyə" mədrəsəsində orta təhsilini davam etdirmişdir. 1905-ci ildə Cavid Türkiyəyə gedərək, İstanbul Universitetinin ədəbiyyat fakültəsinə daxil olmuşdur. O, 1909-cu ildə Universiteti bitirmiş, iki il Naxçıvan, Gəncə və Tiflisdə müəllimlik etmişdir.

Hüseyn Cavid 1920-ci ildə Azərbaycan Dövlət Universitetində dərs deməyə başlayır. O, 1926-cı ildən Bakı teatr texnikumunda müəllimlik edir.

Həmin dövrdə Hüseyn Cavid Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən "... müasir Avropa ədəbiyyatını öyrənmək və müalicə üçün" Berlin və Paris şəhərlərinə ezamiyyətə göndərilir. O, yarım il bu şəhərlərdə qalaraq, Avropa ədəbiyyatı ilə tanış olur və gözlərini müalicə etdirir.

Hüseyn Cavid ictimai sifarişlərə, 20-30-cu illər dövrünün tələblərinə məhəl qoymurdu. Ədib öz yazıçı qənaətinə uyğun gələn mövzuları qələmə alırdı. O, sovet rəhbərlərini vəsf edən heç bir əsər

yazmamışdır. Buna görə də 30-cu illərdə Cavid Əfəndi tez-tez tənqid edir, ona "burjua yazıçısı", "idealist qəhrəmanlar müəllifi" damğası vururdular. 1937-ci ildə Hüseyn Cavid həbs edilərək qondarma məhkəmə iclasının qərarı ilə "xalq düşməni" adı ilə Sibirə sürgün olunmuşdur.

H.Cavid 1941-ci il dekabrın 5-də vəfat etmişdir. 1956-cı ildə onun haqqında çıxarılmış saxta ittiham ləğv edilmiş və yazıçı ölümündən sonra bəraət qazanmışdır. 1982-ci ildə Hüseyn Cavidin 100 illik yubileyi keçirilmiş və görkəmli şairin məzarı Sibirdən Naxçıvana gətirilmişdir.

Hüseyn Cavid yaradıcılığa "Məktəbi-tərbiyə"də oxuyarkən "Gülçin" təxəllüsü ilə yazdığı azərbaycanca və farsca şeirləri ilə başlamışdır. Onun şeirlərində cəmiyyətdəki ictimai ədalətsizliklərdən doğan dərin bir kədər vardır. "Vərəmli bir qız", "Kiçik sərsəli", "Öksüz Ənvər", "Bir qızın son fəryadı" şeirlərində şair yoxsul balalarının ağır və dözülməz həyatını ürək ağrısı ilə təsvir edir. "Məsud və Şəfiqə" şeirində o, fəhlələrin dəhşətli istismarına qarşı çıxır. "Hərb və fəlakət" şeirində isə şairi ümumbəşəri məsələlər düşündürür. O, ədalətsiz müharibələrə qarşı etiraz səsini ucaldır. Cavidin şeir yaradıcılığında qəzəlləri də xüsusi yer tutur. Şairin ilk şeir kitabı "Keçmiş günlər" (1913-cü il) Tiflisdə çap olunmuşdur. H.Cavidin "Bahar" şəbnəmləri (1917) adlı şeirlər kitabı da vardır.

H.Cavidin şeir yaradıcılığında "Azər" poeması (1926-1936) xüsusi yer tutur. Əsərdəki lirik şeirləri birləşdirən Azər adlı ziyalı surətidir. Poemada "Səlmanın səsi", "Nil yavrusu", "Məzarlıqdan keçərkən", "Kömür mədənində" və s. lirik parçalar vardır.

Hüseyn Cavid yaradıcılığının zirvəsi onun dram əsərləri sayılır. Sənətkarın ilk dram əsəri "Ana" mənzum dramıdır (1910). Mövzusu Dağıstan həyatından alınmış dramda ana ürəyinin nəcibliyi və böyüklüyündən bəhs edilir.

H.Cavidin nəsrlə yazdığı "Maral" faciəsi də (1912) Dağıstan həyatı haqqındadır. Əsərdə şəxsiyyət və qadın azadlığı, qadın hüquqsuzluğu kimi məsələlərdən danışılır.

Cavid yaradıcılığının ilk dövrünün ən məşhur əsəri 1914-cü ildə yazdığı "Şeyx Sənan" mənzum faciəsidir. Əsərin mövzusu tarixi əfsanədən götürülmüşdür. İdeyası azad sevgi və qarşılıqlı məhəbbətin tərənnümüdür. Şair bu əsərlə ədəbiyyatımızda mənzum faciənin əsasını qoymuşdur.





"Peyğəmbər" – H.Cavidin Sovet dövründə yazdığı ilk əsərdir (1921-ci il). İslam dininin banisi Məhəmməd peyğəmbərin (s.ə.v.) həyatından bəhs edən bu dram əsəri nəzmlədir.

"Afət" – nəsrlə yazılmış faciədir. Ailə-məişət mövzusundadır. Türkiyə həyatından bəhs edir. Əsərin ideyası qadın azadlığıdır. Əsərdə Afət adlı qadını nadan və əyyaş əri Özdəmirin bədbəxt etməsi təsvir olunur.

"Knyaz" – mənzum pyesdir. Gürcüstanda Sovet hakimiyyəti uğrunda mübarizədən bəhs edir.

"Səyavuş" – mənzum faciədir. Mövzusu Firdovsinin "Şahnamə" əsərindən götürülmüşdür. Tarixi mövzudadır.

"Topal Teymur" – nəsrlə yazılmış bu dram əsəri də tarixi mövzudadır. Teymurla Türkiyə sultanı İldırım Bəyazid arasında gedən müharibədən bəhs edir.

"Xəyyam" – mənzum dramı məşhur Şərq filosofu Ömər Xəyyamın həyatı haqqındadır.

H.Cavid "Şəhla" ("Telli saz") adlı dram əsəri də yazmışdır. Cənubi Azərbaycan həyatından bəhs edən bu əsər arada yoxdur.

Hüseyn Cavidin yaradıcılığında 1918-ci ildə yazdığı "İblis" faciəsi xüsusi yer tutur. Faciənin mövzusu I Dünya müharibəsi ilə bağlı hadisələrdən götürülmüşdür. Əsərin ideyası müharibəyə nifrət və etirazın ifadəsi, ictimai ədalətsizliyin tənqidi, insanın daxilindəki alçaq və çirkin ehtirasların ifşasıdır.

"İblis" faciəsinin əhəmiyyəti ondadır ki, əsər oxucuda zülmə, şərə qarşı nifrət oyadır və hər bir insanı vicdanının səsinə qulaq asmağa vadar edir.

"İblis" faciəsinin bir növ davamı olan "İblisin intiqamı" dramında müəllif II Dünya müharibəsindən söhbət açır. Faşizm əleyhinə yazılmış bu əsər nəsrlədir.

Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və səyi ilə böyük ədibin cənazəsi uzaq Sibirdən gətirilərək doğulduğu Naxçıvanda torpağa tapşırılmışdır.

1996-cı ildə böyük sənətkarın qəbri üzərində (Naxçıvan şəhərində) möhtəşəm məqbərə ucaldıldı.



## ƏZİZ MƏMMƏDKƏRİM OĞLU ƏLİYEV

**(1897-1962)**

Ə.M.Əliyev İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuş, orta təhsilini 1917-ci ildə gimnaziyada alaraq, Petroqrad (indiki Sankt-Peterburq) Hərbi Tibb Akademiyasına daxil olmuşdur. Lakin atasının vəfatı və ailə üzvlərinin 1918-ci ildə baş verən erməni-azərbaycanlı münaqişəsi nəticəsində doğma yurdlarından qaçqın düşməsi Ə.M.Əliyevi təhsilini yarımçıq qoyub, vətənə qayıtmağa məcbur etmişdir. Bir neçə il köçkün həyatı keçirən Ə.M.Əliyev 1919-1923-cü illərdə əvvəlcə Cənubi Azərbaycan ərazisində yerləşən Ərəblər kəndində, 1921-ci ildən isə Naxçıvanın Şahtaxtı kəndində həkim köməkçisi (orta tibb işçisi) vəzifəsində işləmişdir. 1923-cü ildə Əziz Əliyev Bakıya gələrək Universitetin tibb fakültəsində təhsilini davam etdirir və bu fakültəni bitirdikdən sonra 1927-ci ildən etibarən daxili xəstəliklər kafedrasında işə qəbul edilir. O, həmin kafedrada ordinator, aspirant, assistent, sonra isə dosent vəzifələrində işləmiş, 1929-1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun direktoru olmuşdur. Əziz Əliyev 1934-cü ilin mart ayında səhiyyə işlərini canlandırmaq məqsədilə Bakı şəhər Səhiyyə şöbəsinin müdiri təyin edilir. Lakin az keçməmiş, 1935-ci il yanvarın 14-də yenidən Tibb İnstitutunun rektoru vəzifəsinə qaytarılır. Ə.Əliyev bir müddət (1937-ci ildə) Tibb İnstitutunun rektoru vəzifəsi ilə birlikdə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsini də icra etmiş, Azərbaycan Tibb Jurnalının məsul katibi, 1935-ci ildən isə jurnalın baş redaktoru olmuşdur. 1938-ci ildən etibarən





Əziz Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK katibi (1941-1942), Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi (1942-1948), ÜİK (b) P MK-nin inspektoru (1941-1950), Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1950-1951), Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru (1952-1956) kimi məsul vəzifələrdə çalışmış, 1956-ci ildən ömrünün sonuna qədər Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutuna rəhbərlik etmişdir. Əziz Əliyev universiteti bitirdikdən 2 il sonra namizədlik dissertasiyası, 1938-ci ildə "Eksperimental böyrək çatışmazlığı zamanı qanın biokimyəvi dəyişiklikləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, professor elmi adına və Respublikanın "Əməkdar həkimi" fəxri adına layiq görülmüşdür.

Əziz Əliyev istər həkim kimi illərlə davam etdirdiyi fəaliyyətində, istərsə də daşıdığı böyüklü-kiçikli vəzifəsində özünün alimliyini, vətəncanlığını nümayiş etdirmişdir. Onun işinin hansı istiqamətinə üz tutsaq qəhrəmanlıqla qarşılaşasıyıq.

Əziz Əliyevə "həkim", yaxud "professor" demək çox çətindir. Düzdür, o, universitetin tibb fakültəsini bitirib, can həkimi işləyib, sonralar tədqiqat işləri aparıb, tibb elmləri doktoru elmi dərəcəsi alıb. Bunların hamısı öz yerində. Ancaq Əziz Əliyevə "cəmiyyət həkimi" demək daha düzgün olardı. Bu fikir Əziz Əliyevin uşaqlıq dostu, məslək və sənət yoldaşı akademik Mustafabəy Topçubaşovundur.



## ALMAS İLDIRIM

**(1907-1952)**

Almas İldırım XX əsr Azərbaycan mühacirət ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. O, 1907-ci ildə Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini "İttihad" məktəbində və gimnaziyada almışdır.

Almas İldırımın şeirə və sənətə olan sonsuz məhəbbəti, onun Bakı Universitetinin Şərq ədəbiyyatı fakültəsinə daxil olmasına səbəb oldu. Lakin bir neçə aydan sonra onu "tacir oğlu" olduğu üçün universitetdən xaric etmişlər. Almasda Azərbaycan ədəbiyyatına, eləcə də digər türk xalqlarının söz sənətinə böyük maraq vardı. Xalqının, vətəninin mənafeyini uca tutan və bunu əsərlərində dönmədən tərənnüm edən Almas İldırım xalqların azadlığına, milli ruhun dirçəlişinə amansız düşmən kəsilən Sovet hakimiyyətinin qəzəbinə gəldi. Almas İldırım əvvəlcə Dağıstana, sonra isə Türkmənistana sürgün edilmişdir. Dağıstana sürgün edilən şair orada iki il yaşamışdır. Coşqun bədii yaradıcılığa başlayan şairin milli ruhda yazdığı əsərlər sürətlə yayılırdı. Aşqabadda müəllimlik edən, məktəb müdiri işləyən Almas İldırım bədii yaradıcılıqdan əl çəkmədi. Bu, yuxarı dairələrdə yaxşı qarşılanmırdı. Şairin qarşısına müxtəlif tələb və şərtlər qoyulurdu. Lakin görkəmli ədib sözündən və əqidəsindən dönmədi, əzablı olsa da azadlıq yolunu seçdi. 1933-cü ilin iyununda ömür yoldaşı Zivər xanım və üçaylıq oğlu Azərlə İrana gedən qaçaq karvanına qoşuldu. İranın inzibati orqanları tərəfindən dəhşətli





işgəncələrə məruz qalan və casus olmadığı aydınlaşdıqdan sonra azadlığa buraxılan A.İldırım elə həmin il Türkiyəyə keçə bilmişdir. Ömrünün qalan illərini bu ölkədə yaşamış, müxtəlif vəzifələrdə çalışmışdır. Türkiyədə böyük hörmət görən şair vətənini bircə an da unutmamışdır. Çap etdirdiyi şeirlərində "Azərbaycan mahnıları" adlı kitabında elini, yurdunu, obasını sevən qüdrətli ədibin, gözəl insanın gur səsi eşidilir.

Almas İldırım lirik şairdir. İlk kitabını Bakıda olarkən yazmış və ilk kitabını çapa hazırlamışdır. Lakin həmin kitabın çapına icazə verilməmişdir. Şairin şeirləri Türkiyədə və Bakıda çap olunmuş aşağıdakı kitablarında toplanmışdır: "Boğulmayan bir səs", "Azərbaycanın didərgin salınmış övladı şair Almas İldırım şeirlərilə", "İgidlərə səsləniş", "Qara dastan".

Şairin şeirlərinin çoxu onun "Qara dastan" kitabında nəşr olunmuşdur. Almas İldırımın şeirlərinin bir çoxu doğma yurdunda şəxsən özünün şahidi olduğu faciə və müsibətlər mövzusundadır:

Azərbaycan dərd içində boğulmuş,
Sevənləri diyar-diyar qovulmuş.
Ağla şair, ağla, yurdun dağılmış,
Harda qopuz, harda qırıq kaman hey?!
Harda böyük vətən, harda Turan hey?!

Almas İldırım 1934-cü ildə Türkiyəyə getmiş və ömrünün sonunadək bu qonşu ölkədə yaşamışdır. O, 1952-ci ildə Türkiyədə vəfat etmişdir. Onun övladları İstanbulda yaşayır.



## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

**(1884-1955)**

Azərbaycanın XX əsrdə yetirdiyi ən böyük siyasi xadimlərindən biri də Məhəmməd Əmin Rəsulzadədir. Siyasi fəaliyyəti ilə bərabər o həm də mühacirət ədəbiyyatımızın ən görkəmli nümayəndəsidir.

XX əsrdə Azərbaycan xalqının tarixində ən mühüm siyasi hadisə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti olmuşdur. 1918-ci il mayın 28-də Tiflisdə öz müstəqilliyini elan etmiş bu dövlət 23 ay fəaliyyət göstərmişdir. Azərbaycanın istiqlaliyyətini elan edən müvəqqəti Milli Şura və ilk hökumət kabineti iyunun ortalarında Gəncəyə köçdü. Bu vaxt Bakıda Azərbaycan xalqına düşmən olan S.Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti meydan suladığı üçün milli hökumət müvəqqəti olaraq Gəncədə fəaliyyət göstərməyə məcbur oldu. 1918-ci il sentyabrın 15-də türk və milli ordu birləşmələri Bakı şəhərini daşnak, eser və menşevik qüvvələrindən azad etdi. Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası yaranaraq, ona sədrlik M.Ə.Rəsulzadə etmişdir. 1918-ci il iyunun 7-də M.Ə.Rəsulzadənin sədrliyi altında Azərbaycan Milli Şurasının iclası olmuş və yeni hökumət kabinəsini təşkil etmək F.Xoyskiyə tapşırılır.

Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açmış, böyük təbrik nitqi söyləmişdir.

1918-ci il iyunun 4-də Türkiyə ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi imzalandı. 1918-ci il sentyabrın 6-da Osmanlı sultanı VI Mehmet Ay Sofiya məscidində Azərbaycan





Respublikasının nümayəndələrini, başda M.Ə.Rəsulzadə olmaqla rəsmi görüş keçirmiş və bu görüş Azərbaycan hökumətini tanımaq yolunda atılmış mühüm addımlardan biri idi.

Respublikanın birinci ildönümü münasibətilə Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Türk mənşəli bütün başqa dövlətlər meydana gələrkən xüsusən dini əsasa söykənmişdirsə, Azərbaycan Respublikası türk milli-demokratik dövlətçiliyi zəminində milli-mədəni təyini müqəddəratın müasir özülünə əsaslanmışdır. Bu nöqteyi-nəzərdən respublikamız birinci türk dövlətidir".

Azərbaycan Demokratik Respublikasının yaranması mütərəqqi hadisə olub, müsəlman Şərq ölkələrində respublika ideyalarının və hərəkatlarının formalaşmasına təsir göstərmişdir.

Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında yazırdı: "Azərbaycan Demokratik Cümhuriyyəti bütünlüklə ardıcıl parlamentarizm və məsul nazirliklər metodunu rəhbər tutmuşdur. Söz, mətbuat, yığıncaq azadlıqları tamamilə təmin olunmuşdu. Ola bilsin ki, bəzi tənqidçilər bu baxımdan həddən artıq liberallıq göstərildiyini söyləyəcəklər. Bu, siyasi cəhətdən yeni doğulmuş, təşkil olunma dövrünü keçirən körpənin, şübhəsiz ki, səhvləri az deyildi. Bu səhvlərdən ən böyüyü o idi ki, kifayət qədər belə dövrə müvafiq gələn möhkəm hakimiyyət və güclü hökumət yaradılmamışdır. Əgər müxtəlif fikirləri birləşdirmək naminə inandırma metodlarının həyata keçirilməsi ilə yanaşı məcburetmə metoduna keçilsə idi, güman ki, hadisələrin nəticəsi başqa cür ola bilərdi".

Milli Şuranın iclasında yekun sözü ilə çıxış edən M.Ə.Rəsulzadə şuranın buraxılmasını demokratiyanın geri çəkilməsi və irticanın müvəffəqiyyəti kimi qiymətləndirdi. O, öz çıxışını aşağıdakı sözlərlə bitirdi: "Lakin cənablar, gəlin ruhdan düşməyək və ümid edək ki, lap tezliklə Azərbaycanın paytaxtı Bakıda Müəssislər Məclisində görüşəcəyik. Yaşasın Azərbaycan! Yaşasın türk xalqı".

Tarix boyu Azərbaycanın bəzi siyasi simaları, şairləri və yazıçıları müxtəlif səbəblərə görə doğma yurdlarını tərk etmiş və qürbət ölkələrdə yaşamışlar. Həmin şəxslərin doğma yurddan uzaqda yaratdıqları ədəbiyyata mühacirət ədəbiyyatı deyilir. Mühacirət ədəbiyyatında, sözsüz ki, Vətən həsrəti, yurd sevgisi və qürbət sıxıntısı ilə bağlı fikirlər əsas yer tutur.

XX əsrin əvvəllərində Azərbaycanın bir sıra siyasi xadimləri kimi M.Ə.Rəsulzadə də qürbətdə yaşamağa məhkum olunmuşdur. O, qardaş Türkiyəyə köçərək, ömrümün sonuna kimi orada yaşamışdır. Qürbətdə yaşadığı dövrdə də yaradıcılıqdan əl çəkməmiş, onu daha da inkişaf etdirmişdir.

M.Ə.Rəsulzadə bədii yaradıcılığa şeirlə başlamışdır. Onun ilk şeiri – "Müxəmməs" 1903-cü ildə "Şərqi-Rus" qəzetində nəşr olunmuşdur. Sənətkarın "Qaranlıqda işıqlar" adlı pyesi 1908-ci ildə Bakıda tamaşaya qoyulmuşdur. Onun "Hümmət", "Təkamül", "Yoldaş", "İrşad", "Tərəqqi" qəzetlərində dil və ədəbiyyat məsələlərinə dair çoxlu məqalələri nəşr edilmişdir.

M.Ə.Rəsulzadə bir sıra məşhur əsərlərini mühacirətdə olarkən yazmışdır: "Azərbaycan cümhuriyyəti", "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan ədəbiyyatı", "Azərbaycan şairi Nizami".

"Əsrimizin Səyavuşu" publisistik əsərdir. M.Ə.Rəsulzadə bu əsərində İran şairi Firdovsinin "Şahnamə" poemasındakı Səyavuşun taleyi ilə Azərbaycan Demokratik Respublikasının (ADR) taleyi arasında bir oxşarlıq görür. Tarixdəki Səyavuş kimi "Əsrimizin Səyavuşu" olan Azərbaycan Demokratik Respublikası da xəyanətin qurbanı olur. Müəllif əsərin sonunda üzünü gənclərə tutaraq, onları vətənin azadlığı uğrunda mübarizəyə səsləyir.

1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti ədəbiyyat və mədəniyyətin inkişafına böyük əhəmiyyət vermişdir. 1918-ci ildə türk dilinin dövlət dili elan edilməsi, 1919-cu ildə Bakı Dövlət Universitetinin açılışı, Bakıda şəhər məktəbləri və gimnaziyalarını sayının artırılması buna əyani sübutdur. Müstəqil Azərbaycan dövlətinin yaranması əsrlərdən bəri, azadlıq, bərabərlik arzuları ilə yaşayan şair və yazıçılarda böyük ruh yüksəkliyi yaratdı və onların yaradıcılığına güclü təsir göstərdi.

Azərbaycan tarixinə Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri, jurnalist və publisist kimi daxil olmuşdur. M.Ə.Rəsulzadə 1955-ci il martın 6-da Türkiyənin Ankara şəhərində vəfat etmiş və Ankara şəhərinin Əsri qəbiristanlığında dəfn olunmuşdur.







## CƏFƏR CABBARLI

**(1899-1934)**

Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının klassik sənətkarlarından biridir. Qələmini həm şeirdə, həm də nəsrdə sınayan sənətkarın yaradıcılığının zirvəsi dram əsərləri sayılır. Milli dramaturgiyanın inkişafında onun böyük xidmətləri olmuşdur.

Cəfər Cabbarlı 1899-cu ildə Xızıda anadan olmuşdur. İlk təhsilini Mollaxanada almış, sonra 7 nömrəli rus-tatar məktəbində oxumuşdur. S.S.Axundov, A.Şaiq onun müəllimləri olmuşlar. Bundan sonra Cəfər Cabbarlı Politexnik məktəbində təhsil almış və universitetin şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1924-1925-ci illərdə o, teatr məktəbində oxumuşdur. C.Cabbarlı "Kommunist" qəzeti redaksiyasında, Dövlət Dram teatrında çalışmışdır.

Cəfər Cabbarlı 1934-cü ildə Azərbaycan yazıçılarının qurultayında iştirak etmişdir. O, həmin il sovet yazıçılarının I qurultayında çıxış etmiş və Yazıçılar İttifaqının idarə heyətinə üzv seçilmişdir.

C.Cabbarlı yaradıcılığa "Məktəb" jurnalında çap olunan "Bahar" adlı lirik şeiri ilə başlamışdır.

C.Cabbarlı yaradıcılığında daha çox lirik-romantik və satirik şeirlər səciyyəvidir. Onun ən məşhur lirik şeiri "Ana"dır. Şair bu şeirində ananın böyüklüyünü, müqəddəsliyini göstərmiş, bu zərif vücud qarşısında ən qüvvətli insanın belə gücsüz olması qənaətinə gəlmişdir.

Cəfər "Qız qalası" adlı poema da yazmışdır. Onun ilkin dövr yaradıcılığında hekayələri də əhəmiyyətli yer tutur. "Aslan və Fərhad", "Mənsur və Sitarə" kimi hekayələrində o, romantizmə daha çox meylli olmuşdur. Yazıçının hekayələrinin çoxu isə qadın azadlığı mövzusundadır: "Gülzar", "Gülər", "Dilarə", "Firuzə".

Humanizm, insan taleyinə acımaq, sosial ədalətsizlik şəraitində insanın üzləşdiyi faciə və iztirabları göstərmək Cəfər Cabbarlının ilk pyeslərinin də əsas mövzusu olmuşdur. Sənətkar 1915-ci ildə "Vəfalı Səriyyə, yaxud göz yaşları içərisində gülüş" və 1917-ci ildə "Solğun çiçəklər" dram əsərlərini yazmışdır. Birinci əsərdə iki gəncin məhəbbətindən və bu məhəbbət qarşısındakı maneələrdən bəhs olunur. İkinci əsərində isə həyatdakı ədalətsizlikləri təsvir edən sənətkar haqsızlığın sosial səbəblərini göstərməyə çalışır.

"Nəsrəddin şah" tarixi dramında (1918-ci il) yazıçı İran tarixindən bəhs edərək, əsas diqqəti despotizmə qarşı xalq etirazının təsvirinə yönəltmişdir.

"Ədirnə fəthi" və "Ulduz" ("Trablis müharibəsi") dramları (1918-ci il) mövzu, tarixi material və ideya baxımından oxşar əsərlərdir. Yüksək vətənpərvərlik hisslərini təbliğ edən hər iki pyesin mövzusu Türkiyə həyatından götürülmüşdür.

C.Cabbarlının ən məşhur dram əsərlərindən biri "Aydın" (1919) faciəsidir. Əsərin qəhrəmanı Aydın müəllifin yaratdığı ilk romantik surətdir.

C.Cabbarlının tarixi mövzuda yazdığı ən məşhur dram əsəri "Od gəlini" faciəsidir (1925-ci il). Əsərin ideyası şəxsiyyət azadlığı, insan şəxsiyyətinin ehkama etirazı və mübarizəsidir.

Ədibin 20-30-cu illərdə yazdığı dram əsərlərinin çoxunun mövzusunu müasiri olduğu həyatdan götürmüşdür. "Sevil" (1928-ci il) pyesində dramaturq əsərin baş qəhrəmanı olan Sevilin simasında Azərbaycan qadınının yüksəliş yolunu, keçmişin ağır yükündən xilas olmasını təsvir edir.

Dramaturqun "Almas" pyesində (1930-cu il) isə kənddə gedən kollektivləşmə uğrunda mübarizə təsvir olunur.





"1905-ci ildə" pyesinin (1931-ci il) mövzusu 1905-ci ildəki Azərbaycan-erməni münaqişəsindən bəhs edir. İdeyası xalqlar dostluğudur. "Yaşar" dramının (1932-ci il) mövzusu Sovet dövründə kənddəki quruculuq işlərindən bəhs edir. Əsərin baş surəti Yaşardır. O, mühəndisdir. Kənddə Su Elektrik Stansiyası tikir. "Dönüş" pyesinin (1932-ci il) mövzusu milli teatr həyatından götürülmüşdür. Əsərin qəhrəmanı gənc rejissor Gülsabahdır. O, köhnəliyə, geriliyə qarşı mübarizə aparır və teatrda dönüş yarada bilir.

Cəfər Cabbarlı ailə-məişət və vətənpərvərlik mövzusunda olan ilk realist dramlarından sonra romantik əsər yazmağa güclü meyl göstərir. Bu baxımdan yazıçının ilk dram əsəri "Aydın"dırsa, bu sahədə ən mühüm nailiyyəti və yekunu isə "Oqtay Eloğlu" faciəsidir (1922-ci il). Əsərin baş qəhrəmanın ideyası və xüsusiyyətlərinə görə "Aydın" pyesinə oxşayır. Oqtay da, Aydın da romantik qəhrəmanlardır. Hər ikisi həqiqət uğrunda mübarizə aparırlar.

Oqtay XX əsr Azərbaycanın vətənpərvər, işıqlı ziyalılarının ümumiləşdirilmiş obrazıdır. Əsər yüksək ideyası və parlaq qəhrəman surəti ilə yadda qalır.

C.Cabbarlı bədii tərcümə sahəsində də çalışmışdır. O, Şekspirin "Hamlet" və "Otello", Şillerin "Qaçaqlar" faciələrini dilimizə çevirmişdir.

Cəfər Cabbarlı ömrünün sonunda "Əfqanıstan" adlı pyes üzərində işləmiş, lakin bu əsərini tamamlaya bilməmişdir.

Teatr və kinoda həm də bədii rəhbər və rejissor kimi fəaliyyət göstərmiş C.Cabbarlının Azərbaycan Dram Teatrının və Azərbaycan kinosunun inkişafında müstəsna xidmətləri vardır. Onun elmi-tənqidi məqalələri indi də öz aktuallığını itirməmişdir.



## MİKAYIL MÜŞFİQ

**(1908-1938)**

Mikayıl Müşfiq XX əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biridir. Onun şeir və poemaları ədəbiyyatımızın incilərindən sayılır.

Mirzə Qədir oğlu İsmayılzadə Müşfiq Bakının Xızı kəndində anadan olmuşdur. Atası Mirzə Qədir İsmayılzadə "Səadət" məktəbində dərs deməklə yanaşı, "Vüsaqi" təxəllüsü ilə şeirlər də yazırdı. Mikayıl körpə ikən anasını, altı yaşında isə atasını itirmişdir. Yaxın qohumları Mikayılı və onun qardaş-bacılarını himayələrinə almışlar. Özü demişkən, "acyalavac, çılpaq bir yaşayış" keçirən Mikayılda oxumağa çox böyük həvəs vardı. O, 1915-1920-ci illərdə ibtidai təhsil almış, sonralar Bakı darülmüəllimində və 12 saylı ikinci dərəcəli məktəbdə oxumuşdur. Artıq müxtəlif qəzet və jurnallarda şeirlərini çap etdirməyə başlayan gənc şair təhsilini artırmağı qarşısına məqsəd qoymuşdu. O, 1927-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olmuş, 1931-ci ildə oranı bitirmişdir. Şəhər məktəbində müəllimlik edən Müşfiq bədii yaradıcılıqla daha ciddi məşğul olmuş, bir-birinin ardınca kitablar çap etdirmişdir. M.Müşfiq yaradıcılığa lirik şeirlə başlamışdır. Onun ilk şeiri 1926-cı ildə "Gənc işçi" qəzetində dərc olunmuş "Bir gün" şeiridir. Son şeiri isə 1937-ci ildə "Ədəbiyyat" qəzetində çap olunmuş "Duyğu yarpaqları" adlı əsəridir. Mikayıl Müşfiqin ədəbi fəaliyyəti 1926-1937-ci illəri əhatə edir. Bu vaxt ərzində o, on şeir kitabı çap etdirmişdir:





"Küləklər", "Günün səsləri", "Buruqlar arasında", "Şeirlər" və s. Mikayıl Müşfiq həmçinin bir sıra əsərləri dilimizə tərcümə etmişdir: A.S.Puşkinin "Qaraçılar" və M.Y.Lermontovun "Demon" poemaları, Xəyyamın rübailəri, M.F.Axundovun məşhur "Şərq poeması" və s.

1932-c ildə şairin "Günün səsləri", "Vuruşmalar", "Pambıq", "Bir may", iki il sonra "Şəngül, Şüngül, Məngül", 1935-ci ildə isə "Qaya", "Kəndli və ilan" adlı kitabları çapdan çıxmışdır. Onun 1937-ci ildə nəşrə hazırladığı "Çağlayan" kitabına ən yaxşı əsərlərini, o sıradan 1935-1937-ci illərdə yazdığı "Səhər", "Azadlıq dastanı", "Sındırılan saz", "Ədəbiyyat nəğməsi", "Mingəçevir həsrəti", "Tərtərhes nəğmələri", "Şeirim", "Yenə o bağ olaydı", "Duyğu yarpaqları" və s. şeir və poemalarını daxil etmişdi.

Vətəninin yüksəlişini, xalqının firavan yaşayışını qəlbən arzulayan, bu mövzuda onlarla maraqlı əsər yazan şair uşaqlar üçün də gözəl sənət nümunələri yaratmış, bədii tərcümə ilə də məşğul olmuşdur.

Şairin poemalarından "Azadlıq dastanı" lirik, qalanları isə epik üslubdadır. Müşfiqin poemalarında insanın azadlıq hissləri, mədəni inqilaba qoşulmaq istəyi, insanın mənəvi yüksəliş və azadlığı, köləlikdən azad olmaq istəyi xüsusi yer tutur.

Mikayıl Müşfiq 1937-ci ildə repressiyaya məruz qalaraq həbs olunur və dözülməz mənəvi və fiziki əzablardan, təhqirlərdən sonra qətlə yetirilir. Şairin əsərləri uzun illər boyu yasaq edilmişdir. Stalin rejiminin sükutundan sonra "Xalq düşməni" elan edilən şairin millətinin ən layiqli oğullarından biri olduğu sübut olundu.

Azərbaycan tarixinə Mikayıl Müşfiq görkəmli şair, epik lövhələr, lirik ricətlər ustası kimi daxil olmuşdur.



## MİR CƏLAL PAŞAYEV

**(1908-1978)**

XX əsrin 20-30-cu illərində ədəbi yaradıcılığa başlayan görkəmli yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının bünövrə daşlarını qoyanlardan biri olmuşdur. O, dadlı-duzlu hekayələri, məzmunlu roman və povestləri ilə oxucu auditoriyasına geniş yol tapmışdır. Gündəlik həyatımızın tipik lövhələrini ədəbiyyatımıza gətirən bu dahi sənətkarın elmi yaradıcılığı kimi bədii yaradıcılığı da fəlsəfi-estetik görüşlərdən, günün aktual problemlərindən uzaq düşməmişdir. İstedadlı qələm ustası olan Mir Cəlal Paşayev Azərbaycanın ədəbiyyat xəzinəsini öz roman və hekayələri ilə daha da zənginləşdirmişdir. Həyatı boyu ədəbiyyatımızı tədqiq edən alim kimi Azərbaycan ədəbiyyatı nəzəriyyəsini yaratmış və bu, onun müəyyən etdiyi qaydalar, prinsiplər əsasında inkişaf etmiş və bu günə qədər də inkişaf etməkdədir.

Mir Cəlal Paşayev öz tərcümeyi-halında ilk yaradıcılığı haqqında yazırdı: "1926-1927-ci illərdə pedaqoji texnikumun son sinfində oxuyanda mərkəzi qəzetləri, xüsusən, "Gənc işçi"ni müntəzəm mütaliə edir, özüm də arabir məqalələr yazırdım. "Gənc işçi"də rast gəldiyim ədəbiyyat səhifələri məni çox maraqlandırırdı. Mən istəyirdim orada yazam. Bir neçə şeir qaralayıb poçt ilə göndərdim, cavab çıxmadı... Bir dəfə Mayakovskinin "Zərbəçi marş" adlı şeiri əlimə keçdi, onu oxudum və nədənsə tərcümə etmək fikrinə





düşdüm... Bir həftə sonra "zərbəçi marşı" adlı tərcümə şeirim çıxdı, bu mənim mərkəzi mətbuatda ilk yazım idi".

Mir Cəlal Paşayev 1926-1930-cu illərdə "Yeni fikir" qəzetində və "Qızıl Gəncə", "Hücum", "İlk addımlar məcmuələrin"də tərcümə etdiyi şeir və hekayələrlə yanaşı, özünün ilk qələm yaradıcılığı ilə də çıxışlar etməyə başlayır. "Şimaldan səs", "Anamın vəsiyyəti", "Müxbir" şeirlərini, "Ədəbiyyat cəbhəsində", "Doktor Cinayətov" və digər tərcümələrini qəzet və jurnallarda çap etdirməklə bərabər, özünün nəsr yaradıcılıq nümunələrini də dərc etdirməyi yaddan çıxarmır və elə buna görə də 30-cu illərdə öz yaradıcılıq dəstixətti ilə tanınan bir nasir kimi oxucu auditoriyasına asan yol tapırdı.

Mir Cəlal yaradıcılığı realizmə əsaslanır. O, öz kitablarında həyatı təsvir və tədqiq edərdi. Mir Cəlal hər zaman həyatın mənasını tədqiq etməyə çalışardı. Altı romandan başqa o, Azərbaycanın XX əsr ədəbiyyatının parlaq nümunələri sayılan 300-ə yaxın hekayə yazmışdır. Hekayələri onun yaşadığı dövrə aid şəxsi təəssüratları və yaratdığı obrazları ilə seçilir. Onun qəhrəmanları bədiiliklə, inandırıcı şəkildə təsvir olunur, yadda qalır. Yaddaşdan silinməyən yumor onun bir çox əsərlərində öz əksini tapır.

Doğrudan da, canlı həyat lövhələrini öz müşahidələri əsasında yaradan Mir Cəlal "Boy", "İşıqlı yollarda", "Biz necə böyüyürük" oçerklərini, "Müəllim" və "İfşa" hekayələrini 1932-ci ildə mətbuatda dərc etdirir. Həmin ildə gənc yazıçının "Sağlam yollarda" oçerklər toplusunun çapdan çıxması ona bir daha yaradıcılıq uğurları gətirir. Bundan sonra 1933-1935-ci illərdə onun "Boy" (novellalar), "Bostan oğrusu" (hekayələr), "Gözün aydın" (hekayə və oçerklər), "Dirilən adam" (roman) kitabları böyük tirajla oxucuların ixtiyarına verilir. Görkəmli ədəbiyyatşünas akademik Məmməd Arif onun yaradıcılığına yüksək qiymət verərək yazırdı: "Mir Cəlal, "Dirilən adam"la diqqətli realist bir yazıçı olduğunu açıq-aydın göstərmişdir. Diqqətli ona görə deyirəm ki, o, insanları, məişəti, təbiəti, çox diqqətli öyrənmişdir, yaxşı bilir. Bunu əsərin hər səhifəsində hiss etmək olur".

XX əsrin görkəmli yazıçı və şairləri kimi Mir Cəlal da yalnız bir sahədə mükəmməlləşib qalmamışdı. O, bir ədəbiyyatşünas alim, pedaqoq kimi də geniş aspektdə fəaliyyətini davam etdirmişdir. Yaradıcılığının bir sahəsini başqa bir sahəsi ilə uzlaşdıraraq təkmilləşdirməyi də qarşısına məqsəd qoymuşdur. Ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin ədəbi görüşləri, məntiqi fikirləri bədii yaradıcılığına ziyan gətirməmiş, əksinə, sənətkarlıq xüsusiyyətlərinin daha da formalaşmasında yardımçı rol oynamışdır. Müasir tələblərə cavab verə bilən məqalələr Mir Cəlalın ədəbi, pedaqoji və ictimai hadisələrə yanaşma tərzinin düzgünlüyünü göstərirdi. Bu əsərlər 30-40-cı illərdə tənqid və ədəbiyyatşünaslığın inkişaf etməsində, buraxılan səhvlərdən təmizlənməsində böyük rol oynamış və indi də öz aktuallığını itirməmişdir.

Azərbaycan ədəbiyyatında öz yeri olan Nizami, Füzuli kimi dahi sənətkarların yaradıcılığı haqqında da Mir Cəlal ədəbiyyatşünas alim kimi yüksək fikirlər söyləmiş, Füzuli sənətkarlığını təhlil etmək, klassik ədəbiyyatımızın karifeylərini daha dərindən araşdırmaq kimi çətin bir vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. O, 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası yazaraq uğurla müdafiə etmişdir. Həmin monoqrafiya bu gün də füzulişünaslığı davam etdirən gənclər üçün bir proqram sayıla bilər. Füzulişünaslıq adlanan elmi sahə ilk dəfə Mir Cəlalın elmi işlərində öz əksini tapmışdır. Keşməkeşli 1930-1940-cı illərdə kommunist ideologiyasının möhkəmləndirilməsinə yönəlmiş tədqiqatların dəbdə olduğu bir vaxtda, Mir Cəlal çoxsevilən romantik şairin əsərlərini araşdırırdı.

Mir Cəlal Paşayev elm sahəsində yazıçılıqda, müəllimlikdə gənclərin bilik səviyyəsini yüksəltmək üçün heç nəyi əsirgəməmişdir. Belə bir humanist müəllimin həm yaradıcılığı, həm də pedaqoji fəaliyyəti haqqında Azərbaycanın görkəmli şəxsiyyətləri çox gözəl fikirlər söyləmişlər. Xalq şairi Bəxtiyar Vahabzadə yazıb: Beş il mənim müəllimim, 3 il aspiranturada, 2 il doktoranturada elmi rəhbərim və konsultatım, 30 ildən artıq kafedra müdirim olan bu böyük alim-yazıçı ilə bu uzun müddət ərzində bir dəfə də olsun kiçik bir incikliyimiz olmadı. Əlbəttə, bu mənim deyil, məhz onun alicənablığının, xeyirxahlığının və böyüklüyünün nəticəsi idi. Ona görə ki, bu müddət ərzində mən onun tabeliyində çalışırdım. Göstərişlərini həmişə istədiyi səviyyədə yerinə yetirə bilmədiyim hallarda onun mənimlə istədiyi şəkildə rəftar etmək səlahiyyəti var idi. Lakin o, bu səlahiyyətdən istifadə etməzdi".





Mir Cəlal Paşayev həm də çox sadə, təvazökar və xeyirxah adam olub. İstedadlı tələbələrin aspiranturada qalmasına kömək edər, elmi rəhbəri olub istiqamət verərmiş. Yanına diləyə gələni peşiman qaytarmazmış, çətinə düşən tələbələrə, müəllimə, aspiranta köməyini əsirgəməzmiş. Aspirantları onun mənzilinə öz evləri kimi gəlib-gedərmişlər. Hətta bir dəfə belə bir hadisə olub. Mir cəlal müəllim görür ki, tələbələrinin biri çox nimdaş geyinib. O, bu tələbə ilə maraqlanıb öyrənib ki, imkansz bir ailənin uşağıdır. Həmin tələbəyə Mir Cəlal müəllim uzun müddət köməklik edib. Mir Cəlal müəllimin belə xeyirxah işləri çox olub. İndi də onun ceyirxahlıqlarını minnətdarlıqla xatırlayırlar. Nəriman Həsənzadə gənclik vaxtlarında Mir Cəlal müəllimdən gördüyü xeyirxahlıqları həmişə danışır. Unudulmaz ədibimiz özünə ayrılmış mənzilin açarını məhz cavan həmkarına bağışlamışdır.

Mir Cəlal Paşayev əla müəllim keyfiyyətlərinə malik idi. Onun tələbələrinin bir çoxu gələcəkdə alim və yazıçı olmuşdur. O, hər bir gəncə sayğı və hörmətlə yanaşaraq, onun yaradıcı potensialını inkişaf etdirməyə çalışırdı. Mir Cəlal onlara öz güclərini sınamağa dəstək verirdi və hesab edirdi ki, insanı ruhlandırmaq və şəxsi gücünə əsaslandırmağa inandırmaq onun inkişafına ən münasib yoldur. Mir Cəlal müəllim ən azı bu cür nəcib keyfiyyətlərinə görə xalqımızın qəlbində dərin iz qoyaraq əbədi yaşayacaqdır.



## SƏMƏD VURĞUN

**(1906-1956)**

Səməd Vurğun XX əsr Azərbaycan poeziyasının ən qüdrətli və klassik şairlərindən biridir. Yeni dövr Azərbaycan şeirinin inkişafında onun əvəzsiz xidmətləri olmuşdur. O, 1906-cı il martın 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndindəki, beş sinifli rus-tatar məktəbində alıb. Səməd Vurğun 1918-ci ildə Qazax seminariyasına daxil olmuşdur. Seminariyanı uğurla bitirdikdən sonra Qazaxda, Qubada və Gəncədə müəllimlik etmişdir. Elə o vaxtdan başlayaraq lirik şeirləri ilə məşhurlaşmış, "Vurğun" təxəllüsü ilə tanınmış və sevilmişdir.

Səməd Yusif oğlu Vəkilov 1929-cu ildə Moskva Dövlət Universitetinə daxil olmuş, lakin iki ildən sonra Bakıya gələrək təhsilini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. Şair 1934-cü ildə SSRİ yazıçılarının Ümumittifaq qurultayında iştirak etmiş və Yazıçılar İttifaqının idarə heyətinə üzv seçilmişdir.

S.Vurğun Azərbaycan Elmlər Akademiyasının prezidentinin müavini vəzifəsində işləmişdir. O, Azərbaycanın Xalq şairi fəxri adını alan ilk şairdir.

Səməd Vurğun 20-30-cu illər Azərbaycan poeziyasında mövzu yeniliyi ilə yanaşı, forma yeniliyi ilə bağlı müasir şeirlər yazır. Həmin illərdə yazdığı şeirləri "Şairin andı" adlı şeirlər toplusunda və "Fanar" adlı kitabında toplanmışdır. Şair milli şeir formalarında





da əsərlər yazmışdır. Şairin "Yadıma düşdü" qoşması buna ən yaxşı nümunədir.

S.Vurğun yaradıcılığının ilk dövrünün ən məşhur əsəri "Azərbaycan" şeiridir (1935). Şeirdə şair vətənini tərənnüm edərək Azərbaycan obrazını yaratmışdır. Poetik quruluşuna və formasına görə "Azərbaycan" şeiri Vətənin gözəlliyi və tarixi haqqında əsl xalq nəğməsi kimi qəbul olunur. 1935-ci ildə şairin "Şeirlər" və 1939-cu ildə isə "Azad ilham" kitabları nəşr edilir. Bu kitablardakı şeirlərində şairin poeziya, sənət haqqında düşüncələri əsas yer tutur.

S.Vurğunun müharibə dövrü yaradıcılığında vətəni qorumaq hissi, düşmənə qarşı mübarizə ruhu daha güclüdür. Şair müharibə başlayarkən özünün də silahlı bir əsgər olduğunu qətiyyətlə bildirirdi:

Bilsin ana torpaq, eşitsin vətən,
Müsəlləh əsgərəm mən də bu gündən.

Müharibə illərində S.Vurğunun yazdığı şeirlərdə insanlarda qələbəyə inam hissinin bədii ifadəsi əsas yer tutur.

S.Vurğun ədəbiyyatımızda bir sıra gözəl poemaların müəllifi kimi tanınır. Şairin ilk epik əsəri olan "Komsomol poeması" 20-ci illərin gənclərindən bəhs edir.

S.Vurğun 30-cu illərdə oçerk məzmunlu "Muradxan" və "Lökbatan" poemalarını yazmışdır. Həmin illərdə yazılmış "Aslan qayası", "Bulaq əfsanəsi", "Qız qalası", "Üsyan", "Dar ağacı" poemaları tarixi və əfsanəvi tarixi mövzudadır. Şairin "Macara", "Xumar", "Kənd səhəri", "Acı xatirələr", "26-lar", "Dar ağacı", "Ölən məhəbbət", "Üsyan", "Bəsti" və "Ölüm kürsüsü" poemaları da 30-cu illərdə qələmə alınmışdır.

S.Vurğunun yaradıcılığında dram əsərləri də mühüm yer tutur. O, "Vaqif", "Xanlar", "Fərhad və Şirin" və "İnsan" mənzum dramlarını yazmışdır.

S.Vurğun başqa poemalarından fərqli olaraq, "Aygün" poemasında (1951-ci il) hadisələri daha geniş və ətraflı təsvir etmişdir. Buna görə "Aygün" poemadan çox mənzum roman janrına yaxındır.

Əsər ailə-məişət mövzusundadır. Poemada müəllif məhəbbətin insanı necə dəyişdirməsini, onun mənəvi aləmini zənginləşdirməsini göstərir.

"Muğan" və "Aygün" poemaları müharibədən sonrakı ədəbiyyatımızın ciddi uğurları idi. Həmin dövrdə şairin "İstiqbal tərənəsi", "Dünyanın xəritəsi" kitabları, üç cilddən ibarət "Seçilmiş əsərləri" nəşr olunmuşdur. Sonralar da vaxtaşırı olaraq şairin əsərləri müntəzəm şəkildə çap olunmuşdur. Xalqını, vətənini sonsuz məhəbbətlə sevən Səməd Vurğunun çoxcəhətli irsi bu gün də böyük maraqla qarşılanır.

1956-cı ildə Səməd Vurğunun anadan olmasının 50 illik yubileyi qeyd olunmuş və həmin ilin 27 May tarixində uzun sürən xəstəlikdən vəfat etmişdir.

Səməd Vurğunun bir şair kimi ən sevimli mövzusu vətən olmuşdur. Onun yaratdığı şeirlər həmişə qəlbinin alovu və ruhunun ilhamı ilə yaranmışdır.

Səməd Vurğun poeziyasının, şeirinin mənəvi-inqilabi coşqunluğu heç vaxt nə sönəcək, nə də soyuyacaqdır. Bir azərbaycanlı oğlu kimi Səməd Vurğun – çinarlı, palıdlı meşələrimizin əzəmətini, başı qarlı uca dağlarımızın vüqarını, Babəkin və Koroğlunun qeyrətini özündə birləşdirmişdi.

XX əsr Azərbaycan ədəbiyyatı tarixində çətin elə bir şair tapılar ki, vətənpərvərlik, beynəlmiləlçilik, humanizm, yüksək xəlqilik və şeriyyət, həyat həqiqəti və romantik arzuları Səməd Vurğun səviyyəsində birləşdirməyə nail olsun.

Azərbaycan şanlı tarixinə Səməd Vurğun görkəmli şair, alim və ictimai xadim kimi daxil olub.







## MİRƏSƏDULLA MİRƏLƏSGƏR OĞLU MİRQASIMOV

**(1883-1958)**

Mirəsədulla Mirqasımov 17 noyabr 1883-cü ildə Bakı şəhərində anadan olmuşdur.

1898-ci ildə Bakı şəhər Rus gimnaziyasına daxil olmuşdur. 1908-ci ildə Odessa Universitetinin Tibb fakültəsinə daxil olmuş, 1913-cü ildə həmin universiteti bitirib həkim diplomu almışdır. 1916-cı ildə M.M.Mirqasımov hazırlıqlı həkim kimi Bakıya qayıtmışdır.

Mirəsədulla Mirqasımov 1923-cü ildə Bakı Universiteti Tibb fakültəsinə tədris-pedaqoji işə dəvət olunmuşdur. M.M.Mirqasımov böyrəkdaşı xəstəliyinə və qarın yatalağının cərrahi müalicəsinə həsr edilmiş əhəmiyyətli elmi işlərin müəllifidir.

M.M.Mirqasımov 1927-ci il fevralın 4-də Bakı Universitetinin Elmi Şurasında "Azərbaycanda sidik daşı xəstəliklərinin öyrənilməsinə dair materiallar" mövzusunda dissertasiya müdafiə edərək Azərbaycan həkimləri arasında ilk tibb elmləri doktoru diplomu almışdır.

M.M.Mirqasımov Azərbaycan Elmlər Akademiyasının təşkilatçılarında biri, onun həqiqi üzvü və ilk prezidenti olmuşdur.

Akademik M.M.Mirqasımov dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmişdir.

Akademik M.M.Mirqasımov Azərbaycan SSR "Əməkdar həkim"i və "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür.

Akademik Mirəsədulla Mirqasımov Ümumdünya Cərrahlar Assosiasiyasının həqiqi üzvü, Ümumittifaq Uroloqlar Cəmiyyətinin fəxri üzvü seçilmişdir.

Akademik M.M.Mirqasımovun rəhbərliyi altında 6 doktorluq, 12 namizədlik dissertasiyası işlənib müdafiə edilmişdir.

Öz işində son dərəcə tələbkar, məqsədyönlü, yüksək intizamlı, özünəxas dəmir iradəli olan akademik M.M.Mirqasımov həkim və elmi pedaqoji kadrların hazırlanmasında prinsipiallıq göstərərək respublikada ilk dəfə öz məktəbini yaradanlardan biridir.

Akademik M.M.Mirqasımov 1940-cı və 1950-ci illərdə iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, 1943-cü il "Qırmızı Ulduz" ordeni, 1946-cı ildə Lenin ordeni və dəfələrlə Müharibə medalları ilə təltif edilmişdir.

Akademik Mirəsədulla Mirələsgər oğlu Mirqasımov 20 iyul 1958-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Azərbaycanda tibb elminin inkişafında, milli tibb kadrlarının hazırlanmasında M.Mirqasımov böyük rol oynamışdır. Ali təhsilli həkim artıq I Dünya müharibəsinin gedişində hərbi cərrahiyyə sahəsində zəngin təcrübə toplamışdır. Sonrakı illərdə o, əsas diqqəti, elmi fəaliyyəti sidikdaşı xəstəliyinin müalicəsinin öyrənilməsinə, irinli peritonitlərə, urologiya və cərrahlığın digər aktual məsələlərinə həsr olunmuşdur. Tibbi araşdırmalara bilavasitə rəhbərlik edən M.Mirqasımov insan və heyvan fiziologiyası, bioloji vacib olan birləşmələrin strukturu, fiziki quruluşu və kimyəvi tərkibi istiqamətində alimlər yetişdirirdi. Azərbaycan alimləri həm sovet, həm də ümumbəşəri elmin inkişafına layiqli töhfələr vermişlər.







## YUSİF MƏMMƏDƏLİYEV

(1905-1961)

XX əsrdə kimya elminin inkişafında azərbaycanlı alim Yusif Məmmədəliyevin xidmətləri olmuşdur. O, yüksək oktanlı aviasiya yanacağının istehsalının yeni üsullarını tapmış, ən qalın zirehi əridən kimyəvi məhlul hazırlamış, texnika və məişətdə istifadə olunan plastik kütlənin bəzi növlərini icad etmiş, Naftalan neftinin müalicəvi əhəmiyyətə malik olmasını təsdiq etmişdir.

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci ildə Ordubadda anadan olmuşdur. Doğma şəhərində orta təhsil aldıqdan sonra dəqiq elmlərə və təbiət elmlərinə böyük maraq göstərən gənc Bakı şəhərinə gəlmiş və 1926-cı ildə Azərbaycan Ali Pedaqoji İnstitutunun kimya fakültəsini bitirmişdir.

Təyinatını Gəncə şəhərinə alan Y.Məmmədəliyev bir müddət burada Pedaqoji Texnikumunda kimya müəllimi işləyir. Çox keçmir ki, o, qədim Azərbaycan şəhəri İrəvana göndərilir. O zaman şəhər Yerevan adlanır və Rusiya imperiyasının siyasətini davam etdirən sovetlər burada erməniləşdirmə siyasətini aparırdı. Azərbaycanlılar müxtəlif vasitələrlə işdən çıxarılır, evləri əllərindən alınır, ermənilərin sayı gündən-günə artırılırdı. Buna baxmayaraq, XX əsrin 20-30-cu illərində burada minlərlə azərbaycanlı yaşayır və təhsil alırdı. Yusif Məmmədəliyev bir müddət Yerəvan Pedaqoji İnstitutunda kimya müəllimi işləmişdir.

Kimya elminə olan böyük marağı, nəhayət, onu Moskva şəhərinə aparır. Burada o, SSRİ-nin ən böyük və məşhur təhsil ocağı

olan M.Lomonosov adına Moskva Dövlət Universitetinə daxil olur. Təhsilini bitirdikdən sonra Azərbaycana qayıdan Y.Məmmədəliyev 1932-1933-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda müəllim işləyir. Elmi rəhbəri məşhur sovet kimyaçısı N.D.Zelinskinin məsləhəti ilə elmi iş üzərində çalışmağa başlayan gənc mütəxəssis 1933-cü ildən Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutunda işləməyə başlayır. Çox keçmir ki, o, elmi konfranslarda, konqres və simpoziumlarda iştirak edir, özünü prespektivli alim kimi tanıdır.

Y.Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsi ilə bağlı olmuşdur. Karbohidrogenlərin xlorlaşdırma və bromlaşdırılmasının yeni üsullarının kəşfi neftdən daha çox məhsul istehsal etməyə, əvvəllər tullantı sayılan maddələrdən yeni, təbiətdə olmayan maddələr əldə etməyə imkan verirdi. Məmmədəliyev bu istiqamətdə elmi araşdırmalar aparır və 1936-cı ildə uğurla dissertasiya müdafiə edib kimya elmləri namizədi dərəcəsinə layiq görülür. İlk kitabı çap olunur. Kitabın adı "Azərbaycan qazları və onlardan kimyəvi istifadə" idi. Gənc alimin təklif etdiyi yeni üsullar və onların tətbiqi xalq təsərrüfatına böyük gəlir gətirə bilərdi və bunu nəzərə alan respublika rəhbərliyi alimin fəaliyyəti üçün lazımi şərait yaradır.

Yusif Məmmədəliyevin gərgin əməyi öz bəhrəsini verir, o, neft qazlarını xlorlaşdırmaqla karbon tetra-xlorid, metil-xlorid, metilen-xlorid adlanan yeni maddələr alır. Alim, eyni zamanda, bilavasitə neft və onun tərkib hissələri ilə də təcrübələr aparır. Onun elmi fəaliyyətlərinin nəticəsi o zaman bütün SSRİ alimlərini heyrətə gətirmişdi.

Böyük Vətən müharibəsi başladıqdan sonra hərbi sənayeyə cəlb olunan Yusif Məmmədəliyev aviasiya benzinləri üzərində işini davam etdirdi. Müharibənin ilk dövründə Qroznı və Mozdok neft mədənlərini itirmiş SSRİ-də neft hasilatı azalmış, lakin hərbi texnikanın neft məhsullarına olan tələbatı artmışdı. Belə bir şəraitdə vəziyyəti Azərbaycan neftçiləri və Məmmədəliyevin başçılığı ilə fəaliyyət göstərən Azərbaycan alimləri xilas etdilər. Yusif Məmmədəliyevin izopropilenbenzolun sintezi ilə bağlı elmi araşdırmaları nəticəsində sovet hərbi aviasiyası yüksək oktanlı yanacaqla təmin olun-





du. Bu isə avasiyamıza səmada hərbi üstünlüyü ələ keçirməyə və bununla da bütün müharibənin gedişinə təsir göstərməyə imkan verdi. 1942-ci ildə öz ixtisası üzrə elmi iş yazan alim kimya elmləri doktoru adına layiq görüldü, elə həmin ildə professor adı aldı. Yusif Məmmədəliyevin digər nailiyyəti yeni növ yandırıcı məhlulun əldə edilməsi ilə bağlı olmuşdu. Belə ki, onun ixtira etdiyi kimyəvi məhlul ən qalın zireh lövhələrini belə əridirdi. Bu məhlul adi şüşə qablarda alman tanklarına qarşı edilirdi və müharibənin ağır dövründə düşmən tankları ilə mübarizədə əvəzsiz idi. Məxfi hərbi işlərlə bərabər, neft emalının yeni üsulları üzərində işləyən Y.Məmmədəliyevin 1943-cü ildə "Toluolun sintezi" adlı kitabı çap edilir.

Azərbaycanda elmin inkişaf səviyyəsini nəzərə alan Moskva 1945-ci ildə Azərbaycana Elmlər Akademiyası təşkil etməyə icazə verdi. Elə həmin il Y.Məmmədəliyev akademik adına layiq görüldü. 1945-ci ildə o, Azərbaycan EA Neft İnstitutunun direktoru təyin edildi.

İndiki texnika və məişətimizi plastik kütlədəən hazırlanmış əşyalarsız təsəvvür etmək çətindir. Lakin çox az adam bilir ki, belə kütlənin bəzi növlərinin alınmasında azərbaycanlı alim – Yusif Məmmədəliyevin böyük xidmətləri olmuşdur. Elmi ixtiralarına görə alim 1946-cı ildə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

1947-ci ildə Azərbaycan Elmlər Akademiyasının prezidenti seçilən Yusif Məmmədəliyev Azərbaycan elminin istiqamətləndirilməsində, milli alim kadrlarının hazırlanmasında böyük əməli işlər görmüşdür. 1954-1958-ci illərdə o, Azərbaycan Dövlət Universitetinin rektoru olmuşdur.

1958-ci ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilən Yusif Məmmədəliyev bir çox xarici ölkələrdə beynəlxalq elmi konfranslarda iştirak etmişdir. Onun çıxış və mühazirələri daim maraqla qarşılanmışdır. 1958-ci ildə yenidən Azərbaycan Elmlər Akademiyasının prezidenti seçilən alim bu vəzifədə əlindən gələni etmişdir.



## ÜZEYİR HACIBƏYOV
**(1885-1948)**

Üzeyir Hacıbəyov 1985-ci ilin sentyabrın 18-də Ağcabədi rayonunda, mirzə ailəsində anadan olmuşdur. Onların ailəsi bir müddət sonra Şuşaya köçür. Onun ilk musiqi müəllimi əmisi Ağalar Əliverdibəyov olmuşdur. İki sinifli rus-tatar sinfini bitirən Üzeyir 1899-1904-cü illərdə Qori müəllimlər seminariyasında oxuyur. Seminariyada ibtidai ümumtəhsil məktəbləri üçün müəllimlik sənətinə yiyələnməklə yanaşı, skripka, violençel, nəfəsli alətlərlə çalmağı və musiqi nəzəriyyəsini öyrənir. Orkestr və xorda fəal iştirak edir.

Dövrün tanınmış publisistlərindən biri idi, görkəmli mədəniyyət xadimi, dahi bəstəkar Üzeyir Hacıbəyov. Tələbəlik illərində şeir yazan Üzeyir Hacıbəyova dostları "müsəlman şairi" deyirmişlər. Hələ tələbə ikən "Şərqi-Rus" qəzetinə kiçik məqalələr göndərən Üzeyir Hacıbəyovun əsl jurnalistik fəaliyyəti "Həyat" və "İrşad" qəzetləri ilə bağlıdır. Bu qəzetlərdə o, "Filankəs" imzası ilə "Ordan-burdan" başlığı altında satirik felyetonlar dərc etdirir. Müəllifin yazılarının əsas mövzuları çarizmə və yerli zülmkarlara qarşı mübarizəyə çağırış, İran və Türkiyə inqilabları, imperializmin müstəmləkə siyasətinin iflası, ictimai eyiblərin tənqidi və s. idi. Üzeyir Hacıbəyov "Molla Nəsrəddin" jurnalı ilə də əməkdaşlıq etmişdir. Böyük bəstəkar mədəniyyət tariximizdə, təkcə Azərbaycanda deyil, bütün Şərqdə ilk dəfə olaraq 1908-ci ildə "Leyli və Məcnun" operasını yaratmışdır. O, həmçinin "Arşın mal alan" və "Məşədi İbad" musiqili komediyalarının müəllifi kimi tanınır. Bəstəkar bir sıra muğam operaları da yaratmışdır. Onlardan "Şeyx Sənan" (1909), "Rüstəm və Zöhrab" (1910), "Şah Abbas və Xurşudbanı" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) operalarını göstərmək olar.

Bəstəkarın əsərləri geniş yayılaraq ona böyük şöhrət qazandırmışdır.







## MUSTAFABƏY AĞABƏY OĞLU TOPÇUBAŞOV
**(1895-1981)**

M.A.Topçubaşov – 1930-cu ildə "Malyariya mənşəli Splenomeqaliyanın klinikası, patologiyası və cərrahı müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

M.A.Topçubaşov 50 ilə qədər müddətdə Azərbaycan Tibb İnstitutunun fakültativ cərrahlıq kafedrasına rəhbərlik etmişdir.

Onun təklifi ilə 1938-ci ildə cərrahlıq praktikasına yeni və nisbətən təhlükəsiz ağrısızlaşdırma metodu – inyeksion efir yağ narkozu daxil edilmiş və bu qarışığın "Analgezin" adı ilə geniş istehsalına başlanmışdır.

Mustafabəy Topçubaşov Azərbaycan Respublikası EA-nın ilk həqiqi üzvlərindən biri olmuşdur.

Akademik M.A.Topçubaşov SSRİ Tibb Elmləri Akademiyasının müxbir (1949) və həqiqi (1960) üzvü, həmçinin Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir.

Akademik Mustafabəy Topçubaşov səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə, 3 dəfə "Lenin ordeni", "Qızıl ulduz", "Qırmızı Əmək Bayrağı" ordenləri və bir sıra medallarla təltif edilmişdir.

Aakdemik M.A.Topçubaşov Sosisalist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

O, "Xüsusi cərrahlıq" dərsliyinin, 7 monoqrafiyanın, 200-dən artıq elmi əsərin müəllifidir.

Akademik Mustafabəy Topçubaşovun rəhbərliyi altında 8 doktorluq, 16 namizədlik dissertasiyası müdafiə edilmişdir.

Akademik M.A.Topçubaşov 1951-1956 və 1968-1981-ci illərdə Azərbaycan SSR EA-nın vitse-prezidenti olmuşdur. Akademik Mustafabəy Topçubaşov 1955-1959-cu və 1967-1971-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri olmuş, I-X çağırışlarda Respublika Ali sovetinə deputat seçilmişdir.

Akademik Mustafabəy Topçubaşov Azərbaycan Respublikası Sülhü Müdafiə Komitəsinin sədri, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, "Böyük Tibb Ensiklopediyasının" redaktoru və Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiya Heyətinin üzvü olmuşdur.

Dünya tibb elmində Mustafabəy Topçubaşovun xüsusi yeri və çəkisi var. Öd daşı xəstəliklərinin müalicəsi, periferik iflic xəstəliyinin və portal hipertenziyanın xüsusiyyətləri və müalicə üsullarının istiqamətində onun gördüyü işlər dünya alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. M.A.Topçubaşov Azərbaycan tarixində minlərlə xəstə və yaralını həyata qaytarmış həkim, yeni tibb üsulları kəşf etmiş alim və görkəmli ictimai xadim kimi özünəlayiq, şərəfli bir yer tutmuşdur.







## HƏZİ ƏHƏD OĞLU ASLANOV

**(1910-1945)**

Həzi Aslanov 1910-cu ildə yanvar ayının 2-də Lənkəran şəhərində anadan olub. Uşaqlıqdan hərb sənətinə böyük maraq göstərən Həzi 1924-cü ildə Azərbaycan komandirlər məktəbinə daxil olur. Təhsil illərində bilik və bacarığı ilə seçilən Həzi kursda birinci imiş. Nəzəri və praktik məşğələlərdə daim qabaqcıl olan Həzi SSRİ-nin Leninqrad şəhərində təhsilini davam etdirir. O zaman sovet qoşunlarının ən müasir tankları sayılan BT-5 və BT-7, T-26 tanklarını mükəmməl öyrənən Aslanov 1930-cu ildə təyinatını SSRİ-nin Qərb hərbi dairələrinin birinin tank hissələrinə alır.

1941-ci ildə faşist Almaniyasının qoşunları SSRİ-yə hücum edəndə ilk zərbə qərb hərbi dairələrinə vuruldu.

H.Aslanov müharibənin ilk günlərindən başlayaraq döyüşlərdə iştirak etmiş, dəfələrlə fərqlənmiş, medallarla təltif edilmişdir. 1941-ci ilin yayında müharibəni kapitan rütbəsində qarşılayan Aslanova artıq 1941-ci ilin sonuna podpolkovnik rütbəsi verilir. Moskva ətrafında aparılan döyüşlərdə Aslanov ilk ordeninə layiq görülmüşdür. Belə ki, onun komandanlıq etdiyi tank taboru almanların mühasirəsinə düşmüş iri sovet hərbi birləşməsini mühasirədən çıxarmışdır. Mühasirəni yararkən Aslanovun taboru düşmənə sarsıdıcı zərbələr vurmuşdur. O, həmçinin artıq partladılmaq üçün hazırlanmış 50 avtomaşın mərmi və sursatı mühasirədən çıxarmağa nail olmuş-

dur. Bu igidliyinə görə Həzi Aslanov Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir.

1942-ci ilin ağır döyüşlərində yüksək hərbi qabiliyyəti ilə fərqlənən Həzi 55-ci tank alayının komandiri təyin edilir və Rostov və Taqanroqda göstərdiyi şücaətlərə görə yeni orden və medallarla təltif olunur. Aslanovun sərkərdəlik məharətini görən ali komandanlıq öz hissəsi ilə müharibənin ən ağır nöqtəsinə – Stalinqrad şəhərinə göndərir. Stalinqrad şəhəri alınardısa, almanlar volqa çayını nəzarətdə saxlayar və SSRİ-nin Asiya hissəsinə keçə bilərdi. Bu səbəbdən də Stalinqrad mühüm strateji əhəmiyyətə malik idi. Odur ki, müharibənin ən ağır döyüşləri bu şəhərin payına düşür. Qüvvələr nisbətinin qeyri-bərabər olmasına baxmayaraq, Aslanov döyüşü qəbul edir və sovet qoşunlarının əsas hissələri köməyə gələnədək mövqelərindən çəkilmir. Bu igidliyə görə, o, SSRİ-nin ən ali mükafatı-Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Onun alayı "qvardiya tank alayı" adlandırılaraq sovet qoşunlarının say-seçmə hissələri sıralarına daxil edilir.

Kurs döyüşlərində Həzi sonralar "Aslanov fəndi" adını almış fəndini tətbiq etməyə başlayır. Belə ki, o, tankların tamamilə yeni düzülüş və döyüş formasını təklif edir və bu üsulun tətbiqi düşmən üzərində qələbə qazandırır. İndiyədək də hərbi məktəblər və akademiyalardan "Aslanov fəndi" adlanan həmin üsulu gələcək zabitlərə öyrədirlər.

Mahir sərkərdəlik qabiliyyətinə görə Aslanov SSRİ-nin paytaxtı Moskva şəhərinə göndərilir və orada Zirehli Tank Qoşunları Akademiyasını uğurla bitirir. Beləliklə, artıq polkovnik Aslanova iri tank birləşmələrinə komandanlıq etmək hüququ verilir.

1944-cü il döyüşlərində polkovnik Həzi Aslanov 35-ci qvardiya tank briqadasının komandiri vəzifəsində Belorusiya şəhərlərini işğalçılardan azad edir. O, döyüşlərdə Həzinin briqadası düşmənə sarsıdıcı zərbələr vurur, böyük sayda hərbi texnika və ləvazimat qənimət götürür. Həm sovet sərkərdələri, həm də almanlar o zaman onu "cinah zərbələrinin ustası" adlandırırmışlar.

1944-cü il iyunun 20-30-da məhz Aslanovun briqadası ilk olaraq Berezina çayını keçmiş və Pleşen şəhərini, eləcə də 508 digər yaşayış məntəqəsini düşmədən azad etmişdir. Bu döyüşlərdə fərqlənən Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunmuş və sənədləri rəhbərliyə göndərilmişdir.





Belorusiya tam azad ediləndən sonra Aslanov briqadası ilə Pribaltikaya göndərilir. Onun briqadası İ.X.Baqramyanın tabeliyinə verilir. Əslən Azərbaycandan olan, Şəmkirin Çardaqlı kəndində böyüyüb başa çatmış bu nankor erməni generalı azərbaycanlılara həmişə xor baxmış, bacarıqlı azərbaycanlılara qısqanclıq və paxıllıqla yanaşmışdır. Bu zaman döyüşlər Litva, Latviya, Estoniya ərazilərində gedirdi. Bu döyüşlərdə Aslanovun briqadası xüsusilə fərqlənmişdir.

1945-ci il yanvarın 24-də Mitava (indiki Yelqava) şəhəri yaxınlığında Həzi Aslanov ağır yaralı elan olunur: guya onun yanında top mərmisi partlamışdır. Müharibə iştirakçıları bilirlər ki, insanın yanında top mərmisi partlayanda partlayış dalğası və yüzlərcə qəlpə onun bədənini tanınmaz hala salır. Yaralanan anda Aslanovun əynində olmuş gödəkçə Azərbaycan Tarixi Muzeyində qorunur və həmin gödəkçənin yalnız ürək nahiyəsində cəmi bir dəlik vardır. Aslanovun müəmmalı şəkildə yaralanmasının səbəbləri indiyədək araşdırılmayıb.

Tibbi sənədlərdən aydın olur ki, Aslanovun yarası ölümcül deyilmiş və ona vaxtında yardım göstərilsəydi, həyatını xilas etmiş olarmış. Lakin Aslanova adicə sarğı qoyulur, cərrahi əməliyyatlar isə qeyri-müəyyən, daha doğrusu gülünc səbəblərdən ləngidilir. Nəticədə Həzi Aslanov qan itkisindən keçinir. Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi haqqında təqdimat sənədləri isə naməlum səbəbdən itirilir. Yalnız 1991-ci ildə, ölümündən 46 il sonra xalqımızın igid oğluna ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Müharibə illərində general-mayor Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı medalı, Lenin ordeni, 3 dəfə Qırmızı Bayraq, 2 dəfə Suvorov ordeni, Aleksand Nevski ordeni, 2 dəfə Qırmızı Ulduz ordeni, həmçinin müxtəlif medallarla təltif edilmişdir.

Həzi Aslanov Bakıda, Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycanın hərb tarixinə H.Aslanov cəsur döyüşçü, görkəmli sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk və yeganə azərbaycanlı, tank qoşunlarının tətbiqinin yeni üsul və metodlarını yaratmış şəxs kimi daxil olmuşdur.



## QARA QARAYEV

**(1918-1981)**

Azərbaycan, eləcə də dünya musiqi sənətinin inkişafında mühüm rol oynamış şəxslər arasında Qara Qarayevin adı xüsusi qeyd olunur. Fəaliyyəti dövründə opera, balet, kantata, simfonik poema, romans, müzikl, simfoniya, kütləvi mahnılar, kinofilmlərə və dram əsərlərinə yazılmış müxtəlif mövzulu, suitalar yaratmış görkəmli bəstəkar əksər əsərlərində milli musiqi ilə klassik və müasir musiqi üslublarının üzvi birliyinə, mövzuların romantik şərhinə nail olmuşdur. Bu xüsusiyyətlər onun yaradıcılığının aparıcı xətti, əsas prinsipləridir. Azərbaycan SSR Bəstəkarlar İttifaqının sədri, SSRİ Bəstəkarlar İttifaqının katibi işlədiyi dövrlərdə, Azərbaycan Dövlət Konservatoriyasında dərs dediyi müddətdə Qara Qarayev müasir Azərbaycan bəstəkarlıq məktəbinə başçılıq etmişdir. Bir çox Azərbaycan bəstəkarları onun yetirmələridir.

Qara Əbülfəz oğlu Qarayev 1918-ci ildə Bakıda anadan olmuşdur. Atası Azərbaycanın tanınmış uşaq həkimi, respublikada qadın və uşaq müalicə müəssisələrinin təşkilatçılarından biri olmuşdur. Uşaqda musiqiyə olan hədsiz həvəsi gördükdə ona həyatda seçdiyi yolla getməsinə maneçilik törətməmişdir.

Qara Qarayev ilk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki fəhlə fakültəsində almışdır. Bu fakültə ilkin musiqi təhsili verməklə bərabər, dinləyicilərini konservatoriyaya daxil olmaq üçün hazırlayırdı. 1933-1938-ci illərdə Qara Qarayev həmin konservatoriyada müvəffəqiyyətlə oxumuşdur. Burada ona tanınmış müəllimlərdən Azərbaycan xalq musiqisinin əsasları üzrə Üzeyir Hacıbəyli dərs demişdir. Artıq bu dövrdə o, özünün ilk musiqi əsərlərini yaratmağa başlamışdır. 1938-ci ildə yazdığı "Könül mahnısı" kantatası Azərbaycan musiqisində yeni düşüncəli bəstəkarın doğulmasını göstərdi.





XX əsrin 40-cı illərinin 2-ci yarısı Qara müəllimin yaradıcılığının yetkinləşmə dövrü olmuşdur. Bu dövrdə P.Çaykovski adına Moskva Konservatoriyasında D.Şostakoviçin bəstəkarlıq sinfində təhsil alan Q.Qarayevin yaratdığı musiqi əsərlərinin əksəriyyəti faşizm üzərində qazanılmış qələbə və bu qələbədə Azərbaycan xalqının rolunun tərənnüm edilməsi ilə bağlı olmuşdur. O, 1943 və 1946-cı illərdə 1-ci və 2-ci simfoniyalarını yazmış, 1945-ci ildə isə C.Hacıyevlə birgə "Vətən" operasını bitirmişdir.

1946-cı ildə P.Çaykovski adına Moskva Konservatoriyasında təhsilini başa vurduqdan sonra vətənə qayıdan Qara Qarayev Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlamışdır. Bəstəkarın yazdığı musiqi əsərləri dərin ideya-fəlsəfi məzmunu ilə dinləyiciləri cəlb edirdi. 1947-ci ildə yazdığı və zərifliyi ilə seçilən simli kvartetində aşıq və muğam sənəti xüsusiyyətləri əksini tapmışdır. Bəstəkarın melodik dilinin səlisliyi və ifadəliliyi ilə səciyyələnən "Leyli və Məcnun" simfonik poemasında Nizaminin eyniadlı əsərinin humanist ideyası ustalıqla ifadəsini tapmışdır. Yaratdığı əsərlərə görə Qara Qarayev 2 dəfə – 1946 və 1948-ci illərdə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Bəstəkar 1952-ci ildə "Yeddi gözəl" baletini Nizaminin eyniadlı poeması üzrə yazır. Bu balet sovet musiqisinin ən yüksək nailiyyətlərindən biri kimi qiymətləndirilir. Baletdə milli musiqinin məqam-intonasiya sistemi və balet janrının xüsusiyyətlərindən məharətlə istifadə olunmuşdur. 1952-ci ildə tamamladığı "Alban rapsodiyası"nda Qara Qarayev M.Qlinka və A.Rimski-Korsokovun simfonik lövhələrinə xas ənənələri inkişaf etdirmişdir. Onun novatorluq axtarışları Azərbaycan xalqının musiqi təfəkkürü xüsusiyyətlərinə,

eləcə də ötən əsrlərin bəstəkarlıq məktəbləri və musiqi cərəyanlarının ən yaxşı nailiyyətlərinə əsaslanırdı.

Bəstəkarın P.Abrahamsın eyniadlı romanı üzrə 1958-ci ildə yazdığı "İldırımlı yollarla" baleti onun yaradıcılığında tam yeni mərhələ idi. O, bu janrda ilk dəfə olaraq Cənubi Afrika xalqlarının azadlıq mübarizəsini təsvir etmiş, zəngin obrazlar yaratmış, onu müasir musiqinin mürəkkəb ifadə vasitələri ilə işləmişdir.

1953-cü ildə Azərbaycan SSR Bəstəkarlar İttifaqının sədri seçilən Q.Qarayev müasir Azərbaycan bəstəkarlıq məktəbinə başçılıq etmişdir. R.Hacıyev, A.Babayev, A.Məlikov, H.Xanməmmədov, X.Mirzəzadə, V.Adıgözəlov və digər Azərbaycan bəstəkarları onun yetirmələridir. Elmi fəaliyyətlə məşğul olan bəstəkar Azərbaycan musiqisinin inkişafı problemlərinə həsr olunmuş bir çox məqalə və məruzələr yazmışdır. O, həmçinin Ü.Hacıbəyovun, S.Prokofyevin, D.Şostakoviçin yaradıcılığına həsr olunmuş bir sıra elmi əsərlərin də müəllifidir. 1957-ci ildə konservatoriyanın professoru, 1959-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilən Qara Qarayev 1959-cu ildə həm də SSRİ xalq artisti fəxri adına layiq görülmüşdür.

1962-ci ildə SSRİ Bəstəkarlar İttifaqının katibi seçilən Qara Qarayev 1967-ci ildə Lenin mükafatına layiq görülmüşdür.

Klassik ənənələrə xüsusi diqqət verməklə yanaşı, ən müxtəlif formalara müraciət edən müəllif kütləvi mahnı və estrada musiqi janrlarında da əsərlər yaratmışdır. Q.Qarayevin musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri SSRİ-nin və bir sıra dünya teatrlarının səhnələrində tamaşaya qoyulmuşdur. 1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən bəstəkar 2 dəfə Lenin ordeni, həmçinin Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə də təltif edilmişdir.

Qara Qarayev 1981-ci ildə Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Azərbaycanın şanlı səhifəsinə Qara Qarayev istedadlı bəstəkar, görkəmli musiqişünas, pedaqoq və ictimai xadim kimi daxil olmuşdur.







## FİKRƏT ƏMİROV

**(1922-1984)**

Fikrət Məşədi Cəmil oğlu Əmirov 1922-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Əslən Şuşalı olan atası, Azərbaycanın tanınmış tarzəni, bəstəkarı idi. Musiqiçi kimi Mir Möhsün Nəvvabın musiqi məclislərində püxtələşən Məşədi Cəmil Pribaltikada işlədiyi dövrdə bir çox Azərbaycan muğamlarını qrammafon vallarına yazmış, bəzi muğamları İstanbulda nota salmışdır. O, musiqi təhsil ocaqlarının yaradılmasında fəal iştirak etmişdir.

F.Əmirov ilk təhsilini Gəncədə almış, burada Musiqi Məktəbinin tar sinfini bitirmişdir. Daha sonra 1938-1939-cu illərdə o, Bakıya köçərək Bakı Musiqi Məktəbində oxumuşdur. F.Əmirov ciddi şəkildə hazırlaşmağa başlamış, lakin 1941-ci ildə faşist Almaniyasının SSRİ-yə hücumu onun planlarını dəyişmişdir. O, yüz minlərlə soydaşı kimi cəbhəyə yollanmış və vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə nail olmuşdur. Qələbə ilə vətənə döndükdən sonra, bir neçə sənət dəyişərək, nəhayət, musiqiyə olan həvəsi üstün gəlir və o, yarımçıq qoyduğu işi davam etdirmək qərarını verir. Fikrət Əmirov Azərbaycan Dövlət Konservatoriyasına daxil olur və 1948-ci ildə professor B.Zeydmanın bəstəkarlıq sinfini uğurla bitirir. Hələ təhsil aldığı illərdə o, "Ürəkaçanlar" və "Gözün aydın" musiqili komediyalarını yazır. Əsərlərinin yüksək səviyyəsini nəzərə alaraq onu Azərbaycan Dövlət Filarmoniyasına bədii rəhbər təyin edirlər. Həmin dövrdə yazdığı konsertləri onun xalq mahnı və rəqs-

lərinin üslub xüsusiyyətlərindən necə sənətkarlıqla istifadə etdiyini göstərir və F.Əmirov özünü instrumental konsert janrında yazan ilk Azərbaycan bəstəkarı kimi tanıdır.

F.Əmirovun simfonik yaradıcılığı rəngarəngdir. 1947-ci ildə yazdığı "Nizami" simli simfoniyası fəlsəfi mahiyyət kəsb edir, öz lirizmi, təsirliliyi, aydın və incə musiqi üslubu ilə fərqlənir. O həm də simfonik muğam janrının yaradıcısı kimi tanınır. "Şur" və "Kürd ovşarı" simfonik muğamlarında ilkin mənbəyə istinad edərək bu əsərləri özünəməxsus bəstəkarlıq texinkası, yaradıcı təxəyyülü ilə zənginləşdirmiş, orkestr boyalarının əlvanlığına nail olmuşdur. Fikrət Əmirovun yaradıcılıq axtarışları qiymətləndirilmiş və o, 1949-cu ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Onun 1950-ci ildə yazdığı "Azərbaycan süitası" aşıq musiqisi intonasiyalarını, xalq rəqslərinin oynaq, gümrah ruhunu ifadə edir. 1953-cü ildə Fikrət Əmirov şah əsərlərindən biri olan "Sevil" operasını yazır. C.Cabbarlının eyniadlı pyesi üzrə yazılmış bu opera sovet operaları sırasında görkəmli yer tutur. "Sevil" operası Moskvada P.İ.Çaykovski adına konsert zalında Ümumittifaq Radiosu və Televiziyasının simfonik orkestri, xoru və solistləri tərəfindən 1963-cü ildə rus dilində ifa olunmuş, 1970-ci ildə ekranlaşdırılmış, 1977-ci ildə Səmərqənddə tamaşaya qoyulmuşdur.

1957-ci ildə F.Əmirov E.Nəzirova ilə birgə ərəb mövzuları əsasında fortepiano ilə orkestr üçün konsert yazır. Bu konsertin təravətli musiqisi, orkestrovkası və fortepiano partiyasındakı orijinal tapıntılar diqqəti xüsusilə cəlb edir. Bəstəkar kamera-vokal və instrumental musiqi janrında da bir sıra maraqlı əsərlərin müəllifidir.

Fikrət Əmirov "Şeyx Sənan", "1905-ci ildə", "Vaqif", "Xanlar", "Cavanşir" və s. dram tamaşalarına, "Şəhər", "Böyük dayaq", "Mən ki gözəl deyildim" kinofilmlərə yaddaqalan musiqi bəstələmişdir.

1956-1959-cu illərdə Azərbaycan Opera və Balet Teatrının direktoru işləmiş Fikrət Əmirov XX əsrin 60-cı illərində yazdığı yeni-yeni əsərləri ilə dinləyiciləri sevindirməklə davam edirdi. 1959-cu





ilə Azərbaycan Bəstəkarlar İttifaqının katibi seçilən F.Əmirov 1965-ci ildə SSRİ xalq artisti fəxri adına layiq görülmüşdür.

XX əsrin 70-ci illərində yazdığı əsərlərdə bəstəkar bu ənənəni davam etdirmişdir. "Nəsimi dastanı"nda o, xoreoqrafik poeması üçün faciəvilik, orijinal musiqi obrazları, dərin musiqi dramaturgiyasını ifadə edə bilmişdir. Onun "Xəzəri fəth edənlər" vokal-xoreoqrafik poeması Azərbaycan zəhmətkeşlərinin fədakar əməyinə həsr olunmuşdur. 1974-cü ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülən bəstəkar həmin ildə SSRİ Bəstəkarlar İttifaqının katibi seçilmişdir.

Fikrət Əmirovun əsərləri xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), K.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarına daxil olmuş, SSRİ-nin və bir çox xarici ölkələrin konsert salonlarında səslənmişdir. Fəaliyyəti illərində F.Əmirov Lenin ordeni və 2 dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

F.Əmirovun yaradıcılığı Azərbaycan musiqisinin inkişafında mühüm rol oynamışdır. Onun əsərlərində xalqın tarixi keçmişi və müasir həyatı dolğun əksini tapmışdır. Azərbaycan xalq musiqisinin bir çox nümunələrini nota salıb işləməkdən başqa, Əmirov ərəb musiqisi intonasiyaları və ritmlərindən bəhrələnərək "Min bir gecə" baletini yazmışdır.

Fikrət Əmirov 1984-cü ildə Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Azərbaycan musiqisinin inkişafında Fikrət Əmirovun yaradıcılığı mühüm yer tutur.

Azərbaycan salnaməsinə Fikrət Əmirov yaradıcılığı musiqi sənətinin müxtəlif janrlarını əhatə edən görkəmli bəstəkar kimi həkk olunmuşdur.



## YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

**(1887-1943)**

Yusif Vəzir Çəmənzəminli XX əsr Azərbaycan ədəbiyyatında hekayə və romanları ilə tanınan görkəmli yazıçıdır. O həm də tanınmış ədəbiyyat tarixçisi və folklorşünas olmuşdur.

Yusif Vəzir Çəmənzəminli 12 sentyabr 1887-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşada Molla Mehdinin mollaxanasında almışdır. On yaşında o, Şuşadakı realnı məktəbinə daxil olmuş, 1906-cı ildə Bakıya gələrək təhsilini burada davam etdirmişdir. 1910-cu ildə Kiyev Universitetinin hüquq fakültəsinə daxil olur və 1914-cü ildə həmin universiteti bitirmişdir.

Yusif Vəzir Çəmənzəminli 1914-1920-ci illərdə Azərbaycanın Türkiyədəki səfiri olmuşdur. 1920-1926-cı ildə o, Parisdə mühacirətdə yaşamışdır. 1926-cı ildə Bakıya qayıdan yazıçı 1934-cü ildə Yazıçılar İttifaqına üzv seçilmişdir. Yusif Vəzir 1940-cı ildə həbs olunmuş və Qorki vilayətinə sürgün olunmuşdur. Yusif Vəzir Çəmənzəminli 1943-cü ildə yanvarın 3-də vəfat etmişdir. 1956-cı ildə ona bəraət verilmişdir.

Y.V.Çəmənzəminli yaradıcılığa gündəlik yazmaqla başlamışdır. 1905-ci ildə qələmə aldığı "Bir cavanın dəftəri" gündəliyi xatirə ədəbiyyatı nümunəsidir. Burada Murad adlı bir gəncin başına gələnlərdən danışılır. Dəftər iki hissədən ibarətdir: "Şuşa" adlanan birinci hissədə Muradın Şuşada keçirdiyi darıxdırıcı həyatdan danışılır. "Aşqabad" adlanan ikinci hissədə Muradın Aşqabada səfərindən, ilk





məhəbbətindən, yeni dostları və görüşlərindən danışılır. Muradın taleyi yazıçının öz taleyi ilə yaxından səsləşir.

Y.V.Çəmənzəminlinin mətbuatda çap olunmuş ilk yazısı "Müdiri-möhtərəm" adlı məktubudur ("Molla Nəsrəddin" jurnalı, 1907-ci il, №3)/

Y.V.Çəmənzəminlinin çap olunmuş ilk hekayəsi "Şahqulunun xeyir işi" adlanır (1907-ci il). Əsər ailə-məişət mövzusundadır. Ədibin 1910-cu illərdə üç hekayə kitabı çap olunmuşdur: "Ağ saqqal", "Divanə", "Həyat səhifələri". Yusif Vəzirin "Cənnət qəbzi" hekayəsi daha məşhurdur. O, mühacirətdən qayıtdıqdan sonra "Keçmiş səhifələr" adlı hekayələr kitabını çap etdirmişdir. Mühacirətdə olarkən o, "Bir qaçqının dəftəri" adlı avtobioqrafik əsərini yazmışdır.

Yusif Vəzir Çəmənzəminli ədəbiyyatımızda daha çox romanlar müəllifi kimi tanınır. Yazıçının ilk romanı "Günah" adlanır (1914-cü il). Lakin ədib bu romanı çap etdirməmişdir. Yazıçının üç romanı var: "Studentlər", "Qızlar bulağı", "Qan içində" ("İki od arasında").

"Studentlər" – həcmcə ən böyük romandır. Əsər Oktyabr çevrilişi ərəfəsində xaricdə təhsil alan Azərbaycan gənclərinin həyatından bəhs edir. Bu gənclərin bəziləri (Əhməd, Salman) inqilabi hərəkata qoşulurlar.

"Qızlar bulağı" – ədəbiyyatımızda ilk tarixi-fəlsəfi romandır (1934). Əsər yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda yaşayan xalqların bir neçə min il əvvəlki adət-ənənələri, dünyagörüşləri və dini baxışları haqqındadır.

"Qan içində" romanı (1936-1937-ci illər). Müəllifin özünün romana verdiyi ad "İki od arasında" olmuşdur. Bu adla müəllif Qarabağ xanlığının bir tərəfdən İranın, digər tərəfdən çar Rusiyasının işğalına məruz qalmasına işarə etmişdir. Romanın mövzusu XVIII əsrin II yarısında Qarabağ xanlığının tarixindən götürülmüşdür. Əsərin ideyası vətənpərvərlik, vətənin müstəqilliyi və azadlığıdır.

Yusif Vəzir Çəmənzəminli həm də dövrünün görkəmli ədəbiyyatşünası olmuşdur. 1920-ci ildə Türkiyədə onun "Azərbaycan ədəbiyyatına bir nəzər" adlı kitabı çap olunmuşdur. Yazıçının şifahi xalq ədəbiyyatına aid müxtəlif məqalələri, tədqiqat əsərləri də vardır. Yusif Vəzir "Qaçaq Nəbi" və "Altunsaç" adlı iki kino-ssenari də yazmışdır.



## ÜMNİSƏ SÜLEYMAN QIZI MUSABƏYOVA

**(1902-1974)**

Ümnisə xanım Musabəyova 1936-cı ildə oftalmologiya üzrə doktorluq dissertasiyası müdafiə etmişdir.

1943-cü ildə professor seçilmişdir.

Professor Ü.S.Musabəyova 1945-1974-cü illər ərzində Azərbaycan Tibb İnstitutu oftalmologiya kafedrasının müdiri olmuşdur.

Professor Ümnisə Musabəyovun elmi tədqiqatları əsasən traxoma və qlankoma xəstəliklərinə, həmçinin görmə sinirinin patologiyasına həsr edilmişdir.

Professor Ü.S.Musabəyova 1962-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir.

Professor Musabəyova Sovet Sülhü Müdafiə Komitəsinin (1955-1974) üzvü, Azərbaycan SSR Oftalmoloqlar Cəmiyyətinin sədri (1957-1974) olmuşdur.

Professor Ü.S.Musabəyova 4-cü çağırış Azərbaycan SSR Ali Sovetinə, 5-6-cı çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir.

Professor Ü.S.Musabəyova göz xəstəliklərinə dair Azərbaycan dilində yazılmış ilk dərsliklərin müəllifidir.

Professor Ü.SMusabəyova 1957-ci ildə Azərbaycan SSR "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Professor Ü.S.Musabəyova "Lenin" ordeni və medallarla təltif edilmişdir.







## ZƏRİFƏ ƏZİZ QIZI ƏLİYEVA

**(28.04.1923—15.04.1985)**

Akademik Zərifə xanım Əliyeva 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirdikdən sonra Moskva şəhərində Helmqols adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçmiş, öz əmək fəaliyyətinə 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda ordinator vəzifəsindən başlamışdır.

Ötən əsrin 40-50-ci illərindən başlayaraq bir çox cənub rayonlarının əhalisi arasında traxoma xəstəliyi geniş yayılmışdı . Zərifə xanım Əliyeva traxomaya qarşı görülən bütün tədbirlərdə fəal iştirak edirdi. Gənc həkim ildə bir neçə dəfə ona həvalə edilmiş rayonlara gedir və buradakı çətinliklərə baxmayaraq, traxomaya qarşı nəzərdə tutulmuş bütün tədbirlər kompleksini inadla yerinə yetirirdi. Bu böyük praktiki iş Zərifə xanım Əliyevanın bir neçə elmi əsərlərinin əsasını qoymuşdur. Fəal elmi axtarışlar traxomanın və onun fəsadlarının bir neçə müalicə üsullarının meydana çıxmasına səbəb oldu. Bundan əlavə, topladığı zəngin materialın ümumiləşdirilməsi və təhlili 1959-cu ildə Zərifə xanım Əliyevanın "Traxomanın sintomitsinlə və ona uyğunlaşdırılmış digər terapevtik üsullarla müalicəsi" mövzusunda namizədlik dissertasiyasının müdafiəsi ilə nəticələnmişdir.

Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında işləyərkən, o, öz elmi axtarışlarını davam etdirirdi. Bu dəfə alimin elmi işləri əsas etibarı ilə respublikada əmələ gəlmiş mühüm bir problemə həsr olunmuşdur. O, neft və kimya sənayesi işçilərinin arasında yayılmış peşə xəstəliklərini öyrənməyə başlamışdır. Bu mürəkkəb işi o, Azərbaycan Repsublikası Elmlər Akademiyasının Fiziologiya İnstitutunun nəzdində yaradılmış laboratoriyada aparırdı.

Bu gərgin işin nəticəsi olaraq Zərifə xanım 1976-cı ildə Moskva şəhərində Helmqols adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Zərifə xanım Əliyeva elm sahəsinin görkəmli təşkilatçısı idi. Onun sonrakı elmi işləri oftalmologiyanın aktual problemləri sayılan sosial-professional oftalmologiyaya – gözün virus patologiyasına, şəkərli diabet nəticəsində göz dibində olan dəyişiklik və digər problemlərə həsr olunmuşdur.

Zərifə xanım 200-ə qədər elmi məqalənin, 10-dan çox monoqrafiyanın və bir çox səmərələşdirici təklifin müəllifidir. Onun təşəbbüsü ilə respublikada yeni oftalmoloji elmi mərkəzlər yaradılmışdır. 1980-ci ildə Lazer Cərrahiyyəsi Mərkəzinin yaradılması və inkişafı məhz onun təşəbbüsüdür. Peşə xəstəlikləri üzərində aparılmış bir sıra elmi axtarışlarına görə Zərifə xanım Əliyeva SSRİ Elmlər Akademiyası tərəfindən akademik M.İ.Averbax adına mükafatla təltif edilmişdir.

Zərifə xanımın ömür yolu bilməz-tükənməz, işıq kimi əbədiyyətə üz tutan yol oldu. İnsanın həyatda işıq qədər həyatı, işıq qədər ümidi, işıq qədər sevinci olacaq ikinci bir varlıq yoxdur. Zərifə ömrü işıqlı dünyamızın ömrü idi, işıqlı ürəyimizin ömrü idi, işıqlı gözlərimizin ömrü idi.







## SÜLEYMAN RƏHİMOV

**(1900-1983)**

Süleyman Rəhimov Azərbaycan bədii nəsrinin inkişafında böyük xidmətləri olan görkəmli yazıçılardandır. O, 1900-cü ildə Qubadlı rayonunun Əyin kəndində anadan olmuşdur. İlk təhsilini kənd mollaxanasından almış və sonra beşillik rus məktəbində oxumuşdur. Bir müddət rayon inqilab komitəsində mirzə işləmişdir. Sonra Şuşa pedaqoji kursunda oxumuş, oranı bitirdikdən sonra Qubadlı, Laçın, Zəngəzur rayonlarında müəllimlik etmişdir. Süleyman Rəhimov ali təhsilini Azərbaycan Dövlət Universitetində almışdır. Ali təhsil ocağını bitirdikdən sonra o, bir sıra məsul partiya və dövlət işlərində çalışmış, Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmişdir. S.Rəhimov Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

S.Rəhimov yaradıcılığa universitetdə oxuyarkən yazdığı "Şamo" romanı ilə başlamışdır. Romanın ilk variantı 1931-ci ildə nəşr edilmişdir. Yazıçı sonralar roman üzərində yenidən işləyərək onu dörd cilddə (I cild – 1940-cı il, II cild – 1949-cu il, III cild 1964-cü il, IV cild – 1978-ci il) çap etdirmişdir. Romanda xalq həyatı geniş və əhatəli şəkildə əks etdirilmiş, xalq xarakteri yaradılmışdır. Bu xüsusiyyətlərinə görə roman epopeya adlanır.

"Şamo" romanı inqilabi-tarixi mövzudadır. Əsər 1917-1920-ci illərdə Azərbaycan kəndində baş verən hadisələri geniş şəkildə əks etdirir. Yazıçı romanda Şehli kəndinin timsalında həmin dövrün Azərbaycan kəndində baş verən hadisələrin ümumi mənzərəsini

canlandırmışdır. Roman həmin dövrün mürəkkəb və ziddiyyətli hadisələrinin geniş təsvirini əks etdirən ilk epik əsərlərdən biri kimi bu gün də öz əhəmiyyətini itirməmişdir.

Yazıçının ikinci romanı "Saçlı"dır. Romandakı hadisələr 30-40-cı illərdə baş verir. Romanın baş qəhrəmanı həkim olan gənc bir qızdır. Əsərin qəhrəmanı Rüxsarə uzaq bir rayona işləməyə göndərilir. Onun uzun hörükləri olduğu üçün rayonda hamı ona Saçlı qız deyə müraciət edir. Rüxsarənin işlədiyi rayonda banditizmə qarşı mübarizə gedir. Rayon Partiya Komitəsinin katibi Tahir Dəmirov bu mübarizəyə başçılıq edir. Rüxsarə də əlinə silah alaraq, Zülmət kimi banditlərə qarşı mübarizədə iştirak edir. Roman üç hissədən ibarətdir və 1943-1949-cu illərdə nəşr edilmişdir.

S.Rəhimov müharibə dövründə "Medalyon" və "Aynalı" povestlərini yazmışdır. "Medalyon" povesti müharibə mövzusundadır. "Aynalı" povestində isə yazıçı Qaçaq Nəbinin və onun Həcərinin bədii obrazlarını yaratmışdır.

S.Rəhimov sonrakı dövrlərdə "Ağbulaq dağlarında", "Ana abidəsi", "Qafqaz qartalı" və "Mehman" povestlərini yazaraq çap etdirir. "Ağbulaq dağlarında" romanında müharibədən sonrakı Azərbaycan kəndinin həyatı təsvir olunur. "Ana abidəsi" müharibəyə həsr olunmuş əsərdir. "Qafqaz qartalı" romanı isə Qaçaq Nəbi və Həcərin həyatı və mübarizəsi haqqındadır. "Mehman" povestinin (1944) mövzusu prokurorun həyat və mübarizəsindən götürülmüşdür.

S.Rəhimovun bir sıra nəsr əsərləri isə satirik məzmundadır. Yazıçı "Şərbətalı", "Üzsüz qonaq", "Xoruzlu dəsmal" kimi povest və hekayələrində cəmiyyətdəki çatışmazlıqları satirik qələmlə təsvir edir. S.Rəhimov bütün əsərlərində şifahi xalq yaradıcılığından ustalıqla istifadə etmişdir.

S.Rəhimovun əsərləri özünün təsvir vasitələri ilə – bədii obrazlarla, lövhələrlə əks etdirən söz sənəti oxucusunun hisslərinin, bədii duyumunun zərifləşməsinə, zənginləşməsinə bilavasitə səbəb olur. Zaman keçdikcə nəsillər dəyişdikcə, zövqlər də müxtəlifləşir. Lakin S.Rəhimovun romanları və povestləri hər bir dövr üçün aktual olaraq qalır və gənclər tərəfindən sevilə-sevilə qəbul olunur. Bu baxımdan S.Rəhimov xoşbəxt yazıçılardandır.







## BAHADUR ƏSGƏR OĞLU EYVAZOV

**(1907-1998)**

B.Ə.Eyvazov dermotologiya sahəsində böyük xidmətləri olmuş tibb alimidir.

Bahadur Eyvazov 1936-cı ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1940-cı ildə professor elmi adı almışdır.

Professor B.Ə.Eyvazov 1940-cı ildə Azərbaycanın "Əməkdar həkim"i, 1956-cı ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Professor B.Ə.Eyvazov 1935-1937-ci illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığında Elm Tibb Təhsil İdarəsinə rəhbərlik etmişdir.

Professor B.Ə.Eyvazov 1938-1946-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Dəri-Zöhrəvi xəstəlikləri İnstitutunun direktoru, 1946-1964-cü illərdə isə N.Nərimanov adına ATİ-nin rektoru vəzifələrində işləmişdir.

Professor B.Ə.Eyvazov 1973-cü ildən ömrünün sonuna qədər Azərbaycan Elmi-Tədqiqat Hematologiya və Qanköçürmə İnstitutunun direktoru olmuşdur.

Professor B.Ə.Eyvazovun əsas elmi-tədqiqatları dəri-zöhrəvi xəstəliklərinin klinika və epidemiologiyasına, respublikanın kurort amillərinin (Naftalan nefti, Suraxanı kükürdlü suyu, Şıx mineral suyu, Şuşa iqlim kurortu və s.) öyrənilməsinə həsr edilmişdir. O, 2-ci və 5-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.



## SÜLEYMAN RÜSTƏM

**(1906-1989)**

Süleyman Rüstəm Azərbaycan sovet şeirinin inkişafında böyük xidmətləri olan sənətkarlardan biridir. Onun yaradıcılığında yeni həyatın və inqilabın tərənnümü, eləcə də Cənub mövzusu mühüm yer tutur.

Süleyman Rüstəm 1906-cı ildə Bakının Novxanı kəndində anadan olmuşdur. İlk təhsilini Bakıdakı rus-tatar məktəbində almışdır. Görkəmli şair təhsilini N.Nərimanov adına sənaye məktəbində və pedaqoji təmayüllü Zəhmət məktəbində davam etdirmişdir. O, 20-ci illərdə Bakı Dövlət Universitetində və Moskva Dövlət Universitetində də oxumuşdur. Süleyman Rüstəm Moskvada təhsil alan türk şairi Nazim Hikmətlə əlaqə saxlamış və onun "Günəşi içənlərin türküsü" adlı şeirlər kitabını Bakıda çap etdirmişdir (1928-ci il).

S.Rüstəm əmək fəaliyyətinə "Gənc işçi" qəzetində başlamışdır. O, 1926-cı ildə "Gənc qızıl qələmlər ittifaqı"nı yaratmışdır. Bir müddət inqilab və mədəniyyət jurnalında və "Ədəbiyyat" qəzetində məsul vəzifələrdə çalışmışdır.

S.Rüstəm 1938-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, 70-ci illərdə isə Ali Sovetin sədri olmuşdur. O, Azərbaycanın Xalq şairi və Sosialist Əməyi Qəhrəmanı fəxri adlarına layiq görülmüşdür.

Süleyman Rüstəm hələ sənaye məktəbində oxuyarkən "Molla Nəsrəddin" jurnalında kiçik satirik yazılarını nəşr etdirmişdir. Şairin





ilk şeiri "Unudulmuş gənc"dir (1923-cü il). Onun ilk kitabı 1926-cı ilə "Gənc qızıl qələmlər" adı ilə nəşr edilmişdir. Həmin ildə onun Almas İldırımla birgə "Dün-bu gün" kitabı da çap olunur.

Süleyman Rüstəmin "Ələmdən nəşəyə" adlı yeni kitabı 1927-ci ildə işıq üzü görür. Kitabda şair özü etiraf edir ki, o, ilk illər qəmli-kədərli şeirlər yazmışdır. Sonralar o, tezliklə qəmi ataraq şən əhval-ruhiyyəli və ictimai məzmunlu şeirlər yazmağa başlayır. Kitabın "Ələmdən nəşəyə" (Qəmdən sevincə) adlanması da bununla bağlıdır.

S.Rüstəmin 30-cu illərdə "Addımlar", "Səs", "Atəş", "Şairin səsi", "Ulduzlar", "Gecənin romantikası" adlı kitabları çap olunur.

1933-cü ildə şair "Yaxşı yoldaş" poemasını yazır. Poemada insanın dəyişməsində əməyin təsir gücü göstərilir. Poema əruz vəznində yazılmışdır.

Süleyman Rüstəm müharibə dövründə xalqı qələbəyə səsləyən bir sıra şeirlər yazır. Şairin bu dövrdə yazdığı şeirləri "Ana ürəyi", "Ana və poçtalyon", "Gün o gün olsun ki" kitablarında toplanmışdır. Onun "Döyüşçüyə məktub", "Ana ürəyi", "Qəhrəmanın vəsiyyəti", "Ayrılıq" şeirlərinin lirik qəhrəmanları həm cəbhədə vuruşan igid əsgərlər, həm də arxa cəbhədə çalışan insanlardır.

S.Rüstəmin "And", "Qafqaz ordusu", "416" şeirləri və "Qafurun qəlbi", "Əzizlərdən əzizlərə" poemaları da müharibə mövzusundadır. Onun müharibədən sonra yazdığı şeirləri "İki sahil" kitabında 1950-ci ildə çap olunmuşdur. SSRİ Dövlət mükafatına layiq görülmüş bu kitabdakı şeirlərin çoxu siyasi lirika nümunələridir. Kitabdakı şeirlərin bir hissəsi iki sahil – o taylı-bu taylı Azərbaycan mövzusundadır. Cənubi Azərbaycan mövzusu S.Rüstəmin lirikasında xüsusi yer tutur. Müharibə zamanı şair Sovet ordusunun tərkibində Cənubi Azərbaycanda olmuş və oradakı soydaşlarımızın istək və həsrətlərini yaxından duymuşdur. S.Rüstəmin "Yandı", "Dəymə", "Əyilmə", "Durnalar", "Zindan", "Yad gül dərə bilməz", "Şair" şeirləri də cənub poeziyasına aiddir. Şairin ustad Şəhriyara yazdığı mənzum məktubları da bu mövzudadır. O, cənub mövzusunda bir neçə kiçik poema da yazmışdır: "On ikinci tüfəng", "Gülbahar", "Memarın faciəsi", "Şairin ölümü". S.Rüstəm cənub poeziyasında

xalq mənafeyini müdafiə edən vətənpərvər bir şair kimi yadda qalır. Bu mövzuda 1941-ci ildə Təbrizə gələn şair "Təbrizim" şeirini yazır. "Təbrizim" şeiri şairin öz dilindən yazılmışdır. Şeirin lirik qəhrəmanı da şairin özüdür. Şeirdə Təbrizin şairi necə qarşılaması təsvir olunur. Şeirin əsas mövzusu Vətənin tərənnümüdür. S.Rüstəm 1985-ci ildə çap etdirdiyi cənub şeirləri toplusunu "Təbrizim" adlandırmışdır.

S.Rüstəm hələ gənc yaşlarında "Çimnaz xanım yuxudadır" adlı birpərdəli komediya yazmışdır (1922-ci il). Onun yazıçı Hacıbaba Nəzərli ilə birgə yazdığı "Yanğın" pyesi və "Durna", "Burda mənəm, Bağdadda kor xəlifə" komediyaları da vardır. Şairin ən məşhur dram əsəri isə "Qaçaq Nəbi" mənzum dramıdır (1940). Əsərdə qəhrəmanlıq və ədalətsizliyə qarşı xalq mübarizəsinin qələbəsinə dərin inam hissi ifadə olunduğu üçün böyük əhəmiyyətə malikdir.

S.Rüstəm ədəbiyyatımızda qabaqcıl və məsuldar şair kimi tanınmış və yaradıcılığının ən səciyyəvi – mütərəqqi xüsusiyyətləri qəhrəmanlıq, vətənpərvərlik və əməksevərliyin tərənnümüdür.







## KƏRİM KƏRİMOV

**(1917-2003)**

Kərim Abbasəli oğlu Kərimov 1917-ci ildə Bakıda anadan olmuşdur. Onun atası Peterburqda texniki təhsil almış və Azərbaycana qayıdaraq neft sənayesi sahəsində çalışmağa başlamışdır. Hələ orta məktəbdə oxuyarkən Kərim Kərimov radio texnikasına maraq göstərməyə başlamışdır. Radio XIX əsrin sonlarında icad edilsə də, onun Azərbaycanda yayılması işi ləngiyirdi. 1926-cı ildə Bakıda ilk radioötürücü və respublikanın müxtəlif məntəqələrində radioqəbuledicilər işə başladı. 1936-cı ildə Azərbaycan Sənaye İnstitutuna daxil olan Kərim Kərimov özü bir neçə radioqəbuledici düzəltmiş, bu istiqamətdə olan yeniliklərlə dərindən maraqlanmışdır. İstedadlı tələbə Azərbaycan radiosuna işə qəbul edilmiş, bir müddət işlədikdən sonra isə Mərdəkan radio qovşağının müdiri təyin olunmuşdur.

1941-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirən Kərim Kərimov elektromexanika üzrə mühəndis diplomu almışdır. Onun bəzi ideyaları hərbi mühəndisləri maraqlandırmışdır. Artıq bu dövrdə II Dünya Müharibəsi gedir. Sovet İttifaqı Almaniyanın təcavüzünə məruz qalmışdı. Radio-mühəndislərə cəbhələrə böyük ehtiyac duyulsa da, gənc mütəxəssisin istedadı nəzərə alınaraq 1942-ci ildə ona Dzerjinski adına Artilleriya Akademiyasına daxil olmaq üçün təyinat vermişlər. Maraqlıdır ki, bilikləri yoxlanıldıqdan sonra Kərim Kərimov birbaşa akademiyanın V kursuna daxil olmuşdur. Beləliklə, o, 1943-cü ildə bu təhsil müəssisəsini topçu-mühəndis ixti-

sası üzrə başa çatdırmışdır. O, ""Katyuşa" adı ilə tanınan BM-13 yaylım ataş qurğusu üzrə mütəxəssis kimi hazırlanmışdır. Qvardiya minaatan hissələrinin tərkibində olan bu qurğular Sovet İttifaqının ən güclü silahı kimi məxfilikdə saxlanılırdı.

Məhz həmin vaxtdan Kərim Kərimov həyatını raket texnikası ilə bağlamışdır. Ömrünün sonunadək o, raket texnikasının yaradılması və inkişafı naminə var gücü ilə çalışmış, zehni və fiziki qüvvəsini əsirgəməmişdir. Zavodlarda işlədiyi dövrdə onun yüksək təşkilatçılıq qabiliyyəti də özünü büruzə vermişdir.

1945-ci ildən SSRİ Müdafiə Nazirliyi sistemində raket texnologiyaları yaradan konstruktor büroları və zavodlarında çalışan Kərim Kərimov bir neçə elmi ixtiranın müəllifi olmuşdur. 1946-cı ildən başlayaraq o, ballistik raketlərin radio-ölçmə sistemlərinin yaradılması istiqamətində işlər aparmışdır. Onun araşdırmaları nəticəsində yaradılan raketlərin daxili parametrlərinə nəzarət edən "Don" radio-ölçmə sisteminin elmi-texniki göstəriciləri sonradan kosmik sənayedə tətbiq olunmağa başlanmışdır. Bu nailiyyətinə görə, Kərim Kərimov 1950-ci ildə ilk dəfə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Baykonur kosmodromunun əsası qoyulan gündən o, Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının tərkibinə daxil edilmişdir. Kosmik aparatların yaradılmasında, dünyada ilk dəfə insanın kosmosa göndərilməsində onun da rolu az olmamışdır. Nəticədə ilk kosmonavt Yuri Qaqarinin tarixi uçuşu uğurla başa çatdıqdan sonra Kərim Kərimov SSRİ-nin ən yüksək ordeni – Lenin ordeni ilə təltif olunmuşdur.

1945-ci ildə böyük mühəndis vəzifəsində çalışmağa başlayan Kərim Kərimov 1965-ci ildə Kosmik Vasitələr İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. Həmin ildə o, Ümumi Maşınqayırma Nazirliyinə ezam olunmuşdur. Yeni yaradılan bu nazirlik kosmik sənayenin bütün müəssisələrini özündə birləşdirirdi.

Lakin Kərim Kərimovun istedadını və təşkilatçılıq qabiliyyətini yüksək qiymətləndirən məşhur konstruktor S.P.Korolyov 1966-cı ildə təkidlə onun Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının





sədri təyin edilməsinə nail olmuşdur. O, bu məsul vəzifədə 25 il çalışmışdır. Kosmik uçuşlarla bağlı bütün sistemlərin hazırlığını yoxlayan, uçuşun başlanmasına icazə verən məhz Kərim Kərimov idi. Kosmik səyahətə çıxan və tapşırığı yerinə yetirib geri dönən uçuş heyətlərinin hesabatlarını qəbul edərək heç vaxt televiziya reportajlarına düşməyən şəxs də Kərim Kərimov idi.

1974-cü ildə Kərim Kərimov əsas vəzifəsi ilə paralel olaraq Mərkəzi Elmi-Tədqiqat Maşınqayırma İnstitutu direktorunun birinci müavini kimi elmi-təşkilatçılıq fəaliyyətinə qatılmışdır.

Azərbaycanla əlaqəni kəsməyən, Azərbaycan Elmlər Akademiyasının Aerokosmik Tədqiqatlar Mərkəzinə əlindən gələn köməkliyi göstərən general bir çox azərbaycanlı alimin bu sahədə fəaliyyət göstərib inkişaf etməsi üçün şərait yaratmışdır.

1991-ci ildə istefaya çıxan Kərim Kərimov ömrünün sonunadək kosmik sahə ilə əlaqəsini kəsməmiş, Uçuşları İdarəetmə Mərkəzinin məsləhətçisi olmuşdur.

İstehsalat-təşkilat və elmi fəaliyyətinə görə general-leytenant Kərim Kərimov Sovet İttifaqı Qəhrəmanı fəxri adına, iki dəfə Lenin ordeninə, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenlərinə layiq görülmüş və çoxlu medallarla təltif olunmuşdur. Kərim Kərimov iki dəfə dövlət mükafatı almışdır. O, həmçinin Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir.

General-leytenant Kərim Kərimov 2003-cü ildə 86 yaşında Moskvada vəfat etmiş və orada da dəfn olunmuşdur.

Azərbaycanın şanlı salnaməsinə Kərim Kərimov kosmik tədqiqatlar sahəsində general-leytenant rütbəsinə ucalan ilk azərbaycanlı, kosmik tədqiqatlar sahəsində bir çox yeniliklər etmiş ixtiraçı və alim, sovet kosmik tədqiqatları proqramının banilərindən və rəhbərlərindən biri kimi daxil olmuşdur.



## MEHDİ HÜSEYN

## (1909-1965)

Mehdi Hüseyn yeni dövr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri, xüsusilə də bədii nəsrin inkişafında böyük xidmətləri olan görkəmli sənətkardır.

Mehdi Hüseyn 1909-cu ildə Qazax mahalının Şıxlı kəndində anadan olmuşdur. İlk təhsilini kənd orta məktəbində almış, sonra Qazax Pedaqoji Texnikumunun hazırlıq kursuna daxil olmuşdur. Mehdi Hüseyn 1925-ci ildə ailəsi ilə Bakıya köçmüş və təhsilini burada davam etdirmişdir. Bakıda oxuyarkən onun müəllimlərindən biri Abdulla Şaiq olmuşdur. Mehdi Hüseyn Azərbaycan Dövlət Universitetində və Moskvadakı Kinometoqrafiya İnstitutunda da oxumuşdur. Müharibə illərində o, cəbhədə olmuş, əsgərlər qarşısında çıxışlar etmişdir.

Mehdi Hüseyn uzun müddət Azərbaycan Yazıçılar İttifaqının katibi və birinci katibi vəzifələrində çalışmışdır. Yazıçı 1964-cü ildə Türkiyədə səfərdə olmuş və "Bir ay və bir gün" kitabında səfər təəssüratını qələmə almışdır. O, yaradıcılığa hekayə ilə başlamışdır. Onun "Qoyun qırxımı" adlı ilk hekayəsi 1927-ci ildə "Şərq qadını" jurnalında nəşr olunmuşdur. Yazıçının "Xavər" adlı ilk kitabında (1930-cu il) hekayələri toplanmışdır. Kitabdakı "Bahar suları", "Qan intiqamı", "Xavər" hekayələrində kənddəki ictimai ziddiyyətlər, yeni həyat uğrundakı mübarizə öz əksini tapmışdır.

Yazıçının ilk iri həcmli əsərləri "Kin" povesti və "Daşqın" romanıdır. "Kin" povesti məhəbbət mövzusundadır. Laçınla Gülyaz bir-birini





sevirlər. Lakin Gülyazı zorla kəndin varlı adamlarından Səməd Muxtar oğluna ərə verirlər. Səməd Gülyazı döyür və incidir. O, Laçının atası Sadıq kişini öldürür. Axırda Laçın Gülyazı götürüb Bakıya qaçırır. Səməd Laçını öldürmək istəsə də, buna nail olmur və həbs olunur.

Mehdi Hüseynin "Komissar" povesti və "Səhər" romanı bir-birinə tamamlayan əsərlərdir. Hər iki əsərdə hadisələr 1905-1920-ci illəri əhatə edir. Povestin qəhrəmanı Məşədi Əzizbəyov, romanın baş surəti isə kənddən Bakıya işləməyə gələn və burada inqilabi hərəkata qoşulan Bayramdır. Hər iki əsər dövrün ideologiyasına uyğun yazıldığı üçün bir sıra hadisələrin təsviri həqiqətdən uzaqdır.

M.Hüseyn müharibə mövzusunda "Nişan üzüyü" hekayəsini, "Fəryad" və "Ürək" povestlərini yazmışdır. Müharibədən sonra yazıçının yazdığı "Abşeron" romanında (1948-ci il) Bakı neftçilərinin bədii obrazı yaradılmışdır. Yazıçının "Qara daşlar" romanı bəzi surətləri və mövzusu ilə "Abşeron" romanının davamıdır. Bu romanda şəxsiyyətə pərəstiş məsələsi də öz əksini tapmışdır.

Əsasən, nəsr əsərləri ilə məşhur olan M.Hüseyn bir sıra maraqlı dram əsərləri də yazmışdır. "Şöhrət", "Şamil", "Nizami", "Cavanşir", "İntizar" (İ.Əfəndiyevlə birgə), "Qardaşlar", "Alov". Yazıçının "Şamil", "Nizami" və "Cavanşir" pyesləri tarixi mövzudadır. "Şamil" pyesində Dağıstanın xalq qəhrəmanı Şeyx Şamilin çar Rusiyasına qarşı apardığı mübarizədən bəhs edilir. "Nizami" pyesində dahi Azərbaycan şairi Nizami Gəncəvinin bədii obrazı yaradılmışdır. "Cavanşir" pyesi tarixi-qəhrəmanlıq dramıdır..

Mehdi Hüseynin son dram əsəri olan "Alov" müasir mövzudadır. Əsərdəki hadisələr toxuculuq fabrikində baş verir. Əsərin əsas surətləri müstəntiq Kamalov, şəxsiyyətə pərəstiş dövrünün qurbanı olan mühəndis Cəlal Qaşqay, fabrik direktoru Əmin Bəxtiyarov və həkim Rəfiqədir.

M.Hüseynin "Şair" adlı kino-dramı da vardır. Baş qəhrəman şair Niyaz olan bu əsər inqilab mövzusundadır.

Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" son romanının mövzusu şəxsiyyətə pərəstiş dövründə baş verən hadisələrdən götürülmüşdür.

Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" romanı şəxsiyyətə pərəstiş dövrünün haqsızlıq və eybəcərlikləri haqqında yazılmış ən dəyərli əsərlərdən biridir.



# RƏSUL RZA

**(1910-1981)**

XX əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri də Rəsul Rzadır. Onun poeziyası forma rəngarəngliyi və dərin fəlsəfi məzmunu ilə seçilir.

Rəsul Rza 1910-cu ildə Göyçayda anadan olmuşdur. İlk təhsilini əvvəlcə Göyçayda, sonra isə Tiflisdə almışdır. 1930-cu ildə Bakıya gələn Rəsul Rza "Gənc işçi" qəzetinin redaksiyasında işləyir. Qəzetdə onunla yanaşı, dövrün bir sıra şair və yazıçıları da çalışmışdır. Şair həmin illər haqqında xatirələrini "Qızılgül olmasaydı" və "Xatirələr düzümü" poemalarında əks etdirmişdir. Rəsul Rza Azərbaycan Elmi-Tədqiqat İnstitutunda və Moskvadakı Millətlər İnstitutunda, Kino Akademiyasında oxumuşdur. Müharibə dövründə o, Krımda cəbhə qəzeti redaksiyasında işləmişdir. Rəsul Rza müxtəlif illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, Respublika Kinometoqrafiya naziri və uzun müddət Azərbaycan Ensiklopediyasının ilk baş redaktoru vəzifələrində çalışmışdır.

Rəsul Rza Azərbaycanın Xalq şairi və Sosialist Əməyi Qəhrəmanı fəxri adlarına layiq görülmüşdür. Rəsul Rza bir sıra əsərləri Ana dilimizə tərcümə etmişdir. Həmin tərcümələr sırasında Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması xüsusi yer tutur. Şairin "Bu gün" adlı ilk şeiri 1927-ci ildə Tiflisdə "Qığılcım" jurnalında nəşr olunmuşdur. Onun gənclik illərində yazdığı bir sıra şeirləri də





"Gənc işçi" qəzetində çap olunmuşdur. Rəsul Rzanın ilk ən məşhur şeiri "Bolşevik yazı" adlanır.

R.Rzanın ilk şeirlər kitabı "Çapey" 1932-ci ildə nəşr olunmuşdur. 30-cu illərdə şairin "Qanadlar" və "Çinar" topluları işıq üzü görür. Onun 30-40-cı illər yaradıcılığında siyasi lirika mühüm rol oynayır. Şairin siyasi lirikasının ayrıca bir qolunu isə beynəlxalq mövzuda yazdığı əsərləri təşkil edir. Şairin ilk kitabındakı "Çapey" poeması və sonrakı illərdə yazdığı "Cəlladları durdur", "Həbəşistan", "Madrid", "Almaniya", "Haray dostlar" və s. əsərləri bu mövzudadır. Müharibə illərində "Vətən", "Bəxtiyar", "İntiqam!.. İntiqam!..", "Qəzəb və Məhəbbət" kitablarını nəşr etdirmişdir. Şairin bu illərdə yazdığı şeirlərinin əsas mövzusu vətənpərvərlikdir. Onun "Vətən" kitabındakı şeirləri Vətənin monoloqu təsiri bağışlayır. Həmin şeirlərdə şair qəzəbli vətən obrazını yaratmışdır.

Rəsul Rzanın yeganə dram əsəri olan "Vəfa" pyesi 1943-cü ildə yazılmışdır. Əsər müharibə mövzusuna həsr olunmuşdur. Şairin ən məşhur əsərlərindən olan "Lenin" poeması Dövlət mükafatına layiq görülmüşdür. Onun 1965-ci ildə çap olunan "Mən torpağam" kitabındakı və eləcə də sonrakı onilliklərdə çapdan çıxan "Vaxt var ikən", "Duyğular, düşüncələr", "Pəncərəmə düşən işıq", "Dözüm" kitablarındakı şeirlərində şairin insanla bağlı fəlsəfi fikirləri üstünlük təşkil edir. Bu baxımdan şairin 1964-cü ildə qələmə aldığı "İnsan şəkli" şeiri xüsusi əhəmiyyətə malikdir. İnsan taleyi, onun mübarizəsi, mənalı həyat, sabah üçün narahatlıq Rəsul Rza poeziyasının əsasını təşkil edir.

R.Rzanın yazdığı poemalarının bir çoxu Azərbaycanın görkəmli söz-sənət ustadlarına həsr olunmuşdur. Şairin "Füzuli" və "Son gecə" poemalarında Füzulinin və Nəsiminin obrazları yaradılmışdır. Daha sonra "Xalq şairi" poeması Sabirə, "Xalq həkimi" poeması N.Nərimanova, "Qızılgül olmayaydı" poeması isə M.Müşfiqə həsr olunmuşdur.



## İLYAS ƏFƏNDİYEV

(1914-1996)

İlyas Əfəndiyev müasir dövr Azərbaycan dramaturgiyasının inkişafında böyük xidmətləri olan yazıçıdır. O, 1914-cü ildə Füzuli şəhərində anadan olmuşdur. İlk təhsilini doğma elində aldıqdan sonra o, bir müddət müəllimlik etmişdir. Ali təhsil almaq üçün Bakıya gəlmiş və burada Ali Pedaqoji İnstituta daxil olmuşdur. Ali məktəbi bitirdikdən sonra İ.Əfəndiyev "Ədəbiyyat qəzeti", "İnqilab və mədəniyyət" jurnalının redaksiyalarında, Azərbaycan Radio Komitəsində, kinostudiyada və Yazıçılar İttifaqında müxtəlif vəzifələrdə çalışmışdır. İlyas Əfəndiyev Azərbaycan Dövlət mükafatına layiq görülmüş, Xalq yazıçısı fəxri adını almışdır.

İ.Əfəndiyev yaradıcılığa hekayə ilə başlamışdır. 1939-cu ildə onun "Kənddən məktublar" adlı ilk hekayələr kitabı nəşr olunmuşdur. Yazıçının 40-cı illərdə qələmə aldığı "Durna", "Sən ey qadir məhəbbət", "Tar" hekayələrində müharibə dövrü insanlarının daxili aləmi öz əksini tapmışdır. Onun "Qarı dağı", "Apardı sellər Saranı" hekayələrinin mövzusu isə şifahi xalq ədəbiyyatında götürülmüşdür. Yazıçının "Yun şal", "Qırçı və Qızılgül" hekayələri lirik məzmunu və poetik obrazları ilə seçilir.

İ.Əfəndiyev 50-ci illərin sonlarından başlayaraq bir sıra maraqlı romanlar yazmışdır: "Söyüdlü arx", "Körpüsalanlar", "Sarıköynəklə Valehin nağılı", "Dağlar arxasında üç dost", "Geriyə baxma qoca", "Üçatılan".





Yazıçının "Söyüdlü arx" və "Körpüsalanlar" romanlarının qəhrəmanları ucqar rayonlarında çalışan mədəniyyət işçiləri, körpü salan, yollar çəkən qurucu insanlardır.

"Sarıköynəklə Valehin nağılı" romanının qəhrəmanları da gənclərdir. Romanın mövzusu bilavasitə tikinti ilə bağlı olsa da, müəllif insanların əxlaq və mənəviyyatındakı səciyyəvi cəhətlərin təsvirinə daha geniş yer vermişdir.

İ.Əfəndiyev yaradıcılığa nəsr əsərləri ilə başlasa da, sonralar dramaturgiyaya daha çox meyl etmiş və dramaturq kimi şöhrət qazanmışdır. Dramaturgiyamızda lirik-psixoloji üslubun inkişafı ən çox bu sənətkarın dram əsərləri ilə bağlıdır.

İ.Əfəndiyevin ilk dram əsəri müharibə dövründə M.Hüseynlə birgə yazdığı "İntizar" pyesidir (1943). Yazıçının müxtəlif illərdə yazdığı aşağıdakı dram əsərləri də vardır: "İşıqlı yollar", "Bahar suları", "Atayevlər ailəsində", "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Mənim günahım", "Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Xurşudbanu Natəvan", "Büllur sarayda", "Şeyx Xiyabani", "Tənha iydə ağacı", "Hökmdar və qızı".

İ.Əfəndiyev dram əsərlərində daxili təmizlik, mənəvi ucalıq kimi keyfiyyətlər aşılanır. Dramaturqun bəzi əsərlərində həyatda düzgün yol tutmayan, var-dövlət hərisi olan adamlardan da danışılır. Yazıçı bu cür adamların timsalında həmvətənlərinə ibrət dərsi verir, onları düzlüyə və təmizliyə çağırır. Bu baxımdan yazıçının "Qəribə oğlan" komediyasında da var-dövlət hərisi olan insanlardan danışılır. Bu əsər dramaturqun komediya janrında yazdığı yeganə dram əsəridir.

İ.Əfəndiyevin dram əsərlərinin əksəriyyəti böyük uğurla tamaşaya qoyulmuş və Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynamışdır.

## ZİYA BÜNYADOV

(1921-1997)



Azərbaycan şərqşünaslıq elminin korifeylərindən biri olan akademik Ziya Bünyadov Azərbaycan alimləri sırasında xüsusi yer tutur. II Dünya müharibəsində Berlinədək döyüş yolu keçmiş, dünya şərqşünaslıq elminə ölməz əsərlər bəxş etmiş Ziya müəllim fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayaraq orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınmış, vətəndə və ondan kənarda geniş oxucu kütlələrinin rəğbətini və məhəbbətini qazanmışdır.

Görkəmli şərqşünas alim, Azərbaycanda mediyevist tarixçi məktəbinin banisi və rəhbəri, haqqı nahaqqın ayağına verməyən, mərd insan və əsl vətəndaş Ziya Bünyadovun adı şanlı tariximizdə şərəfli yerlərdən birini tutur.

Ziya Musa oğlu Bünyadov 1921-ci ildə Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olmuşdur. Atası hərbi xidmətdə olduğundan ailə mütəmadi olaraq müxtəlif şəhərlərə köçürdü. Ziya orta məktəbi Göyçay şəhərində bitirmişdir. 1939-cu ildə Bakı Hərbi Piyadalar məktəbinə daxil olmuşdur.

1941-ci ildə faşist Almaniyasının SSRİ-yə hücumu ilə əlaqədar olaraq hərbi məktəblərdə zabitləri qısaldılmış kurslar əsasında hazırlayır və dərhal cəbhəyə göndərirdilər. Həmin ildə leytenant Ziya Bünyadov da təyinatla cəbhəyə yollanır. Əvvəlcə tağım, sonra isə bölük komandiri olmuş gənc zabit Şimali Qafqaz, Ukrayna, Moldoviya, Belorusiya ərazilərinin almanlardan azad edilməsində iştirak etmişdir. Döyüşlərdə o, kontuziya almış və iki dəfə yaralanmışdır. Polşa ərazisində gedən döyüşlərdə fərqlənmiş Ziya Bünyadov 1945-ci il fevralın 27-də Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Qələbədən-qələbəyə irəliləyən zabit Berlin uğrunda gedən döyüşlərdə də fərqlənmişdir.





1945-ci ilin mayında mayor Ziya Bünyadov Berlin şəhərinin Pankov rayonunun komendant köməkçisi təyin edilmişdir. O, Berlinin təsərrüfat və mədəni həyatının bərpa olunmasında fəal iştirakına görə Almaniyanın bir çox medalları ilə təltif edilmiş və fəxri adlara layiq görülmüşdür.

1946-cı ildə Sovet ordusu sıralarından tərxis olunan Ziya Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna daxil olmuş, orada təhsil almış, daha sonra 1950-ci ildə oranın aspiranturasına daxil olmuşdur. Elə o zaman da o, həyatını şərqşünaslıq elmi ilə bağlamaq qərarına gəlmişdir. Ziya Bünyadov məşhur şərqşünas alim Y.Belyayevin rəhbərliyi ilə namizədlik dissertasiyasını yazaraq 1954-cü ildə müdafiə etmişdir. Həmin ildə Bakıya qayıdan alim Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutunda baş elmi işçi vəzifəsində işə qəbul edilmişdir. 1958-ci ildən etibarən isə O, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin müəllimi kimi fəaliyyətə başlamışdır.

1960-cı ildə Ziya Bünyadov alban tarixçisi Mxitar Qoşun "Alban xronikası" adlı əsərini tərcümə edərək onun məhz alban müəllifi olmasını sübut etmiş və Mxitar Qoşu "erməni salnaməçisi" adlandırılanlara tutarlı cavab vermişdir. 1964-cü ildə o, "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Dissertasiya Azərbaycan tarixinin Ərəb xilafəti dövrünə dair sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi. Bu dərin tədqiqat Azərbaycan tarixini saxtalaşdırmağa çalışanlara, ilk növbədə erməni "tarixçilərinin" uydurmalarına tutarlı cavab olmuş, Azərbaycanın çətin tarixi dövrünün real hadisələrini bərpa etməyə imkan

vermişdir. Həmin ildə Ziya Bünyadov Yaxın və Orta Şərq Xalqları İnstitutunun Şərqin orta əsr tarixi şöbəsinə müdir təyin edilmişdir. 1965-ci ildə SSRİ Ali Attestasiya Komissiyası ona professor adı vermişdir.

1965-ci ildə "Azərbaycan VII-IX əsrlərdə" əsəri kitab şəklində nəşr edilib yayılmış və alimə Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tədqiqatçı və mütəxəssis şöhrətini qazandırmışdır. 1967-ci ildə Ziya Bünyadov Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. 1970-ci ildə alim "Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri" jurnalının baş redaktoru təyin olunmuşdur.

1971-ci ildə Ziya Bünyadov XIV-XV əsrlər Azərbaycan səyyahı Əbdürrəşid Bakuvinin əsərini tərcümə edərək elmi dövriyyəyə daxil etmişdir. Əsər Azərbaycanın tarixi coğrafiyasının öyrənilməsində ilkin mənbə kimi indiyədək öz aktuallığını itirməmişdir. 1973-cü ildə Ziya Bünyadov XIII əsr müəllifi Şixabəddin Nəsəvinin "Sirat Əs-Sultan" əsərini tərcümə edərək elmi dövriyyəyə daxil etmişdir. Qeyd etmək lazımdır ki, tərcümə etdiyi bütün əsərlərdə alim mətnin dəqiq tərcüməsi ilə kifayətlənmir, xüsusi əlavələrdə qədim terminlərin izahını verir, kitaba tarixi şəxsiyyətlər və coğrafi adlar haqqında müfəssəl məlumatlar da yazır. Nəsəvinin əsərində Azərbaycan tarixinin ən qanlı dövrlərindən biri – monqolların vətənimizə yürüş etdiyi dövr haqqında söhbət açılır. Əsərin elmi dövriyyəyə daxil edilməsi bu dövr tarixinin bir çox qaranlıq qalan məqamlarını araşdırmağa imkan verir. 1976-cı ildə Ziya Bünyadov Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmişdir.

1978-ci ildə Ziya Bünyadov "Azərbaycan Atabəylər dövləti (1136-1225)" adlı monoqrafiyasını nəşr etdirmişdir. Alimin çoxillik əməyinin məhsulu olan bu sanballı tədqiqat işində səlcuq dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafı araşdırılmışdır. Əsər 1980-ci ildə dövlət mükafatına layiq görülmüşdür.

1982-ci ildə Ziya müəllim Azərbaycan SSR əməkdar elm xadimi fəxri adını almaqla bərabər, Türkiyə Respublikasının Türk Tarix Qurumunun müxbir üzvi seçilmişdir.





Elmi əsərləri İraq, Fransa və Türkiyədə nəşr olunmuş alim SSRİ-nin ərəb ölkələri ilə dostluq cəmiyyətinin rəyasət heyətinin vitse-prezidenti seçilmişdir.

1988-ci ildə Aral dənizinin xilas edilməsi sahəsindəki gördüyü işlər və türk xalqlarının tarixinin öyrənilməsi istiqamətindəki fəaliyyətinə görə Z.Bünyadov "Urgənc şəhərinin fəxri vətəndaşı" adına layiq görülmüşdür. Həmin ildə Azərbaycan SSR Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru təyin edilmiş alim 1990-cı ildə akademiyanın vitse-prezidenti seçilmişdir. 1990-cu ildə o, "Qurani-Kərim"i Azərbaycan dilinə çevirmiş. 1993-cü ildə A.Bakıxanovun "Gülüstani-İrəm" əsərini elmi təfsir və şərhlərlə nəşr etdirmişdir.

Azərbaycanın müstəqillik uğrunda başladığı mübarizə şəraitində, Qarabağ münaqişəsinin qızışdığı bir dövrdə alim əsl vətəndaş mövqeyi tutaraq müstəqilliyimizin və ərazi bütövlüyümüzün təmin olunması istiqamətində fəaliyyət göstərmişdir. 1995-ci ildə o, Milli Məclisə deputat seçilir.

Ziya Bünyadov Azərbaycanda mediyevist tarixçilik məktəbinin banisi və rəhbəri olmuş, ümumilikdə 540 elmi əsər – monoqrafiya, məqalə və s. yazmış, tərcümələr etmişdir. Onun rəhbərliyi altında 35 dissertasiya müdafiə olunmuşdur. O, həmçinin İraq və Suriya respublikaları üçün yüksəkixtisaslı kadrlar hazırlanmasında da böyük rol oynamışdır.

Fəaliyyəti dövründə Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov Lenin ordeni, Qırmızı ulduz, Qırmızı bayraq, 2-ci dərəcəli Aleksandr Nevski və 1-ci dərəcəli Vətən müharibəsi ordenlərinə, medallara, həmçinin müstəqil Azərbaycanın ən yüksək mükafatı sayılan "İstiqlal" ordeninə layiq görülmüşdür.

1997-ci ilin 21 fevralında akademik Ziya Musa oğlu Bünyadovun həyatına qəsd edilmiş, o, muzdlu qatillər tərəfindən öz evinin astanasında faciəli şəkildə qətlə yetirilmişdir.



## TOFİQ İSMAYILOV

**(1933-1991)**

XX əsr Azərbaycan elminin inkişafında akademik Tofiq İsmayılovun böyük xidməti vardır. Qapalı hərbi-sənaye müəssisələrində çalışmış, o dövrdə yeni olan kosmik tədqiqatlarla ciddi məşğul olmuş alim, sovet-kosmik aparatlarında tətbiq edilən bir sıra cihazların yaradılmasında iştirak etmişdir. Azərbaycanda kosmik tədqiqatları genişləndirən, burada bu sahə ilə bağlı elmi-tədqiqat və elmi-istehsalat müəssisələri yaradan Tofiq İsmayılov Azərbaycanlı alimlərin təkcə ənənəvi elm sahələrində deyil, ən yeni tədqiqat sahələrində də uğurlar qazandığını sübut etmişdir.

1951-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirən T.İsmayılov Moskva Rabitə Elektrotenika İnstitutuna daxil olur. Onun təhsil aldığı radiotexniki fakültə ən perspektivli hesab olunur, buranı bitirən bir çox tələbələr təkcə Rabitə Nazirliyi xətti ilə deyil, SSRİ-nin güc nazirliklərində işə götürülürdülər. Təbii ki, bunun üçün onlardan öz işlərinin peşəkarı olmaq tələ olunurdu.

1956-cı ildə institututu bitirən T.İsmayılov Moskva hərbi-sənaye kompleksinə aid qapalı müəssisədə çalışmağa başlayır. Qısa müddət ərzində burada sex rəisi vəzifəsinədək yüksəlir. Moskvanın ictimai-siyasi həyatında fəal iştirak edən İsmayılov Moskvanın Frunze rayonu şurasının deputatı seçilir.

Əmək fəaliyyətini davam etdirməklə yanaşı T.İsmayılov 1959-cu ildə Moskvada apiranturaya daxil olur. Onun sahəsinə aid qapalı hərbi-sənaye müəssisəsi Bakı şəhərində açılanda isə o, Bakıya təyinat alır və 1965-ci ildə doğma şəhərə qayıdır. O, 1966-cı ildə Azərbaycan SSR Elmlər Akademiyasına işə dəvət olunur. 1969-cu ildə namizədlik dissertasiyasını müdafiə edən İsmayılov Elmlər Akademiyasında işi ilə paralel olaraq Politexnik İnstitutunun Radiotexnika kafedrasında dərs deyirdi.





1973-cü ildə onun rəhbərliyi ilə Elmlər Akademiyasında “Kaspi” Elmi-texniki Mərkəzi yaradılır. Mərkəz 1975-ci ildə Azərbaycan SSR Elmlər akademiyası nəzdində Aerokosmik İnformasiya Elmi-Tədqiqat İnstitutuna çevrilir. Tofiq İsmayılov İnstitutun direktoru təyin olunur.

Çox az adam bilir ki, bütün dünyada ən mükəmməl sayılan sovet kosmik aparatlarında Azərbaycanda Tofiq İsmayılovun rəhbərlik etdiyi institutda layihələndirilmiş və elə ölkəmizdə də istehsal edilmiş müxtəlif cihazlar qoyulmuşdur. Tam əminliklə demək olar ki, Azərbaycanda Aerokosmik aparatların əsasını məhz Tofiq İsmayılov qoymuşdur.

1978-ci ildə Aerokosmik İnformasiya Elmi-Tədqiqat İnstitutu, ona tabe olan bütün müəssisələrlə birgə, Azərbaycan Aerokosmik Agentliyi statusunu almışdır. Respublikada T.İsmayılovun rəhbərliyi altında ən iri elmi mərkəzlərdən birinə çevrilən agentlik artıq ümumdünya əhəmiyyətli tədqiqatlar aparırdı. Kosmik aparatların uçuşlarını tənzimləyən elmi cihazlarla bərabər, agentlik kosmik fəzadan yer və su səthinin müşayiət edilməsi, okean və dənizlərin dibinin öyrənilməsi, planetimizin ekoloji durumunun müəyyən edilməsinə imkan verən cihazlar yaradır və istehsal edirdi.

Hələ XX əsrin 70-80-cı illərində T.İsmayılov Xəzər dənizi və ətraf ərazilərə təhlükə yarada biləcək amillər barəsində xəbərdarlıq etmiş, onların qarşısının alınması yollarını göstərmişdir. Məhz Tofiq İsmayılovun təşəbbüsləri və onların həyata keçirilməsi ilə Azərbaycanda kosmik təbiətşünaslığın əsası qoyulmuşdur.

1979-cu ildə Tofiq İsmayılov doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir, texnika elmləri doktoru adına və professor elmi dərəcəsinə layiq görülür. Çox keçmədən, ixtira etdiyi cihazların birinin böyük əhəmiyyəti nəzərə alınaraq, ona Azərbaycan SSR Dövlət mükafatı verilir. Əməkdar elm xadimi adına layiq görülən alim 200-dən artıq elmi əsər yaratmış, onun müəllifi olduğu monoqrafiya və elmi məqalələrin bir çoxu indi də öz aktuallığını

itirməmişdir. 1989-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki yüksək elmi adına layiq görülən alim Beynəlxalq Mühəndis Akademiyasının üzvü seçilmişdir. O, Sovet İttifaqının bir çox orden və medallarına layiq görülən alim kosmonaftika sahəsində ən görkəmli təltif nişanları sayılan K.G.Siolkovski, S.B.Karalyov və Y.A.Qaqarin medalları ilə təltif olunmuşdur.

Görkəmli alim respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirdi. Azərbaycan SSR Ali Sovetinin deputatı seçilən T.İsmayılov ölkəmizdə baş verən proseslərə daim həssaslıqla yanaşırdı. Ermənistanın Azərbaycana təzavücü Qarabağ və ətraf əraziləri Azərbaycandan qoparıb Ermənistana birləşdirmək kimi cəfəng şüarlar onu narahat etməyə bilməzdi. Moskvada Sovet İttifaqı rəhbərliyinin ikili siyasətinin, erməni siyasətbazlarının oyunlarının dəstəklənməsini görən alim bütün bunların Azərbaycana necə böyük təhlükə törədəcəyini yaxşı anlayırdı. Xaqın ümidi Tofiq İsmayılov kimi ziyalılara idi. 1991-ci ilin oktyabrında Azərbaycanda müstəqillik ab-havası artıq hiss ediləndə müstəqil dövlətə tələb olunan strukturalar yaradılmağa başlandı. Oktyabrın 16-da Tofiq İsmayılov dövlət katibi təyin edildi, oktyabrın 18-də isə Azərbaycan Respublikası müstəqil dövlət elan olundu.

Azərbaycan Respublikasının üzləşdiyi ən böyük təhlükə erməni təcavüzünün genişlənməsi idi. Rəhbərliyə öz ordumuzun yaradılmasının vacibliyini sübut etmək üçün respublikanın yüksək çiyinli məmurları Yuxarı Qarabağa yollandılar. Dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, Daxili İşlər Naziri Məhəmməd Əsədov, digər hökumət nümayəndələri bir vertolyotla, heç bir mühafizə olmadan, təhlükəzislik tədbirləri həyata keçirilmədən Yuxarı Qarabağa göndərildilər. 1991-ci il noyabrın 20-də Ağdamın Qarakənd kəndi üzərində vertolyot vuruldu. Onun içərisində olanların hamısı həlak oldular.

Tofiq İsmayılov xalqın qəlbində görkəmli alim, Azərbaycanda Aerokosmik tədqiqatların əsasını, həmçinin kosmik təbiətşünaslığın əsasını qoymuş akademik, tanınmış ictimai xadim, vətənpərvər dövlət xadimi kimi həmişə yaşayacaqdır.







## MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR

**(1906-1988)**

Məhəmmədhüseyn Şəhriyar XX əsr Azərbaycan və bütün İranın ən görkəmli şairlərindən biri idi. O, Təbrizdə məhkəmə vəkili Hacı Mirağa Xoşginablının ailəsində doğulmuşdur. Uşaqlığı ata yurdunda – Xoşginab mahalında keçmişdir. Atası ona Şərq ədəbiyyatından seçmələri, xüsusən Sədinin əsərlərini dərindən öyrətmişdir. Şəhriyar bir müddət kənd məktəbində oxuduqdan sonra təhsilini davam etdirmək üçün Təbrizə qayıtmışdır. O, mədrəsə təhsili almaqla yanaşı, musiqi dərslərində iştirak etmiş, həmin dövrdə xəttatlığın sirlərini də mənimsəməyə çalışmışdır. Məhəmmədhüseyn sonra Tehran Universitetinin tibb fakültəsinə qəbul olunmuşdur. Universitetdə oxuyarkən varlı qızı Sürəyyanı sevdiyi üçün təzyiqlərə məruz qalmış və universiteti yarımçıq qoymuşdur. O, ilk şeirlərini də o vaxtlar yazmışdır. Şairin birinci şeir kitabı 1931-ci ildə Tehranda çap olunmuşdur. Seyid Məhəmmədhüseyn bir müddət İranın Nişapur və Məşhəd şəhərlərində yerli idarələrdə və banklarda işləmişdir. Şair 1934-cü ildə atasını, sonra isə anasını itirmişdir. Bu ağrı və üzüntülərə "Atamın matəmində", "Eyvay anam" şeirlərini yazmışdır.

Şəhriyar əsərlərinin çoxunu fars dilində yazmışdır. Şairin farsca yazdığı lirik şeirləri məşhur qəzəl ustası XIV əsrdə yaşamış Hafizdən sonra İran lirikasının ən gözəl nümunəsi sayılır. Şəhriyarın farsca lirikasında qəzəl janrı əsas yer tutur. Bununla bərabər onun ictimai məzmunlu lirik şeirləri də çoxluq təşkil edir. Belə şeirlərində

o, ölkədəki zülm və ədalətsizliyi, ictimai bəlaları yana-yana qələmə alır.

Şəhriyar bir sıra məsnəvilər də yazmışdır. O, "Elm və hikmət", "Kəmalülmülkün ziyarəti" məsnəvilərində yaradıcı ziyalıların acınacaqlı taleyindən bəhs edir. "Gecənin əfsanəsi", "Qardaşım oğlu Hüşəngə" məsnəviləri fəlsəfi məzmun daşıyır. Şairin müharibə mövzusunda "Stalinqrad qəhrəmanları" adlı poeması vardır.

Şəhriyarın ana dilində yazdığı şeirləri "Divani-türki" adlı kitabında toplanmışdır. Bu şeirlərin bir qismi qəzəl janrındadır. Şair ana dilindəki bir sıra şeirlərini Şimali Azərbaycanda yaşayan qələmdaşlarına – Süleyman Rüstəmə, Məmməd Rahimə, şərqşünas alim Rüstəm Əliyevə mənzum məktub şəklində yazmışdır. Onun "El bülbülü", "Döyünmə-söyünmə", "Qafqazlı qardaşlar ilə görüş", "Gözüm aydın" kimi şeirlərində Arazın bu tayındakı qardaşları ilə görüşmək istəyi ifadə olunmuşdur. Bu baxımdan şairin "Ayrılıq" şeiri xüsusi əhəmiyyətə malikdir:

Bizi yandırır yaman ayrılıq,
Bu darıxdıran duman ayrılıq.
Başa sovurur saman ayrılıq,
Aman ayrılıq, aman ayrılıq.

Farsca yazıb-yaradan şairin doğma dilimizdə – Azərbaycan dilində qələmə aldığı "Heydərbabaya salam" poeması aydın səmada ildırım kimi çaxdı. Bu əsərin meydana gəlməsi böyük ədəbi hadisə oldu. Cənubi Azərbaycanda yaşayan soydaşlarımız ana dilində əsərlər yazmağa ruhlandılar. Bu poema milli hisslərin coşmasına güclü təkan verdi. Həm cənubda, həm də şimalda "Heydərbabaya salam"a çoxlu cavablar qələmə alındı.

İki hissəyə parçalanan Azərbaycanın yanıqlı taleyi, həmvətənlərinin həsrəti və hüquqsuzluğu Şəhriyarı ciddi düşündürən və əsərlərində öz əksini tapan məsələlərdəndir.

Poema Heydərbaba dağına müraciətlə yazılmışdır. Poemanın əsas hissəsini şairin uşaqlıq illərinin xatirələri təşkil edir. "Heydər-





babaya salam" poemasında adət-ənənələrin, el mərasimlərinin, təbiət gözəlliklərinin təsviri əsas yer tutur. Poemada şair onlarla yaxın adamını xatırlayır, onlardan doyunca söz açır. Poemanın mərkəzi surəti şairin özüdür. Poemanın ən başlıca xüsusiyyətlərindən biri xalqın gələcəyinə dərin inam hissinin ifadəsidir. Şair Heydərbaba dağının timsalında bütöv Azərbaycanı ümumiləşdirərək, xalqın mərd oğulları sayəsində öz səadətinə qovuşacağına inanır. Əsərin əsas ideyası vətənpərvərlik, doğma yurda sonsuz məhəbbət hisslərinin aşılanmasıdır.

Ustad Şəhriyar Azərbaycanın təbii gözəlliklərini əlvan boyalarla təsvir edir. Onun aşılmaz uca dağlarının, keçilməz gur çaylarının bədii tablosunu yaradır. Azərbaycanın daşı, torpağı, suyu, səması, şairin fikrincə, dünyanın yaraşığıdır, dünya gözəlliyinin tacıdır.



## BƏXTİYAR VAHABZADƏ

(1925-2009)

Bəxtiyar Vahabzadə 1925-ci ildə Şəki şəhərində anadan olmuşdur. Azərbaycanın Xalq şairi, dramaturqu və ədəbiyyatşünasıdır. 1949-cu ildən onlarla kitabı nəşr edilib. Azərbaycan Elmlər Akademiyasının müxbir üzvi olub. SSRİ və Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

B.Vahabzadə çağdaş şeirinin tarixinə müharibədən sonrakı nəslin nümayəndəsi kimi daxil olub. Aprel çevrilişinin, "37" deyilən dövrün, dünya müharibəsinin imtahanından çıxan milli şeiri daha sonrakı "dinc illər"in, əxlaqi axtarışlar, texniki inqilab, "yenidənqurma", azadlıq hərəkatı və suverenlik deyilən dövrlərin sınağında qoruyub saxlamaq bu nəslin öhdəsinə düşüb. Nəslinin uğurlarını daha qabarıq ifadə etmək isə bir şair kimi Bəxtiyar Vahabzadəyə nəsib oldu. Məhz nəslinə, xalqına, kökünə bağlılıq, təkrarsız, fərdi, milli çalar Bəxtiyar şeirini çağdaş Azərbaycan poeziyasının tarixi bədii faktına və hadisəsinə çevirib, ondan müasir Şərq və dünya şeir prosesinin məcrasında danışmağa əsas və haqq verib.

Bəxtiyar deyəndə – "Milli şair" və "Milli şeir" sözü beynimizdə canlanır. Niyə "Milli şeir"? kimdir "milli şair"?. Bu suallara çox dolğun cavab, görkəmli alim Yaşar Qarayevin Bəxtiyar şəxsiyyəti və onun şeiri haqqında vermişdir: "Məncə, yalnız millətin adından danışmaq haqqını qazanan şair "Milli şair" olur. Xalqın dərd-sərini





xalqla bölməyən, vətən parçalananda ürəyi parçalanmayan şairə necə "milli şair" demək olar?! Bəxtiyar Vahabzadə bu haqqı hələ əllinci illərdən – "Gülüstan" poemasını yazdığı vaxtdan qazanıb. Vətənin iki yerə bölünməsinin tarixi "Gülüstan" müqaviləsi ilə başladığı kimi, onun ürəyi parçalanan şairin də ağrısı və hayqırtısı "Gülüstan" poeması ilə başlayıb:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver!" dedi.
Lap yaxşı eyləyib doğrudan bizə,
Biri "baron" dedi, biri "xəp" dedi.

Bütövlükdə o illərin poeziyasında "Gülüstan" təzə bir hadisə idi və tamamilə yeni səpkili bir şairin sənət meydanına qədəm qoyduğunu xəbər verirdi: Sadəcə olaraq mövcud poetik adlar siyahısına növbəti bir ad, imzalar içinə təzə imza əlavə olunmurdu, yox, poeziyaya milli narahatlığın tərcümanı, xalqın "dərdinin dəlisi", azadlıq, istiqlal uğrunda mübarizənin əsgəri, "vəkil"i daxil olurdu:

Bilmirəm bu millətə
Vəkil etdi kim məni?!

Bu sözlər altmışıncı illərdə yazılmışdı və şairin rəsmən millət vəkili olmasına onda hələ çox qalırdı. Lakin o zamanda Bəxtiyar Vahabzadə özünü sənət mehrabında eşq, gözəllik aşiqi kimi yox, savaş meydanında istiqlal və azadlıq əsgəri hesab edir. Və poeziyada ona yalnız "İstiqlal" adlı ünvana, mənzil başına aparan cığır, yol kimi lazım olur. Daha doğrusu, millətin azadlığını milli poeziyanın böyük idealına o illərdə hamıdan çox Bəxtiyar Vahabzadə çevirib".

Bəxtiyar şeiri oxunanda yox, dinlənəndə daha sehrlidir. Burada səsin təsiri sözün cazibəsindən güclüdür. O, bir də məhz bu mənada səsin hikmətini vaxtında və dərindən duyan, müqəddəs, uca tutan şairdir. Onun pyeslərində bir sıra obrazların ancaq səsi eşidilir,

özü görünmür: "İkinci səs", "Dar ağacı", "Yağışdan sonra", "Fəryad" və s.

B.Vahabzadə yaşadığı mühitdə hamı ilə mehriban, dostluq şəraitində, təkcə özü ilə, daxili aləmi ilə amansız və ciddi ziddiyyətlər yaşamışdır. Bu baxımdan o, xoşbəxt şəxsiyyətdir. Çünki məlumdur ki, ətrafla həmişə cəngi-savaş edən heç də cəmiyyət tərəfindən yaxşı qəbul olunmur, daxillə savaşdan isə lirik poeziya yaranır. Şair ömrü boyu həmişə özü ilə savaşda olub:

Mən haqq-hesab istəmirəm,
Gecələr gündüzümdən;
Narahatam, narazıyam
Ömrüm boyu özümdən.

"Bircə ondan razıyam ki, özümdən narazıyam" deyən şair yalnız "daxili" ilə deyil, şairlə rəsmi ictimai qurumlarla problemini nəzərdə tutub. Əsasən, "Gülüstan", "Latın dili", "Yollar-oğullar", "Dan yeri", "Qara qutu", "Amerika gözəli", "Mərziyə" əsərləri M.Vahabzadə ilə müvafiq rəsmi dairələr arasında çətin problemlərin yaşanmasına gətirib çıxartmışdır. Bütün bu çətinliklərə baxmayaraq, şair heç vaxt öz "Milliliyindən əl çəkməmiş və onu qanının, canının bahasına da olsa, şərəflə və qürur hissi ilə şeirlərində təsvir etmişdir.

Ümumiyyətlə, dünyanın ən romantik və tragik istiqlalı Azərbaycan istiqlalı olub və dünyada istiqlalın ən romantik şeirini də həmişə türk şairləri yaradıblar. Milli istiqlal rəmzini həm şeirində, həm də sinəsində gəzdirən çağdaş şair Bəxtiyar Vahabzadə də bu ənənənin layiqli davamçılarından idi.







**LÜTFİ RƏHİM OĞLU ƏLƏSKƏRZADƏ**

**(04.02.1921)**

Gələn il zəmanəmizin ən böyük alimlərindən biri Lütfizadənin 90 yaşı tamam olacaq. Məncə, bu böyük insanın həyat və yaradıcılığı bizim hamımız üçün maraqlı və şərəflidir.

Lütfi Rəhim oğlu Ələskərzadə 1921-ci il fevral ayının 4-də Bakı şəhərində anadan olmuşdur. Onun atası Rəhim Ələskərzadə İranın Ərdəbil şəhərindən Bakıya gəlmiş və burada nəşr olunan həftəlik "İran" qəzetinin xarici müxbiri işləmişdir. Lütfizadənin anası Feyqa Molseyevna Korinman Rusiyanın Odessa şəhərindən Bakıya gəlmiş və burada uşaq həkimi işləmişdir.

Lütfizadə orta məktəbə ilk dəfə Bakıda getmiş və 1931-ci ilə kimi burada ibtidai təhsil almışdır. Sonralar o, ailəsi ilə birlikdə İrana gələrək və Tehran şəhərində amerikalıların açdıqları Alberz Kollecində təhsilini davam etdirmiş, daha sonra isə Tehran universitetini bitirərək elektrotexnika ixtisası üzrə bakalavr dərəcəsini almışdır.

1944-cü ildə o, təhsilini davam etdirmək üçün ABŞ-a gəlmiş və Massacussets texnoloji İnstitutunda təhsilini davam etdirmişdir. 1946-cı ildə Lütfizadə magistr dərəcəsini alaraq Kolumbiya Universitetində elektrotexnika sahəsində müəllimlik fəaliyyətinə başlamışdır. 1949-cu ildə o apardığı elmi tədqiqatları müdafiə edərək elmlər doktoru (Ph.D) alimlik dərəcəsini almışdır. Kolumbiya Universitetində daha 10 il işləyərək o, assistent (1950) vəzifəsində professor (1957) vəzifəsinə qədər yüksəlmişdir.

1959-cu ildə professor Lütfizadə Kolumbiya Universitetindən ABŞ-ın Kaliforniya ştatındakı Berkli Universitetinə keçmiş və burada elektrotexnika kafedrasında fəaliyyətini davam etdirmişdir. Burada o, öz tədqiqatlarını xətti sistemlər və avtomatlar nəzəriyyəsi istiqamətlərinə yönəltmişdir.

1965-ci ildə 44 yaşında olarkən Lütfizadə qeyri-səlis çoxluqlara həsr olunmuş birinci fundamental əsəri olan "Fuzzy sets" adlı məqaləsini dərc etmişdir. Çox böyük tarixi əhəmiyyətə malik olan bu əsər sonralar bütün dünyada güclü rezonans yaradan yeni elmi istiqamətlərin başlanğıcı olmuşdur. Yeni nəzəriyyə tezliklə sənayedə, iqtisadiyyatda və bir çox digər sahələrdə çox böyük əhəmiyyətə malik olan tətbiqlərini tapmışdır.

1963-cü ildə o kafedra müdiri təyin edilmiş və bu vəzifədə uzun müddət çalışmışdır. 1991-ci ildə Lütfizadə Berkli Universitetinin fəxri professoru seçilmiş və "Yumşaq hesablamalar üzrə təşəbbüs" qrupunun müdiri təyin edilmişdir.

Lütfizadə İEEE təşkilatının üzvi seçilmiş və təhsil sahəsində medalla mükafatlandırılmışdır (Education Medal). Onun əməyi müxtəlif illərdəə Riçard Xemminq adına və Centennial medallarına da layiq görülmüşdür.

Lütfizadə Milli Mühəndis və Rusiya Təbiət Elmləri Akademiyalarının həqiqi üzvüdür. 2001-ci ildə o, Azərbaycan Elmlər Akademiyasına fəxri üzv seçilmişdir. Lütfizadə yeddi fəxri doktor dərəcəsinə layiq görülmüş və aşağıdakı medallarla mükafatlandırılmışdır: the Honda Prize, the ASME Rudolf Oldenburger Medal, the Grigore Moisil Prize, the Karnpe de Feriet Medal, the Okawa Prize.



# MÜNDƏRİCAT

*Ön Söz* ........ 3

Heydər Əlirza oğlu Əliyev ........ 6
Cavanşir ........ 13
Tomris ........ 15
Babək ........ 18
Uzun Həsən ........ 22
Əcəmi Əbubəkr oğlu Naxçıvani ........ 26
Nizami Gəncəvi ........ 30
Nəsirəddin Tusi ........ 33
Məhəmməd Füzuli ........ 36
Şah İsmayil Xətai ........ 39
İmadəddin Nəsimi ........ 42
Qətran Təbrizi ........ 45
Əfzələddin Xaqani ........ 47
Qazi Bürhanəddin ........ 49
Saib Təbrizi ........ 51
Məhəmməd Bağır Xalxali ........ 53
Molla Vəli Vidadi ........ 55
Mirzə Baxış Nadim ........ 56
Mirzə Şəfi Vazeh ........ 57
Heyran Xanım ........ 60
Mirzə Nəsrullah Didə ........ 62
Molla Pənah Vaqif ........ 64
Qasım bəy Zakir ........ 66
Seyid Əzim Şirvani ........ 68
Əbdürrəhim bəy Talibov ........ 71
Cavad xan Ziyadoğlu Qacar ........ 72
İsmayil bəy Qutqaşınlı ........ 76
Səfərəli bəy Vəlibəyov ........ 77
Mirzə Fətəli Axundov ........ 80
Abbas ağa Nazir Qayibov ........ 83
Mirzə Nəsrullah Bahar Şirvani ........ 85

Nəcəf bəy Vəzirov ... 86
Mirzə Əli Möcüz ... 88
Aşıq Ələsgər ... 90
Xurşidbanu Natəvan ... 93
Firidun bəy Köçərli ... 95
Seyid Əbülqasim Nəbati ... 98
Aşıq Alı ... 99
Abbasqulu ağa Bakıxanov ... 101
Əsgər ağa Gorani ... 103
Molla Cümə ... 105
Sultan Məcid Qənizadə ... 107
Abdulla Sur ... 110
Hacı Zeynalabdin Tağıyev ... 111
Hacı Səid Əfəndi Ünsizadə ... 114
Mirzə Ələkbər Sabir ... 116
Əbdürrəhim bəy Haqverdiyev ... 118
Zeynalabdin Marağayi ... 119
Cəlil Məmmədquluzadə ... 120
Nəriman Nərimanov ... 122
Əhməd bəy Ağaoğlu ... 125
Əli bəy Hüseynzadə ... 126
Məhəmməd Hadi ... 128
Həsən bəy Zərdabi ... 130
Əzim Əzimzadə ... 133
Ömər Faiq Nemanzadə ... 136
Əli ağa Şıxlinski ... 137
Məhəmməd Tağı Sidqi Səfərov ... 140
Mirzə Əliəsgər Növrəs ... 142
Səttarxan ... 143
Həsənəli ağa Xan Qaradaği ... 146
Şeyx Məhəmməd Xiyabani ... 148
Səməd bəy Mehmandarov ... 151
Əhməd bəy Cavanşir ... 154
Fətəli xan Xoyski ... 156
Cəlal Ünsizadə ... 159
Rəşid bəy Əfəndizadə ... 161
Əlimərdan bəy Topçubaşov ... 163
Əhməd Cavad ... 166



Hüseyn xan Naxçıvanski ... 168
Hüseyn Cavid ... 171
Əziz Məmmədkərim oğlu Əliyev ... 174
Almas İldırım ... 176
Məhəmməd Əmin Rəsulzadə ... 178
Cəfər Cabbarlı ... 181
Mikayıl Müşfiq ... 184
Mir Cəlal Paşayev ... 186
Səməd Vurğun ... 190
Mirəsədulla Mirələsgər oğlu Mirqasimov ... 193
Yusif Məmmədəliyev ... 195
Üzeyir Hacıbəyov ... 198
Mustafabəy Ağabəy oğlu Topçubaşov ... 199
Həzi Əhəd oğlu Aslanov ... 201
Qara Qarayev ... 204
Fikrət Əmirov ... 207
Yusif Vəzir Çəmənzəminli ... 210
Ümnisə Süleyman qızı Musabəyova ... 212
Zərifə Əziz qızı Əliyeva ... 213
Süleyman Rəhimov ... 215
Bahadur Əsgər oğlu Eyvazov ... 217
Süleyman Rüstəm ... 218
Kərim Kərimov ... 221
Mehdi Hüseyn ... 224
Rəsul Rza ... 226
İlyas Əfəndiyev ... 228
Ziya Bünyadov ... 230
Tofiq İsmayilov ... 234
Məhəmmədhüseyn Şəhriyar ... 237
Bəxtiyar Vahabzadə ... 240
Lütfi Rəhim oğlu Ələskərzadə ... 243

**Ağarəhim Ağazahir oğlu Səmədov**

*"100 Böyük Azərbaycanlı"*

*Nəşriyyat direktoru* – **prof. Telman CƏFƏROV**

*Nəşriyyat redaktoru* – **Əliş AĞAMİRZƏYEV**

*Texniki redaktor* – **Mətanət QARAXANLI**

*Operator* – **Könül MUSTAFAYEVA**

Çapa imzalanıb: 12/11/2010.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 15.5 ç.v. Tiraj: 500. Sifariş № 101.
Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru